# MOLLA NƏSRƏDDİN LƏTİFƏLƏRİ

"ÖNDƏR NƏŞRİYYAT"
BAKI-2004

*Bu kitab "Molla Nəsrəddin lətifələri"* (*Bakı, 1956 və 1978*)
*nəşrləri əsasında təkrar nəşrə hazırlanmışdır*

Tərtib edəni və
ön sözün müəllifi: **Məmmədhüseyn Təhmasib**

Redaktoru: **Həmid Araslı**

**398.204 - dc 21**
**AZE**
**Molla Nəsrəddin lətifələri.** Bakı, "Öndər nəşriyyat", 2004, 304 səh.

Uyğur elindən Serbiyayadək böyük bir ərazidə geniş şöhrət tapmış, duzlu-məzəli hekayətləri, tutarlı cavabları el məsəllərinə çevrilmiş, xalqın rəğbət və məhəbbətini qazanmış Molla Nəsrəddin xalq müdrikliyinin timsalıdır. O nə coğrafi sərhəd tanıyır, nə zaman sərhədi. O həmişə yaşarıdır.

Molla Nəsrəddin lətifələri dövrün haqsızlıqlarına, yalançı din xadimlərinin, dövlət adamlarının, hakimlərin rüşvətxorluğuna, ədalətsizliyinə qarşı çevrilmiş bir ittihamnamədir. O yerdə ki xalq öz etirazını, narazılığını, qəzəbini gülüşlə, kinayəylə, rişxəndlə ifadə etmək istəyir, o yerdə mütləq Molla Nəsrəddin zahir olur.

**ISBN 9952-416-12-0**

© "ÖNDƏR NƏŞRİYYAT", 2004

Azərbaycan Respublikasının Prezidenti
İLHAM ƏLİYEVİN
**“Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında”**
12 yanvar 2004-cü il tarixli sərəncamı ilə nəşr olunur və ölkə kitabxanalarına hədiyyə edilir

## ÖN SÖZ

Azərbaycan şifahi xalq ədəbiyyatının ən çox sevilən, buna görə də ən çox yayılmış zəngin janrlarından biri lətifədir. Həyatın müxtəlif sahələrini müşahidə və sınaqdan doğan nəticələrin bədii ümumiləşməsindən ibarət olan bu ibrətamiz xalq inciləri adları bizə məlum olmayan saysız-hesabsız sənətkarlar tərəfindən yaradılır, ağızlara düşür, işlənir, cilalanır, mükəmməlləşir və həqiqi kollektiv yaradıcılıq məhsuluna çevrilir.

Folklorşünaslar, bir qayda olaraq, lətifələri, ümumiyyətlə, nağılların bir sahəsi hesab edir, hətta nağıl təsnifatında lətifəyə xüsusi yer də verirlər. Lakin, ümumiyyətlə, lətifə bəzi xüsusiyyətlərinə görə nağıl janrına yaxın olsa da, özünün ən əsas əlamətinə görə ondan fərqlənir. Nağıl xüsusi nağılçılar tərəfindən bir əsər kimi danışıldığı halda, lətifə kiminsə başına gələn bir əhvalat kimi, hətta çox zaman el içində şöhrət qazanmış tarixi və yaxud mifik şəxsiyyətlərin adı ilə bağlı real hadisələr kimi danışılır. Belə tarixi və yaxud mifik şəxsiyyətlər, başqa şəkildə deyilsə belə, "lətifə qəhrəmanları" çox zaman hər xalqın özünə məxsus olur. Başqa sözlə, bir xalqda çox şöhrət qazanmış belə "lətifə qəhrəmanları" başqa xalqlarda bəzən hətta heç tanınmır da. Bəzən hətta kiçik bir ölkənin ayrı-ayrı rayonlarında da belə qəhrəmanlar və bunların adları ilə bağlı yüzlərlə çox maraqlı lətifələr olur. Azərbaycanda, misal üçün, tək bir XX əsrdə Salyan ətrafının özünə məxsus Mirzə Bağısı, Gəncəbasarın özünə məxsus Əli Cabbarı, Naxçıvanın Molla Tanrıverdi oğlu Hüseyni və b. olmuşdur ki, bunların da hər birinin adı ilə bağlı yüzlərlə lətifə bu gün də xalq içərisində yaşamaqdadır.

Azərbaycanda, bunlardan başqa, bir də heç bir adla bağlı olmayan ənənəvi "bir nəfər"in başına gəlmiş hadisə kimi danışılan saysız-hesabsız ümumi lətifələr vardır ki, istər birincilər, istərsə də ikincilər XX əsrin əvvəllərində toplanmış, hətta "Dilgüşa", "Məclis yaraşığı" və s. adlarda kitab şəklində nəşr edilmiş, qəzet və jurnal səhifələrində çap olunmuş, indi də həvəskarlar tərəfindən toplanılır. Bu "ümumi" və "məhəlli" lətifələrdən başqa, bizdə bir də el arasında çox şöhrətlənmiş iki şəxsiyyətin adı ilə bağlı lətifələr vardır ki, bunlardan biri bəzən ərəb xəlifəsi Harun-ər-Rəşidin qardaşı kimi tanınan, bəzən də

Bağdad hakimi Məmunun qardaşı hesab edilən Bəhlul, ikincisi isə məşhur Molla Nəsrəddindir.

Bəhlul bizdə Danəndə Bəhlul və Divanə Bəhlul kimi məşhurdur. Azərbaycanda Bəhluldan da məşhur lətifə qəhrəmanı bütün dünyada şöhrət tapmış Molla Nəsrəddindir. Molla Nəsrəddin lətifələri dəfələrlə Azərbaycanda toplanaraq nəşr edilmişdir.

Nəsrəddin müxtəlif xalqlarda, müxtəlif titullarla məşhurdur. O gah Xacə Nəsrəddin, gah Xoca Nəsrəddin olur, gah sadəcə Nəsrəddin, gah Xacə və ya Xoca olur. Azərbaycanda o, Molla Nəsrəddin titulu ilə şöhrətlənmişdir. Lakin nə Xoca, nə Xacə, nə də Molla adlandırılması onun din xadimi olmasından irəli gəlməmişdir.

Molla Nəsrəddinin tarixi şəxsiyyət olub-olmaması, tarixi şəxsiyyətdirsə, nə zaman yaşadığı, hansı xalqa mənsub olduğu, beləliklə də bu lətifələrin ilk dəfə harada, hansı xalq içərisində yaranmış olması məsələsi haqqında indiyə qədər az ehtimallar irəli sürülməmişdir.

Ümumiyyətlə, Molla Nəsrəddinin tarixi prototipinin XIII əsrlə bağlı olduğunu göstərən bir sıra əlamətlər, dəlillər vardır ki, bunları vaxtı ilə V.A.Qordlevski sadalamış və öz mülahizələrinə, təxminən, belə bir yekun vurmuşdur: lətifələrdə rast gəlinən şəxsi adlar haqqındakı mülahizələr o qədər mötəbər olmasa da, sənədli məlumatlar Xoca Nəsrəddini XIII əsrlə bağlamağa imkan verir.

Azərbaycanda bu məsələ ilə maraqlanan tədqiqatçılar da XIII əsri əsas qəbul etmiş və Mollanın prototipini daha da dəqiqləşdirmək sahəsində bəzi maraqlı araşdırmalar aparmışlar ki, bu barədə qısaca məlumat vermək pis olmaz.

Bu araşdırmalar belə bir ehtimalın meydana gəlməsinə səbəb olmuşdur ki, guya Molla Nəsrəddin, yaxud Xoca Nəsrəddinin prototipi XIII əsrin görkəmli Azərbaycan alimi Xacə Nəsirəddin Tusidir. Bu ehtimalı yaradan dəlillər, hələlik lazımi qədər əsaslandırılmış olmasa da, aşağıdakılardır:

a) M.A.Sultanovun verdiyi məlumata görə, bir sıra qədim əlyazma və daş çapı, lətifə və məzhəkə kitablarında Molla Nəsrəddin adına Nəsirəddin, hətta "Lətiaf və zəraif"in 12-ci səhifəsində doğrudan-doğruya Nəsirəddin Tusi şəklində təsadüf edilir.

b) M.A.Sultanova görə, Nəsirəddin Tusinin daşıdığı Xacə titulu Xacə, Xoca Nəsrəddinlərdə yaşadığı kimi, Azərbaycanda onun daşıdığı Molla titulu da yenə Tusinin daşımış olduğu "Mövlana"nın təhrifə uğramış formasıdır.

c) Tusinin "Əxlaqi-Nasiri" əsərində bir sıra lətifələr vardır ki, bunlar onun bir lətifə müəllifi, yaxud lətifə qəhrəmanı kimi şöhrətlənməsinə səbəb ola bilərdi və s.

Doğrudan da, Tusinin bütün Şərq aləmində tanınmış bir alim olması, eləcə də V.A.Qordlevskiyə Molla Nəsrəddini XIII əsrlə bağlamağa əsas verən dəlillərin Tusinin yaşamış olduğu illərə tam uyğun gəlməsi bu ehtimalı daha da qüvvətləndirir.

Məlum olduğu kimi, oxuculara təqdim etdiyimiz bu kitabda da astronomiya, astrologiya, ulduzlu səma, kompas, kainatın quruluşu və s. ilə əlaqədar çoxlu lətifə vardır. Maraqlıdır ki, belə lətifələrdə astrologiya xüsusilə məsxərəyə qoyulur. İstər-istəməz adama elə gəlir ki, bu lətifələri yaradan adam, yaxud adamlar astronomiya ilə müəyyən dərəcədə əlaqədar olmuşlar. Bunları yaratmaqda məqsəd isə fırıldaqçı münəccimləri və onlara inanan hökmdarları satira atəşinə tutmaqdan ibarət olmuşdur.

Bundan başqa, bəzi lətifələr doğrudan-doğruya Tusinin həyatında baş vermiş hadisələrlə səsləşir. Məlumdur ki, Mollanın nümayəndə sifəti ilə saraya göndərilməsindən bəhs edən bir sıra lətifələr vardır. Bu lətifələrdən birinə görə, Molla elə bu görüşdə hökmdarın xoşuna gəlməmişdir.

Nəhayət, Mollanın belə bir lətifəsi də vardır: Molla özünə möhür qayırtdırmaq istəyir. Möhür qayıran usta hər hərf üçün müəyyən miqdar pul tələb edir. Molla xərci az olmaq üçün adını elə deyir ki, ərəb əlifbası ilə yazıldıqda iki hərfdən – "x" və "s"-dən ibarətdir. Usta yazır. "X"-nin nöqtəsini qoymaq istədikdə Molla xahiş edir ki, onu bir az sona doğru, yəni "s" hərfinin çanağının üstünə qoysun. Bu şəkildə yazılmış ad "Həsən" oxunur. Buradan anlaşılır ki, Molla Nəsrəddinin özü üçün qayırtdırdığı möhürdə "Həsən" adı var imiş. Məlum olduğu kimi, Nəsirəddin Tusinin də əsil adı Məhəmməd ibn Məhəmməd ibn Həsəndir.

Molla Nəsrəddin lətifələrində süründürməçi məhkəmə sistemi, yalançı din xadimləri kəskin şəkildə satira atəşinə tutulur, məsxərəyə qoyulur.

Mollanın qazılara və onların "ədalət" məhkəmələrinə münasibəti lətifələrdə xüsusilə maraqlı verilmişdir. Bəzən qazı Mollanı ələ salmaq, təhqir etmək məqsədi ilə onu qəsdən məhkəməyə çağırır. Belə hallarda Molla çox məharətlə işin içindən çıxaraq qazının özünü gülünc vəziyyətə qoyur. Bəzən qazı doğrudan-doğruya həll edə bilmədiyi çətin məsələləri ona tapşırır. Belə hallarda Molla ciddiləşir,

"Heç nəyini götür get", "Mollanın hökmü", "Mollanın bölgüsü" lətifələrində olduğu kimi, məsələni böyük bir cəsarətlə, özü də mütləq yoxsulun xeyrinə həll edir.

Yüzlərlə rəngarəng lətifələrdə ikiüzlülük, yaltaqlıq, yalançılıq, xəsislik, acgözlük, nadanlıq, avamlıq, cahillik, mövhumat, xurafat və s. satira atəşinə tutulur.

Molla hətta təlim-tərbiyə məsələlərinə də toxunur. Bir tərəfdən, uşağa qabaqcadan şillə vurub, sonra da suya göndərmək şəklində tərbiyə etmək üsullarını məsxərəyə qoyursa, digər tərəfdən, "Xəmrə məsələsi"ndə o, ciddiləşir, "Məsələ xəmrənin yoğurulmasında deyil, ayaqlanmasındadır" – deyir.

Molla Nəsrəddin Azərbaycanda ən çox sevilən lətifə qəhrəmanıdır. Xalq içərisində gəzən ən gözəl lətifələr, ən məzəli, duzlu məzhəkələr, ən kəskin, tutarlı cavablar həmişə onun adı ilə bağlıdır. Bunlardan başqa, xalq içərisində maraqlı bir ənənə də vardır. Mollanın adını çəkən adam mütləq yeddi lətifə deməlidir. Qulaq asanların da hər biri öz növbəsində yeddi lətifə danışmalıdır. Uzun zamanlardan bəri davam edərək gələn bu adət bu gün də yaşamaqda və Molla Nəsrəddinin adı ilə bağlı olan lətifələri daha da zənginləşdirməkdədir.

***Məmmədhüseyn Təhmasib***



## QUYRUĞU DA YANINDA

İllərin birində Molla Nəsrəddinin bostanı hamıdan qabaq və çox yaxşı məhsul verir. Molla fikirləşir ki, bir eşşək yükü xiyar götürüb Teymur Ləngə aparsın, bəlkə işdi, rəhmə gəldi, bir yaxşı hədiyyə verdi.

Səhər tezdən durub xiyarı dərir, eşşəyə yükləyib, şəhərə tərəf yola düşür. Bu tərəfdən də Teymur Ləng təkbaşına, atla haraya isə gedirmiş. Yolda bunlar rastlaşırlar.

Teymur Molladan soruşur:

– A kişi, bu nədir belə? Haraya aparırsan?

Molla deyir:

– Təzə xiyardı. Teymur Ləngə nübar aparıram.

Teymur Molla Nəsrəddini hələ tanımırmış. Görür ki, bu kişi də onun Teymur olduğunu bilmir. Deyir:

– A kişi, sən Teymurla dost deyilsən, tanış deyilsən, tay deyilsiz, tuş deyilsiz. Sənə nə düşüb ki, onun belə qeydinə qalırsan?

Molla gülüb deyir:

– Mən elə bilirdim ki, dünyada ağılsız bircə mənəm, amma indi görürəm ki, sən məndən də ağılsız imişsən?

Söz Teymura toxunur, ancaq özünü tanıtmamaq üçün üzə vurmayıb soruşur:

– Yaxşı sən mənim ağılsız olduğumu nədən bildin?

Molla deyir:

– Ondan bildim ki, bu yaşa çatmısan, hələ də məni tanımırsan. Bilmirsən ki, mən Molla Nəsrəddinəm. Molla Nəsrəddin də ki, Teymur Ləng kimilərin qeydinə qalmaz.

Teymur deyir:

– Yaxşı, indi ki, sən Molla Nəsrəddinsən, özün də Teymurun qeydinə qalan deyilsən, bəs bu nübarı niyə aparırsan?

Molla deyir:

– Aparıram ki, birtəhər boş damarını tutub bir az hədiyyədən-zaddan alam, külfətimi dolandıram.

Teymur deyir:

– Yaxşı, sən nədən bilirsən ki, Teymur sənə hədiyyə verəcək?

Molla deyir:

– Əvvələn, eşitdiyimə görə o çox da dərin ağıllı adam deyil. Balaca ki, qoltuğunun altına verdin, sonra lap noxtalayıb minəsən də başa düşməz. Sonra da ki, verməz deyəndə dədəsinin malını vermir ki? Camaatın malıdır da...

Teymur yaman qəzəblənir. Amma hələ bir söz demir. Soruşur ki:

– Yaxşı, indi bu bir yük xiyar üçün sən Teymurdan nə hədiyyə gözləyirsən?

Molla deyir:

– Nə bilim? Baxtım yar olsa, bir əllidən-yüzdən qulağını kəsmək fikrindəyəm.

Teymur deyir:

– Yox aşna, iştahan çox böyükdür. İnanmıram bu qədər verə.

Molla deyir:

– Canı cəhənnəm, verməsin. Bir otuzdan-qırxdan alaram ki...

Teymur deyir:

– Yox, o da çox oldu.

Molla deyir:

– Yaxşı, olsun iyirmi-iyirmi beş. Donuzdan bir tük də çəksən qənimətdir.

Teymur hirslənib deyir:

– Əgər heç nə verməsə?

Molla deyir:

– Eşşəyimin quyruğunu kəsib qoyaram ölüb-ölüsünün goruna.

Teymur heç bir söz deməyib, atını sürüb gedir. Molla da yoluna davam eləyir.

Teymur bir kəsə yol ilə tez şəhərə qayıdır. Bir azdan sonra Molla da gəlib çıxır. Teymur üzünə bir niqab salıb Mollanı yanına çağırtdırır. Xiyarlara baxır, sonra soruşur:

– Yaxşı, indi bu nübar üçün məndən nə istəyirsən?

Molla deyir:

– Nə istəyəcəyəm, qibleyi-aləm sağ olsun! Heç nə. Elə bir əllidən-yüzdən versəniz, külfətimi dolandıraram.

Teymur deyir:

– Yox, bu çox böyük oldu.

Molla deyir:

– Çox böyük oldu, qoy olsun otuz-qırx.
Teymur deyir:
– Yox, o da çox oldu.
Teymurun səsindən Molla tanıyır ki, bu, yolda past gəlib söhbət elədiyi adamdı. Ancaq görür ki, iş-işdən keçib. Odur ki, heç özünü itirməyib deyir:
– Yaxşı, qoy olsun iyirmi-iyirmi beş. O da qənimətdir.
Teymur niqabını qaldırır ki:
– Əgər heç nə verməsəm...
Molla deyir:
– Mən yolda dedim ki, Molla Nəsrəddinəm, qibleyi-aləm! Dediyimdən dönmərəm. Əgər iyirmi-iyirmi beşi də verməsən... qara eşşək dayanıb qapıda, quyruğu da yanında.

## GÖYƏ NİYƏ DIRMAŞMISAN?

Molla Nəsrəddinin Teymur Lənglə ilk görüşü haqqında belə bir rəvayət də vardır:
Teymur Mollanı saraya çağırtdırır. Molla içəriyə girib görür ki, otaq adamla doludur. Amma hamı dövrə vurub yerdə oturub, təkcə Teymur əyləşib uca bir taxtın üstündə. Tez baş əyib deyir:
– Salam əleyküm, ya Allah!
Teymur deyir:
– Mən Allah deyiləm, ay kişi! Mən...
Molla onun sözünü ağzında qoyub deyir:
– Qurban olum sənə, ya cənab Cəbrayıl!
Teymur deyir:
– A kişi, nə danışırsan? Mən niyə Cəbrayıl oluram?
Molla deyir:
– Başa düşmürəm. İndi ki, nə Allahsan, nə də mələk düş, adam kimi otur adamların içində də, daha göyə niyə dırmaşmısan?

## BEŞ YÜZ PUT GÖRƏR DƏ...

Molla Nəsrəddinin balaca bir əkin yeri var imiş. O, hər il bu yerdə buğda əkər, əlli-altmış put məhsul götürüb, külfətini dolandırarmış.

Teymur Ləng hakimiyyət başına keçəndən sonra vergilər birə-beş artır. Kəndxudalar istədiklərini eləyib, camaatın başına oyun açırlar. Növbə Mollaya da gəlib çatır, kəndxuda tutur yaxasından ki:

– Sənin bu il beş yüz put taxılın olub. Gərək o haqq-hesabdan da vergi verəsən.

– Canım, vallah, mənim vur-tut əlli put taxılım olub...

Kəndxuda dediyindən əl çəkmir. Axırda Molla əlacsız qalıb şəhərə, Teymurun yanına şikayətə gedir.

Teymur Mollanın şikayətinə qulaq asandan sonra qışqırır ki:

– Utanmırsan, bu bir arşın saqqal ilə yalan danışırsan?

Molla heç bir söz deməyib qalxır, qapıya tərəf yönəlir ki, çıxıb getsin, Teymur soruşur:

– Nə oldu? Haraya getdin?

Molla deyir:

– Kəndxudada günah yox imiş, qibleyi-aləm! Padşah mənim bir tutam saqqalımı bir arşın görəndə onun kəndxudası da əlli put taxılımı beş yüz put görər də...

## GÖR BƏDSUYUM KİMDİ?

Molla Nəsrəddinlə Teymur Ləngin birinci görüşlərini belə də danışırlar:

Molla sir-sifətdən bir az kifir imiş. Günlərin birində səhər tezdən Teymur öz adamları ilə şikara gedirmiş. Yolda Molla Nəsrəddin bunların qabağına çıxır. Teymur onu görən kimi qəzəblənib deyir:

– Bu adamın çox pis bədsuyum sir-sifəti var. Səhər tezdən ki, qabağımıza çıxdı, şikarımız yaxşı olmayacaq. Tutun bunu, basın dama!

Yazıq Mollanı o saat tutub göndərirlər zindana. Təsadüfən o gün Teymurun şikarı çox yaxşı keçir. Qayıdanda Mollanı zindandan çıxartdırıb yanına gətirtdirir. Deyir:

– Kişi, mən fikirləşdim ki, bu bədsuyum sir-sifətlə ki, sən bizə rast gəldin, şikarımız yaxşı keçməyəcək. Amma, əksinə, çox yaxşı keçdi. Odu ki, rəhm eləyib səni azad eləyirəm.

Molla deyir:

– Məni heç bir günahım olmadığı halda tutmuşdunuz, indi də azad eləyirsiniz... Sağ olun! Mərhəmətiniz artıq olsun! Ancaq xahiş eləyirəm mənim bircə sualıma cavab verəsiniz.

Teymur deyir:

– Ver sualını!

Molla deyir:

– Siz səhər məni pis adam, bədsuyum adam hesab eləyib zindana saldırdınız. Halbuki elə mənə rast gəldiyinizə görə işiniz də rast gətirdi. Şikarınız həmişəkindən yaxşı keçdi.

Mən də səhər tezdən gedirdim ki, bir çörək pulu qazanam, bu gün külfətimi dolandıram. Sizə rast gəldiyim üçün işim tutmadı. Zindana salındım. Mən orada ac qaldım, külfətim də evdə. İndi özünüz insafla deyin! Mən bədsuyum adamam, ya siz?

## ƏNCİR NÜBARI

Mollanın həyətində bir əncir ağacı var imiş. Günlərin birində ağac çox gözəl bar verir. Molla fikirləşir ki, əncirdən padşaha nübar aparsın.

Səhər tezdən qalxır, əncirdən bir qab dərib, kamal-səliqə ilə padşaha aparır.

Fərraşlar Mollanı içəriyə buraxmırlar. Ənciri özləri alıb aparırlar.

Molla sarayın qapısında əyləşib gözləməkdə olsun, bu tərəfdən də bir dəstə fərraş bir neçə dustaq gətirir. Qapıda dustaqları təhvil verəndə görür ki, biri əskikdir. Demə, fərraşların kahallığından yolda dustaqların biri əkilibmiş. Üzlərinə söz gəlməsin deyə fərraşlar qapıda oturmuş Mollanı da tutub dustaq adına təhvil verirlər. Yazıq Molla nə qədər qışqırır, yalvarırsa bir şey çıxmır. Kişini döy-sındır aparıb qatırlar zindana. Əncirin mükafatı zindan olur.

Günlər keçir, həftələr dolanır, aylar başa çatır. Molla qalır zindanda. Günlərin birində, necə olursa, Teymur Ləng zindana gəlir. Mollanın nə üçün tutulmuş olduğunu soruşur. Molla əhvalatı danışır. Teymur əmr eləyir ki, Mollanı azad eləsinlər. Sonra soruşur:

– Sənin əncirin də mənim çox xoşuma gəlmişdi. De görüm məndən nə istəyirsən?

Molla deyir:

– Qibleyi-aləm mən o əncir üçün sizdən o qədər görmüşəm ki,daha başqa mükafat istəməyə üzüm gəlmir. Xahiş eləyirəm, əmr eləyəsiniz mənə bircə dənə iti balta versinlər.

Teymur soruşur:
– Baltanı nə eləyirsən?
Molla deyir:
– Heç zad. Əlimdən bircə bu gəlir ki, o əncir ağacını dibindən kəsim.

## DALI BUNDAN DA PİS GƏLƏCƏK

Biz dedik ki, Molla Nəsrəddinin Teymur Lənglə birinci görüşünü müxtəlif şəkillərdə danışırlar. Bunlardan biri də belədir:

Teymur Mollanın haqqında çox eşidibmiş. Özünün ondan daha ağıllı, daha hazırcavab olduğunu öz əyanlarına göstərmək üçün bir gün Mollanı yanına çağırtdırır.

Mollanı saraya gətirirlər. Teymur qəsdən onu uzun müddət qapıda gözlətdikdən sonra qəbul edir.

Molla da Teymuru hələ heç görməmiş imiş. Onun çolaq olduğunu da bilmirmiş. İçəriyə girib görür ki, Teymur bir qıçını da qabağa uzadıb oturub. O da gəlib Teymurun qabağında əyləşir, bir qıçını da onun kimi qabağa uzadır. Mollanın bu hərəkəti Teymura yaman toxunur. Elə zənn eləyir ki, Molla onun çolaqlığını üzə vurmaq istəyir. Fikrində tutur ki, Mollanı təhqir eləsin. Bir az ordan-burdan danışandan sonra deyir:

– Mən sənin haqqında çox eşitmişdim. Elə bilirdim ki, sən doğrudan da ağıllı bir adamsan. Amma səhərdən söhbət eləyə-eləyə ha fikir verirəm, tapa bilmirəm ki, məsələn, uzunqulaq bir eşşəklə sənin aranda nə təfavüt var?

Molla heç özünü pozmadan deyir:

– Siz haqlısınız, qibleyi- aləm. Bu saat doğrudan da uzunqulaq bir eşşəklə mənim aramda çox böyük məsafə yoxdur.

Sonra Teymurla öz arasındakı məsafəni göstərib əlavə eləyir:

– Olsa-olsa, bu saat eşşəklə mənim aramda ikicə arşınlıq bir məsafə var.

Teymur qıpqırmızı qızarır. Ancaq heç bir söz deyə bilmir. Əmr eləyir xörək gətirirlər. Bir az yedikdən sonra Teymur ağzını Mollanın lap burnunun qabağına tutub bərkdən gəyirir. Molla başını qaldırıb, Teymurun bu ədəbsizliyinə heyran-heyran baxır. Teymur sevinir ki, Mollanı üstələyib. Tez deyir:

– Nuşcan de, Molla! Bizim yerlərdə gəyirmək doymaq əlamətidir.

Molla ona "nuşcan" deyir, sonra ağzını xörəklə doldurub, qəsdən Teymurun üzünə bərkdən bir səbr gətirir. Teymurun üz-gözü tüpürcək altında qalır. Qəzəblə qalxır ayağa ki:

– Sən nə ədəbsiz adamsan!

Molla əhvalını pozmadan deyir:

– "Allaha şükür" de, qibleyi-aləm! Bizim yerlərdə səbr gətirəndə qulaq asanlar "Allaha şükür" deyərlər. Əgər sən də Allahına şükür eləməsən, dalı bundan da pis gələcək.

## DİŞİSİ DƏ GƏLİR

Teymur Ləng ordusunda olan filləri bəsləmək üçün hər il onları kəndlər arasında bölərdi. Bu fillər kəndlərdə əkin-tikin qoymayıb, hamısını veyl-viran elərdilər. Günlərin birində bunlardan birini də Mollanın yaşadığı kəndə göndərirlər. Fil bir neçə günün içərisində kəndi əldən-dildən salır. Axırda kəndin varlıları yığılıb məsləhət-məşvərət eləyirlər ki, gedib Teymur Ləngə yalvarıb yapışsınlar, bəlkə bu bəlanı onların başından rəf eliyə. Kim getsin, kim getsin?.. Heç kəs cəsarət eləmir. Molla Nəsrəddinə yalvarırlar ki:

– Gərək bu işi sən eliyəsən.

Molla getmək istəmirsə də, əl çəkmirlər. Axır çox götür-qoydan sonra belə razılaşırlar ki, bir yerdə getsinlər. Bəli, hamısı bir yerdə düzəlirlər yola. Gəlhagəl, gəlhagəl gəlib çatırlar şəhərə. Bir çox yalvar-yapışdan sonra bunları buraxırlar saraya. Molla görür ki, Teymurun yanında bir neçə başqa adam da var. Dinməz-söyləməz bir tərəfdə oturub növbə gözləyir.

Teymur Ləng başlayır adamların şikayətlərinə baxmağa. Görürlər ki, Teymur Ləng özünə zərərli söz danışan şikayətçilərin hamısının zindana salınmasını əmr edir. Molla ilə gələnlər işi belə görüb, bir-bir durub əkilirlər. Molla bir də ayılır ki, içəridə tək qalıb. O da yavaşca durub əkilmək istəyəndə Teymur səslənir:

– A kişi, hara gedirsən, nə sözün var idi?

Molla onu tək qoyub qaçan varlıların dalınca baxıb Teymura deyir:

– Qibleyi-aləm sağ olsun, biz sənin kəndli nökərlərindənik. Sənin sayəndə dolanıb həmişə sənə dua eləyirik. Bu il sən öz gözəl, qana-

caqlı və rəhimli fillərindən birini bizim kəndə qonaq göndəribsən. Həqiqətən, fil çox yaxşı tərbiyə görüb. Lap sahibi kimi qanacaqlı bir heyvandır. Elə bizim əkin-biçin işlərimizə də çox xeyri dəyir. Çox razıyıq. Ancaq yazıq kənddə təkdir deyə, çox fikir çəkir. Gecələr səhərə qədər yatmır. Camaat məni göndərib səndən xahiş eləyim ki, əgər mümkün olsa, bir fil də göndərəsən ki, ona qulaq yoldaşı ola, bəlkə darıxmaya.

Mollanın sözləri Teymurun xoşuna gəlir, əmr eləyir ki, kəndə bir dənə də dişi fil göndərsinlər. Molla Teymurun yanından çıxan kimi, onu içəridə tək qoyub qaçan "dostları" yığılırlar başına ki:

– Molla nə oldu? Bir iş görə bildin, ya yox?

Molla bir əyri-əyri onlara baxıb deyir:

– Görmüşəm, özü də çox yekə iş görmüşəm. Dar ayaqda adama sizin kimi arxa duran "dostlar" üçün özünü lap ölümə vermək də azdır. Gözünüz aydın olsun, sabah filin dişisi də gəlir.

## BU BOYDA, O BOYDA

Molla Nəsrəddin kənddən şəhərə köçdükdən sonra bir neçə il onun-bunun evində kirayənişin qalır. Axırı ki, bir təhər borc-xərc pul düzəldib, özünə balaca bir ev, yanında da lap balaca bir mətbəx tikdirir. Əhvalatı Teymur Ləngə xəbər verirlər. Teymur Mollanı ələ salmaq məqsədi ilə bir gün saray adamlarını da götürüb, onun evinə gəlir. Ora-bura baxandan sonra deyir:

– Evin yaxşıdır. Lap özünə layiqdir. Amma mətbəxin heç xoşuma gəlmədi. Bu balacalıqda da mətbəx olar? Burada iki siçan oynasa, biri tələyə düşər ki...

Molla deyir:

– Mənim mətbəximin belə balaca olmağı, Sizə olan məhəbbətimin böyüklüyünü göstərir.

Teymur soruşur:

– Bu niyə belə olur? Başa düşmədim.

Molla deyir:

– Niyə başa düşmürsən? Bizim kimi adamların mətbəxi böyük olsa, sizin kimilərin sarayı o boyda olmaz ki!..

## DEYƏSƏN PADŞAHI İSTƏYİR

Deyirlər ki, Teymur Ləng bir müddət Molla Nəsrəddini öz sarayında saxlamışdır. Həmən günlərin birində hansı xarici ölkədənsə Teymurun sarayına bir elçi gəlir. Teymur Ləng şikarda olduğu üçün vəzir elçiyə xüsusi dairə ayırıb tapşırır ki, ona lazımınca hörmət eləsinlər. Aşpaz elçiyə hər gün kəklik, turac, qırqovul ətindən xörəklər hazırlayır. Bir gün, beş gün, axırda elçi quş əti yeməkdən yorulur. Könlünə mal əti düşür.Aşpazı çağırıb öz dillərində nə qədər deyirsə, başa sala bilmir. Xəbər gedib vəzirə çatır. Vəzir Molla Nəsrəddini çağırır ki:

– Molla, yenə də bizim hamımızdan sən yaxşısan. Get gör, o qonaq nə istəyir?

Molla elçinin yanına gəlib, işarə ilə nə istədiyini soruşur.

Elçi başlayır danışmağa. Ancaq nə qədər deyirsə, Molla da bir şey başa düşmür. Axırda elçi əllərini buynuz kimi tutaraq gicgahlarına dayayır, özü də öküz kimi böyürür. Molla heç bir söz deməyib bir baş vəzirin yanına gəlir. Vəzir soruşur:

– Hə, nə oldu? Qonaq nə istəyir?

Molla deyir:

– Vallah, qonağın sözlərindən bir şey başa düşmədim. Amma axırda əllərini elə tutdu, elə səs çıxartdı ki, mən anladığım, deyəsən, padşah həzrətlərini istəyir.

## BİR DƏ BİR AĞILLI PADŞAH

Deyirlər ki, Teymur Ləngin hakimiyyəti illərində bir şəhərdə böyük bir iğtişaş qalxır. Əhali şəhərin hakimini, fərraşlarını tutub zindana salır. Teymur Ləng o qədər hirslənir ki, özü böyük bir ordu götürüb şəhər əhalisinə cəza verməyə gedir. Ancaq əhali şəhər qapılarını bağlayıb müharibəyə başlayır. Teymur nə qədər əlləşirsə, şəhərə girə bilmir. Bir neçə dəfə hücum eləyirsə də, ancaq öz qoşununu qırdırır. Axırda qasidi yanına çağırır ki:

– Hazırlaş, bir məktub yazım, apar ver vəzirə! Gərək bu həftənin içində bu şəhərin məsələsini qurtaram.

Sonra kağız- qələm götürüb yazır, yazır, axırda üzünü yanındakı adamlarına tutub deyir:

– Yazdım ki, tez bir dəstə atlı, bir dəstə piyada, bir dəstə oxatan, bir dəstə mancanaqçı göndərsinlər. Deyin görüm, daha nə lazımdır ki, şəhərin əncamını çəkək?

Molla Nəsrəddin də bu məclisdə imiş. Teymur Ləng onu da özü ilə aparmış imiş.

Molla deyir:

– Bu şəhərin əncamını çəkmək üçün o yazdığınız şeylərin heç biri lazım deyil. Siz yazın ki, bircə dənə ağıllı padşah göndərsinlər. Belə bir padşah tapılsa, davasız-şavasız hər şey düzələr.

## QORXULU DİLƏNÇİ

Teymur Ləng Molla Nəsrəddinə əmr eləyir ki:

– Şəhər dolub dilənçi ilə. Özləri də elə üzlü, elə həyasız olublar ki, tutduqlarını buraxmırlar. Kağız-qələm götürüb lap o həyasızlarının siyahısını tutarsan, şəhərdən sürgün eləyəcəyəm.

Molla kağız-qələm götürüb, Teymurun öz adını birinci yazır, özünə verir. Teymur kağıza baxan kimi dəli olur. Molla deyir:

– Niyə hirslənirsən, qibleyi-aləm! Özün dedin ki, lap həyasız dilənçilərin adını yazıb sənə verim. Mən də yazdım də...

Teymur deyir:

– A kişi, mən boyda Teymur Ləng dilənçiyəm? Özü də lap həyasızı?

Molla deyir:

– Niyə hirslənirsən, qibleyi-aləm!? Cidanı çuvalda gizlətmək olmaz. Dilənçisən, özü də lap həyasızından.

Teymur deyir:

– Demək, sənin fikrincə, gərək mən şəhərdən sürgün olunam?

Molla deyir:

– Bəli, qibleyi-aləm! O biri dilənçilər sənin kimi qorxulu deyillər. Onlar camaatdan yalvarıb-yaxarıb alırlar. Amma sən döyüb-söyüb alırsan.

## TEYMUR LƏNGSƏN Kİ, VARSAN

Günün birində Teymur Ləng Mollaya deyir:

– Molla, bugün keyfim çox sazdı. Sənə bir şey bağışlamaq istəyirəm. Amma bilmirəm nə bağışlayam ki, öz ürəyindən olsun.

Molla deyir:

– Qibleyi-aləm sağ olsun elə sən hər nə bağışlasan mənim ürəyimdən olar.

Teymur deyir:

– Onda qoy mən bir-bir sayım, sən özün seç! Ya on qızıl, ya bir at, ya bir sürü qoyun, ya da bir bağ. Hansını istəyirsən?

Molla deyir:

– Əgər mənim ürəyimi soruşursansa, mən istəyirəm sən sübut eləyəsən ki, doğrudan da ədalətli bir şahsan.

Teymur deyir:

– Necə?

Molla deyir:

– Əgər mən on qızılı cibimə qoyub ata minsəm, qoyunları qabağıma salıb bağa getsəm sən sübut eləmiş olarsan ki, ədalətli şahsan.

Teymur deyir:

– İştahan pis deyil. Əgər heç birisini verməsəm?

Molla deyir:

– Heç bir şey. Sübut eləmiş olarsan ki, elə Teymur Ləngsən ki, varsan.

## MİN ÇUBUQ

Bir gün Teymur Ləng kimə isə qəzəblənib Mollaya əmr eləyir ki:

– Bu saat buna yüz çubuq vur!

Molla gülür. Teymur daha da qəzəblənib qışqırır:

– Nəyə gülürsən? Əmrimə əməl elə! Bu saat buna beş yüz çubuq vur!

Molla lap ucadan gülür. Teymur cin atına minir. Qışqırır ki:

– İndi ki, belə oldu, gərək bu saat buna min çubuq vurasan.

Molla qəh-qəh çəkib gülür. Teymur dəli kimi yerindən qalxır ki:

– Mənə gülürsən?

Molla deyir:

– Xeyr, qibleyi-aləm! Mənim həddim nədi sənə güləm. Mən Allaha gülürəm ki, necə olub da sənin kimi çubuq dadı bilməyən, haqq-hesabdan başı çıxmayan bir adamı padşah eləyib. Yoxsa bir adama da min çubuq vurarlar?

## TEYMURUN SUALI

Teymur Ləng bir gün Mollaya deyir:

– Molla, sənə bir hikmətli sual vermək istəyirəm. De görüm, o nədi ki, bu dünyada nə yetişib, nə yetişir, nə də yetişəcək?

Molla deyir:

– Bizi işə götürəndə sənin bizə təyin elədiyin maaş.

## SƏNİ POZARAM, ÖZÜMÜ YAZARAM

Yenə də günün birində Teymur Ləng Mollaya əmr eləyir ki, sarayda olan axmaqların siyahısını tutub ona versin. Molla Teymurun fikrini başa düşür. Bilir ki, o, adları axmaqlar siyahısına düşmüş əyanları ələ salıb oynatmaq, bununla da əylənmək istəyir. Molla bunu da başa düşür ki, sonra bu əyanların hamısı ona düşmən olacaqlar. Çox fikir-xəyaldan, götür-qoydan sonra böyük bir kağız götürüb başında yazır: "Teymur sarayındakı axmaqlar".

Varağın ortasında da iri xətlə bircə Teymurun öz adını yazıb ona verir.

Teymur axmaqlar siyahısında təkcə öz adını görcək dəli olur. Cin vurur təpəsinə. Soruşur:

– Bu nədir?

Molla deyir:

– Axmaqların siyahısıdır.

Teymur deyir:

– Demək, sənin fikrincə, bu sarayda bircə axmaq var, o da mənəm?

Molla deyir:

– Bəli, qibleyi-aləm! Səndən axmağını tapa bilmədim.

Teymur dəli kimi qışqırıb soruşur:
– Sən nə ilə sübut eləyə bilərsən ki, mən axmağam.
Molla deyir:
– Qibleyi-aləm sağ olsun! Sən özün mənə tapşırdın ki, saraydakı axmaqların siyahısını tutum. Deməli, sən özün bilirsən ki, buraya yığılan vəzir-vüzəranın, vəkil-vükəlanın hamısı olmasa da, çoxu axmaqdı. İndi ki, sən özün bunların axmaq olduqlarını bilə-bilə bu saraya yığmısan, özlərini də belə hörmət-izzətlə saxlayırsan, demək, ən böyük axmaq elə sən özünsən də...
Teymur baxır ki, Molla yaman yerdən tutub, sözünün qabağında söz deyə bilməyəcək. Bir az fikirləşib deyir:
– Yaxşı, əgər mən sənə sübut eləsəm ki, bunların heç birisi axmaq deyil, hamısı ağıllı adamlardılar, onda necə?
Molla deyir:
– Onda elə yenə də siyahıda bircə sənin adın qalacaq.
Teymur soruşur:
– Niyə?
Molla deyir:
– Ona görə ki, axmaqların siyahısını tutmağı sən mənə əmr eləmisən. Əgər sübut olunsa ki, sarayda axmaq yoxdur, olanların hamısı ağıllıdır, onda, demək, əsl axmaq sənsən ki, ağıllı adamları axmaq hesab eləyirsən.
Teymur görür yenə də tutmadı. Lap dəli olur. Deyir:
– İndi mən sübut edəcəm ki, bu sarayda bircə axmaq var, o da sənsən, onda?
Molla deyir:
– Yenə də siyahıda sənin adın qalacaq.
Teymur soruşur:
– O niyə?
Molla deyir:
– Ona görə ki, ağıllı adam axmaqların siyahısını tutmağı axmağa tapşırmaz.
Teymur deyir:
– İndi mən cəlladı çağırıb sənin o dilini dibindən kəsdirsəm necə?
Molla deyir:
– Onda siyahıdan sənin adını pozub öz adımı yazaram ki, bir də heç kəs axmaqlıq eləyib sənə sözün düzünü deməsin.

# BADIMCAN MƏSƏLƏSİ

Bir gün Molla Teymur Lənglə bir süfrədə əyləşib xörək yeyirmiş. Ortalığa badımcan boranısı gətirirlər. Teymur Mollanı sınamaq məqsədi ilə deyir:

– Dünyada mənim ən çox sevdiyim şey badımcandır.

Molla Nəsrəddin deyir:

– Mənim də, qibleyi-aləm!

Bir az keçəndən sonra Teymur deyir:

– Amma xörəyi o qədər də yeməli olmur. İllərlə badımcan xörəyi yeməsəm heç yadıma düşməz.

Molla Nəsrəddin deyir:

– Mənim də, qibleyi-aləm!

Bir azdan Teymur deyir:

– Bu badımcanı yeyəndən sonra həmişə mənim ürəyim döyünür, başım ağrıyır.

Molla Nəsrəddin deyir:

– Mənim də, qibleyi-aləm!

Teymur deyir:

– Amma burası var ki, zəhrimar çox qüvvətli, çox da mənfəətli şeydir. Yeyən kimi elə bil ki, gözlərimin işığı artır.

Molla deyir:

– Mənim də, qibleyi-aləm!

Naharın sonunda Teymur aşpazı çağırıb deyir:

– Bir də süfrəyə badımcan qoysanız dərinizi badımcan kimi soyduracağam.Bir dəfə bilin ki, mənim badımcandan zəhləm gedir.

Molla tez yediyi badımcan boranısını itələyib deyir:

– Mənim də, qibleyi-aləm, görməyə gözüm yoxdur.

Teymur deyir:

– Ay Molla sən nə qəribə adamsan?! Mən bu yazıq badımcan haqqında bu gün nə dedimsə, sən təsdiq elədin. Dedim xoşuma gəlir, dedin mənim də. Dedim xoşuma gəlmir, dedin mənim də. Bu necə olan şeydi?

Molla deyir:

– Bu çox aydın məsələdi, qibleyi-aləm. Gərək elə belə də ola. Çünki mən səndən donluq alıb sənə qulluq eləyirəm, badımcana qulluq eləmirəm ki...

## ÜZR BƏDTƏR ƏZ GÜNAH

Bir gün Teymur Ləng Molladan soruşur ki:

– Molla, üzr bədtər əz günah nə deməkdi?

Molla deyir:

– Qibleyi-aləm sağ olsun! Bu, fars sözüdü. Mənası budur ki, üzrü günahından pis.

Teymur deyir:

– Başa düşmürəm. Necə yəni üzrü günahından pis?

Molla deyir:

– Yəni adam bir pis iş görür, sonra üzr istəyir. Ancaq elə üzr istəyir ki, görmüş olduğu işdən də pis olur.

Teymur yenə də başa düşmür. Molla nə qədər əlləşirsə, Teymuru başa sala bilmir. Axırda Teymur hirslənib deyir:

– A kişi, sən nə yaman axmaq adam imişsən. Bir söz nədir ki, sən onu mənə başa sala bilmirsən. Bax, sənə yüzü sayınca möhlət verirəm. Başa saldın, salmısan, salmadın, boynunu vurduracağam.

Molla heç bir söz deməyib Teymura yaxınlaşır. Onun böyründən möhkəm bir çimdik götürür. Teymurun bağırtısı göyə qalxır. Hirslə dönür ki:

– Dəli olmamısan ki? Nə qayırırsan?

Molla baş əyib deyir:

– Üzr istəyirəm, qibleyi-aləm sağ olsun! Elə bildim ki, evimizdəyəm, sən də bizim arvadsan.

Teymur qışqırır ki:

– Nə danışırsan?

Molla deyir:

– Hirslənmə, qibleyi-aləm! Üzr bədtər əz günah bax budur!

## YALAN DEYİBLƏR

Teymur Ləngə xəbər verirlər ki, Molla Nəsrəddin bir məclisdə onun zülmkarlığından danışırmış. Teymur hirslənib Mollanı hüzuruna çağırır ki:

– Bu nədir? Yoxsa başın bədəninə ağırlıq eləyir? Deyirlər məclislərdə mənim zülmkarlığımdan danışırsan.

Molla deyir:

– Qibleyi-aləm sağ olsun! Sən özün bilirsən ki, mən həmişə elə söz deyirəm ki, qəribə olsun, təzə olsun, heç kəsin eşitmədiyi, bilmədiyi, danışmadığı olsun. Xoruz səsi eşitməmiş söz olsun. Sənin zülmkarlığın, hamının bildiyi, danışdığı köhnə şeydir. Burada nə qəribəlik var ki, mən də danışam? Sənə yalan deyiblər.

## MOLLA VƏ ƏYANLAR

Teymur Ləng sarayında olan əyanların, vəzir-vüzəranın Molla Nəsrəddini görməyə gözləri yox idi. Onlar hər yol ilə çalışırdılar ki, Mollanı Teymurun gözündən salsınlar. Amma hər dəfə də özləri daha gülünc vəziyyətə düşürdülər. Bir gün də bunlardan bir neçəsi Teymuru inandırmağa çalışır ki: Molla Nəsrəddinin ağzından yaman pis iy gəlir. Elədir ki, heç yanında dayanmaq mümkün deyil.

Təsadüfən, bunlar elə bu söhbətdə ikən Molla gəlib çıxır.Teymur baxır ki, bayaqdan tutuquşu kimi danışan vəzirlər, əyanlar Molla Nəsrəddini görcək lal oldular. Rəngləri də sap-sarı saraldı. Məsələni aydınlaşdırmaq üçün üzünü Mollaya tutub deyir:

– Gəl görək, Molla! Bunlar deyirlər ki, sənin başına təzə bir iş gəlib.

Molla deyir:

– Bunlar hamısı mənim əziz dostlarımdır, qibleyi-aləm! Yalan danışmazlar. Buyurun görək, nə deyirlər? Mənim başıma gələn təzə iş nədir?

Teymur deyir:

– Deyirlər ki, sənin ağzından pis iy gəlir.

Molla deyir:

– Bəli, qibleyi-aləm sağ olsun! Doğru deyirlər. Bunların ki, indiyə kimi üfunətli-üfunətli eyiblərini görüb gizlətmişəm, heç bir yerdə deməyib ürəyimə salmışam, indi ürəyim o qədər dolub ki, iysi, qoxusu ağzımdan gəlir.

## MOLLA MÜHARİBƏYƏ GEDİR

Günlərin birində Teymur Ləng haraya isə basqına hazırlaşır. Ordu yola düşən günü Mollaya deyir:

– Sən də dur hazırlaş! Bəsdir yeyib-yatdın... Bu dünya dil dünyası deyil, əl dünyasıdır. Mənimlə müharibəyə gedəcəksən.

Molla nə qədər əlləşirsə, yaxasını qurtara bilmir. Axırda gedib bir dənə kaman tapıb keçirir boynuna, eşşəyini də minib gəlir Teymurun hüzuruna. Teymur doyunca güldükdən sonra soruşur:

– A kişi, bu eşşək nədir? Bir at tapa bilmədin minəsən?

Molla deyir:

– Mümkün olmadı, qibleyi-aləm! Eşşək qoymadı ki, qoymadı. Deyir, nədən qibleyi-aləm səndən ayrı dura bilmir, mən də ayrı dura bilmərəm. Hara getsən gərək mən də gedəm.

Teymur başa düşür ki, Molla daşı hara vurur, camaat içində açıb-ağartmaq istəmir. Deyir:

– Yaxşı, görürəm boynunda kaman var. Amma deyəsən oxun yoxdur.

Molla deyir:

– Xeyir, yoxdur.

Teymur deyir:

– Bəs düşmənə nə atacaqsan?

Molla deyir:

– Onların atdıqları oxları götürüb özlərinə atacağam.

Teymur deyir:

– Qəribə ağılsız adamsan... Bəlkə düşmən heç bizə ox atmadı?

Molla deyir:

– Düşmən bizə ox atmasa, deməli dava da olmayacaq da... Onda daha oxu neyləyirəm?

## PADŞAHLIQ ARZUSU

Bir gün Teymur Ləng Molladan soruşur:

– Molla, düzünü de görüm, padşah olmaq istəyirsənmi?

Molla Nəsrəddin deyir:

– Allah eləməsin... Mən yazıq deyiləm?

Teymur deyir:

– Niyə?

Molla deyir:

– Mən bu az ömrümdə bir-iki padşahın ölümünü görmüşəm. İnşaallah, hələ bir-ikisini də yola salacağam. Amma bu padşahlardan heç birisi Molla Nəsrəddinin ölümünü görməyib.

## QAZACAĞAM

Deyirlər ki, Teymur Ləngin yanında işlədiyi günlərin birində belə bir əhvalat olur:

Dövlətli bir adamın öz qonşusunun bağçasına gözü düşmüş imiş. Çalışırmış ki, birtəhər bağçanı qonşusunun əlindən çıxarıb yiyələnsin. Qonşu da satmırmış ki:

– Yox, qonşu! Mən bağçamı satmayacağam. Ona görə ki, onu belə boya-başa çatdırmaq üçün mən çox zəhmət çəkmişəm. İndi bu dar dünyada varım-yoxum bircə bu bağçadır. Heç olmazsa gündə bir dəfə gəzib fərəhlənirəm.

Dövlətli baxır ki, qonşu özxoşuna qalsa bağçadan əl çəkməyəcək. O qiymətə ki, bağçanı almaq fikrində imiş, aparıb qabaqcadan şəhər hakiminə, məhkəmə işçilərinə, sarayın baş vəzirinə rüşvət verir. Sonra belə bir məsələ qaldırır: "Mən yuxuda görmüşəm ki, mənim qonşumun rəhmətlik atası mənim atama yüz qızıl borclu imiş. İndi mən tələb edirəm ki qonşum ya mənim borcumu versin, ya da bağçasını əlindən alıb mənə verəsiniz".

Kişini məhkəməyə çağırırlar. Yazıq nə qədər "ədalət, ədalət" deyib yalvarırsa, bir şey çıxmır. Məhkəmə qərar çıxarır, kişinin bağçasını əlindən alırlar.

Kişi şəhər hakiminə şikayət eləyir, hakim də məhkəmənin tərəfində dayanıb, qərarı təsdiq edir. Kişi götürüb işi Teymura verir. Teymur da baş vəzirə tapşırır ki, o, şikayətə baxsın, hökm versin. Dövlətli qabaqcadan vəziri görmüş imiş, vəzir də hökmü təsdiq edir. Yazıq kişinin hər yerdən əli çıxır.Məhəllə adamları kişiyə məsləhət görürlər ki, gedib əhvalatı Molla Nəsrəddinə desin. Bu işə çarə, olsa-olsa Molla Nəsrəddindən olacaq.

Kişi günlərin birində Mollanın yanına gəlir, əhvalatı necə ki, olub Mollaya danışır.

Molla deyir:
– Heç fikir eləmə! Səhər lap tezdən, hələ ala-qaranlıqdan gələrsən Teymurun sarayının yanına. Bağçanı lap eşşəkdən palan alan kimi alıb verərəm özünə.
Səhər tezdən kişi sarayın yanına gəlir. Görür ki, Molla çuxasının ətəyini sancıb belinə, əlində qazma, sarayın divarının dibini qazır. Kişi məəttəl qalıb soruşur:
– Ay Molla, nə eləyirsən?
Molla deyir:
– Götür qazmanı, külüngü, kömək elə! İndi sənin bağçan buradan çıxacaq.
Kişi fikirləşir ki, Molla yəqin dəli olub. Molla gülüb deyir:
– Başa düşürəm. Sən elə bilirsən ki, mən dəli olmuşam. Ancaq dəli-zad olmamışam. Gərək bunlarla elə-belə rəftar eləyəsən! Götür külüngü!
Kişi də bir külüng götürüb başlayır Mollaya kömək eləməyə.
Sən demə, bura Teymurun yataq otağının divarı imiş. Teymur tappa-tappa oyanır. Saray adamları vəlvələyə düşür. Çıxıb baxırlar ki, Molla divarın dibini o qədər qazıb ki, az qala uça. Gəlib Teymura xəbər verirlər. Teymur özü durub gəlir ki:
– A kişi, dəli-zad olmamısan ki?.. Nə qayırırsan?
Molla deyir:
Qibleyi-aləm, yuxuda görmüşəm ki, mənim rəhmətlik dədəm burada yeddi küp qızıl basdırıb. Sən də götür külüngü, gəl qazaq! Yarısı sənin, yarısı mənim.
Teymur deyir:
– A kişi, dəli olma! Çıx bayıra! Bu saray neçə yüz il bundan qabaq tikilib. Onda sənin dədənin heç babası da anadan olmamışdı.
Molla deyir:
– Bilirəm, qibleyi-aləm sağ olsun!
Teymur deyir:
– İndi ki, bilirsən, bəs niyə qazırsan?
Molla deyir:
– Ona görə qazıram ki, yuxuda görmüşəm.
Teymur deyir:
– Ay axmaq bəyəm yuxuda görülən şeylərin hamısı doğru olar?!
Molla belini düzəldib deyir:

– Hə!.. Bax, elə mən istəyirdim ki, sən bunu deyəsən... İndi qulaq as!..

Molla başlayıb əhvalatı Teymura danışır. Axırda da belə bir sual verir:

– İndi de görüm, gərək dövlətlilərin, varlıların, iş başında olanların yuxuları doğru ola, kasıb-kusubunku yalan?

Teymur söz tapa bilmir. Molla külüngünü yenə də işə salıb deyir:

– Belədi, qibleyi-aləm! Ya bu saat məhkəmənin hökmünü ləğv elə, o adamlara cəza ver, bu kişinin bağçasını qaytar özünə, ya da ki, mən qızıl tapana qədər qazacağam.

Teymur hökmü ləğv eləməyə məcbur olur.

## TEYMURUN HAVAÖLÇƏNİ

Günlərin birində Teymur Ləng Mollanı da özü ilə götürüb ova çıxır. Birdən-birə hava qaralmağa başlayır. Uzaqdan yağış buludu görünür. Teymur Molladan soruşur:

– Necə baxırsan, Molla, yağış olacaq, olmayacaq?

Molla deyir:

– Deyə bilmərəm, qibleyi-aləm! Mənim münəccimlikdən başım çıxmaz.

– Elə bu söhbətdə bir də görürlər ki, bir naxır gəlir.

Teymur Mollaya deyir:

– Yeri naxırçıdan soruş, o bilər.

Molla naxırçının yanına gəlib soruşur:

– A kişi, bir de görək yağış olacaq, olmayacaq?

Naxırçı qatırın quyruğunu əlinə alıb, bir o tərəf – bu tərəfinə baxır, bir tumarlayır, sonra deyir:

– Get ağana de ki, mənim qatırımın verdiyi məlumata görə, bulud keçib gedəcək, yağış olmayacaq.

Molla qayıdıb naxırçının elədiklərini,dediklərini Teymura danışır. Teymur deyir:

– Havanı heyvanlar adamlardan yaxşı bilirlər. O ki qatırın quyruğuna baxıb deyib, demək düzdür. Gedək! Yağış olmayacaq.

Bir qədər gedəndən sonra elə bir yağış başlayır ki, tut yağışdan, çıx göyə. Teymur hirslənir. Qışqırır Mollanın üstünə ki:

– Bu nədir? Bəs yağış olmayacaq idi?

Molla deyir:

– Qibleyi-aləm, mən demədim ki, yağış olmayacaq. Qatırın quyruğu göstərdi. Naxırçı xəbər verdi, Siz də təsdiq elədiniz.

Teymur deyir:

– İndi nə eləyək?

Molla deyir:

– Heç nə. Nə eləyəcəksən. Bir hökmdarın ki, münəccimi naxırçı oldu, havaölçəni də qatırın quyruğu, elə sənin kimi cumculuq olar də...

## BELİMƏ BAĞLASINLAR

Deyirlər ki, Teymur Ləng Mollanın nə dərəcədə cəsarətli olub-olmadığını yoxlamaq üçün cəlladlara əmr edir ki:

– Bu saat bunu boğazından asarsınız!

Cəlladlar Mollanı qarmalayıb götürürlər. Molla heç bir söz demir. Qapıdan çıxdıqları vaxt Teymur soruşur:

– Axır dəqiqələrindir, Molla. Vəsiyyətin varsa, elə!

Molla deyir:

– Vəsiyyətim yoxdur. Ancaq balaca bir xahişim var.

Teymur deyir:

– De!

Molla deyir:

– Mənim boğazımdan yaman qıdığım tutur. Xahiş eləyirəm əmr eləyəsiniz kəndiri boğazıma yox, belimə bağlasınlar.

## SONRA GÖZÜM ÜSTƏ

Bir gün Teymur Ləng Molladan soruşur:

– De görüm, məni nə qədər istəyirsən?

Molla deyir:

– Mən Molla Nəsrəddinəm, sən də qibleyi-aləm Teymur. Demək ki, mən səni o qədər istəyirəm, nə qədər ki, Molla Nəsrəddin Teymuru istəyə bilər.

Teymur deyir:
– Yaxşı, mənim xatirim üçün ölümə gedərsənmi?
Molla:
– Özüm gedə bilməsəm də, cəlladlar kömək eləyərlər.
Teymur:
– Məsələn, əgər mən əmr eləsəm, bu saat özünü dənizə atarsanmı?
Molla bu sözü eşitcək durur ayağa. Teymur soruşur:
– Haraya?
Molla cavab verir:
– Qibleyi-aləm sağ olsun! Sənin yolunda dənizə atılıb boğulmaq mənim üçün şərəfdir. Ancaq icazə ver, qabaqca gedib üzməyi öyrənim, sonra gözüm üstə!

## KİMDİR?

Bir gün Molla həmişə Teymur Ləngin yanında olan qazıların birindən soruşur:
– Qazı ağa, sənin imamın kimdir?
Qazı yaltaq-yaltaq Teymura tərəf ikiqat əyilərək deyir:
– Qibleyi-aləmimiz Teymur!
Məclisdəkilərdən biri yavaşca Mollanın qulağına deyir:
– Molla, soruş görək, peyğəmbəri kimdir?
Molla deyir:
– Kim ola bilər! İmamı Teymur olanın peyğəmbəri də Çingizdən-zaddan birisi olacaq də...

## TEYMURUN ADI

Teymur bir gün Molladan soruşur:
– Molla, sən çox yaxşı bilirsən ki, keçmiş ərəb xəlifələrinin çoxusunun adı belə olub: Müvəffəqbillah, Mötəsimbillah, Mütəvəkkülbillah, Müvəkkilbillah, Müəyyidbillah...
Molla deyir:
– Bilirəm.

Teymur deyir:
– Mən də özümə belə bir ad qoymaq istəsəm, sən tapıb seçə bilərsənmi?
Molla deyir:
– Mənim nə tapmağım lazımdı, nə də seçməyim. Camaat özü sənin üçün belə bir ad tapıb.
Teymur soruşur:
– Nədi?
Molla deyir:
– Nəüzənbillah.

## BƏS NƏ VAXT ELƏSİNLƏR?

Deyilənlərə görə, bir dəfə Molla Nəsrəddini öz yaşadığı şəhərə hakim təyin eləyirlər. Elə Molla işə başlayandan iki gün sonra qarovullar iki nəfər oğru tutub onun yanına gətirirlər. Oğruların biri gecə, biri də gündüz oğurluq etdikdə tutulmuş imiş. Molla işi yoxlayıb gündüz oğurluq eləyəni həbsə alır, gecə oğurluq eləyəni azad edir.

Azad edilmiş oğrunun yardığı evin sahibi Mollanın əlindən Teymur Ləngə ərizə yazıb, işi düz aparmadığından şikayət edir. Teymur Mollaya əmr göndərir ki: "Gecə filankəsin evini yarmış filan oğrunu tutub cəza verərsən!"

Molla əmri alıb oxuyur, öz-özünə fikirləşir ki, yəqin qanunlar dəyişib, mənim xəbərim yoxdur. Bu oğrunu tutub həbs eləyir, gündüz oğurluq edəni isə azad edir, oğurladığı şeyləri də ev sahibindən alıb ona qaytarır. Bu dəfə də bu ev sahibi Teymur Ləngə şikayət edir. Teymur hirslənib Mollanı hüzuruna istəyir ki:
– Sən nə eləyirsən? Bu oğrunu niyə azad eləyibsən?
Molla deyir:
– Sənin əmrinə görə.
Teymur hirslənir ki:
– Necə mənim əmrimə görə? Mən nə vaxt yazmışam ki, onu azad eləyəsən?
Molla deyir:
– Qibleyi-aləm sağ olsun. Bu oğruların biri gecə ev yarıb, biri gündüz. Ata-babadan biz görmüşük ki,oğurluğu gecə eləyərlər, gündüz

eləməzlər. Ona görə də mən o gündüz oğurluq eləyəni qanuna və adətə uyğun olmadığına görə həbsə alıb, gecə oğurluq eləyəni azad eləmişdim. Sonra sizin imzanızla bir əmr aldım ki, gecə oğurluq eləyən adamı həbsə almaq lazımdır. Ona görə mən də dedim ki, yəqin qanunlar dəyişib, gecə oğrusunu təzədən həbs eləyib, gündüz oğrusunu azad elədim.

Teymur hirslənir ki:

– Bu saat gedib onu da tutarsan.

Molla deyir:

– Qurbanın olum, axı bu, ədalətsizlikdir. Yaxşı, bu yazıqlar gecə oğurluq eləməsinlər, gündüz eləməsinlər, bəs nə vaxt eləsinlər?

## ÖZ TƏRƏFİNDƏN DƏYİB

Deyirlər ki, Teymur Ləngin yanında həmişə xüsusi bir mühafizə dəstəsi olarmış. Özü də bu dəstə ən igid və qorxmaz cavanlardan seçilərmiş.

Teymur günlərin birində Mollanın yaşadığı kəndə də əmr göndərib belə igid bir adam tələb edir. Kənd camaatı Teymurun nə qədər yırtıcı canavar olduğunu bildikləri üçün heç biri onun yanında qulluq eləməyə razı olmur.Axırda kəndin ağsaqqalları yığılıb Molladan xahiş eləyirlər ki, bu bəlanı bir təhər onların başından rəf eləsin. Molla razılaşır. Onu aparıb kəndin ən igid qəhrəmanı kimi Teymura verirlər. Teymur bir Mollaya baxır, bir onu gətirib tərif eləyən ağsaqqallara baxır, hiss eləyir ki, burada nə isə bir fırıldaq var. Molla da səssiz, sakit durud başına nə bəla gələcəyini gözləyir.

Teymur Mollanın igidliyini,qorxmazlığını yoxlamaq üçün əmr edir, mahir ox atanlardan biri gəlir. Teymurun əmri ilə oxatan Molla Nəsrəddini nişanəyə qoyub, ona ox atmağa başlayır. Birinci oxu onun qıçlarının arasından keçirdir. Molla işi belə görüb bir istəyir qışqırsın ki, mən igid-zad deyiləm, ancaq baxır ki, onda Teymur kəndin ağsaqqallarına cəza verdirəcək. Çar-naçar, gözlərini yumub ölümə hazır dayanır. İkinci ox onun qoltuğunun altından keçirilir. Üçüncü ox ilə nişançı vurub onun papağını yerə salır. Bütün bu müddətdə Molla min dəfə özündən gedirsə də, yerindən qımıldanmır. Teymur görür ki, kişi, doğrudan da, qorxmaz bir igiddir. Onu yanına çağırır. Molla imtahanın

qurtardığını görüb, qorxduğunu bildirməyərək gülə-gülə gəlir Teymurun yanına. Teymur Mollanın igidliyinə heyran qalıb əmr eləyir ki, ona təzə kürk və papaq versinlər.

Molla soruşur:

– Qibleyi-aləm sağ olsun. Bu kürkü, papağı mənə niyə verirsən?

Teymur deyir:

– Çünki nişançının atdığı oxlardan kürkün də deşilib, papağın da.

Molla deyir:

– İndi ki, qanun belədir, onda əmr eləyin, mənə bir dənə də tuman versinlər.

Teymur soruşur:

– Yaxşı, tumanına ki, bizim tərəfimizdən bir ziyan dəyməyib.

Molla başını aşağı salıb deyir:

– Xeyir, sizin tərəfinizdən dəyməyib, öz tərəfimdən dəyib.

## MOLLA DA BELƏ ATIR

Günlərin birində Teymur Ləng, Molla Nəsrəddini əsgərlərin təlim keçdikləri meydana aparır. Molla görür ki, əsgərlər ox ilə nişana atırlar. Teymur Molladan soruşur:

– Molla, heç ömründə ox atmısanmı?

Molla “atmamışam” deməyə utanıb:

– Mən çox yaxşı nişançı idim. İndi qocalmışam, daha atmıram – deyir.

Teymur bu sözü Molladan eşitcək, əmr eləyir, ona bir ox verirlər. Molla nə qədər üzr istəyirsə, mümkün olmur. Axırda çar-naçar nişan alıb atır. Ox nişanədən bir on-on beş addım o tərəfə gedir. Molla özünü çaşdırmayıb deyir:

– Sizin sərkərdə, bax, belə atır.

İkinci oxu götürüb atır. Yenə də nişanəni vura bilmir. Yenə də özünü tox tutub deyir:

– Sizin müşavir də bax, belə atır.

Belə-belə, hər atdıqca oxun dəymədiyini görüb, hərdən bir adamın belə atdığını söyləyir. Axırda oxlardan biri hədəfə dəyir. Elə ox dəycək Molla qışqırır:

– Bax, Molla Nəsrəddin də belə atır.

## ƏDALƏTİNDƏN DANIŞIRAM

Günlərin birində Teymur Ləng böyük bir qonaqlıq verir. Molla da bu qonaqlıqda iştirak edir. Teymur görür ki, Molla bir nəfərlə çox şirin söhbətlə məşğuldur. Onu utandırmaq məqsədilə yanına gələrək deyir:

– Yenə, kim bilir, yalandan nə basıb-bağlayırsan?..

Molla heç özünü sındırmadan baş əyib deyir:

– Nə eləyim, qibleyi-aləm sağ olsun. Yalansız keçinmək olmur. Sizin ədalətinizdən danışıram.

## DÖRDQIÇLI OLARDIN

Günlərin birində bir nəfər Teymur Ləngə bir qaz gətirir. Teymur Mollaya tapşırır ki, qazı bişirtdirsin. Aşpaz qazı qızardır. Molla qazı Teymur üçün aparanda nəfsini saxlaya bilməyib, bir budunu özü yeyir. Teymur baxır ki, qazın bir-budu yoxdur. Üzünü Mollaya tutub soruşur:

– Molla, bəs bu qazın bir qıçı hanı?

Molla halını dəyişməyib cavab verir:

– Necə yəni bir qıçı hanı? Qaz birqıçlı olar də...

Teymur hirslənir ki:

– Nə sarsaq-sarsaq danışırsan? Necə yəni qaz birqıçlı olar?

Molla: Başın üçün qaz birqıçlı olar, – deyib Teymuru inandırmağa çalışır.

Teymur Mollanın bu hərəkətindən bərk qəzəblənir. Molla görür iş şuluqdur. Birdən gözü sataşır pəncərəyə. Baxır ki, çayın kənarında bir dəstə çöl qazı var, hamısı da birqıçlı durub, özlərini günə verirlər. Tez üzünü Teymura tutub deyir:

– Sən elə salmısan padşahlığına, nıx dediyini deyirsən. Odu ha... Bax o qazlara, gör hamısı birqıçlıdı, ya yox?

Teymur lap hirslənir, əlini atıb yay-oxunu götürür, elə pəncərədən qazların topasına bir ox atır. Qazlar qaçmağa başlayır. Teymur deyir:

– Hanı? Bir bax, gör, birqıçlıdılar, ya ikiqıçlı?

Molla heç halını pozmayıb deyir:

– O oxu ki, sən onlara atdın, mən sənə atsaydım, ikiqıçlı nədir ki, lap dördqıçlı olardın.

## ADAMA CUMUR

Bir gün Teymur Ləng Mollanı şikara dəvət edir.Qasid xəbər gətirir ki, Molla bu saat gələcək. Gözləhagözlə, bir də baxırlar ki, Molla əlinin üstündə bir qarğa, budur gəlir. Teymur Ləng Mollanı belə görəndə özünü saxlaya bilməyib gülür ki:

– Ay Molla, bu qarğa nədir? Yoxsa qarğa ilə şikara getmək istəyirsən?

Molla:

– Nə olar ki?..

Teymur:

– Axır qarğa şikar eliyə bilməz.

Molla:

– Edər. Lap yaxşısından edər. Mən elə qarğalar tanıyıram ki, qızılquşdan yaxşı şikar eləyir, özü də quşa nədi ki, lap adama cumurlar.

Sonra saray adamlarını göstərib deyir:

– Bir dön ətrafına bax!

## "NUŞCAN" DEMƏKDİR

Teymur Ləng şəhərə gəlib bir qonaqlıq verir. Qonaqlıqda hökumət adamları və şəhərin dövlətliləri iştirak edirlər. Molla da bu qonaqlıqda olur. Teymurun qorxusundan heç kəs ağzını açıb danışa bilmir. Ortalığa şərbət gətirirlər. Əvvəlcə Teymur şərbəti alıb içir. Dövlətlilərdən biri yaltaqlanaraq "nuşcan!" demək istəyir. Lakin özünü itirərək çaşıb "mərhəba!" deyir. Teymur yersiz deyilən bu “mərhəba”dan qəzəblənib üzünü ona tərəf döndərir. Kişi özünü lap itirir. İşi belə görən Molla tez deyir:

– Qəzəblənmə, qibleyi-aləm! Bizim şəhərdə "mərhəba" "nuşcan" deməkdir.

## ƏDALƏTİNDƏN DANIŞSINLAR

Teymur Ləng bir gün Molla Nəsrəddini qorxutmaq və utandırmaq məqsədilə saray adamlarının içində birdən-birə üzünü ona tutub hirsli-hirsli deyir:

– Aldığım məlumata görə, dünən bir məclisdə camaat məni tərifləyirmiş, mənim ədalətli bir padşah olduğum barədə danışırmışlar. Sən də orada imişsən. Mənim yaxşılığım barədə heç bir söz deməyibsən.

Molla heç halını pozmadan cavab verir:

– Xeyir, qibleyi-aləm sağ olsun! Yalan sözdür. Mən nəinki dünən, hətta bütün ömrümdə heç elə bir məclisdə olmamışam ki, orada sənin ədalətindən danışsınlar.

## QİYMƏT MƏSƏLƏSİ

Teymur Ləng bir gün Molla Nəsrəddini özü ilə bərabər hamama aparır. Teymurun belində çox qiymətli bir fitə var imiş. Yuyunduqları vaxt oradan-buradan söhbət eləyirlər, axırda Teymur Molladan soruşur:

– Molla, mən necə adamam? Qiymətli adamam, yox?

Molla bir az fikirləşib cavab verir:

– Niyə, bir on tümənə dəyərsən.

Teymur deyir:

– Ay evin tikilsin, on tümən elə mənim belimdəki fitənin qiymətidir.

Molla deyir:

– Elə mən də fitəyə qiymət verirəm də...

## AYAQLAŞA BİLMİRDİ

Teymur Ləng bir gün Mollanı cıdırda iştirak etmək üçün dəvət edir. Molla öküzünü çullayır, ağzına da bir yüyən vurub meydana gəlir. Teymur Ləng Mollanı belə görüb deyir:

– Ay Molla, öküz də at ilə ayaqlaşa bilər? Bunu niyə minibsən?

Molla deyir:

– Vallah, çoxdandır ki, minməmişəm, amma çər dəymiş buzov vaxtında elə yaman qaçağan idi ki, at nədi, heç quş da onunla ayaqlaşa bilmirdi.

## KASIB ÇOXDUR

Teymur Ləng bir gün söhbət əsnasında Molladan soruşur:

– Molla, cənnət böyükdür, ya cəhənnəm?

Molla deyir:

– Cənnət böyük olar.

Teymur soruşur:

– Nədən bilirsən ki, cənnət böyük olar?

Molla deyir:

– Çünki kasıb dövlətlidən çoxdur. Əgər cənnət haqqında deyilənlər doğru çıxsa, bu dövlətlilər ki, bu dünyada belə işlər görürlər, mən heç inanmıram ki, ora bircə nəfər də olsun dövlətli gedə bilə.

## ORADA SƏN QONAQSAN

Günlərin birində Teymur Ləng Mollaya bir neçə şəftəli verib deyir:

– Bunları aparıb qoyarsan mənim öz xüsusi otağıma.

Molla şəftəliləri aparıb qəbiristanda sərdabaya qoyur. Teymur Ləng evə dönür, şəftəliləri nə qədər axtarırsa tapa bilmir. Qəzəblənib Mollanı hüzuruna istəyir:

– Molla, şəftəlilər hanı?

Molla:

– Qibleyi-aləm sağ olsun, necə ki, demişdiniz eləcə də aparıb qoydum sənin otağına.

Teymur:

– Hanı bəs? Axtarıram yoxdur?. Hara qoyubsan?

Molla:

– Qibleyi-aləm sağ olsun, bura sənin öz otağın deyil ki... Mən sənin öz otağına qoymuşam.

Teymur heyrətlə soruşur:

– Nə danışırsan? Necə yəni mənim öz otağım deyil? Bəs hansıdır mənim otağım?

Molla ayağa durub:

– Gedək göstərim – deyə Teymuru birbaş aparır qəbiristana ki:

– Bax, budur sənin öz otağın. Yadında saxla ki, sən elə həmişə bu dünyanı tutub durmayacaqsan, həmişə də sarayda sahibi-ixtiyar olmayacaqsan.

## DƏVƏDƏN BÖYÜK OLMAZ

Bir gün bir məclisdə Teymur Ləngin böyüklüyündən söhbət düşür. Məclisə yığılmış adamlar onun qüvvəsindən, gücündən danışıb tərifləyirlər. Axırda şəhərin hakimi deyir:

– Teymur bu dünyaya gəlib-getmişlərin hamısından böyükdür.

Bu vaxta qədər bir tərəfdə oturmuş Molla söhbətə qarışıb deyir:

– Çox da basıb bağlamayın! Nə qədər böyük olsa, dəvədən böyük olmaz.

## BİZ DƏ KİÇİYİK

Teymur Ləng öz dövlət quruluşunun bütün xərclərini dəfələrlə soyulan yoxsul kəndlilərdən alırdı. Töycü-töycü üstündən gəlirdi. Vergilərin haqq-hesabı yox idi. Molla Nəsrəddinin yaşadığı kəndin əhalisi də başqaları kimi soyulurdu. Axırda Molla Nəsrəddin bu zülmə tab gətirə bilməyib Teymurun yanına gəlir və onun qarşısına bir çox ağır tələblər qoyur. Teymur Mollanın bu hərəkətindən qəzəblənərək qışqırır ki:

– Sən nə cəsarətlə mənim kimi böyük bir padşahın yanında ağzına söz alıb danışırsan?

Molla heç halını pozmadan deyir:

– Qibleyi-aləm sağ olsun! Çox da böyük-böyük deyib bizə hədə-qorxu gəlmə! Sən böyüksənsə, biz də kiçiyik. Yadından çıxartma ki, kirpinin də hər təpəfi tikandır, amma balaca qarışqa onun dədəsini yandırır.

## İŞİMİ EHTİYATLI TUTMUŞAM

Teymur Ləng bir gün şəhər hakiminin işlərini yoxlayır. Camaatdan az vergi yığdığına, yığdıqlarını da vergi dəftərinə düzgün salmadığına görə hirslənib bütün vergi dəftərlərini hakimə yedirtdirir sonra onun yerinə Mollanı təyin eləyir.

Bir neçə vaxtdan sonra Teymur Mollanın işlərini yoxlamaq üçün adam göndərir ki, dəftərlərini də götürüb gəlsin. Molla gəlir. Teymur görür ki, Molla bütün işləri parça-parça çörəklərdən qayrılmış bir dəftərə yazıb. Hirslənib soruşur:

– Məmləkətdə kağız tapılmır? Bu nədir?

Molla deyir:

– Qibleyi-aləm sağ olsun! Mən yaxşı bilirəm ki, sən hirslənib bu dəftəri mənə yedirdəcəksən. Mənim də mədəm o keçən hakimin mədəsi kimi qüvvətli deyil ki, o qədər kağız-kuğuzu əridə bilə. Ona görə də əvvəldən işimi ehtiyatlı tutmuşam.

## İKİ GÜNLÜK ACLIĞIN NƏTİCƏSİDİR

Günlərin birində Teymur Ləngə bir yaxşı eşşək bağışlayırlar. Məclisdəkilər yalmanıb-yaltaqlanıb eşşəyin tərifini göyə çıxarırlar. Məclisdə iştirak edən Molla da söhbətə qarışaraq deyir:

– Eşşəyi doğrudan da yaxşı təriflədiniz. Ancaq bu eşşəyin bir yaxşı sifəti də var ki, onu heç biriniz görə bilmirsiniz. Mən bu gözəl heyvanda çox böyük istedad görürəm. Bu, mənim əlimdə olsa, buna yazıb-oxumaq öyrədərəm.

Teymur çox maraqlanıb deyir:

– Əgər sən belə bir iş eləyə bilsən, hər nə istəsən mən sənə verərəm.

Molla baş əyib deyir:

– Qibleyi-aləm sağ olsun. Heç indiyə kimi görübsənmi ki, mən dediyim şeyi eləmiyim. Eliyərəm, özü də heyvan çox kamallı, zehinli heyvandır, öyrənər. Ancaq bunun şərti var.

Teymur deyir:

– Hər nə şərtin var, de, Molla, hər nə istəsən verəcəyəm.

Molla deyir:

– Şərtim budur ki, əvvələn, gərək mənə iki ay möhlət verəsən. İkinci, bu iki ayın ərzində eşşəyin kitab, dəftər və başqa ləvazimat xərci üçün hər gün bir qızıl pul verəsən.

Teymur razılaşıb, əmr edir Mollaya istədiyi qədər pul verirlər. Molla eşşəyi evə aparıb dərsə başlayır, iki ay başa çatır. Axırıncı gün camaat yığılır meydana. Hamı əyləşir, Molla da eşşəyin noxtasından tutub çəkir ortalığa. Eşşəyin qabağına bir stol qoyurlar. Molla qoltuğundakı kitabı stolun üstünə açır. Eşşək kitabı görcək dili ilə varaqlamağa başlayır. Hər üç-dörd varaqdan sonra üzünü Mollaya çevirib anqırır. Məclisdəkilər mat-məəttəl qalırlar. Teymur çox xoşlanıb Molladan soruşur:

– Molla, hər nə istəsən verəcəyəm. Ancaq düzünü de görüm, bunu necə öyrədibsən?

Molla deyir:

– Qibleyi-aləm sağ olsun! Bir neçə ceyran dərisini kitab kimi tikib aralarını arpa ilə doldurdum. Tamam on beş gün eşşəyi beləcə arpa yeməyə öyrətdim. On beş gündən sonra təlimin ikinci hissəsi başlandı. Eşşəyi iki gün ac saxlayıb üçüncü gün dəri kitabın üstünə buraxdım. Eşşək dili ilə dəriləri qaldırıb aralarındakı arpanı yedi. Yavaş-yavaş dəri kitabı çevirib həqiqi kağızı kitab elədim. Bir ay da buna sərf elədim. Sonra başladım üçüncü dövrə. O da bundan ibarət oldu ki, bəzən qəsdən kitabın içinə arpa tökməyib boş qoyurdum. Eşşək axtarıb-axtarıb arpa olmadığını görcək anqırırdı, gətirib arpa verirdim.Beləliklə, eşşək kitabı varaqlamağı və anqırmağı öyrəndi. Bugünkü bu imtahan haman iki günlük aclığın nəticəsidir.

## YA EŞŞƏK ÖLƏR, YA TEYMUR

Bir gün Teymur Ləngə bir eşşək bağışlayırlar. Mollanın da pulu qurtarmış imiş. Teymur üzünü Mollaya tutub deyir:

– Hə Molla, danışmırsan?.. Yoxsa bu eşşəkdə istedad yoxdur?

Molla işıq yeri görüb tez cavab verir:

– Niyə yoxdur, qibleyi-aləm sağ olsun?! Bu ondan da zəkalı heyvandır. Əgər bunu mənə versəniz mən ona lap adam kimi danışmaq öyrədərəm.

Temur çox maraqlanıb deyir:

– Yaxşı, verirəm. Şərtini de!

Molla deyir:

Şərtim bir az ağırdı. Bu dəfə iş zəhmətlidir. Gərək mənə beş il möhlət verəsən. Hər gündə bir qızıl verəsən.

Teymur razılaşır. Molla hesablayıb günə bir qızıldan beşillik maaşını Teymurdan alır, eşşəyin də noxtasından tutub gətirir evə. Arvad görür ki, Molla yenə bir eşşək gətirib. Soruşur:

– Ay kişi, bu nədir?

Molla deyir:

– Dinmə, arvad. Bu pulları al xərclə, görək başımıza nə gəlir? Sonra əhvalatı arvada danışır.

Arvad deyir:

– A kişi, dəli deyilsən ki? Başına at təpməyib?.. Eşşək də danışar?..

Molla deyir:

– Arvad, mən elə bilirdim bircə Teymur sarsaqdır ki, mənim sözümə inanıb. Demə, elə sən də onun tayı imişsən. Əlbəttə, eşşək danışmaz.

Arvad hirslənir:

– Bəs indi ki, danışmaz, niyə boynuna götürübsən?

Molla deyir:

– Qəribə sual verirsən? Görmürsən, bir anbar pul gətirmişəm?!

Arvad deyir:

– Yaxşı, bəs beş ildən sonra ki vədə tamam olacaq, onda nə cavab verəcəksən?

Molla bir az fikirləşib deyir:

– Arvad, sarsaq olma, götür pulları evə şey-mey al!.. Allah kərimdir. Beş ilə kimi ya eşşək ölər, ya Teymur. Elə ikisi də dünyanı tutub durmayacaq ki?..

## MOLLA NƏSRƏDDİNİN OĞLU

Deyirlər ki, günlərin birində Teymur Mollanın oğlunu saraya gətirtdirir. Baxır ki, uşaq lap atasına oxşayır. Boy-buxunu, sir-sifəti, ağız-burnu lap Molla Nəsrəddindi ki, durub. Fikirləşir ki, görəsən

uşaq sözdə-söhbətdə də atasına çəkib, ya-yox? Çıxarıb ona bir qızıl bağışlayır. Mollanın oğlu qızılı əli ilə itələyir. Teymur soruşur:

– Niyə almırsan?

Uşaq deyir:

– Anamdan qorxuram. O, mənə tapşırıb ki, küçədə tanımadığım əmilərdən pul almayım.

Teymur deyir:

– Ay sağ ol, ancaq mən ananın dediyi o küçələrdəki əmilərdən deyiləm. Mən padşaham.

Uşaq deyir:

– Mən görürəm ki, sən padşahsan. Ancaq anam inanmaz ki, sən padşahsan.

Teymur soruşur:

– Niyə inanmır?

Uşaq deyir:

– Ona görə inanmaz ki, padşah pul bağışlayanda bircə dənə bağışlamaz, çoxlu-çoxlu bağışlar.

## GÜCÜM ÇATMAYACAQ

Teymur Ləngin xasiyyətlərindən birisi də bu idi ki, yuxuda hər kim ona pis söz desə idi, yaxud pis surət göstərsə idi, yuxudan oyananda onu asdırardı. Molla Nəsrəddin onun bu xasiyyətini bilən kimi şələ-şüləsini yığışdırıb birbaş qaçır kəndlərinə. Kəndlilər onun başına yığışıb soruşurlar:

– Molla niyə qaçıb gəldin? Nə qədər ki, sarayda idin, yenə camaata xeyrin dəyirdi. Vergidən-mergidən az-maz bağışlatdıra bilirdin.

Molla deyir:

– Ayıqlıqda, doğrudur, təsir eliyə bilərdim. Ancaq gördüm bu zalım oğlu zalımın yuxusuna girməyə, özü də xoşuna gəlməyə mənim gücüm çatmayacaq. Ona görə də başımı götürüb qaçdım.

# MOLLA VƏ CAVAN

Qış axşamlarından birində Molla məhəllədəki çayçı dükanına gedir. Fikir verib görür ki, dükanın küncündə bir cavan oğlan oturub, amma elədi, elədi ki, elə bil qəm dəryasına batıb. Molla maraqlanıb cavana yaxınlaşır, bir az ordan-burdan söhbət eləyəndən sonra soruşur:

– Qardaş, de görüm, sənə nə dərd üz verib ki, belə qəm dəryasına batmısan?

Cavan bir ah çəkib başlayır ki:

– Molla əmi, səndən ayıb olsa da, mən filan tacirin qızına aşiq olmuşam. Qız da məni sevir. İkimiz də bir-birimizə söz verib əhd-peyman bağlamışıq. O, dövlətli tacir qızıdı, amma mən, necə ki görürsən, yoxsul bir oğlanam. Çox götür-qoy eləyəndən sonra axırı dünən getdim tacirin yanına ki, bəs, qızını ver mənə. Tacir bir altdan yuxarı mənə baxıb dedi:

– Qızımı nə qədər sevdiyini gərək sübut eliyəsən. O da belə olar ki, gərək çayda buzu sındırıb girəsən soyuq suyun içinə. Ta səhərə qədər orada qalasan. Əyər bunu eləsən onda qızı sənə verərəm.

Mən məhəbbətin gücündən "baş üstə" deyib oradan çıxdım. Gözlədim qaranlıq düşdü.Gəldim çayın kənarına. Buzu sındırıb boğazacan girdim soyuq suyun içinə. Qar yağırdı, külək vıyıldayırdı, bir soyuq var idi ki, day nə deyim. Düz sübhə qədər qaldım suyun içində. Elə ki, səhər açıldı, sudan çıxdım, üz qoydum tacirin evinə. İçəriyə girib dedim: "Tacir, əl-əhdü minəl-vəfa. Mən şərti yerinə yetirdim, sən də vədinə əməl eylə". Tacir yenə də bir altdan yuxarı mənə baxıb dedi:

– Yalan deyirsən. Sübut elə ki, sən doğrudan da səhərə qədər suda qalıbsan.

Mən and-aman eləyib dedim:

– Vallah, billah, qalmışam. Hətta o uzaq kəndlərin birində bir pəncərədə bir şam da yanırdı.

Tacir gülüb dedi:

– Demək, şərtimiz pozulub. Sən gözünlə işığa baxıb qızınıbsan.

Mən nə qədər elədim ki, "ay canım, iki ağaclıqdan da şam işığına baxmaqla adam qızına bilərmi?" – kar eləmədi ki, eləmədi. Mən işi hakimə verdim. Bilmirəm hakimlə gedib nə çuğullaşdı, nə çuğullaşmadı, hakim də onun dediklərini təsdiq eyləyib məni çıxardıb qovdu. İndi işim olub belə ahü-zar.

Molla əvvəldən axıra kimi diqqətlə qulaq asıb cavana deyir:

– Sabah axşam mənə qonaqsan. Gəlməmiş olma!

Molla durub oradan bir baş Teymur Ləngin hüzuruna gedir. Baş əyib deyir:

– Qibleyi-aləm, sabah axşam mənə qonaqsınız.

Oradan gedib həmən hakimi, həmən taciri də çağırır. Bəli, sabah olur. Teymur, hakim, tacir və başqa dəvət olunmuşlar gəlirlər. Molla bunları yaxşıca qəbul eləyir, əyləşdirir, özü haraya isə çıxıb gedir.Teymur ətrafa göz gəzdirib görür ki, nə ocaq yanır, nə qazan qaynayır. Qalır məəttəl ki, bu necə qonaqlıqdır... Qərəz, bir-iki saat gözləyirlər, Molla gəlmir. Axırda Teymur arvadı çağırıb soruşur:

– Ay bacı, bəs Molla hara getdi?

Arvad deyir:

– Bağçanın dibində sizin üçün plov bişirir. Teymur qonaqları da götürüb gedir bağçanın dibinə. Baxır ki, Molla uca bir ağacın başından bir putluq qazan asıb, ağacın dibində də bir şam yandırıb, oturub gözləyir. Teymur soruşur:

– Molla bu nədir? Burada nə qayırırsan?

Molla çox sakit deyir:

– Qibleyi-aləm sağ olsun! Su asmışam, gözləyirəm qaynasın, sizin üçün plov bişirim.

Teymur hirslənib deyir:

– Adə, sən özünü dolamısan, ya bizi? Buradan da oraya isti dəyib su qızar?

Molla ondan də bərk hirslənib deyir:

– Bəs iki ağaclıqda yanan şama baxmaqla da bədən qızar ki, sən o hökmü çıxarıbsan?

Teymur soruşur: "bu nə məsələdir?". Molla əhvalatı ona danışır, qızı alıb oğlana verir.

## MÜNƏCCİMLİK

Günün birində Teymur Ləng Mollaya deyir:

– Molla, saraya bir münəccim lazımdır, tapa bilmirik. Sənin əlindən munəccimlik gəlməz?

Molla deyir:

– Gələr, amma arvadla birlikdə.

Teymur soruşur:

– Bu nə deməkdi?

Molla deyir:

– Dövr-qədimdən bizim arvadın sözü ilə mənim sözüm həmişə tərsinə olur. Məsələn, mən axşam havaya baxıb deyəndə ki, sabah yağış yağacaq, arvad hökmən baxıb deyir yağmayacaq.

Özü də sözü ki, dedik, üstündə möhkəm dururuq. Öldü var, döndü yoxdur. O deyəndə ki, məsələn, bu il taxıl yaxşı gələcək, mən deyirəm gəlməyəcək. Neçə ildi ki, fikir vermişəm, həmişə ya onun dediyi olur, ya da mənim. Üçüncü cür heç olmur. Odur ki, arvadla mən ikimiz bir münəccim ola bilərik.

## YALAN OLACAQ

Molla bir gün yolda eşşəyini itirir, nə qədər axtarırsa, tapa bilmir. Axırda əl çəkib piyada evə qayıdır. Bir az gələndən sonra qonşusu çıxır qabağına. Molla qonşusunu görcək soruşur:

– Qonşu, kənddə təzə nə var, nə yox?

Qonşu deyir:

– Elə təzə bir şey yoxdur. Necə?

Molla soruşur:

– Bəs kənddə danışmırdılar ki, Mollanın eşşəyi itib?

Qonşu deyir:

– Yox, eşitməmişəm.

Molla tez şükür eləyir ki:

– Allaha şükür. Deyəsən eşşəyin itməyi yalan olacaq. Əgər doğrudan itsəydi, camaat danışardı.

## SAQQAL İXTİYARI

Deyirlər ki, hərənin bir adəti olar. Mollanın da adəti bu imiş ki, çox tez-tez saqqalını tumarlarmış. Teymur Ləng incitmək məqsədi ilə bir gün ona deyir:

– Saqqal tumarlamağı sənə qadağan eləyirəm. Bir də tumarlasan saqqalını qırxdıracağam, əlini də kəsdirəcəyəm.

Molla Teymura yaxşı bələd imiş. Bilirmiş ki, çox da onun ipinin üstünə odun yığmaq olmaz. Odur ki, yazıq saqqalını tumarlamağı tərgidir.

Bu əhvalatdan bir müddət keçir. Günlərin birində Teymur Molladan soruşur:

– Molla, mən nə eləyim ki, əhali mənim ədalətimə inansın?

Molla deyir:

– Hər şeydən qabaq, qibleyi-aləm, hər kişinin saqqalının ixtiyarını özünə qaytar!

## MOLLANIN BOSTANINDA

Bir axşamüstü Molla öz bostanında qovun dərirmiş. Üç nəfər adam gəlib salam verir. Molla salamı aldıqdan sonra tez bir qovun kəsir ki:

– Buyurun, qovun yeyin!

Qonaqlar yeyib doyandan sonra dururlar ki, getsinlər, Molla deyir:

– Qovunlardan seçin, götürün, uşaqlara da aparın!

Elə Molla bunu decək qonaqlardan ikisi hərəsi iki qovun, üçüncüsü də əlləşə-əlləşə üç qovun götürür. Molla tez üç qovun götürən qonağa təzim edib deyir:

– Padşah sağ olsun! Sənə öz vəzir-vəkilinlə mənim bostanıma xoş gəlmisən!

Qonaq heyrətlə soruşur:

– Sən nədən bildin ki, mən padşaham, bunlar da vəzir-vəkil?

– Müftəxorluğunuzun dərəcəsinə görə.

## TAQSIR SƏNDƏDİR

Bir gün Teymur Ləng ova gedəndə Mollanı da özü ilə bərabər aparır. Hamı atlanır. Mollanı da arıq, tənbəl bir yabıya mindirirlər. Molla taytıya-taytıya düşür bunların yanına. Qayıdanbaş möhkəm bir yağış başlayır. Ova gedənlər hərə öz atını vurub aradan çıxır. Molla atı nə qədər vurursa, görür yox, at heç iti yerimək fikrində deyil. Yağış da

göydən elə tökür ki, day nə cürə... Molla yavaşca paltarını soyunub qoyur altına, atı buraxır öz kefinə.

Teymurgil qaçıb girirlər bir mağaraya. Molla gəlib mağaraya çatana qədər yağış kəsilir. O, çıxardıb paltarını geyinir, gəlir mağaraya. Teymur baxır ki, hamı suyun içindədir, amma Mollanın paltarları qupqurudur.Təəccüb eləyib soruşur:

– Molla, bu necə işdir? Sən deyəsən heç islanmayıbsan?

Molla deyir:

– Niyə, belə yorğa atın üstündə də adam islanar? Bayaq qulaqlarını şəklədib, bir su içimində məni götürüb yağışdan çıxartdı.

Evə qayıdan kimi Teymur əmr eləyir ki, atı baş tövlədə bağlasınlar.

Bir neçə gündən sonra yenə də hara isə bir yerə getməli olur. Haman atı minir. Bir az gedəndən sonra yağış başlayır. Teymur atı ha vurur, at yerindən tərpənmir ki, tərpənmir. Qərəz evə gəlib çatana kimi Teymur suya düşmüş cücəyə dönür. Evə gircək Mollanı çağırtdırır ki:

– Bu nədir? Mənə yalan deyirsən? Məni oynadırsan?

Molla soruşur:

– Nə olub, qibleyi-aləm?

Teymur deyir:

– Nə olacaq? Yalandan atı təriflədin, islanıb cücəyə dönmüşəm.

Molla gülə-gülə deyir:

Taqsır məndə də deyil, atda da, qibleyi-aləm! Taqsır sənin özündədir. Sən niyə mənim kimi paltarlarını çıxardıb yağış kəsənə kimi altında saxlamırdın ki, belə islanmış cücəyə də dönməyəsən.

## HAMINIZIN DƏRDİNİ ÇƏKİRƏM

Şəhərin hakimi Molla Nəsrəddinə özünün ən qorxulu düşməni kimi baxarmış. Bütün fikri-zikri bu imiş ki, bir fürsət tapıb Mollaya pislik eləsin.Amma hər nə hiylə qurarmışsa, Molla işin içindən elə məharətlə çıxarmış ki, hakim özü axmaq vəziyyətdə qalarmış.

Günlərin birində Mollanın eşşəyi ölür. Hadisə Mollaya o qədər təsir eləyir ki, kişi əməlli-başlı yasa batır. Nə dinir, nə danışır, elə dərd çəkir. Şəhərin hakimi məsələdən xəbərdar olur. Heç olmazsa Mollaya

sataşmaq üçün yaxşıca fürsət düşdüyünə sevinir. Adam göndərib Mollanı hüzuruna çağırtdırır.Salamdan sonra yalandan qaş-qabağını sallayıb deyir:

– Bu nə bədbaxtlıqdır sənə üz verib, ay Molla!? Deyirlər canından artıq istədiyin, özünə layiq bir eşşəyin var imiş, ölüb... Bəs bizim kimi dostlara niyə xəbər verməmisən?

Molla başa düşür ki, hakim onu təhqir eləmək məqsədilə çağırıb. Heç özünü pozmayıb deyir:

– Siz haqlısınız, hakim ağa! Mən doğrudan da o eşşəyi çox istəyirdim. O, mənə həm eşşək idi, həm at, həm də sizdən yaxşı olmasın, gözəl bir dost idi. Yazıq elə birdən-birə azarladı, ömrünü bağışladı sizə.

Hakim baxır ki, Molla yenə də onu üstələdi. Yanına çağırmağına da peşman olur. Bir təhər başdan eləmək üçün deyir:

– Çox da fikir eləmə! Dünyanın vəfası budur. Hamımız o yolun yolçusuyuq da... Nə etmək olar ki?

Molla deyir:

– Əşi, siz sağ olun! Allah onun ömründən kəssin, calasın sizin kimi dostların ömrünə. O necə deyərlər, torpağı sanı yaşayasan. Ancaq mən də elə tək bircə eşşəyin dərdini çəkmirəm ki?.. Bilirəm ki, siz hamınız o yolun yolçularısınız, odur ki, elə hamınızın dərdini birdən çəkirəm.

## DAŞ DAŞ ÜSTƏ QALMAZDI

Deyirlər ki, Mollanın anadan olduğu kənd çox gözəl imiş. Çox gözəl havası, cürbəcür suları, qəşəng bağları, bağçaları var imiş.

İsti yay günlərinin birində Molla eşidir ki, şəhərin hakimi vaxt keçirmək üçün haman kəndə gəzməyə gedib. Qalır kəndin qeydinə ki, görəsən hakimin bu vaxt keçirməyi kəndə nəyə başa gələcək?

Bir həftə keçir. Molla eşidir ki, hakim qayıdıb gəlib. Durub hakimin yanına gedir. Baxır ki, hakimin keyfi çox sazdı.

Salam-kəlamdan sonra Molla hakimdən soruşur:

– Yaxşı, hakim ağa necə keçdi? Razı qaldınmı?

Hakim deyir:

– Bilirsən necə yaxşı keçdi... Heç bilmədim ki, bir həftə necə gəldi, necə keçdi? Bir də baxdım ki, qurtarıb. Bax, birinci gün kənddə böyük bir yanğın oldu, kəndin tamam yarısı yandı. Camaat elə qışqırıb

qaçırdı ki, adamın gülməkdən qarnı cırılırdı. Hətta bir neçə adam da yandı.İkinci gün bir qudurmuş it on-on beş nəfərəcən adam qapdı. Özün fikirləş gör nə qiyamət olar da... Ləzzət verdi. Sabahısı bir sel gəldi, bir sel gəldi, daha nə deyim... Təzə biçilmiş buğdalar suyun içində üzürdü, onların dalınca adamlar özləri də üzürdülər. Çoxlu adam da apardı. Dördüncü gün bir kəndli dəli oldu, beş-altı adam öldürdü. Beşinci gün bir dam uçdu, bütün külfət qaldı altında. Ölən, qolu sınan, başı əzilən. Altıncı gün bir arvad özünü boğub öldürdü... Axır ki, deməynən başa gələn deyil. Başqa cür keyf çəkdik. Mən ömrümdə belə keyf görməmişdim.

Molla hakimin sözlərinə qulaq asıb deyir:

– Yaxşı ki, bir həftəyə gəlibsən. Bir az da qalsaydın kənddə daş daş üstdə qalmazdı.

## QURTARAN DEYİLDİ

Günlərin birisində Molla hamama gedir. Keyfi kök, hamam isti, xəznənin içində yavaş-yavaş zümzümə eləməyə başlayır. Oxuduqca səs düşür xəznəyə, Mollanın özünə də ləzzət verir. Axırda Molla öz-özünə deyir:

– Balam, mənim elə ağıllı-başlı səsim var imiş ki...

Hamamdan çıxıb birbaş gedir şəhər hakiminin yanına ki:

– Gəlmişəm ki, sənin üçün oxuyam.

Hakim deyir:

– Buyur oxu, görək necə oxuyursan...

Molla deyir:

– Ancaq mən elə-belə oxuya bilmərəm. Mənim oxumağım üçün gərək burada yarıya qədər içi su ilə dolu bir hamam xəznəsi ola.

Hakim deyir:

– Balam, biz hamam xəznəsini necə gətirək bura?..

Çox götür-qoydan sonra axırda yarıya qədər su ilə dolu bir küp gətirirlər. Molla başını küpün içinə salıb başlayır oxumağa. Hakim Mollanın səsini eşitcək qulaqlarını tutub nökərlərə əmr edir ki:

– Küpün suyu qurtarana qədər əlinizi isladıb Mollanı vurun!

Nökərlər başlayırlar Mollanı döyməyə. Hər şillədən sonra Molla əllərini göyə qaldırıb Allaha şükür eləyir. Axırda hakim soruşur:

– Molla, bu nə şükürdür eləyirsən?

Molla deyir:

– Şükür eləyirəm ki, nə yaxşı xəznəni buraya gətirmək mümkün olmadı, yoxsa onun suyu heç qurtaran deyildi.

## BEŞ-ON ŞAHIYA GEDƏRƏM

Yaz ağzı Molla bazardan bir ikicanlı keçi alır ki, uşaqlarını dolandırsın. Eşşəyi minir, keçinin də ipini eşşəyin palanına bağlayıb salır dalına, düzəlir yola. Oğrular işi belə görüb düşürlər Mollanın dalına. Bir az gedəndən sonra, elə ki, gəliş-gediş az olan küçələrə çatırlar, oğrulardan biri yaxınlaşıb keçini açır, boynundakı zınqırovu çıxarıb eşşəyin quyruğuna bağlayır, özünü götürüb əkilir. Mollanın işdən xəbəri olmur. Bir qədər də gedəndən sonra ikinci oğru Mollanın qabağını kəsir ki:

– Salam, Molla əmi! Bu nədir? Zınqırovu eşşəyin quyruğuna niyə bağlamısan?

Molla dönüb baxır ki, keçi yoxdur. Bir əli olur, bir başı. Oğru deyir:

– Bu saat bir kişi buradan bir keçi aparırdı. Yəqin elə sənin keçin imiş... Darıxma, ver eşşəyi mən saxlayım, sən yüyür dalınca, al gətir!

Molla eşşəyi ona tapşırıb keçinin dalınca gedir. Bu oğru də eşşəyi götürüb əkilir.

Yazıq Molla nə qədər ora-bura qaçırsa, keçidən bir əsər-əlamət tapa bilmir. Kor-peşman qayıdıb görür ki,eşşək də yoxdu. Başa düşür ki,bu da oğru imiş, onu aldadıb. Daha eşşəkdən də əlini üzüb düzəlir yola. Az gəlir, çox gəlir, gəlib çıxır bir quyunun başına.Baxır ki,bir nəfər burada oturub ağlayır. Soruşur:

– Nə olub? Niyə ağlayırsan?

Kişi deyir:

– Mən bir sonsuz, övladsız adamam. Özümün də yaxşı varım-karım vardı. Fikirləşdim ki, köçüm gedim ömrümün qalanını böyük şəhərlərdə işləyim. Odur ki, varımı-yoxumu satıb elədim qızıl, yığdım bir torbaya, düşdüm yola. Bu quyunu burada qazanı görüm dərin yatsın. Elə, bax, buraya çatanda ayağım ilişdi bu daşa, yıxıldım, torba

əlimdən düşdü quyuya. İndi qorxudan quyuya düşə bilmirəm. Qalmışam başıma döyə-döyə.

Molla da bunun yanında əyləşib, səsini qatır onun səsinə, başlayır ağlamağa. Kişi soruşur:

– Bəs sən niyə ağlayırsan?

Molla başına gələn əhvalatı danışır. Kişi deyir:

– Ağlamaqdan bir şey çıxmaz. Dur, şallarımızı bağlayaq biri-birinə, mən səni sallayım bu quyuya. Mənim torbamı tapıb çıxarsan, sənə o qədər qızıl verərəm ki, beş eşşək alarsan, bir sürü keçi.

Molla razılaşır. Şalları açıb bağlayırlar bir-birinin ucuna. Kişi deyir:

– Paltarını soyun! Yoxsa islanar, sonra evə gedib çatanacan soyuq dəyər, azarlarsan.

Molla paltarını soyunur, lüt anadangəlmə şalı belinə bağlayıb quyuya düşür. Kişiyə də elə bu lazım imiş. Yavaşca şalın ucunu bağlayır daşa, Mollanın paltarlarını yığışdırıb əkilir.

Molla quyuda heç bir şey tapa bilmir. Nə qədər çağırırsa, səsinə səs verən də olmur. Əlləşib-vuruşub birtəhər quyudan çıxır. Baxır ki, lələ köçüb, yurdu boş. Paltarları da bu aparıb. Başa düşür ki, bu da oğru imiş. Əlinə bir ağac alıb özünü qoruya-qoruya qaçmağa başlayır. Bu dəfə də şəhərin hakimi öz adamları ilə onun qabağına çıxır. Molla bunları görcək ağacı əlindən tullayır, uzanır, gözlərini də yumub qışqırır ki:

– Gəlin, gəlin, mənəm. Səhərdən sizi gözləyirəm.

Hakim Mollanı tanıyır. Soruşur:

– Ay Molla, nə olub?

Molla deyir:

– Guya ki, bilmirsən nə olub?.. Özünü lotuluğa qoyma!.. Dostlarının biri keçimi apardı, biri eşşəyimi apardı, biri paltarımı apardı. Bilirəm, özün də gəlirsən ki, özümü oğurlayasan. Darıxma, gəl apar, yenə də beş-on şahıya gedərəm.

## EŞŞƏYİN HƏMCİNSİ

Günlərin birində Molla eşşəyini minib şəhərə gedirmiş. Yolda kəndxuda onun qabağına çıxır. Ələ salmaq məqsədilə eşşəyi göstərib soruşur:

– Yenə iki mehriban dost səhər tezdən qol-boyun olub hara gedirsiniz?

Molla tez eşşəkdən düşüb deyir:

– Yaxşı ki, sən bu sualı verdin, yoxsa heç bilmirəm ki, necə olacaqdı.

Kəndxuda soruşur:

– Nə necə olacaqdı?

Molla deyir:

– Biz özümüz öz arzumuzla getmirik. Səhər tezdən arvad bizim ikimizi də oyatdı ki, durun ayağa, getməli yer var. Mənim də yadımdan çıxdı, heç arvaddan soruşmadım ki, hara gedəcəyik. İndi yaxşıdı ki, sən soruşdun, yadıma düşdü.

Kəndxuda gülüb deyir:

– Yaxşı iş yarıdan kişisən.

Molla eşşəyin qulağını kəndxudanın əlinə verib deyir:

– Siz bir balaca burda söhbət eləyin, mən arvaddan soruşum gəlim.

Sonra eşşəyi göstərib deyir:

– Yazıq elə çoxdan arzu eləyirdi ki, bir sənin kimi həmcinsi ilə görüşüb dərdləşsin.

## MƏN GEDİM DEYİM

Günlərin birində Mollanın arvadı başqa arvadlarla bərabər göldə paltar yuyurmuş. Bu tərəfdən şəhərin hakimi də öz yaxın adamları ilə buradan keçirmiş Göldə başı-gözü açıq arvadları görüb dayanır, başlayır bunlara baxmağa.Mollanın arvadı işi belə görəndə ağzını açıb gözünü yumur; dişinin dibindən çıxanı bunlara deyir. Hakim görür ki, yox əgər bir az da dayansa, lap biabırçılıq olacaq. Arvadın nam-nişanını bilib çıxıb gedir.

Oradan-buradan öyrənir ki, arvad Mollanın arvadıdır. Sabahısı Mollanı yanına çağırıb soruşur:

– Molla, filan arvad sənin arvadındır?

Molla deyir:

– Bəli, mənim arvadımdır, necə?

Hakim deyir:

– Get, onu buraya gətir!

Molla soruşur:
– Hakim, başına dönüm, nəyinə lazımdır mənim arvadım?
Hakim deyir:
– Ona sözüm var, get tez gətir!
Molla deyir:
– Hakim, qurbanın olum! Cəsarət eləyirəm... Olmaz ki, o sözü sən mənə deyəsən, mən gedim arvadıma deyim?

## ŞƏHƏRİN TÜKÜ

Deyirlər ki, Mola birinci dəfə kənddən şəhərə gələndə başına çox qəribə əhvalatlar gəlir. Bu əhvalatlardan biri də belə olur:
Molla şəhərin qalalarını, bürclərini görüb heyran-heyran baxırmış. Bunu görən məmurlardan biri Mollanı ələ salmaq məqsədilə yaxınlaşıb ondan soruşur:
– Nə olub, a kişi!? Dəvə nalbəndə baxan kimi nə gözünü zilləyib baxırsan?
Molla deyir:
– Vallah, mən kənd adamıyam. Şəhərə birinci dəfədi gəlirəm. Baxıram ki, evlər, küçələr, bağlar, dükanlar, hər şey var. Özləri də çox gözəldilər. Amma, bax, şəhərin ora-burasından göyə dikələn bu şeylər nədi, başa düşə bilmirəm.
Məmur yaxındakı bürclərdən birini göstərib deyir:
– Niyə başa düşmürsən? Bunlar bizim şəhərin başının tükləridi, belə dik-dik durublar.
Molla başa düşür ki, məmur onu ələ salır. Bir ona baxır, bir dönüb bürcə baxır, bilmir nə desin. Elə bu dəqiqədə şəhər hakimi beş-on adamla bürcün üstünə çıxıb ətrafa baxmağa başlayır. Molla məmura deyir:
– Şəhərinizə sözüm yoxdu, amma belə ki mən görürəm, deyəsən şəhərinizin başını təmiz saxlamırsınız.
Məmur soruşur:
– Niyə?
Molla hakimgili göstərib deyir:
– Bir bax, gör, bir tükün üstünə neçə bit dırmaşıb...

## AĞLINA GƏLMƏZ

Günlərin birində Molla evə gəlib baxır ki, içəridə oğru var. Oğru Molladan qorxur, Molla oğrudan. Bir müddət ikisi də donub qalırlar. Handan-hana oğru özünə gəlib qaçmaq istəyir. Molla çar-naçar atılır oğrunun üstünə. O, bunu yıxır, bu, onu yıxır, axırda Molla oğrunu üstələyir, ayaqlarını bağlayır, uzadır evin ortasına. Özü də gedir hakimin yanına ki, xəbər versin, gəlib tutsunlar.

Hakim Mollanı ətraflı danışdırıb əhvalatı öyrəndikdən sonra soruşur:

– Bəs indi oğrunun yanında kim var?

Molla deyir:

– Heç kim.

Hakim soruşur:

– Yaxşı, sən deyirsən ki, onun ancaq ayaqlarını bağlamısan, yanında da heç kəs yoxdur. O, indi ayaqlarını açıb qaçar ki...

Molla fikrə gedir. Görür ki, hakim haqlıdır. Deyir:

– Hakim ağa, sən tamam haqlısan. Ancaq bu ki mənim ağlıma gəlməyib, heç onun da ağlına gəlməyəcək. O da bizim yerlidir.

Doğrudan da gedib görürlər ki, ayaqlarını açıb qaçmaq oğrunun ağlına gəlməyib.

## BAŞ-GÖZ QALMAZDI

Molla bir gün bir qaba üç qoz qoyub Teymur Ləngə aparır. Yolda nəfsini saxlaya bilməyib qozların ikisini sındırıb yeyir, birini aparıb Teymura verir. Teymur bundan çox xoşlanıb Mollaya bəxşiş verir. Bir neçə vaxtdan sonra Molla yenə də Teymurdan bir şey qoparmaq məqsədilə bir pud çuğundur götürüb saraya gedir.Yolda dostlarından biri ona rast gəlib soruşur:

– Molla hara belə? O nədir?

Molla deyir:

– Vallah hamı deyir ki, Teymur Ləng pis adamdı. Amma mən ondan yaxşılıqdan başqa bir şey görməmişəm. Keçən dəfə ona bir dənə qoz aparmışdım. Mənə filan qədər bəxşiş verdi. İndi bir pud

çuğundur aparıram. Bilirəm, indi mənə o qədər bəxşiş verəcək ki, sayeyi-mərhəmətində kasıblığın daşını atacağam.

Dostu Mollaya deyir:

– Kaş sən fikirləşən kimi olsun. Amma mən qorxuram tərsinə ola. Hər halda, mən dünyagörmüş adamam. Sən gəl ona çuğundur aparma. Heç olmazsa, əncir apar. Əncir nübardır.

Dostunun sözü Mollanın beyninə batır. Gedib var-yox pulunu verib bir səbət yaxşı əncir alır, aparır Teymura. Teymur əncirləri görcək, əmr edir ki, hamısını Mollanın başına vursunlar. Fərraşlar əncirləri bir-bir Mollanın başına vururlar. Hər əncir dəyəndə Molla bir dəfə şükür eləyir. Axırda Teymur soruşur:

– Kişi nə şükür eləyirsən?

Molla deyir:

– Qibleyi-aləm sağ olsun! Mən sizə bir pud çuğundur gətirirdim. Yolda bir dostum rast gəlib əncir gətirməyi məsləhət gördü. İndi şükür eləyirəm ki, nə yaxşı o adam mənə rast gəldi. Yoxsa, səbətdəki çuğundur olsaydı, sənin sayeyi-mərhəmətində məndə baş-göz qalmazdı.

## ELƏ BİR ŞEY YOXDUR

Günlərin birində ordu böyükləri bir yerə yığılıb söhbət edirlər. Hər sərkərdə bir müharibədən danışır. Biri deyir:

– Biz filan yeri alanda əhali elə qaçırdı, şəhər odlar içərisində elə yanırdı ki, adama ləzzət verirdi...

Bir başqası deyir:

– Biz filan yerə hücum edəndə mindən artıq filimiz var idi. Toplar, tüfənglər gur-gur guruldayırdı... Bir qiyamət idi ki...

Sərkərdə söhbətdə ikən orada oturan uşaqların birindən bir səs çıxır. Sərkərdə uşağın bu hərəkətindən qəzəblənib qışqırır:

– O nədir, ədəbsiz?

Bütün bu vəhşiliklərə, bu canavarlıqlara qulaq asmaqdan təngə gəlmiş Molla deyir:

– Sizin topların səsindən qorxub. Elə bir şey yoxdur.

## HAKİMİN PALTARI

Bir gün şəhər hakimi Mollanı çağırıb deyir:

– Orada-burada ağzına gələn hərzə-hədyanı danışıb bizi biabır eləyirsən. Bunların hamısını sənə bağışlayıram. Amma gərək bunların əvəzində bu gecə bir şeir yazıb, sabah məclisdə oxuyasan.

Molla nə qədər deyir ki, "mən şair deyiləm", – hakim qulaq asmır.

Molla bilir ki, hakimin məqsədi onu şairlər məclisində qızartmaqdı. Gecəni oturub vəznsiz, qafiyəsiz, mənasız, tartan-partan bir şey qaralayır.

Səhər məclis yığılır. Məddah şairlərin hərəsi uzun bir qəsidə oxuyur. Hər qəsidə üçün hakim xələtlər verir, pullar bağışlayır. Növbə gəlib Molla Nəsrəddinə çatır. Molla heç özünü pozmadan qaraladığını oxuyur. Hamı dodaq büzür, gülür, istehza eləyir. Molla qurtarır. Hakim deyir:

– Çox gözəl yazıbsan. Elə doğrudan da öz adına layiqdi.

Sonra işarə eləyir.Fərraşlar bir eşşək palanı gətirirlər. Hakim deyir:

– Götür! Bu şerinə görə bu xələti də sənə hazırlatdırmışam.

Bütün məclis gülüşməyə başlayır. Molla heç halını pozmadan palanı götürür, sonra hakimə baş əyib deyir:

– Görürəm ki, mənim əsərim sizin lap ürəyinizdən olub, hakim ağa!

Hakim deyir:

– Elədi ki, var Molla! Bu gün burada oxunan əsərlər içərisində hamısından çox səninki xoşuma gəldi.

Molla deyir:

– And içmə, inanıram. Əgər elə olmasaydı, özünün ən yaxşı paltarını mənə bağışlamazdın ki...

## KƏNDXUDA

Lotular yenə də bir gün Mollaya sataşmaq məqsədilə onun eşşəyini oğurlayırlar, sonra da özünü inandırmağa çalışırlar ki, eşşəyi filan kənddə kəndxuda olub.

Molla deyir:

– İnanıram, qardaş! Çünki mən həmişə kəndxuda adı çəkəndə çərən dəymiş qulaqlarını şəkləyərdi. Görünür ki, elə o vaxtdan kəndxudalıqda gözü var imiş.

## ÜNVAN MƏSƏLƏSİ

Mollanın yenə də əli aşağı olur. Nə qədər əlləşir, vuruşursa, heç bir yerdən pul çıxara bilmir. Yazığın bir ümid yeri də yox imiş. Elə fikirli-fikirli bazarda gəzirmiş, bir də baxır ki, bir ovçu iki dənə dovşan satır. Mollanın o saat gözləri oynayır. Ovçuya yaxınlaşır, cibindəki axırıncı pulunu verib dovşanların ikisini də alır, evə gətirir. Arvad soruşur:

– Ay kişi, bunlar nədi?

Molla deyir:

– Arvad, dinmə! Bunlar pul tələsidi. İnşallah, bunların köməyilə bu gün şəhər hakiminin qulağını kəsəcəyəm.

Arvad soruşur:

– Necə?

Molla deyir:

– Bax, bu dovşanın birini bağlayıram bura. Sən dur ayağa, yaxşı bir plov bişir. Bağçadakı bostanımızdan da bir-iki dənə qovun dərib hazır saxla! Sonrası ilə işin yoxdur.

Arvad durur plov bişirməyə, Molla da dovşanın birini evdəki dirəyə bağlayır, birini də götürüb düz gedir şəhər hakiminin yanına. Salam-kəlamdan sonra deyir:

– Hakim ağa, mənim yaxşı bir dovşanım var. İllərlə zəhmət çəkib ona adam dili öyrətmişəm. İndi doğrusu budur ki, əlim aşağı düşüb, satmalı olmuşam. Ancaq istəmirəm ki, pis adama qismət olsun. Gətirmişəm sənə. Əgər istəyirsənsə pulunu ver, götür!

Hakim dovşana baxıb soruşur:

– Necə yəni adam dili öyrətmisən?

Molla deyir:

– Adam dili də... Mən onu elə öyrətmişəm ki, dediklərimi başa düşür, sonra da gedib evdə arvada deyir.

Hakim inanmır ki:

– Əşi, ola bilməz.

Molla deyir:
– Bu bir çətin iş deyil ki?.. İstəyirsən bu saat imtahan eləyək.
Hakim razılaşır.
Molla ağzını dovşanın qulağına tutub deyir:
– Gedərsən evə. Arvada deyərsən ki, yaxşı bir plov bişirsin, bir-iki dənə də qovun alsın. Bu saat hakimlə gəlirik evə.
Molla sözünü deyib dovşanı buraxır. Dovşan bayaq ha aradan çıxır. Bir az oradan-buradan söhbət eləyirlər. Molla deyir:
– Di dur gedək!
Hakim durub düşür Mollanın yanına, gəlirlər evə. Baxırlar ki, plov qazanı ocağın üstündə, qovunlar evin küncündə, dovşan da bağlanıb dirəyə.
Molla hakimin yanında dovşana işarə eləyib arvaddan soruşur:
– Arvad, dovşan gəlib çıxdı.
Arvad o saat məsələni başa düşüb deyir:
– Gəldi. Mən də dediklərini eləmişəm.
Hakim tutur Mollanın yaxasından ki:
– Neçəyə deyirsən dovşanını?
Bir az aşağı, bir az yuxarı, Molla dovşanı çox böyük bir məbləğə satır hakimə.
Ancaq iş Mollanın istədiyi şəkildə olmur. Hakim elə o saat dovşanı işlətmək istəyir. İpini açıb, qulağına deyir:
– Gedərsən bu saat bizim evə. Arvada deyərsən ki, Molla ilə axşam evə gələcəyəm. Yaxşı bir axşam yeməyi hazırlasın.
Molla nə qədər edir ki:
– Əşi, qoy qalsın, sabah gedərik.
Hakim razı olmur ki:
– Yox. Mən gərək bu gün sənə yaxşı bir şam verəm.
Hakim dovşanı buraxır. Dovşan bir dəqiqədə gözdən itir. Hakim sevincək əyləşir ki:
– Gətir indi plovu yeyək, şamı da bizdə elərik.
Bəli, plovu çəkib gətirirlər. Amma Mollanı fikir götürür ki, axşam nə eyləyəcək?
Qərəz, axşam gəlib çatır. Molla nə qədər çalışır ki, bir təhər yaxasını qurtarıb bir neçə günlüyə ayrı bir yerə əkilsin, hakim əl çəkmir. Tutub güclə evlərinə aparır. Gəlib baxırlar ki, hakimin arvadı qul-qarabaşla bağçada gəzir. Hakim deyir:

– Arvad, dovşan gəldi?

Arvad deyir:

– Nə dovşan? Dovşan nədir?

Hakim deyir:

– Bir dovşan gəlib demədi ki, axşama qonağım var?

Arvad bir az geri çəkilir ki, yəqin kişinin başına hava gəlib. Soruşur:

– A kişi, dovşan nədi? Sən azarlayıb eləməyibsən ki?..

Hakim əhvalatı arvada danışır. Xoşbəxtlikdən arvad hakimdən də ağılsız imiş. Başlayır ki:

– Nə yaxşı dovşan imiş... Mənim elə bir dənə cəld aparıb-gətirən dovşanım olsaydı, bütün arvadlar mənə həsəd aparardılar... Bəs neylədin dovşanı?

Hakim deyir:

– Göndərdim evə ki, sənə xəbər versin də...

Ər-arvad çənə-boğazda olanda Mollanı fikir götürür ki, işin içindən necə çıxsın. Hakim Mollanın belə fikirli olmağından şübhəyə düşən kimi olur. Dönür ona ki:

– Hə, Molla, de görək bəs dovşan hanı?

Bu dəmdə hakimin arvadı ərinə deyir:

– Ay kişi, birdən dovşan bizim evimizi tanımaz, başqa yerə gedər ha...

Hakimin arvadı elə bil ki, Mollanın ürəyindən xəbər verir. Tez hakimdən soruşur:

– Yaxşı, hakim ağa, sən onu evə göndərəndə evinizin yerini dedin?

Hakim deyir:

– Yox, yadımdan çıxdı, heç demədim.

Arvad düşür hakimin üstünə ki:

– Sən elə əvvəldən axmaqsan da... Gül kimi dovşanı əlimizdən çıxartdın.

## BİZİM ÜÇÜN ÇƏKƏSƏN

Molla bir gün çöldə yer sürürmüş. Birdən cüt ilişir bir daşa. Molla daşı qaldırıb baxır ki, altında bir küp var, içi dolu qızıl. Yazıq qalır məəttəl ki, nə eləsin. Əyər aparıb hakimə təhvil verməsə, işdi bəlkə son-

radan eşitdi, bildi, tutub dərisinə saman təpəcək. Aparıb, verməyə də ürəyi gəlmir. Bir çox fikir-xəyaldan sonra küpü götürüb gəlir evə. Əhvalatı arvada danışıb deyir:

– Arvad, bir az çörək ver yeyim, aparım küpü verim hakimə. Sonra bilər, külümüzü göyə sovurar.

Arvad nə qədər eləyir ki:

– Kişi, hakimə niyə verirsən? Haradan biləcək? Qoy yavaş-yavaş özümüz xərcləyək...

Molla razı olmur. Axırda arvad gətirib Mollaya çörək verir. Elə ki, onun başı qarışır yeməyə, tez çuvalın içindən küpü çıxardıb yerinə yekə bir daş qoyur, ağzını da bağlayır. Molla çörəyini yeyib durur ayağa, çuvalı dalına atır, birbaş gəlir hakimin yanına. Girir içəriyə, baxır ki, hakim əyləşib, yanında da bir neçə başqa adam var.

Hakim soruşur:

– Nə var, Molla? Nə əcəb?

Molla heç bir söz demədən çuvalı ağzı aşağı tutub silkələyir. Bir də baxır ki, içindən yekə bir daş düşdü. Hakim və başının adamları təəccüblə Mollanın üzünə baxırlar. Molla işi başa düşür, tez özünü yığışdırıb deyir:

– Hakim ağa, hökumətin müəyyən çəki daşları var. Amma bu daşlardan bizim kəndə heç gəlib çıxmayıb. Elə hərə istədiyi daşla çəkir. Biz kənd camaatı xahiş eləyirik ki, zəhmət də olsa, bu daşı bizim üçün çəkəsən.

## MƏHƏBBƏT

Bir gün bir xəsis tacir Molladan soruşur:

– Molla, bu dünyada ən çox kimi sevirsən?

Molla deyir:

– Mənim qarnımı doyuranı.

Tacir deyir:

– Demək, əgər mən sənin qarnını doyursam, məni hamıdan çox sevərsən, eləmi?

Molla deyir:

– Məhəbbət ki var, əgər ilə, məgər ilə olmaz. Gərək göz görə, ağız dada, qarın doya, könül sevə.

## ƏNCİR MÜRƏBBƏSİ

Günlərin birində dövlətlilərdən biri Mollanı nahara qonaq çağırır. Elə ki xörək ortalığa gəlir, Molla baxıb deyir:

– Xörək çox yaxşı xörəkdir, heyf ki, mürəbbəsi çatışmır. Bunun yanında bir əncir mürəbbəsi də olsaydı, lap nurələnnur olardı.

Ev sahibi nökərə deyir:

– A gədə, get de, əncir mürəbbəsi versinlər.

Nökər gedir. Molla ha gözləyir, mürəbbə gəlmir. Ev sahibinin də yadından çıxır. Xörəyi yeyib qurtarırlar. Ev sahibi Mollaya deyir:

– Molla, sən çox yaxşı qəzəl oxuyursan. Xahiş eləyirəm Hafizdən bir qəzəl deyəsən, qulaq asaq.

Molla qəzəli başlayır, amma qəsdən ortada ən gözəl beytləri demir. Qurtarandan sonra ev sahibi deyir:

– Molla, yaxşı oxudun. Amma demə ki, başa düşmədi. Qəzəlin ən yaxşı beytlərini yaddan çıxarıbsan.

Molla deyir:

– Vallah bu dünya ki var, gör-götür dünyasıdı. Mən baxdım ki, sizdə söz çox tez yaddan çıxır. Dedim yəqin sizin evin qayda-qanunu belədi.

Ev sahibi soruşur:

– Necə?

Molla deyir:

– Sənin verdiyin bu xörəyin ən gözəl beyti əncir mürəbbəsi idi. Mən baxdım ki, mürəbbə sənin də yadından çıxdı, nökərin də. Mən də qəsdən qəzəlin mürəbbə yerini demədim. İnşallah, mürəbbə yada düşüb gələndə, qəzəlin də həmən beytləri yada düşər.

## QURBAN OLSUN HAKİMƏ

Günlərin birində Mollanı mötəbər bir adamın evinə qonaq çağırırlar. Molla baxır ki, şəhərin hakimi də buradadır. Özü də ev sahibi hakimə bir yaltaqlanır, bir quyruq bulayır ki, gəl görəsən.

Süfrə açılır. Ev sahibi şəhər hakimini lap yuxarı başda əyləşdirir. Molla baxır ki, bütün qonaqlara bir cür xörək gəldi, amma hakimə xüsusi olaraq hazırlanmış başqa bir xörək gətirdilər. Molla yavaşca öz

qabağındakı xörəyi hakimin qabağına itələyir, onun qabağına qoyulmuş xörəyi öz qabağına çəkir. Ev sahibi tez əl-ayağa düşüb deyir:

– Molla, o xörəyə sən əl vurma! Bilirsənmi? O bir az birtəhər xörəkdi.

Molla deyir:

– Elə mən də bilirəm, ona görə yeyirəm. Bu birtəhər yeməyi hakim ağa yeyər sonra Allah eləməsin, azarlayar, başına bir iş-zad gələr, şəhər qalar hakimsiz. Amma mən ölsəm də, eybi yoxdu. Bir canım var, qoy o da qurban olsun hakimə.

## KİTABDAN KİTABA SALAR

Günlərin birində Mollanın inəyi itir. Yazıq küçələrə düşüb car çəkir, özü də tez-tez deyir:

– Kimə rast gəlir-gəlsin, qazıya rast gəlməsin.

Soruşurlar ki:

– Ay Molla qazıdan niyə belə qorxursan ki? Rast gəlsə nə olar?

Molla deyir:

– Sizin savadınız yoxdu, bilmirsiniz. Mən qanun kitablarına bələdəm. İnək qazıya rast gəlsə, salacaq o qanun kitablarına, halal eləyib inəyi yeyəcək, çox danışsam, hələ özümü də cərimə eləyəcək.

## MOLLANIN ŞAHİDLİYİ

Hələ cavan vaxtlarında bir müddət Mollanın əli çox aşağı düşür. Elə olur ki, lap gündəlik çörək puluna möhtac qalır. Belə günlərin birində birisi gəlir ki:

– Mən bir adamın boynuna şər atmışam ki, mənə yüz pud buğda borcludur. Gəl gedək qazının yanına, mənə yalandan şahidlik elə, sənə on manat pul verərəm.

Molla deyir:

– Yox, qardaş, yüz pud buğda üçün on manat azdı. İyirmi manat ver, gedim.

Kişi deyir, Molla deyir, axırda kişi on beş manata razı olur. Mollanı götürüb qazının yanına gətirir.

Qazı qabaqca tələbkarı danışdırır, axırda Molladan soruşur:
– Sən şahidsənmi?
Molla deyir:
– Bəli.
Qazı deyir:
– Özün gözünlə görübsənmi?
Molla deyir:
– Bəli.
Qazı soruşur:
– Yaxşı, de görüm, gözünlə nəyi görübsən?
Molla deyir:
– Gözümlə görmüşəm ki, bu kişi bu kişiyə yüz pud arpa borc verdi.
Qazı deyir:
– Bəs bu deyir buğda, sən deyirsən arpa?...
Molla deyir:
– Yaxşı eləyib deyirəm arpa... Xəsislik eləməyəydi, buğda deyəydim.
Qazı görür, deyəsən, burada iş var. Soruşur:
– Nə xəsislik?
Molla deyir:
– Mənim bu günlər əlim aşağı idi. Bu kişi gəldi ki, gəl gedək mənə yalandan şahidlik elə, sənə on manat pul verərəm. Mən iyirmi manat istədim. O, on beş manatdan yuxarı qalxmadı. Mən də ürəyimdə dedim ki, indi ki o xəsislik eləyir, mən də buğda əvəzinə arpa deyəcəyəm.

## MOLLANIN TƏRLANI

Bir axşamüstü Molla çöldən qayıdırmış. Bir də görür ki, küçədə iki uşaq bir-biri ilə dalaşır. Yaxınlaşıb baxır ki, uşaqların əllərində bir qarğa var, o çəkir o tərəfə ki, mənimdi, bu çəkir bu tərəfə ki, mənimdi. Mollanın qarğaya yazığı gəlir. Soruşur:
– Nə olub? Niyə savaşırsınız?
Uşaqlardan biri deyir:
– Mən gördüm ki, bu qarğa uçub qondu, bax, bura, yuvasına. Buna dedim. Sonra yatdım ayağının altında, çıxıb tutdu. İndi deyir qarğa mənimdi.

O biri uşaq da deyir:

– Əlbəttə, mənimdi. Bacarırdın özün tutaydın da...

Molla baxır ki, uşaqlar qarğanı öldürəcəklər. Bir-iki şahı pul verib, qarğanı əllərindən alır, deyir:

– Qarğa yazıqdı, verin buraxım, uçsun getsin. Əvəzində götürün bu pulu, gedin halva alın yeyin!

Uşaqlar pulu alıb sevinə-sevinə, halvaçı dükanına tərəf qaçırlar. Molla da qarğanı buraxır.

Qarğa bir-iki qanad vurub qonur yaxında otlayan bir camışın belinə. Molla baxıb deyir:

– Afərin qarğa! Lap alıcı quş imiş ki... Gör nə boyda şikar ovladı.

Yavaşca yaxınlaşıb qarğanı tutur, alıcı quş kimi əlinə alır, camışı da qabağına qatıb evə gətirir.

Qaranlıq düşənə yaxın camış sahibi soraqlaşa-soraqlaşa gəlib çıxır ki:

– Ver mənim camışımı!

Molla deyir:

– Camış sənin niyə oldu? Dədə-babadan həmişə bizim bu yerlərdə quş buraxıb şikar ovlayıblar. Bu da mənim şikarımdı, quşumu buraxmışam, ovlayıb.

Kişi deyir, Molla deyir, işləri düşür qazıya. Qazı Mollanı çağırtdırır ki:

– Niyə kişinin camışını vermirsən?

Molla deyir:

– Qazı ağa, xoşbəxtlikdən burada heç kəs yoxdu, ikimizik. Qulaq as, gör, nə deyirəm. Hesablamışam ki, bu camışın südündən ayda on girvənkə yağ çıxacaq. Bu yağın hər ay beş girvənkəsi sənin, beş girvənkəsi mənim olsa, o kitablara salıb mənim qarğamı tərlan, bu camışı da şikar eləyə bilərsən, ya yox?

Qazı deyir:

– Sən get, yağı hazırla!

Molla çıxıb gedir. Bir neçə gündən sonra qazı camış sahibini də çağırır, Mollanı da. Kitabdan-kitaba, qanundan-qanuna salıb, sübut eləyir ki, camış çatır Mollaya.

Günlər dolanır, həftələr keçir, ay gəlib başa çatır. Qazı Mollaya sifariş göndərir ki, yağı gətirsin.

Molla camışın nəcisindən bir küpə doldurur, ağzına da iki barmaq qalınlığında yağ qoyub gətirir qazıya.

Qazı deyir:

– Molla, o biri aylar yadından çıxar ha...

Molla deyir:

– Arxayın ol! Hər ay bu yağdan belə bir küpə gətirəcəyəm yeyəsən.

Molla çıxıb gedən kimi qazı küpəni açır. Bir barmaq, iki barmaq... Bir barmaq da vurub ağzına qoyanda baxır ki, dadı ayrı cür oldu. Baxıb görür nə... Küpə doludu camış nəcisi ilə. Hirs vurur qazının təpəsinə. Elə o saat adam göndərib Mollanı çağırtdırır. Molla gəlir. Qazı deyir:

– Molla sən indi işi o yerə çatdırıbsan ki, mənə camış nəcisi yedirdirsən?

Molla deyir:

– Əvvəla, bunu mən yedirtmirəm, qazı ağa, sən özün yeyirsən. İkincisi də, sən onu indi yemirsən. Sən onu o gün yedin ki, kitabdan-kitaba, qanundan-qanuna salıb, qarğanı tərlan elədin, camışı şikar.

## CÜCƏLƏRİM DANIŞIR

Molla Nəsrəddin şəhərin bütün mollalarını təngə gətirmişdi. Axırda mollalar yığışıb onun əlindən Teymur Ləngə şikayət edirlər. Molla baxır ki, bu işin axırı yaxşı olmayacaq. Çox götür-qoydan sonra özünü verir vəzirin yanına, yanı cücəli bir toyuq da rüşvət aparır ki, onu Teymur Ləngin hüzurunda müdafiə eləsin.

Sabahısı gün şikayət edən mollalar və Molla Nəsrəddin Teymur Ləngin əmrilə hüzura gəlirlər. Mollalar şikayətlərini eləyirlər, qurtarandan sonra vəzir irəli yeriyib, Molla Nəsrəddini Teymura tərifləməyə başlayır. Teymur Ləng vəzirə də qulaq asandan sonra üzünü Molla Nəsrəddinə tutub deyir:

– Yaxşı, de görüm, sən öz günahsızlığın barədə nə danışacaqsan?

Molla cavab verir:

– Şah sağ olsun! Mənim danışmağıma ehtiyac yoxdur, mənim toyuğum cücələri ilə bərabər lazımi qədər mənim xeyrimə danışdı.

## O QARA KİTABI VER, BAXIM GÖRÜM

Molla şəhərdə qazı olduğu günlərin birində keşikçi onun yanına gəlib deyir:

– Qazı ağa, küçədə bir öküz vurub başqa bir öküzü öldürdü. Qanun nədir? Nə eliyək?

Molla deyir:

– Get, ikisinin də sahibini çağır, gəlsinlər bura:

Keşikçi deyir:

– Vuran öküz sizinki idi, ölən öküz də sizin qonşulardan filankəsin.

Molla deyir:

– Hə?.. Yaxşı, nə eləmək olar ki? Öküz vurub da... Öküzdən qanbahası almaq olmaz ki...

Keşikçi deyir:

– Belə mən çaşdım ey!.. Vuran öküz qonşununku idi, ölən öküz sizinki.

Molla bunu eşitcək deyir:

– Hə?.. Yox, onda deyəsən iş bir az dərin oldu. O qara kitabı ver, baxım görüm.

## HAKİMİN BORCUDUR

Bir-birinə yapışıq iki evdə iki qonşu yaşayırmış. Bir gün səhər durub görürlər ki, evlərinin arasındakı balaca açıqlıq yerin düz ortasında bir it xarabçılıq eləyib. Qonşulardan heç biri onu təmizləmək istəmir. Axırda bunların arasında dava düşür. Hər ikisi şəhər hakiminə şikayətə gedirlər.

Hakimin Molla Nəsrəddinlə arası yox imiş. Ona görə də bu işi həll eləməyi Mollaya həvalə eləyir. Mollanı çağırırlar, məclis qurulur. Hakim istehza ilə üzünü Mollaya tutub deyir:

– Molla, bu kişilərin bir davası var, çox mühüm olduğuna görə səni çağırtdırmışam. Belə şeyləri sən yaxşı həll edərsən.

Molla qonşuların şikayətinə qulaq asır, başa düşür ki, hakim onu təhqir etmək məqsədilə buraya çağırtdırıb. Halını heç dəyişmədən üzünü şikayətçilərə tutub deyir:

İtin xarabçılıq elədiyi yer küçədir. Yəni nə sənin deyil, nə də onun. Küçə padşahındır. Onun da bu şəhərdə nümayəndəsi hakimdir. Onun üçün də oranı təmizləmək nə sənə düşər, nə də ona. Oranı təmizləmək hakimin borcudur.

## NƏ HIR QANIR, NƏ DƏ ZIR

Molla Nəsrəddin şəhərdə hakim işlədiyi günlərin birində yanına iki nəfər şikayətçi gəlir. Bunların arasında mübahisəli bir məsələ var imiş. Molla birincisinin şikayətinə diqqətlə qulaq asır. Şikayətçi şikayətini eləyib qurtardıqdan sonra Molladan soruşur:

– İndi özün bax, gör, mən haqlıyam, yoxsa yox.

Molla deyir:

– Sən haqlısan, bala.

Birinci şikayətçi oturur, ikinci başlayır. Danışıb, birinci şikayətçinin başdan-ayağa yalan dediyini isbat eləməyə çalışır. Danışıb qurtarandan sonra bu da soruşur:

– İndi gör mən haqlıyam, ya yox?

Molla deyir:

– Sən haqlısan, bala.

Mollanın oğlu da bu məclisdə imiş. Atasından bu cavabları eşidib deyir:

– Ay ata, sən ki, şikayətçilərin ikisinə də "sən haqlısan" dedin. Belə də iş olar?

Molla deyir:

– Sən də haqlısan, oğlum.

Oğlu:

– Onda bəs haqsız kim oldu?

Molla:

– Haqsız məni bu qulluğa qoyan axmaqdı ki, nə hır qanır, nə də zır.

## MOLLANIN VƏSİYYƏTİ

Günlərin birində Molla azarlayır. Gedib haradansa bir həkim tapıb gətirirlər. Amma bu həkimin çox uğursuz dili var imiş. Ağzına heç xeyir söz gəlməzmiş. Bir az Mollanın ora-burasına baxandan sonra deyir:

– Molla, özün çox yaxşı bilirsən ki, ölüm Allah əmridi. Bir gün ki yaranmışıq, bir gün də öləcəyik. Mən ki, belə görürəm, sən, deyəsən, bu azardan qalxmayacaqsan. Odur ki, yaxşısı budur, arvad-uşağını çağırıb vəsiyyətini eləyəsən.

Molla arvad-uşağı çağırır. Elə ki hamı yığılır, Molla deyir:

Qulaq asın, vəsiyyət eləyirəm. Mən ölsəm də, qalsam da bu vəsiyyəti yadınızdan çıxarmayın! Bundan sonra mənim evimə it də gətirə bilərsiniz, qurd da gətirə bilərsiniz, amma bu bayquşu bir də buralara qoymazsınız.

## BUZ İLƏ ÇÖRƏK

Bir gün bir nəfər Mollanın yanına gəlir ki:

– Molla, azarlamışam, heç kəs dərdimə çarə tapa bilmir. Bəlkə sən bir çarə tapasan.

Molla soruşur:

– Nədi azarın?

Kişi deyir:

– Bədənimdə olan tüklər ağrıyır.

Molla deyir:

– Qəribədi. Mən birinci dəfədi ki, belə azar eşidirəm. Yaxşı, bu günlərdə bir qəribə şey yeməmisən?

Kişi deyir:

– Buzla çörək yemişəm.

Molla deyir:

– Sənin nə azarın adam azarıdı, nə xörəyin adam xörəyi. Tez qaç baytar yanına.

## BALTA İLƏ DƏ DÜZƏLTMƏK OLMAZ

Bir gün Molla belinə bir böyük beybud bağlayıb mədrəsəyə gedir. Yolda külək bunun paltarını yelləndirir, altdan beybud görünür. Hökumət də yaraq gəzdirməyi yasaq etmiş imiş. Bunu tutub hakimin yanına aparırlar. Hakim soruşur:

– Sən padşahın əmrini eşitməmisən ki, yanında silah gəzdirirsən?

Molla deyir:

– Hakim ağa, bu silah deyil, bıçaqdır. O, mənə mədrəsədə dərs deyəndə lazım olur.

Hakim soruşur:

– Nəyə lazım olur?

Molla deyir:

– Mən onunla kitabların qələtini düzəldirəm.

Hakim hirslənir:

– Bu boyda beybudu bağlamısan belinə ki, qələt düzəldirəm. Heç beybudla da qələt düzəldərlər?

Molla bir ah çəkib deyir:

– Bəzən kitab yazanlar elə yekə qələt eləyirlər ki, onları nəinki beybudla, heç balta ilə də düzəltmək olmur.

## SƏN ALARSAN

Günlərin birində Molla yol ilə gedərkən heç tanımadığı bir adam daldan onun boynuna bir şapalaq vurur. Molla geri dönüb baxır ki, bir yad adamdır. Yad adam da Mollanı görən kimi qıpqırmızı qızarır, başlayır üzr istəməyə ki:

– Bağışlayın, səhv eləmişəm. Mən daldan sizi yaxın dostlarımdan birinə oxşadıb zarafat üçün vurdum.

Molla bu hərəkətdən çox qəzəblənir, onu tutub qazının yanına aparır. Təsadüfən, bu da qazının yaxın adamlarından imiş. Qazı işi belə görüb bir fırıldaqla öz adamını Mollanın əlindən qurtarmaq istəyir. Dilini işə salıb deyir:

– O, səni bilməyib vurub Molla, əyər bağışlamırsansa, onda sən də ona bir şapalaq vur, qurtarsın getsin.

Molla razı olmur. Qazı deyir:

– Onda cərimə olaraq bu adam sənə bir manat pul verməlidir.

Kişi yanında pul olmadığını deyir. Qazı pul gətirmək üçün onu evə göndərir və işarə ilə başa salır ki, daha gəlməsin.

Molla bir-iki saat gözləyir, görür kişi gəlmədi. İşi başa düşür. Durub qazıya yaxınlaşır ki:

– Qazı ağa, qanuna görə demək şillənin biri bir manatdır də...

Qazı "bəli" – deyə cavab verir. Molla qazının qulağının dibinə bir şax şillə qoyub deyir:

– Mənim onu gözləməyə vaxtım yoxdur. Gələndə bir manatı sən alarsan.

## SƏN DİŞLƏMİSƏN

Deyirlər ki, Teymur Ləng bir müddət Mollanı şəhərə qazı təyin eləyir. Həmən günlərin birində Mollanın yanına iki nəfər şikayətçi gəlir. Şikayətçilərdən biri ikincini göstərib deyir:

– Qazı ağa, bu adam mənim qulağımı dişlədi.

İkinci şikayətçi qışqırıb and-aman eləyir ki:

– Yalan deyir, mən dişləməmişəm, özü dişləyib.

Molla qalır məəttəl ki, görəsən adam özü öz qulağını dişləyə bilər, ya yox? Fikirləşib-fikirləşib axırda deyir:

– Gedin, yarım saatdan sonra gələrsiniz.

Şikayətçilər gedirlər. Molla tez durub gedir evə. Girib otağa, qapını bağlayır ki, görsün özü öz qulağını dişləyə bilər, ya yox? Ha çalışır, dişləyə bilmir! Axırda bir dəfə də fırlananda elə yıxılır ki, başı-gözü yarılır. Durub yarasını bağlayır, ufuldaya-ufuldaya gəlir idarəsinə. Yarım saatdan sonra şikayətçilər də gəlirlər. Yenə də birinci şikayətçi deyir:

– Qazı ağa, vallah, o mənim qulağımı dişlədi.

İkinci şikayətçi də dad-fəryad eləyir ki:

– Yalan deyir, özü dişləyib.

Molla hirslənir ikinci şikayətçinin üstünə ki:

– Gözlərinin içinə kimi yalan deyirsən. Əgər o özü öz qulağını dişləyibsə, bəs hanı, niyə başı-gözü yarılmayıb? Elə bircə bu sübut eləyir ki, sən onun qulağını dişləmisən.

## VERƏRSƏN ÖZÜMƏ

Molla eşşəyini bazarda satdıqdan sonra özü kəndə piyada qayıtmalı olur. Bir tərəfdən yol uzaq, bir tərəfdən də qaranlıq düşür, yazıq bilmir nə eləsin. Bir də baxır ki, kəndxuda atını karvansaradan çıxarıb minir ki, kəndə getsin. Tez əbasını göstərib deyir:

– Ağa kəndxuda, mənim də bu əbamı al tərkinə, apar kəndə, nə olar?

Kəndxuda soruşur:

– Yaxşı, özün niyə getmirsən?

Molla deyir:

– Mən piyadayam.

Kəndxuda soruşur:

– Yaxşı, apardım, kənddə kimə verim?

Molla deyir:

– Heç kimə vermək lazım deyil. Elə özü düşüb gedər.

Kəndxuda deyir:

– Məni dolama, ay Molla! Heç əba da öz-özünə gedə bilir?

Molla deyir:

– Öz-özünə getməyəcək ki... Mən özüm də əbanın içində, sənin tərkində olacağam da... Kömək elərəm düşər, gedərik.

## SƏN GÜNDƏ GƏLİRSƏN

Necə olursa, Molla birisi ilə savaşır, onu tutub aparırlar hakimin yanına. Sən demə, bir neçə gün ondan qabaq da bir məsələ üçün Mollanı həmən hakimin yanına aparıblarmış. Hakim Mollanı görcək deyir:

– Molla, heç sənə ayıb deyilmi? Bununla ikinci dəfədir ki, sən bu divanxanaya gəlirsən.

Molla soruşur:

– Bu divanxanaya gələndə nə olar ki?..

Hakim deyir:

–Necə yəni nə olar? Sən bilmirsən ki, buraya düz adam gəlməz?

Molla deyir:

– Balam, mən ömrümdə vur-tut ikicə dəfə buraya gəlmişəm. Sən elə gündə buradasan ki!..

## QƏLƏT YAĞ KÜPƏSİNDƏ OLUB

Qazılardan birinə Mollanın işi düşür. Rüşvətxor qazı Mollanın bu işini aylarla süründürür. Axırda Molla görür ki, qazı rüşvətsiz iş görməyəcək. Gedib bazardan bir küpə alır. Küpənin içini qulpuna qədər sarı palçıqla doldurur. Üstünə iki barmaq qalınlığında yaxşı inək yağı qoyub, aparır qazıya. Qazı yağı görcək Mollaya lazım olan kağızı yazıb verir, özünü də hörmət, izzətlə yola salır. Molla gedəndən sonra qazı küpəni açıb boşaltmaq istəyir. Bir də nə görür... İki barmaq yağın altından sapsarı palçıq çıxır. Qazı itə dönür. Öz xəlifəsini göndərib Mollanı çağırtdırır. Xəlifə gəlib Mollanı tapır və qazının çox mühüm bir iş üçün onu çağırdığını xəbər verir. Molla işi bilir, heç halını dəyişmədən, durub qazının yanına gəlir. Qazı Mollanı görcək başını yuxarı qaldırmayıb hirsli-hirsli deyir:

– Molla, o kağızı ver, görüm, deyəsən, bir yerində qələt olub, düzəldəcəyəm.

Molla gülə-gülə deyir:

– Zəhmət çəkmə, qazı ağa!.. Mən kağıza baxmışam. Orada qələt yoxdur. Qələt yəqin kağızda yox, yağ küpəsində olub. Yoxsa siz kağızdakı qələt üçün belə narahat olmazdınız.

## QAZININ ÖZ QULAĞINA DE

Günlərin bir günündə bir kişi gedib arvadının yanında başqa bir kişi tutur. Tutulan kişi ev sahibinin gəldiyini görüb bilir ki, iş xarab olacaq, özünü vurur dəliliyə və kişiyə deyir ki: "Mən sənin arvadının qardaşıyam". Səs-küyə çox adam yığışır. Axırda bunların ikisini də götürüb qazının yanına aparırlar. Ev sahibi bütün əhvalatı əvvəlindən axırına kimi danışır və bunu görən qonşu arvadını da şahid sifətilə qazının yanına çəkir. Mühakimə başlanır:

Molla da bu məclisdə imiş. Bir tərəfdə oturub qulaq asırmış. Qazı şahid arvadı çağırır.Ancaq hər nə soruşursa, arvad başını aşağı salıb danışmır.

Axırda qazı hirslənir ki:

– Arvad, niyə danışmırsan? De görək nə görübsən?

Arvad qıpqırmızı qızarmış halda deyir:

– A başına dönüm, mənim gördüyüm şeylər elə ədəbsiz şeylərdi ki, mən onları belə mötəbər, ədəbli adamların yanında deməyə həya eləyirəm. Necə deyim axı?..

Arvad bu sözü deyəndə Molla qalxır ayağa ki:

– Haqqın var bacı. Elə ədəbsiz şeyləri bizə demək dürüst deyil. Onun üçün qanun var. Məhkəmədə gizli şeyləri hakimin öz qulağına deyərlər. Sən də qazının öz qulağına de.

## SƏN GEY, KEYFİNİ ÇƏK!

Bir gecə Molla evlərinə gedirmiş. Bir də baxır ki, bağların arasında bir adam uzanıb. Yaxına gəlib görür ki, şəhərin qazısıdır. Keflənib yıxılıb, qalıb yerdə. Molla qazını soyundurub, paltarlarını götürüb gedir. Qazı özünə gəlib baxır ki, lütdür, səhər də az qalır ki, açılsın. Durub bir təhər özünü evə salır və ürəyində and içir ki, gərək paltarımı götürənə bir yaxşı dərs verəm. Səhər qazı nökərinə əmr edir ki, çıxsın bazara, paltarını kimdə görsə, tutub yanına gətirsin. Molla Nəsrəddin də səhər qəsdən qazının əbasını çiyninə salır, əmmaməsini də başına qoyub çıxır bazara. Nökər Mollanın əynində paltarı görüb tanıyır, tutub bir baş qazının yanına gətirir.

Molla içəri girib görür ki, qazının yanında çoxlu adam var. Daha danışmaq üçün qazıya imkan verməyib tez deyir:

– Salaməleyküm, qazı ağa!

Qazı deyir:

– Əleykümessəlam. Dayan orda, qurtarım, danışaq.

Molla deyir:

– Yox qazı ağa, mənim işim tələsikdir, gözləyə bilmərəm. Dünən gecə evə gedirdim, gördüm bağların arasında bir nəfər əbalı, əmmaməli adam keflənib yıxılıb. Qorxdum ki, oğruya-zada rast gələ, paltarını soyundurալar, qala çılpaq. Odur ki, özüm əynində hər nə varsa çıxardıb apardım.İndi gətirmişəm. Bax bunlardır. Xahiş eləyirəm sahibini tapasınız, verək özünə.

Qazı işi belə görüb, bir camaata baxır, bir Mollaya baxır, canının dərdindən deyir:

– Görəsən hansı sarsağın imiş. Sən gey, keyfini çək!

## SİZƏ HAKİM TƏYİN ELƏYİB

Mollanın eşşəyi itir. Bir nəfər ona deyir ki:

– Sənin eşşəyini padşah şəhərə hakim təyin eləyib.

Molla bir az fikirləşib deyir:

– Sən doğru deyirsən. Elə onun sir-sifətindən hakimlik tökülürdü. Padşahla da araları yaman kök idi. Lap "çaşqa-loşqa" idilər. Gedim görüm, başıma nə gəlir.

Gedib bir noxta alır, bir az da ətəyinə arpa töküb gəlir hakimin divanxanasına. Baxır ki, hakimin yanında çoxlu adam var. Girir içəriyə, ətəyindəki arpanı ona göstərib başlayır muşqurmağa. Hakim bunun bu hərəkətinə məəttəl qalıb, təəccüblə üzünə baxır. Molla üzünü camaata tutaraq:

– Mən ölüm, bunun forsuna bir baxın! Qulluğun böyüyüb deyə, indi məni tanımırsan? Heç elə bilginən dünənki eşşək deyil. Sonra yavaş-yavaş irəli gedib tutur hakimin saqqalından, noxtanı keçirdir başına. Hakim qışqırır. Hökərlər içəriyə girib, Mollanı uzadırlar yerə, vur ki, vurasan.

Molla qışqırıb deyir:

– Eşşəyimi özünüzə hakim eləyibsiniz, bəs deyil, hələ məni də döyürsünüz? Təqsir sizdə deyil. Təqsir padşahdadır ki, dostbazlıq ilə mənim eşşəyimi əlimdən alıb, sizə hakim təyin eləyib.

## QAZI EVDƏDİR

Şəhər qazısının Molladan çox acığı gəlirdi. Bir gün bir məsələdən ötrü Molla qazının yanına getməyə məcbur olur. Evinin qabağına çatanda qazının pəncərədən baxıb çəkildiyini görür. Molla qapını döyür. Qazının nökəri qapıya gəlib, xəbər alır:

– Kimi istəyirsən?

Molla deyir:

– Qazını görəcəyəm.

Nökər deyir:

– Ağam evdə yoxdur, bazara gedib.

Molla deyir:

– Qayıdanda ağana deyinən ki, bazara gedəndə bir də başını yadından çıxardıb pəncərədə qoymasın. Yoxsa xalq elə bilər ki, evdədir.

## QORXURAM AYAQLAYAM

Mollanın evi qazının evinin yanında imiş. Bir gün yaman yağış yağır. Molla görür ki: budu, qazı evlərinə tərəf qaçır. Başını pəncərədən çölə çıxardıb deyir:

– Qazı ağa, özünüz həmişə deyirsiniz ki, yağış allahın rəhmətidir. Allahın da ki, rəhmətindən qaçmaq günahdır. Bəs özünüz niyə qaçırsınız?

Qazı bu sözə addımlarını yavaşıdır və evə çatınca islanıb cücəyə dönür. Bu işdən bir neçə gün sonra, təsadüfən, bir gün yenə bərk yağış yağır. Bu dəfə də Molla bazardan evə gəlirmiş. Yolda yağış bunu tutur. Molla başlayır qaçmağa. Qazı pəncərədən onu görüb səslənir ki:

– Molla, rəhmətdən qaçmazlar. Niyə qaçırsan?

Molla cavabında deyir:

– Yox, qazı ağa, sən bilmirsən. Allahın rəhmətini ayaqlamaq günahdır. Mən rəhmətdən qaçmıram, qorxuram ayaqlayam, günaha batam. Onunçun qaçıram.

## YUXU

Mollanın qazı olduğu günlərin birində hiyləgər bir dövlətli öz dilsiz-ağızsız qonşusunun yaxasından tutub çəkə-çəkə gətirir Mollanın yanına, deyir:

– Yuxuda görmüşəm ki, bu kişi mənə borcludu. İndi istəyirəm, vermir.

Molla bir az fikirləşib deyir:

– Sən haqlısan qardaş! Yuxuda ki görübsən, demək, borcludur. Ancaq bu zəhrimar qanun kitablarını çox pis yazıblar. Yuxuda görüləni ayıqlıqda almağa yol vermir ki, vermir. Sən get yenə də yat, elə ki bir də haman yuxunu gördün, ayılmamış qaç gəl mənim yanıma, tutum borcunu alım verim.

## ARVADINI BOŞAYAN KİŞİ

Bir gün birisi Molla Nəsrəddinin yanına gəlir ki:

– Molla, gəlmişəm mənim arvadımı məndən boşayasan.

Molla deyir:

– Baş üstə!

Durub kağız-qələmini gətirir, oturub soruşur:

– Arvadının adı nədi?

Kişi ha çalışır, arvadının adını yadına sala bilmir. Axırda deyir:

– Bilmirəm.

Molla soruşur:

– Yaxşı, neçə yaşındadı?

Kişi ha gözlərini döyür, ha fikirləşir, bunu da yadına sala bilmir. Axırda deyir:

– Vallah, bunu da bilmirəm.

Molla soruşur:

– Yaxşı haralıdır?

Kişi deyir:

– Molla,vallah, bunu da yaxşı bilmirəm.

Molla kağız-qələmi yerinə qoyub deyir:

– Bu məhəbbət ki, sizin aranızda var, elə Allah özü arvadı səndən boşayıb da... Daha mənim yanıma niyə gəlibsən?

## ANA-BALA

Yenə də günlərin birində qazının yanına iki şikayətçi arvad gəlir. Qazı bunların şikayətlərinə qulaq asır, amma nə qədər fikirləşirsə, həll eləyə bilmir. Axırda yenə də Molla Nəsrəddini köməyə çağırmağa məcbur olur.

Molla diqqətlə hər iki arvada qulaq asır. Anlaşılır ki, bu iki arvadın hər ikisinin ay yarımlıq uşağı var imiş. Elə haman gün arvadların ikisi də dənizin kənarında paltar yuyurmuşlar. Uşaqları da kənarda yatırtmışlar. Birdən dəniz bərk dalğalanır. Ləpələr sahili döyməyə başlayır. Arvadlar çatana qədər qüvvətli bir ləpə uşaqların birini dənizə atır. İndi salamat qalan uşağın üstündə arvadlar vuruşurlar. O deyir mənimdi, bu deyir mənimdi.

Molla Nəsrəddin deyir:

– Siz ikiniz də yalan deyirsiniz. Görünür ki, siz bu uşağı tapıbsınız. Tapılan şeyi də tapmış adamların arasında bölərlər. Biz də indi gərək bu uşağı iki parçaya bölək, hərənizə bir parçasını verək.

Molla belə deyən kimi arvadlardan biri qışqırır ki:

– Aman günüdü, uşağı parçalamayın! Qoyun onun olsun, amma salamat qalsın!

Molla uşağı haman qışqıran arvada verir.

## MOLLANIN BÖLGÜSÜ

Yenə də günlərin birində qazının yanına üç nəfər şikayətçi gəlir. Qazı şikayətə qulaq asır. Məlum olur ki, bu üç nəfər şərikli 17 dənə eşşək alıblar, indi bölə bilmirlər. Ona görə bölə bilmirlər ki, şəriklərdən biri pulun yarısını verib, biri üçdən birini verib, üçüncü də doqquzdan birini verib.

Qazı nə qədər əlləşir, vuruşursa, on yeddi eşşəyi bu şəriklərin arasında bölə bilmir. Axırda əlacsız qalıb yenə də Molla Nəsrəddini çağırır.

Molla eşşəyini minib qazının hüzuruna gəlir. Şikayətə diqqətlə qulaq asır. Sonra şikayətçilərdən soruşur:

– Siz bu eşşəkləri necə bölüşdürmək istəyirsiniz?

Şikayətçilər deyirlər:

– Biz istəyirik ki, hər şərik qoyduğu pula görə pay alsın, eşşəklər də salamat qalsın. Qazı bu bölgünü apara bilmir.

Molla ayağa qalxıb deyir:

– Gedək eşşəklərin yanına.

Hamı bir yerdə çıxırlar çölə. Molla öz eşşəyini də qatır bu eşşəklərə. Eşşək olur on səkkiz. Sonra başlayır bölməyə. Şəriklər deyirlər:

– Yox, Molla! Bizə sənin eşşəyin lazım deyil. Niyə gərək sən zərər çəkəsən? Sən elə böl ki, bizim eşşəklərimiz özümüzə çatsın.

Molla gülüb deyir:

– Molla Nəsrəddin o qədər axmaq deyil ki, öz eşşəyini sizə verə. Bir balaca səbrinizi basın, bu saat sizinkilər sizin olacaq, mənimki də özümə qalacaq.

Sonra üzünü birinci şərikə tutub deyir:
– Deyirsən ki, pulun yarısını sən veribsən, eləmi?
Şərik deyir:
– Bəli.
Molla eşşəklərdən doqquzunu ayırıb ona verir ki:
– Al, bu sənin payın.
Sonra ikinci şərikə deyir:
– Sən də ki, pulun üçdən birini veribsən, eləmi?
Şərik deyir:
– Bəli.
Molla deyir:
– Demək ki, altısı da sənə çatır, düzdümü?
Kişi deyir:
– Bəli, hələ bir az da artıq olur.
Sonra Molla üçüncü şərikə deyir:
– Sən də ki, pulun doqquzdan birini veribsən. On səkkizin doqquzdan biri eylər iki. Elədirmi?
Üçüncü şərik deyir:
– Bəli, elədir.
Molla yerdə qalan iki eşşəyi də ona verir, özü də öz eşşəyini minib, çıxıb gedir.

## O BİRİ GÖZLƏSİN

Bir gün Mollanın yanına üç nəfər adam gəlir ki:
– Molla əmi, biz üç yoldaşıq. Dörd qəpik şərikli pulumuz var, bölə bilmirik. Bunu bizim üçün böl!
Molla deyir:
– Ya o dörd qəpiyi ikiniz bölün, o biri də iki qəpik ələ gələnə qədər gözləsin. Ya da ki, bir qəpik mənə verin, hərənizə də bir qəpik qalsın.

## MOLLANIN HÖKMÜ

Yenə də bir gün qazının yanına iki nəfər gəlir. Aydın olur ki, bunların ikisinin şərikli bir dəvəsi var imiş. Özü də dəvəni alanda pulunun üç payını biri vermiş imiş, bir payını biri. Dəvəni işlədib qazancını da qoymuş olduqları pula görə bölürmüşlər. Günün birində

dəvə çaydan keçəndə batıb ölür. İndi pulun üç payını verən şərik tutub bir pay verən şərikin yaxasından ki:

– Mənə səndən çox zərər dəyib. Gərək bir pay pulu verəsən.

O biri şərik də yoxsulun biri olduğuna görə verə bilmir.

Qazı yenə də nə qədər əlləşirsə, məsələni həll eləyə bilmir. Ona görə həll eləyə bilmir ki, yoxsul şərik deyir:

– Düzdü, dəvənin pulunun üç payını o qoymuşdu. Ancaq indiyə kimi qazancın da üç payını həmişə o götürüb.

Qazı yenə də Molla Nəsrəddini çağırır. Molla şikayətə qulaq asır. Baxır ki, yoxsul şərik heç dinib-danışmır. Amma ikinci varlı şərik salıb lap həyasızlığa. Elə çalışır ki, şərikindən birtəhər pul qoparsın. Ona görə də soruşur:

– Dəvə batanda üstündə yük var idimi?

Deyirlər:

– Xeyr. Yox idi.

Molla varlı şərikə deyir:

– Demək, dəvə yük ağırlığından batmayıb. Öz ağırlığından batıb. Dəvənin də ki, ağır hissəsi, yəni üç payı sənin imiş, bir payı bunun. Demək ki, dəvənin batmağına sənin payının ağırlığı səbəb olub, Odur ki, sən onun qoymuş olduğu pulu özünə qaytarmalısan.

Şərik deyir:

– Xeyr, mənim payım ağır-zad deyildi.

Molla deyir:

– Əgər iki pay da bir ağırlıqda idisə daha ondan nə pul istəyirsən?

Kişi deyir:

– Çünki mən artıq pul qoymuşdum.

Molla deyir:

– Demək ki, sənin payın ağır imiş.

Qazı baxır ki, deyəsən, Molla düz deyir. Varlı şərikdən bir az da pul alıb yoxsul şərikə verir.

## EŞİTDİN, GET!

Gündə bir qarın yeməyə möhtac olan yoxsullardan biri, bir parça çörək tapıb aşpaz dükanının yanına gəlir. Bütün ömründə xörək yeməyən bu yazıq uzaqdan aşpazın bişirdiyi kababa baxır, çörəyi ağzına qoyub yeyir. Demə, aşpaz buna göz qoyurmuş. Kişi çörəyini yeyib qurtarır, getmək istəyəndə aşpaz tutur yaxasından ki:

– Ver kababın pulunu!

Kişi başlayır yalvarmağa ki:

– Ay başına dönüm, mən nə vaxt sənin kababını yedim ki, pulunu da verəm.

Aşpaz əl çəkmir ki:

– Yox, sən kababa baxıb çörəyini yeyirdin. Gərək pulunu verəsən.

Kişi nə qədər yalvarırsa, olmur. Aşpaz onun yaxasından əl çəkməyib axırda tutub qazının yanına aparır. Bu zaman Molla da bir məsələ üçün qazının yanında imiş. Qazı bunların məsələsinə qulaq asır, sonra üzünü Mollaya tutub deyir:

– Molla, bu məsələni həll eləmək mənim işim deyil. Yenə sən həll eləyə bilərsən.

Molla aşpaza deyir:

– O kişi ki, sənin xörəyini yeməyib, sən ondan nə pul istəyirsən?

Aşpaz deyir:

– Gözü ilə baxıb, burnu ilə də qoxusunu çəkib. Mən ondan bu haqqı istəyirəm.

Molla deyir:

– Haqlısan, qardaş! Gərək verə.

Aşpaz bunu eşidib başlayır sevinməyə ki, indi Molla yoxsuldan pul alıb, verəcək ona. Molla öz cibindən bir kisə pul çıxarıb aşpazın qulağının dibində silkələyir. Soruşur:

– Eşitdin?

Aşpaz soruşur:

– Nəyi?

Molla deyir:

– Pulların səsini.

Aşpaz deyir:

– Eşitdim, nə olsun?

Molla deyir:

– Demək ki, haqqını aldın. Di yeri, çıx get!

Aşpaz hirslənir ki:

– Hanı? Mən nə haqq aldım?

Molla deyir:

– O, kababı gözü ilə görüb, burnu ilə qoxulamışdı. Sən də pul kisəsini gözünlə gördün, pulun da səsini qulağınla eşitdin. Sənə çatası haqq ancaq bu ola bilər.

# HEÇ NƏYİNİ GÖTÜR, GET!

Mollanın yaşadığı məhəllədə yoxsul bir kişi var imiş. Bu kişi həmişə yaxındakı meşədən odun yığar, dalında gətirib satar, əldə etdiyi pul ilə yarı ac, yarı tox ailəsini dolandırarmış.

Bir gün yenə də bu odunçu dalında da bir böyük şələ odun meşədən gəlirmiş. Yolda bərk yorulur. Yorğunluğunu almaq üçün şələni yerə qoyur. Yük ağır, özü zəif, qoca. Nə qədər çalışırsa, şələni yerdən götürə bilmir. Bu vaxt bir nəfər yoldan keçirmiş. Qoca odunçu xahiş eləyir ki, kömək eləyib şələni onun dalına qaldırsın. Bu adam soruşur:

– Yaxşı, şələni sənin dalına qaldırsam mənə nə verəcəksən?

Odunçu deyir:

– Nəyim var, nə verəm, a başına dönüm?! Heç nə.

Kişi bir söz deməyib, şələni odunçunun dalına qaldırır, sonra tutur onun yaxasından ki, ver mənim heç nəyimi.

Odunçu nə qədər yalvarır ki:

– Ay qardaş, başına dönüm, nə istəyirsən məndən? Əl çək mənim yaxamdan.

Kişi əl çəkmir ki, əl çəkmir. Çığır-bağır salır ki:

– Necə yəni nə istəyirsən? Mən sənə dedim ki, odunu dalına qaldırsam mənə nə verəcəksən, sən özün dedin: "heç nə". İndi mən də qaldırmışam. Ver mənim heç nəyimi.

Odunçu çox yalvarır, kişi az eşidir, axırda onu tutub qazının yanına aparır.Qazı nə qədər çalışırsa, bir yol tapıb bu məsələni həll eləyə bilmir. Axırda əlacı kəsilir, adam göndərib Molla Nəsrəddini çağırtdırır ki:

– Amanın bir günüdür, ay Molla! Bu iş, olsa-olsa, bir səndən aşacaq.

Molla döşəkcənin üstündə əyləşib bunların şikayətlərinə qulaq asır, sonra üzünü tələbkara tutub deyir:

– Sən haqlısan qardaş! O ki, sənə boyun olub "heç nə" versin, gərək verə. Ancaq mən görürəm ki, o çox yoxsul adamdı. Bir də ki "heç nə" hər adamda tapılmaz. Sən gəl, razı ol, onu sənə mən verim.

Kişi razılaşır. Molla üstündə əyləşdiyi döşəkcənin ucunu balaca qaldırıb deyir:

– Gəl əlini uzat, gör bu döşəkcənin altında nə var?

Kişi əlini döşəkcənin altına uzadır, amma heç bir şey tapa bilmir.
Molla soruşur:
– Hə, nə tapdın?
Kişi deyir:
– Heç nə.
Molla deyir:
– Hə, di o sənin heç nəyin, götür, get!

## ALLAHIN GÖZÜ

Günlərin birində Molla Nəsrəddindən soruşurlar:
– Molla, sən bilərsən, Allahın gözü var, yoxdur?
Molla deyir:
– Var. Ancaq Allahın gözü bircə dənədi, özü də düz kəlləsindədi. Odur ki, elə belə baxanda yer üzündəki adamları görə bilmir. Hərdən bir əlini atıb bir nəfəri tutur, görə bilmək üçün qaldırır, qaldırır, lap təpəsinin üstünə gətirir. Əgər xoşuna gəlirsə, bir müddət saxlayıb baxır, yox, əgər xoşuna gəlmədi, elə oradanca kəlləmayallaq buraxır yerə.

## BİLMƏK VƏ BİLMƏMƏK

Günlərin birində Molla məscidə gəlir. Çıxıb minbərdə oturur ki:
– Camaat, kimin nə sualı var, versin mənə, alsın cavabını.
Adamlar başlayırlar sual verməyə. Ancaq hər kim nə sual verirsə Molla deyir:
– Bunu bilmirəm.
Axırda birisi hirslənib deyir:
– Bilmirsən, bəs niyə dırmaşıbsan oraya? Heç olmazsa onu da bilmirsən ki, bilməyən yuxarı dırmaşmaz?
Molla deyir:
– Mən bildiyim qədər dırmaşmışam. Başqaları kimi bilmədiyim qədər dırmaşsaydım, indi buludlarda gəzirdim.

## MOLLANIN NƏZİRİ

Günlərin birində Molla öz oğlu ilə birlikdə gəmiyə minib haraya isə gedirmiş. Yolda bərk tufan başlayır. Ləpələr gəmini alma kimi atıb-tutur. Dəniz görməmiş Molla üzünü göyə tutub deyir:

– Ya pərvərdigar, sən bu tufanı sakit elə, biz buradan salamat qurtaraq, nəzir eləyirəm ki evimizə çatan kimi məsciddə, bax, bu dor ağacı boyda bir şam yandırım.

Oğlu bir atasına baxır, bir dor ağacına baxır, deyir:

– Ata, sən bu dor ağacı boyda şamı haradan tapacaqsan ki, yandırıb məscidə qoyasan?

Molla tez oğlunun ağzını tutur ki:

– Kəs səsini, eşidər, başa düşər. Qoy tufanı yatırtsın, salamat qurtaraq, sonra nəzirin dalından qaçmaq asandır.

## NİYƏ TÖKÜRSƏN?

Molla bir gün eşşəyə buğda yükləyib dəyirmana aparırmış. Yolda öz-özünə deyir:

– Ay nə ola, indi bu yük beləcə dönüb qızıl ola.

Bir də baxır ki, çuval deşilib, buğda tökülür.Tez üzünü göyə tutub deyir:

– Əşi, istəmədik ey... Qızılını istəmədik, daha buğdamızı niyə tökürsən?

## SAMANLI PALÇIQ

Bir gün oğlu Molla Nəsrəddindən soruşur:

– Ata, bu gün mədrəsədə axund bizə deyirdi ki,"Allah bizi torpaqdan yaradıb". İndi məni fikir götürüb ki, axı o zaman hələ insan yox imiş.

Molla deyir:

– Yox imiş.

Oğlu deyir:

– İnsan ki, yox imiş, deməli arpa-buğda əkən də yox imiş.
Molla deyir:
– Yox imiş.
Oğlu deyir:
– Arpa-buğda ki yox imiş, deməli saman da yox imiş.
Molla deyir:
– Yox imiş.
Oğlu deyir:
– Bəs heç samansız da palçıq tutar? Axunda deyirəm, deyir, Allahın əlində saman nə çətin iş idi ki?.. Elə adamı palçıqdan yaradan, bir çəngə samanı da heçdən yaradardı da...
Molla bir fikrə gedib deyir:
– Deməli, axundun fikrinə görə insanın palçığına saman da qatılıb?
Oğlu deyir:
– Bəli. O, belə deyir. Amma mən heç inanmıram.
Molla deyir:
– Əgər bu doğrudan da belədirsə, bəs onda sənin elə o axundunun tək bircə sir-sifətində o qədər dəlmə-deşik necə əmələ gəlib? Heç samanlı palçıq da çatlayar?!

## BİZİM ÖMRÜMÜZ QURTARAR Kİ...

Bir gün axund minbərdə deyir ki:
– Bu gecə hər kəs iki rükət namaz qılsa, Allah ona bir huri verər, bir huri verər ki, başı məşriqdə, ayaqları məğribdə.
Molla deyir:
– Axund ağa, biz o namazı da qılmırıq, o boyda hurini də istəmirik. Onun ayaqlarından başına gedənə qədər bizim ömrümüz qurtarar ki...

## SONRA CAMIŞI ÇIXARDARIQ

Bir gün Mollanın bağına bir camış girir. Mollanın özü, arvadı, oğlu, hərəsi əlinə bir ağac alıb yüyürürlər ki, camışı bağdan çıxarsınlar. Hələ camışa çatmamış Molla bir də baxır ki,budu, bağın içilə bir dərviş gəlir. Tez çağırır ki:
– Ay uşaq, burada camışdan zərərli heyvan var, gəlin qabaqca bunu çıxardaq, sonra camışı çıxardarıq.

## QAYTARIM ÖZÜNƏ

Biri Mollaya beş manat verib deyir:

– Molla, al bu beş manatı, gündə beş vaxt namazdan sonra mənə dua elə!

Molla pulun bir manatını qaytarıb deyir:

– Filankəs, doğrusu ki, gecələr qısa, mənasız söhbətlər də ki, istədiyin qədər uzun... Ona görə də sübh namazını qılmağa dura bilmirəm. Al, pulunun bir manatını qaytarım özünə.

## MOLLA TAYFASI

– Bir gün bir nəfər molla, necə olursa, məscid həyətində dəstəmaz alanda çarhovuza düşür. Çarhovuz dərin imiş, molla da üzmək bilmirmiş. Molla batır, çıxır, qışqırır. Camaat yığılır. Hər nə qədər qışqırırlarsa: "Molla, əlini ver, çəkib çıxardaq", – molla heç kəsə əlini vermir. Özü də batır, çıxır, az qalır boğulsun. Camaat qalır məəttəl. Bu dəmdə Molla Nəsrəddin çatır. İşi belə görcək, çarhovuzun kənarına gəlib deyir:

– Molla, molla, tut əlimdən çıxardım səni.

Molla Nəsrəddin bu sözü deyib əlini uzadır, molla onun əlindən tutub çıxır. Adamlar qalırlar məəttəl ki, bu necə işdir. Bir nəfər molladan xəbər alır:

– Niyə bu qədər adam hər nə qədər qışqırdısa, əlini vermədin, Molla Nəsrəddin "tut" deyən kimi o saat əlini uzatdın?

Molla dinmir. Molla Nəsrəddin onun əvəzində cavab verib deyir:

– Camaat, təəccüb eləməyin. Siz buna deyirdiniz ki: "Molla, ver əlini səni çıxardaq". O da əlini sizə vermirdi. Amma mən dedim: "Molla, al, tut əlimdən". O da əlini verdi. Məsələ burasındadır ki, bu molla tayfası "ver" sözünə öyrəşməyib, "al" sözünə öyrəşib.

## ÜZÜNƏ TÜPÜRMƏK İSTƏYİB

Mollanın olduğu kəndə bir seyid gəlir. "Mən kəramət sahibiyəm, hansı xəstənin ağzına bir dəfə püfləsəm sağalar" – deyə camaatı aldadıb pullarını alır.

Molla Nəsrəddin əhvalatı eşidib onun yanına gedir. Bir az ordan-burdan söhbət eləyib görür ki, o, savadsız, fırıldaqçının biridir. Soruşur ki:

– Seyid ağa, sizin ağzınızda nə kəramət var ki, xəstələrin ağzına püfləyəndə yaxşı olur?

Seyid özünü çəkə-çəkə deyir:

– Bir gün aləmi-röyada Xızır peyğəmbər mənim ağzıma tüpürüb. O vaxtdan mənim ağzım olub kəramətli.

Molla seyidin bu həyasızlığına daha tab gətirə bilməyib deyir:

– Xızır peyğəmbər sənin ağzına tüpürmək niyyətində olmayıb. O sənin fırıldaqçı olduğunu görüb, üzünə tüpürmək istəyib, ağzıaçıq yatdığına görə tüpürcək ağzına düşüb.

## O, BİZİM EŞŞƏYİN QUYRUĞUDUR

Bir məclisdə özünü alim göstərən dərvişlərdən biri ilə Mollanın mübahisəsi düşür. Molla Nəsrəddin gündə bir fırıldaqla camaatı aldadan bu dərvişi hər tərəfdən bağlayır və onun tamam yalançı, savadsız bir adam olduğunu sübut eləyir. Dərviş işi belə görüb Molla Nəsrəddini pərt eləmək üçün deyir:

– Sən, barı danışma! Sənin ki, bu dünyada əlindən heç bir iş gəlmir.

Molla deyir:

– Düz deyirsən. Sənin əlindən gələn işlər mənim əlimdən gəlməz. Ancaq məni hamı tanıyır, gəlsənə bir sən də özünü nişan verəsən, görək kimsən, nəçisən?

Dərviş deyir:

– Mən övliyayam. Mən hər gecə bu aləmdən, bu günahkarlar dünyasından çıxıb göylərə uçuram.

Molla Nəsrəddin özünü tamamilə inanmış kimi göstərərək soruşur:

– Yaxşı, heç dördüncü göyə gedibsənmi?

Dərviş lovğa-lovğa deyir:

– Getmişəm, özü də bir dəfə yox, çox dəfə getmişəm. Molla yenə də inanmış adam kimi soruşur:

– Heç orada uçanda dodaqlarına yumşaq bir şeyin dəydiyini hiss edibsənmi?

Dərviş Mollanı üstələdiyini görüb, tez "bəli, bəli!" deyə cavab verir.

Molla Nəsrəddin camaata göz basıb dərvişə deyir:

– Hə, bax, o, bizim eşşəyin quyruğudur.

## DÜZ GƏLMƏSƏ, ONDA DE!

Bir gün yenə də özünü çox alim qələmə verən dərvişlərdən birisi ilə Mollanın mübahisəsi düşür. Molla ona bir-iki sual verirsə də, dərviş heç birisinə cavab verə bilmir. Axırda dərviş hirslənib deyir:

– Mən sənə elə suallar verərəm ki, heç sənin baban da bilməz.

Molla deyir:

– Dünyada elə şey yoxdur ki, mən bilməyəm. Nə sualın var, ver!

Dərviş başlayır suala:

– Əgər bilirsənsə, de görüm, dünyanın ortası haradır?

Molla əlindəki ağacı yerə vurub deyir:

– Dünyanın ortası, bax, buradır.

Dərviş qışqırır:

– Sübut elə!

Molla deyir:

– Mən sübut eləmişəm. Sən inanmırsan ölç, bax!

Dərviş keçir ikinci suala:

– Göydə nə qədər ulduz var?

Molla deyir:

– Mənim eşşəyimin tükü qədər.

Dərviş qışqırır:

– Sübut!

Molla deyir:

– Nə sübut? İnanmırsan, say, bax!

Dərviş:

– Mənim saqqalımda nə qədər tük var?

Molla deyir:

– Mənim eşşəyimin quyruğunun tükü qədər.

Dərviş lap cinlənir ki:

– Yalan danışırsan.

Molla çox sakit cavab verir:

– Mən yalan demirəm. Bu, sənin saqqalın, bu da mənim eşşəyimin quyruğu. Bir tük ondan çək, bir tük də bundan, düz gəlməsə, onda de!

## İT DUASI

Günlərin birində bir nəfər Molla Nəsrəddinin yanına gəlir ki:

– Molla, evimizin yolunda bir it var, mənim günümü lap qara eləyib. Qorxudan evə də gedə bilmirəm. Eşitmişəm ərəb dilində bir dua var ki, onu oxuyanda itin ağzı bağlanır, adamı qapa bilmir. Xahiş eləyirəm o duanı mənə öyrədəsən.

Molla deyir:

– Yaxşısı budur ki, sən yanında həmişə ağac gəzdirəsən. Mən inanmıram ki, sizin yolunuzun üstündə olan o it ərəb dilini bilə.

## MOLLANIN QURBANI

Mollanın bir dəvəsi var imiş... Günlərin birində dəvə azarlayır. Başı çıxanlar baxıb deyirlər ki, öləcək.

Molla deyir:

– İndi ki, öləcək, mən də onu Allah yolunda qurban kəsəcəyəm.

Molla dəvəni qurban kəsir. Bundan sonra haraya gedirsə, ayrı heç bir söhbət eləmir. Ancaq elə Allah yolunda dəvəsini qurban kəsdiyindən danışır. Axırda deyirlər:

– Ay Molla, indi böyük bir iş olmayıb ki, sən də Allah yolunda bir dəvə qurban kəsibsən? Baş-qulağımız getdi axır... Bir toyda deyirsən, bir qonaqlıqda.

Molla deyir:

– Toyda da deyəcəyəm, qonaqlıqda da, yasda da, bazarda da, küçədə də... Allah özü İsmayıldan ötrü vur-tut bircə dənə qoyun qurban verib, daha gün yoxdur ki, mollalar o barədə danışmasınlar. İşi o yerə çatdırıb ki, götürüb hələ bir Qurana da yazdırıb. Mən o boyda dəvə kəsmişəm, danışmayım?

## TUTMAYACAĞAM

Orucluq ayının başlanmağına bir neçə gün qalmış Molla qazının yanına gedərək soruşur:

– Qazı ağa, orucluğun başlanmasını nədən bilmək olar?

Qazı deyir:

– Ramazan ayının başlanmağından.

Molla soruşur:

– Ramazan ayının başlanmağını nədən bilmək olar?

Qazı deyir:

– Təzə ayın çıxmağından.

Molla soruşur:

– Demək ki, ayı görməmiş oruc tutmaq vacib deyil.

Qazı deyir:

– Yox.

O gündən Molla göyə baxmır. Ayı görmədiyi üçün oruc da tutmur. Bu hal orucluq ayının lap axırına kimi davam edir. Axırıncı gün gecə Molla bir yerə getməli olur. Ayı görməsin deyə gözlərini yerə dikib yol gedir. Birdən küçədə qabağına bir gölməçə çıxır. Gözü suya sataşır, orada ayı görüb hirslənir.

– Vay sənin atonnan! Nə həyasız şey imiş bu! Gözümə girməyəcəksən ki? Acıqdan lap gölməçə nədi ki, dəryaya da girsən, oruc tutmayacağam.

## HAMISI YATIR

Bir gün arvadı Mollaya deyir:

– Molla, bu uşaq səhərdən axşamacan bir dəqiqə də olsun yatmayır. O qədər ağlayır ki, lap baş-beynim gedir. Sən Allah, buna bir duadan, pitikdən yaz, ya davadan-dərmandan elə, bəlkə bir az yata.

Molla tez taxçadan Quranı götürüb deyir:

– Al bu Quranı, uşaq ağlayanda ucadan oxu! O saat yuxulayar.

Arvad soruşur:

– A kişi, quran oxumaqla da uşaq yatarmı?

Molla deyir:

– Arvad, sən bilmirsən. Mən özüm fikir vermişəm ki, həmişə bu Quranı oxuyanda məsciddə olanların hamısı yatır.

# ACINDAN ÖLƏCƏK

Mollanın pulu tamam qurtarır. Arvad tutur yaxasından ki:

– Bəs, bu qədər nəyə oxuyubsan? Get barı kəndlərdə bir-iki ay mollalıq eləyib bir az undan-buğdadan al gətir!

Molla özü də baxır ki, ayrı əlac yoxdur. Naçar qalıb düşür kəndlərin canına. Ancaq hansı kəndə gedirsə, "mollamız var", deyə onu qəbul eləmirlər. Axırda gəzə-gəzə gəlib bir kəndə çıxır. Baxır ki, kəndin adamları yığılıb bir tülkünü döyürlər. Molla yaxınlaşıb soruşur:

– Bu tülkünü niyə döyürsünüz?

Adamlardan biri deyir:

– Molla, bu tülkü bizdə toyuq-cücə qoymayıb. İndi bunu tutmuşuq, cəza veririk.

Molla deyir:

– Döyməkdən nə olacaq? Verin mənə ona elə bir cəza verim ki, ömürlük yadından çıxmasın.

Kəndlilər sevincək tülkünü Mollaya verirlər. Molla tez əmmaməsini çıxardıb qoyur tülkünün başına, əbasını da çiyninə salıb buraxır. Adamlardan biri soruşur:

– Molla, onu niyə buraxdın? Bu nə cəza oldu?

Molla deyir:

– Siz bilmirsiniz. Bundan böyük cəza olmaz. İndi o oldu molla. Hansı kəndə getsə, qovub çıxardacaqlar. Bütün ömrünü bir parça çörəyə möhtac qalıb, axırda acından öləcək.

# KEÇİ

Hələ cavan vaxtlarında Molla Nəsrəddin bir gün yaman pulsuzlayır., hətta çörək almağa da imkanı olmur. Çox fikirləşəndən sonra, bir keçisi var imiş, onu götürüb aparır bazara ki, satıb çörək pulu eləsin. Ancaq keçi o qədər arıq imiş ki, heç kəs yaxınına düşmür. Nəsrəddin axşamacan keçini gəzdirirsə də sata bilmir. Qaranlıq düşə-düşdə keçini sürür bir ölü basdıran axundun qapısına. Axund qapıya çıxıb soruşur:

– Kimsən? Nə istəyirsən?

Nəsrəddin deyir:

– Axund əmi, mən bu şəhərdə qərib, kimsəsiz bir adamam. Ürəyimə damıb ki, ömrümə çox qalmayıb.Bu yaxınlarda öləcəyəm.Dünya malından da ümidim bircə bu keçiyə gəlir. Gətirmişəm ki, bu gecə bunu kəsib yeyəsən, əvəzində mən öləndə üstümə gəlib, özün məni basdırasan.

Axund elə o saat keçini alıb həyətə qatır, Nəsrəddinə də söz verir ki, lap arxayın olsun.

Nəsrəddin o gecəni bağların birinə girib yatır. Sabahı da ac-acına birtəhər yola verir. Elə ki axşam düşür, yenə də gəlir axundun qapısına. Baxır ki, keçinin dərisi həyətdə sərilib. Bilir ki, axund keçini yeyib. Qapını döyür. Axund çıxıb görür ki, dünən keçi gətirən oğlandır. Soruşur:

– Nə var? Nəyə gəlibsən?

Nəsrəddin deyir:

– Axund əmi, başıma iş gəlib.

Axund soruşur:

– Nə iş?

Nəsrəddin deyir:

– Dünən buradan gedib gördüm ki, evimizdə iki fərraş var. Məni götürüb bir baş apardılar hakimin yanına. Hakim mənə bir dənə eşşək verdi, yüz dənə də kəndin siyahısını. Əmr elədi ki, gərək mən bir ilin ərzində düşəm bu kəndlərə, görəm camaat necə dolanır, əhalini kim incidir, kim fağır-füğəranı aldadır, söz verib, sözündən qaçır, gəlib ona xəbər verəm. İndi gəlmişəm sənə də deyəm ki, hazırlaşasan, sabah çıxırıq.

Axund soruşur:

– Bəs mən niyə çıxıram?

Nəsrəddin deyir:

– Necə yanı niyə çıxırsan? Keyfim istədi mən ya yolda, ya da kəndlərin birində yıxılıb öldüm, bəs məni kim basdıracaq?

Axund deyir:

– Əşi, sən nə danışırsan? Mənim kəndlərdə nə işim var?

Nəsrəddin deyir:

– Axund, bir mənə de görüm, mən sənə keçi vermişəm?

Axund deyir:

– Vermisən.

Nəsrəddin soruşur:

– Sən də mənə söz vermisən?

Axund deyir:

– Hə, nə olsun? Bir dənə arıq keçidən ötrü gərək indi mən düşəm sənin dalına ki, görüm harada ölürsən?

Nəsrəddin deyir:

– Əvvəla, mənim keçim arıq deyildi. Arıq olsaydı, o gecə kəsib yeməzdin. İkincisinə qalan yerdə, sən deyirsən bəs mən öz xoşuma gedirəm. Bu, hakimin əmridir. Getmərik, tutar qulağımızdan, basar dama. Üçüncüsünə qalan yerdə, əgər verdiyin sözdən qaçırsansa, mən bu başdan gedim hakimə deyim ki, sən elə onun axtardığı adamlardansan; mənim kimi fağırı aldadıb, keçimi kəsib yeyibsən, indi də verdiyin sözdən qaçırsan, hakimin də əmrinə boyun əymək istəmirsən.

Axundun gözləri çıxır kəlləsinə. Deyir:

– Yaxşı, mən sənin o keçinin pulunu versəm, mənim yaxamdan əl çəkərsən?

Nəsrəddin deyir:

– Mənim arzum bu idi ki, məni sən basdırasan. Ancaq indi ki, iş belə düşüb, sən də gedə bilmirsən, neynək, sənə yazığım gəlir, ver pulu, gedim ayrı adam tapım. Ancaq mən o keçini çox baha almışdım.

Qərəz, Nəsrəddin bu yol ilə öz arıq keçisini birə-beş qiymətə satır axunda.

## İKİSİNİN ARASINDAYAM

Bir gün Molla yolda bir qazı ilə bir tacirə rast gəlir. Onlar Mollaya sataşmaq üçün soruşurlar:

– Molla, minbərdə vəz eliyəndə heç səhv eləyibsənmi?

Molla deyir:

– Bəli, iki dəfə səhv eləmişəm. Bir dəfə "əlqasibinə finnar" əvəzinə, "əlqaziyyə finnar" demişəm (yəni "özgənin malını mənimsəyənlər odda yanacaqlar" əvəzinə, "qazılar odda yanacaqlar"). İkinci dəfə də "innəl füccarə ləfi cəhim" demişəm (yəni pis iş görənlərin yeri cəhənnəmdir).

Qazı və tacir hər ikisi pərt olurlar. Qazı hirslənib deyir:

– Adam kimi danışmağı da bacarmırsan. Elə heyvansan ki, heyvan.

Tacir deyir:
– Heyvan dedin qoydun, lap uzunqulaqdı.
Təsadüfən Molla da tacirlə qazının arasında gedirmiş. Elə ki, onlar belə ədəbsiz danışırlar, Molla bir sağına baxır, bir soluna baxır, heç halını pozmayıb deyir:
– Hələlik nə heyvan deyiləm, nə də uzunqulaq. İkisinin arasındayam.

## KOSA QALMAĞI MƏSLƏHƏT BİLDİM

Deyilənlərə görə, Molla yarımkosa imiş. Bir gün qazı onu utandırmaq məqsədilə deyir:
– Sən kişi deyilsən ki...
Molla soruşur:
– Niyə, qazı ağa?
Qazı əlini öz qırmızı saqqalına çəkərək:
– Kişinin saqqalı belə qırmızı olar. Nəinki səninki kimi; bir tük orda, bir tük burda.
Molla deyir:
– Təqsir özümdədi, qazı ağa! Özü yıxılan ağlamaz.
Qazı soruşur:
– Necə yəni təqsir özündədir?
Molla deyir:
– Dünya yarananda mən yubanıb saqqal bölgüsünə çata bilməmişdim. O vaxt çatdım ki, ortada bir yekə qırmızı saqqal qalıb, bir də paylanmış saqqallardan tökülmüş beş-on tük. Allah qırmızı saqqalı uzatdı mənə. Fikirləşdim,fikirləşdim, sənin kimi qırmızı saqqal olmaqdansa, kosa qalmağı məsləhət bildim.

## GÜNAHDAN SİLKİNMƏK ÜÇÜN QIRXDIRDIM

Bir gün Molla gedib saqqalını dibindən ülgüclə qırxdırır. Qazı buna rast gəlib soruşur:
– Molla, bu nədir? Sən nə eləmisən? Ayıb deyilmi sənin üçün? Molla adamsan. Saqqalını niyə belə qırxdırıbsan?

Molla deyir:

– Qazı ağa, baxdım ki, bir neçə il mollalıq eləməklə o qədər günaha batmışam, o qədər günaha batmışam ki, nə qədər qüsl eləsəm təmizlənməyəcəyəm. Ona görə də günahdan tamam silkinmək üçün gedib saqqalımı qırxdırdım.

## ŞEYTAN YUVASI OLUB

Bir gün yenə də Molla saqqalını qırxdırmış idi. Görənlərdən biri soruşur:

– Molla, yaxşı, saqqalı niyə qırxdırıb mələikələrin məkanını dağıdıbsan?

Molla deyir:

– Balam, mən indiyə kimi saqqalımda bir dəfə də olsun mələikə görməmişəm. Ora səninki kimi elə həmişə şeytan yuvası olub.

## CANIMI QURTARAM

Molla vəsiyyət eləyir ki:

– Öləndə məni bir köhnə qəbrə qoyun.

Arvadı soruşur:

– Niyə?

Molla deyir:

– İnkir-minkir gələndə qəbrimin köhnəliyini göstərib, bəlkə sorğu-sualdan canımı qurtaram.

## ALLAHIN QAPISI

Günlərin birində Mollanın həyətinin qapısını çıxarıb aparırlar. Molla nə qədər axtarırsa, oğrunu tapa bilmir. Axırda gedib məscidin qapısını çıxardır. Dalına alıb aparanda mücavir tutur yaxasından ki:

– Nə eləyirsən?

Molla deyir:

– Deyirsiniz ki, Allah hər şeydən xəbərdardı. Əgər doğrudursa, demək ki, mənim qapımı oğurlayandan da xəbəri var. Desin oğrumu, verim qapısını.

## OTUZ QOZ DA MƏNƏ ÇATAR

Bir gün uşaqlar şərikli qoz alırlar. Bölüşdürəndə mübahisələri düşür. Axırda Mollanın yanına gəlirlər ki:

– Molla əmi, bu qozları bizim aramızda bölüşdür!

Molla soruşur:

– Allah bölgüsü istəyirsiniz, ya Molla Nəsrəddin bölgüsü!

Uşaqlar fikirləşirlər ki, hər halda allah bölgüsü daha yaxşı olar. Ona görə də deyirlər:

– Əlbəttə, Allah bölgüsü.

Molla uşaqların birinə on qoz verir, birinə otuz beş qoz verir, birinə yüz qoz verir, birinə altmış qoz verir, birinə beş qoz verir, birinə də heç vermir. Uşaqlar məəttəl qalıb soruşurlar:

– Molla, bu necə bölgüdür? Bu heç düz olmadı.

Molla deyir:

– Allah bölgüsü belədi. Niyə, özünüz görmürsünüz ki, dövləti, malı insanlar arasında necə bölüb? Yox, əgər Molla Nəsrəddin bölgüsü istəsəniz, hərənizə otuz qoz düşər, otuz qoz da mənə çatar.

## ÇAPIB GƏLMİSƏN MƏNİM ÜSTÜMƏ

Mollanın seyidlərdən, dərvişlərdən yaman zəhləsi gedərmiş. Onları görməyə gözü yox imiş.Bir gün axşamüstü bazardan təzəcə gəlib dincəlmək üçün uzanmışmış. Birdən qapı döyülür. Nə qədər səslənir ki: "Adam, kimsən? Adam, kimsən?" – qapı döyən səs vermir. Axırda naəlac qalıb gedir qapıya. Baxır ki, bir seyiddir, belində göy qurşaq, başında da göy əmmamə. Molla qaş-qabağını töküb soruşur:

– Nə var? Nə istəyirsən?

Seyid deyir:

– Allah qonağıyam. Bu gecə sizdə yatmaq istəyirəm.

Molla yavaşca çıxır küçəyə, qapını yaxşı-yaxşı örtür, seyidin əlindən tutub başlayır özü ilə çəkə-çəkə aparmağa. Seyid heç bir söz deməyib, onun dalınca gedir, belə-belə seyidi gətirib çıxardır məscidin qabağına. Məscidi ona göstərib deyir:

– Odu bax, Allahın evi. Allah qonağısan get onun xarabasında qal! Mən Allahın qəyyumu zadı deyiləm ki, çapıb gəlmisən mənim üstümə.

## YÜZ İYİRMİ İKİSİDİR

Molla orucluqda günlərin hesabını düzgün saxlamaq üçün taxçaya balaca bir küpə qoyur. Hər gün səhər durub küpənin içinə bir noxud salır. Mollanın balaca qızı bunu görüb xoşuna gəlir. Bir gün atası gedəndən sonra küpəyə bir ovuc noxud tökür. Mollanın bu işdən xəbəri olmur. Bir gün qonşular gəlirlər Mollanın yanına ki:

– Molla, sən bilərsən bu gün orucluğun neçəsidir?

Molla:

– Dayanın bu, saat! – deyib o biri otağa keçir, küpədəki noxudları boşaldıb saymağa başlayır. Baxır ki, yüz iyirmi iki dənədir. Fikirləşir ki, əyər mən bunun hamısını desəm mənə gülərlər, qoy barı heç olmasa yarısını deyim. Gəlib deyir:

– Bu gün orucluğun düz altmış biridir.

Deyirlər:

– Ay Molla, orucluq cəmi vur-tut otuz gündür, bu altmış biri haradan çıxartdın?

Molla deyir:

– Hələ mən yaxşı demişəm. Əyər iş küpdəki noxudlara qalsa, bu gün orucluğun düz yüz iyirmi ikisidir.

## GÜNAHA BATA BİLMƏRƏM

Molla orucluqda oruc tutmur, amma obaşdanlar arvadı ilə bərabər durub doyunca yeyir, hələ arvadından da hər gün, cürbəcür xörəklər tələb eləyirmiş. Axırı arvad təngə gəlib deyir:

– Canım, bu nədir? Sən gündüzləri oruc tutmursan, gecələri obaşdanlığa durursan. Ya budu, gündüzləri oruc tut, ya da ki, obaşdanları durma!

Molla hirslənir ki:

– Fikrin nədir? Oruc tutmayıb bir günah eləyirəm, deyirsən ki, obaşdana da durmayıb iki günah eləyim? Yox aşna, mən bu boyda günaha bata bilmərəm.

## HAQQ-HESABIMIZ QURTARSIN

Bir gün axund minbərdə deyir ki:

– Hər kim aşura günü günortaya qədər oruc tutsa, yetmiş aylıq oruc savabı eləmiş olar.

Molla bunu eşidir. Haman il aşura günü günortaya qədər oruc tutur. Ta o gündən sonra bir gün də olsun oruc tutmur.

Orucluq günlərinin birində Mollanın çörək yediyini görən bir nəfər soruşur:

– Molla, heç ayıb deyilmi ki, sən orucunu yeyirsən.

Molla deyir:

– Axundun sözünü eşitmədin? Mən aşura günü oruc tutmuşam. Bu, eləyir yetmiş orucluq ayı. Bir ayını bu il yeyirəm, hələ altmış doqquz il də gərək orucumu yeyəm ki, Allah ilə haqq-hesabımız qurtarsın.

## İYNƏ KİMİ AXTARIRLAR

Molla orucluğun axır günlərində bir başqa kəndə gedir. Baxır ki, kəndin əhalisi yığılıb diqqətlə göyə baxır. Molla da onlara yanaşıb baxır ki, görsün göydə nə var. Baxanlardan biri deyir:

– Odu, odu...

Bir başqası deyir:

– Hanı? Yox, orda bir şey yoxdur.

Üçüncüsü deyir:

– Diqqətlə baxın, birdən olar ha...

Molla bunlardan birinə yanaşıb soruşur:

– Belə diqqətlə nəyə baxırsınız?

Cavab verirlər ki:

– Aya.

Molla soruşur:

– Aya?

Deyirlər:

– Hə? Hecə?

Molla deyir:

– Nə sarsaq adamlar var ey... Bizim kənddə adamlar araba çarxı boyda ayı görüb heç başlarını da çevirmirlər. Bunlar iynə kimi axtarırlar.

## AL DƏSTƏMAZINI, VER BAŞMAĞIMI

Molla bir gün çay kənarında dəstəmaz alarkən başmağı ayağından çıxıb çaya düşür. Su başmağı götürür. Molla bir az başmağın dalınca qaçıb görür yox, tuta bilməyəcək. Bir kənara çəkilib dəstəmazı pozur, hirslə deyir:

– Ala ey, ala, istəmədik. Al dəstəmazını, ver başmağımı!

## BAŞMAQÇIDAN

Günlərin birində Molla bir evə gedir. Baxır ki, qapıda qonaqlara baxan, başmaqları gözləyən yoxdur. Qorxur ki, içəri gircək başmaqları oğurlayarlar. Onun üçün də cibindən yaylığını çıxardır, başmaqlarını səliqə ilə büküb vurur qoltuğuna, keçib əyləşir. Yanında oturanlardan biri Mollanın qoltuğundakını qiymətli bir kitab bilib soruşur:

– Deyəsən qoltuğundakı kitabdır?

Molla deyir:

– Bəli, özü də çox qiymətli kitabdı. Onun üçün də özümdən heç ayıra bilmirəm. Elə hara getdim, yanımca aparıram.

Kişi maraqlanıb soruşur:

– Nəyə dairdir?

Molla deyir:

– İlahiyyat elminə.

Kişi soruşur:

– Haradan alıbsan?

Molla deyir:

– Başmaqçıdan.

## DALIMDA DURANDAN SORUŞ

Bir gün camaat namazında Mollanın dalında duran adam necə olursa Mollaya toxunur. Molla az qalır ki, yıxılsın, ancaq özünü birtəhər saxlayır. Sonra qabağında duran pişnamaza bir kəllə vurub yerə yıxır. Pişnamaz hirslənib geri dönür ki:

– Neyliyirsən, Molla?

Molla deyir:

– Budu, bax, mənim dalımda durandan soruş!

## MOLLA AZAN VERİR

Bir gün Molla hamama gedir. Hamamda heç kəs yox imiş. Bir tərəfdən tək özü, bir tərəfdən də ki, isti hamam... Molla başlayır oxumağa. Bir ağız, iki ağız, baxır ki, elə əməlli başlı səsi var. Öz-özünə deyir:

– Mənim ki, belə gözəl, məlahətli səsim var, niyə bunu camaatdan gizlədirəm?

Sabahısı günorta vaxtı gəlib çıxır minarəyə, əlini qulağının dibinə qoyub başlayır azan verməyə. Əslində də Mollanın səsi çox nahamvar imiş. Başlayır cır-cır cırıldamağa. Minarənin dibindən keçən qulağını tutub qaçır. Axırda bir nəfər özünü saxlaya bilməyib qışqırır ki:

– Düş aşağı, baş-qulağımız getdi! Bu nahamvar səs ilə səndən kim xahiş eləyir ki, çıxıb azan verəsən?

Molla baxır ki, elə doğrudan da səsi çox pisdir. Bir o tərəfinə, bir bu tərəfinə baxıb deyir:

– Neyliyim ki, zalım oğlu minarə tikən bunun başında bir hamam qayırmayıb. Ola idi hamam, mən azan deyəydim, sən də mənim səsimin məlahətinə baxaydın.

## BİLƏNLƏR BİLMƏYƏNLƏRƏ ÖYRƏTSİN

Camaat bir gün tutur Mollanın yaxasından ki: "Gərək çıxıb minbərdə bizim üçün bir mövzə eləyəsən". Mollanın da belə şeylərdən zəhləsi gedərmiş. Nə qədər deyir ki:

– Ay camaat, əl çəkin məndən. Mən mövzə eləməyi bacarmaram.

Camaat əl çəkmir ki, çəkmir. Axırda Molla naçar qalıb çıxır minbərə, üzünü camaata tutub deyir:

– Camaat, bilirsiniz nə var?

Deyirlər:

– Yox, bilmirik.

Molla yavaşca düşür aşağıya ki:

– İndi ki, bilmirsiniz, mən sizi başa sala bilmərəm.

Sabahı günü camaat sözü bir yerə qoyur ki, necə olsa, gərək Mollanı danışdıraq. Yenə də Mollanın yaxasından tuturlar. Molla axırda görür ki, camaat əl çəkməyəcək, yenə də minbərə çıxıb soruşur:

– Camaat, bilirsiniz nə var?

Adamlardan bir-ikisi tez cavab verir:

– Bilirik.

Molla: İndi ki bilirsiniz, daha mən sizə nə deyim, – deyib yenə düşür yerə.

Adamlar baxırlar ki, yenə olmadı. Sabahı günü yenə sözü bir eləyib güclə Mollanı çıxardırlar minbərə. Molla yenə haman sualı verir:

– Camaat, bilirsiniz nə var?

Bir neçə adam tez cavab verir ki:

– Bilirik.

Bir neçəsi də dillənir ki:

– Yox, biz bilmirik. De görək nə var?

Molla kələyi başa düşüb deyir:

– Onda bilənlər bilməyənlərə öyrətsin. Mənim işim var, gedirəm.

## HEÇ MƏNİ SORUŞMURSAN

Molla bir başqa kəndə qonaq gedir. Camaat tutur yaxasından ki, gərək bizə bir mövzə eliyəsən. Molla nə qədər çalışır ki, camaatın əlindən yaxasını qurtarsın, olmur. Axırda çar-naçar çıxır minbərə. Nə desin, nə deməsin başlayır İsanın göyə çıxmağından. Sözü o yerdə qurtarır ki:

– İsa elə o vaxtdan qalıb göyün dördüncü qatında.

Camaat dağılır. Molla bayıra çıxanda bir arvad onun qabağını kəsir ki:

– Molla, sən deyirsən İsa qalıb dördüncü göydə. Bəs orda o, nə yeyib dolanır?

Molla bir az fikirləşib görür ki, arvad onu pis yerdə tutub. Özünü sındırmayaraq deyir:

– Heç mən yekəlikdə Molla üç gündür sizin kəndinizdəyəm, bir dəfə ağzından qıfıl götürülmür ki, soruşub görəsən, mən burada nə yeyib dolanıram. Amma mənim ağzıma gəldi, bir yalan dedim, o saat onun orada nə yediyini soruşursan.

## BEHİŞTİ QƏBUL ELƏMƏZ

Soyuq qış gecələrinin birisində ağsaqqallar bir evə yığışıb vaxt keçirirmişlər. Söhbət cəhənnəm ilə behiştdən düşür. Danışanlar cəhənnəmi pisləyib, behişti tərifləyirlər. Bu halda Molla da buraya gəlir. Evə gircək ortalığa qoyulmuş manqalın yanına soxulub əl-ayağını qızdırmağa başlayır. Ağsaqqallar öz söhbətlərinə davam edirlər. Molla bir az qulaq asıb deyir:

– Çox da basıb-bağlamayın! Əyər qiyamət qışa düşsə, bir axmaq cəhənnəmi qoyub behişti qəbul eləməz.

## BEHİŞT ƏHLİNİN KƏLLƏSİNDƏN

Bir nəfər Mollaya bir bişmiş qoyun kəlləsi gətirir. Gözləyir, Molla kəlləni yeyib qurtardıqdan sonra deyir:

– Molla, mənə bir dua elə!

Molla deyir:

– Filankəs, sən ki, bu kəlləni mənə verdin, Allah o dünyada sənə behişt əhlinin kəlləsindən qismət eləsin.

## QOY BAŞINA OXU GÖRƏK

Mollanın kəndlilərindən biri başqa şəhərdə olan qohumlarından bir məktub alır. Tez axtarıb mollanı tapır. Oxumaq üçün məktubu ona verir.

Molla baxır ki, məktub çox qarmaqarışıq yazılıb, kəndlini başından eləmək üçün deyir:

– Sən bir ayrı adam tap, bunu oxusun.

Kəndli deyir:

– Yox, Molla, əl çəkəsi deyiləm. Ayrı adamı haradan tapım, gərək oxuyasan.

Molla deyir:

– Əvvələn, mən farsca bilmirəm; ikinci, bu məktub türkcə yazılıb; üçüncüsü də elə-belə oxuya bilmirəm.

Kəndli hirslənir ki:

– Yaxşı, farsı bilmirsən, türkü bilmirsən, oxuya da bilmirsən, dayı dəyirman daşı boyda əmmaməni başına niyə qoymusan?

Molla deyir:

– Əyər əmmamə ilə oxumaq olarsa, buyur qoy başına, bircə kəlmə oxu görək.

## VƏRƏSƏLƏR BİLƏR

Günlərin birində bir dərviş Mollanın şöhrətini eşidib, mərc edir ki:

– Mən onu aldadıb, istədiyimi ala bilərəm.

Gözləyirlər, elə ki,Molla gəlir bazara, dərviş onun qabağına çıxıb deyir:

– Salaməleyküm, Molla əmi!

Molla da cavab verir ki:

– Əleykümə̈ssəlam, ağa dərviş!

Dərviş deyir:

– Molla, sənə bir sualım var. Görürəm ki, sən alim adamsan. Gərək mənim bu sualıma düzgün cavab verəsən.

Molla deyir:

– Buyur görək, sualın nədir?

Dərviş deyir:

– Molla, Həzrəti-Adəm bizim nəyimizdir?

Molla deyir:

– Babamız.

Dərviş deyir:

– Yaxşı, çox gözəl. Bəs Həvva nəyimizdir?

Molla deyir:

– Nənəmiz.

Dərviş deyir:

– Yaxşı, demək, biz bir babanın, bir nənənin nəvələriyik, elədimi?

Molla deyir:

– Bəli, elədir.

Dərviş deyir:

– Demək ki, biz qardaş, ya da ki, çox uzaq olsa, əmioğlanlarıyıq, eləmi?

Molla deyir:
– Bəli, elədir ki, var.
Dərviş deyir:
– İndiki elədir, necə ki qardaş, ya də əmioğlu, gərək dünyada nəyin varsa, bir hissəsini bölüb verəsən mənə.
Molla görür ki, dərviş lotu adamdır. Özü də onu yaman yerdə tutub. Heç öz əvvəlki halını dəyişməyib:
– Haqlısan, əzizim! Baş üstə. Buyur, – deyərək onun ovcuna bir qəpik pul basır.
Dərviş deyir:
– Molla, sənin o qədər varından, dövlətindən mənə elə bircə qəpik çatır?
Molla ağzını onun qulağına yapışdırıb deyir:
– Səs eləmə, nə vermişəm, götür, get! Yoxsa o biri əmioğlanları eşitsə, o qədər vərəsə yığılar ki, sənə heç bir qəpik də düşməz.
Camaat gülüşür. Dərviş deyir:
– Nəyə gülürsünüz? Bir qəpik də olsa yenə aldım ki?..
Molla başa düşür ki, bu, mərc eləmiş imiş. Deyir:
– Almağına almısan, ağa dərviş! Amma, bu almağın axır verməyi də var.
Dərviş soruşur:
– Necə?
Molla deyir:
– Axır mən də sənin qardaşın, ya da ki, əmioğlunam. Səndən də mənə vərəsə haqqı çatır. İndi zəhmət çək, sən ver, görüm, nə verirsən?
Beləliklə, Molla verdiyi qəpiyi geri alır.

## BELƏ QƏLƏTLƏR ELƏMƏYƏSƏN

Günlərin birində yenə də Molla işdən yorğun-arğın gəlir. Arvad qabağına bir stəkan çay töküb qoyur. Molla da əlində çubuq istirahətlə əyləşib gözünü dikir ocağın üstündəki qazana. Arvad yavaş-yavaş axşam xörəyini yemək üçün hazırlıq görməyə başlayır. Birdən qapı döyülür. Molla öz-özünə hirslənir ki, yenə görəsən kimdi bu dar vaxtı gəlib çıxdı. Bir tikə bozbaşımız var, qoymayacaqlar vaxtında yeyək.

Qapını döyəndə ki, nəfəs almadan elə döyür. Molla neçə dəfə səslənib, qapıdakının kim olduğunu soruşursa da heç bir cavab çıxmır. Axırda arvad deyir:

– A kişi, ölmürsən ki? Dur bir gör kimdir də...

Molla deyir:

– Arvad, vallah, heç bu pilləkənləri düşüb çıxmağa ərdəmim gəlmir. Nə olar, sən get gör kimdir?

Arvad deyir:

– A kişi, bəs sən heç utanmazsan ki,sən kişi xeylağı dura-dura, mən arvad xeylağı qapıya gedəm?

Axırda Molla naəlac qalıb, ürəyində söyə-söyə durur, pilləkənləri düşüb qapını açır. Baxır ki, qapını döyən bir nəfər seyiddir. Hirs vurur Mollanın başına. Soruşur ki:

– Nə var? Nə istəyirsən?

Seyid yaltaqlana-yaltaqlana deyir:

– Seyidəm, cəddim hörmətinə bir pay istəyirəm.

Molla elə hirslənir ki, ağlı başından çıxır. Hirsini saxlaya bilməyib çığırır onun üstünə ki:

– Bəs səhərdən deyirəm kimdi, kimdi, niyə cavab vermirsən?

Seyid deyir:

– Dedim, elə özün zəhmət çəkib gələsən. Bəlkə yerin də oldu, bu gecə qonaq saxlamağa.

Molla baxır ki, bu lap həyasız seyidlərdəndi. Deyir:

– Nə? Onda dalımca gəl!

Molla düşür qabağa. Seyid də onun dalınca pilləkənlərdən çıxırlar yuxarıya. Elə ki seyid lap evin qapısına çatır, Molla dönüb deyir:

– Hə, Allah versin qardaş! Nə çörəyimiz var, nə də yerimiz.

Seyid deyir:

– Bəs indi ki yox idi, məni bir də bura niyə çıxardırdın? Elə qapıda deyəydin də!..

Molla deyir:

– Dedim, özün bir zəhmət çəkib, məni bu pilləkənlərdən düşürdüb çıxartdığın kimi, çıxıb təzədən düşəsən, dadın görəsən, bir də belə qələtlər eləmiyəsən.

## ALLAH ADAMI

Günün birində Molla çöldə işləyirmiş. Günorta vaxtı oturub dəstərxanını açır ki, bir az çörək yesin, bu dəmdə bir dəstə adam gəlir. Mollaya salam verib, başlayırlar çörəyə baxmağa. Molla deyir:

– Buyurun, əyləşin, çörək yeyin!

Adamlar o saat əyləşib yeməyə başlayırlar. Bir qırpımda çörək qurtarır. Molla qalır ac. Sonra hamısı durur, Mollaya "sağ ol" deyib gedəndə Molla soruşur:

– Qardaş, heç demədiniz ki, siz kimsiniz?

Deyirlər:

– Biz Allah adamıyıq.

Bunlar gedəndən bir az sonra bir neçə atlı gəlib yaxındakı bulağın başında düşürlər. Tez bir qoyun kəsirlər, kabab çəkirlər, yeyib-içməyə başlayırlar. Molla yaxınlaşıb soruşur:

– Gününüz kefdə-damaqda keçsin, qardaşlar! Soruşmaq ayıb olmasın haradan gəlib, haraya gedirsiniz?

Deyirlər:

– Biz padşah adamıyıq.

Molla bir bunlara baxır, bir Allah adamlarının dalınca baxır, sonra da üzünü göyə tutub deyir:

– Bu adamlarını bir padşah kimi də saxlaya bilmirsənsə, daha adını nə Allah qoymusan?

## BEŞ ŞAHININ HÖKMÜ

Molla hələ cavan vaxtlarında bir dəfə alver eləmək fikrinə düşür. Özündən bir az kiçik bir dostu ilə şərik olub, bir küpə süd alıb, satmaq üçün şəhərə aparırlar. Südü satıb qurtardıqdan sonra fikirləşirlər ki, həmin pula bir küpə xoşab alsınlar ki, aparıb kənddə satsınlar. Elə də eləyirlər. Küpəni xoşabla doldurduqdan sonra ikisinin beş şahı artıq pulu qalır. Molla bir-iki yaş böyük olduğuna görə, pulu qoyur cibinə. Xoşabı da götürüb, sevinə-sevinə düşürlər yola. Bir az gedəndən sonra Molla deyir:

– Amma, göz dəyməsin, südü də yaxşı satdıq, xoşabı da yaxşı aldıq.

Yoldaşı deyir:

– Əgər belə getsə bir-iki aya əməlli-başlı pul qazanıb, yoxsulluğun daşını atarıq.

Bir az da gedəndən sonra Molla deyir:

– Aşna, onsuz da bugünkü alverdən filan qədər qazancımız var. Mən istəyirəm bu hesaba xoşabdan bir kasa içəm.

Yoldaşı deyir:

– Dostluğumuz öz yerində, amma biz axır xoşaba şərikik. Bunu da mən hesablamışam, kasası beş şahı eləyir. İçmək istəyirsənsə, gərək pulunu verib içəsən.

Molla cibindəki beş şahını çıxarıb verir, xoşabdan bir kasa içir. İndi də yoldaşın xoşaba tamahı düşür. Beş şahını Mollaya qaytarıb bir kasa da o içir. Bir azdan sonra Molla yenə də beş şahını yoldaşına verib bir kasa içir. Sonra yoldaşı beş şahını qaytarır, bir kasa da o içir. Belə-belə, kəndə gəlib çatana qədər bir küpə xoşabı içib qurtarırlar, ortada beşcə şahı pul qalır.

## İÇİNDƏKİLƏRƏ GÖRƏ BU BOYDADIR

Molla şəhərə gəldiyi günlərin birində gəzərkən çox böyük və gözəl bir bina görür. Bina Mollanın o qədər xoşuna gəlir ki, bir neçə dəqiqə durub heyran-heyran tamaşa eləyir. Sən demə, bu bina şəhərin darğasının eviymiş. Mollanın belə diqqətlə evə baxdığını görüb, qoltuqlarının altı şişir. Onu dolamaq məqsədilə yanaşıb soruşur:

– Nə var? Niyə belə diqqətlə baxırsan?

Molla deyir:

– Çox gözəl binadır. Çox xoşuma gəlir. Amma çox böyükdür. Fikirləşirəm ki, görəsən, bunu niyə belə böyük tikiblər?

Darğa deyir:

– Sənin fikrincə, bu, nə ola bilər?

Molla deyir:

– Vallah, deyəsən evdir. Amma...

Darğa onu ələ salmaq məqsədilə deyir:

– Səhv edirsən, Molla, bura ev deyil, karvansaradır.

Molla darğanın onu ələ salmaq istədiyini başa düşür. Odur ki, heç əhvalını pozmadan deyir:

– Hə... deyirəm axır... İçində at-eşşək yaşadığı üçün belə böyük tikiblər də...

## MOLLA VƏ DÖVLƏTLİ

Molla bir gün səhər dua eləyib deyir:

– Allah, indiyə kimi mən səndən heç nə istəməmişəm. İndi istəyirəm səni bir sınaqdan çıxardım. Əgər doğrudan da varsansa, mənə yüz dənə qızıl yetir.

Bir tərəfdə oturub ərinə qulaq asan arvadı soruşur:

– A kişi, bəlkə yüz olmadı, bir az əskik oldu.

Molla deyir:

– Yox, şərtimiz var. Lap doxsan doqquz da olsa, götürmərəm.

Sən demə, bu söhbəti Mollanın çox dövlətli bir qonşusu eşidirmiş. Mollanı ələ salmaq məqsədilə sabahısı səhər tezdən yerindən durub, bir kisəyə düz doxsan doqquz qızıl qoyub ağzını bağlayır, gətirib Mollanın bacasından içəriyə salır. Molla bir də baxır ki, bacadan bir kisə düşdü. Tez götürüb açır, baxır nə... içi qızılnan dolu. De, başlayır saymağa. Sayhasay-sayhasay, görür ki, düz doxsan doqquz dənədir. Heç halını pozmayıb deyir:

– Zərər yoxdur, doxsan doqquzunu yetirən birini də yetirər.

Molla qızılı qoyur cibinə. Dövlətli qonşu işi belə görüb tez damdan enib gəlir ki:

– Aşna, ver qızılları.

Molla soruşur:

– Nə qızıl? Sarsaqlamısan-nədi? Mən sənə qızıl-zad borcluyam?

Dövlətli deyir:

– O qızıllar ki, bacadan düşdü, mən atmışdım. Sənin səhər duanı eşitdim, sözünün üstündə durub-durmayacağını yoxlamaq istədim.

Molla deyir:

– Mən nə dua eləmişəm, nə də bacadan qızıl düşüb. Bu qızılları ki, sayırdım, o mənim arvadımın lamdəmalısıdır. Dünən alıb gətirib.

Qərəz, mübahisə uzanır. Kişi görür ki, Molla qızılı verməyəcək, yaxasından tutur ki:

– Dur, gedək qazıya.

Molla deyir:

– Gözüm üstə! Mən qazının yanına getməkdən boyun qaçırmıram. Ancaq qoca adamam, piyada gedə bilmərəm. Gərək mənə bir yaxşı qatır verəsən, minəm gedəm.

Dövlətli qızılların dərdindən gedib bir yaxşı qatır gətirib verir ona.

Molla qatırın gəldiyini görüb deyir:

– Balam, arvad gecə cübbəmi yuyub, yaşdır. Mən gedə bilməyəcəyəm.

Kişi gedib bir dənə də təzə cübbə gətirib verir ona. Molla cübbəni geyir, qatırı minir, düşürlər yola. Dövlətli qazının yanında əhvalatı danışıb qızılları istəyir. Qazı üzünü Mollaya tutub soruşur:

– Molla, sən nə deyirsən?

Molla deyir:

– Qazı ağa, əvvəl-əvvəl bir bundan soruş görək ağlı başındadır, ya yox?

Dövlətli hirslənir ki:

– Bu nə sözdür? Əlbəttə, başımdadır.

Molla deyir:?

– Yaxşı, ağlı başında olan adam da xalqın bacasından doxsan doqquz qızıl salar?

Dövlətli yenə əhvalatı başdan danışıb, Mollanı yoxlamaq istədiyini deyir. Molla başlayır danışmağa ki:

– Qazı ağa, bu qızıllar mənim arvadımın dədəmalısıdır. Mən səhər onları sayanda, yəqin bu görüb, indi də əlimdən almaq istəyir. Bu tacir tayfası elə həmişə belə göygöz olur. Mən qorxuram hələ bu başlıya ki, mənim mindiyim qatır da bununkudur.

Dövlətli deyir:

– Bəs necə? Əlbəttə, mənimdir.

Molla deyir:

– Gördün qazı ağa!.. Mən sənə deyirəm ki, bunun başına hava gəlib, sən inanmırsan. Bir az da dayansa deyəcək ki, əynindəki cübbə də mənimdir.

Dövlətli lap özündən çıxır ki:

– Əlbəttə, mənimdir.

Molla çox sakit deyir:

– Di, qazı ağa, özün münsif ol, ədalətini göstər!

Qazı dövlətlinin doğrudan da dəli olduğunu yəqin eləyib, çıxardıb qovur. Molla qızılları, cübbəni və qatırı götürüb evə qayıdır.

## HƏM NÖKƏRƏM, HƏM DƏ AĞA

Mollanın qonşuluğunda dövlətli, xəsis, heç kəsin əlindən tutmaq istəməyən, xeyrə-şərə yaramaz bir adam olurmuş. Günlərin birində Mollanın bu qonşunya balaca bir işi düşür. Gəlib qapını döyür. Qonşu pəncərədən Mollanın onlara gəldiyini görüb gizlənir. Nökər Mollaya deyir ki:

– Ağam evdə yoxdu.

Molla bilir ki, nökər yalan deyir. Ürəyində deyir:"Eybi yoxdu, belə deyil ki, belə olsun. Gün gələr dəmir qapının da taxta qapıya işi düşər".

Günlər keçir, həftələr dolanır, bir gün həmən qonşunun Mollaya vacib bir işi düşür. Durub onun qapısına gəlir. Molla da pəncərədən baxırmış. Qonşunun onlara gəldiyini görcək tez qapının dalına gəlib gözləyir. Qonşu qapıya çatıb döyməyə başlayır. Molla qapının dalından deyir:

– Mən evdə yoxam.

Qonşu deyir:

– Molla, qonşuluqda belə şeylər yaxşı deyil. Necə yanı mən evdə yoxam?

Molla deyir:

– Vallah, ay qonşu, bu dünya ki var, gör-götür dünyasıdır. Bir neçə vaxt bundan qabaq mən sizə gəldim. Sən nökərini öyrətdin ki, desin ağam evdə yoxdu. Mən də səndən öyrəndim. Ancaq nökərim olmadığına görə məcbur oldum ki, özüm evdə olmadığımı özüm deyəm. Nə eləyim? Sənin kimi dövlətli deyiləm ki, nökər saxlayam. Mən özüm özümə həm nökərəm, həm də ağa.

# BƏLKƏ VERSİNLƏR

Günlərin birində Molla Nəsrəddinə kənddən bir qonaq gəlir. Qonaq atını həyətə bağlayır. Evə girib söhbət eləməyə başlayırlar. Bir vaxt ayılırlar ki, at açılıb gedib. Molla küçəyə çıxıb başlayır car çəkməyə ki:

– Ay bir dənə eşşək görən aqibəti xeyir olan! Kim yerini desə muştuluq verəcəyəm.

Qonaq deyir:

– Ay Molla, bəs ata eşşək niyə deyirsən?

Molla deyir:

– Sən şəhər adamını yaxşı tanımazsan. Bunlar yaman acgöz olurlar. Bilsələr ki, itən atdır, verməzlər. Qoy, eşşək deyək bəlkə gətirib versinlər.

# ONDAN AL, BUNA VER

Molla tacirlərdən birinə nisyə buğda satmışdı. Yazıq gündə kənddən şəhərə gəlirdi ki, pulunu birtəhər tacirdən alsın. Tacir də gündə bir fırıldaqla onu yola salıb, pulunu vermirdi ki, vermirdi.

Günlərin birində Molla yenə də gəlir şəhərə. Ancaq nə qədər eləyirsə, tacir pulu vermir, min bir bəhanə gətirib Molladan yenə bir neçə gün möhlət istəyir. Səhərdən axşama kimi ac, susuz şəhərdə qalan Molla axşamüstü düzəlir yola ki, getsin kəndə. Baxır ki, acından ayaqları getmir. Çox fikir-xəyaldan sonra bir çörək dükanına gedib, pulunu sabah vermək şərtilə bir girvənkə çörək istəyir. Çörəkçi vermir. Molla baxır ki, bu zalım oğlu zalım çörək verməyəcək, tacir də ki pulu vermir. Çörəkçi o tərəfə baxanda Molla göz-gözə vurub, yavaşca iki lavaş götürüb əkilir. Gəlib yolun kənarındakı bulağın başında oturur. Elə ki çörəkləri yeyib doyur, sudan da bir az içib deyir:

– Allah, özün yaxşı bilirsən ki, mən oğru deyiləm. Bunu da bilirsən ki, cibimdə bir qəpik pulum yoxdur, özüm də acam. Onu da görürdün ki, o tacir pulumu vermədi, bu tacir də halallıqla mənə çörək vermək istəmədi. İndi özün bil, halal eləyirsən elə, eləmirsən pulumu o tacirdən al, bu tacirə ver.

# YAXŞI MÜŞTƏRİ OLSUN

Gecələrin birində Mollanın evinə oğru gəlir, nəyi varsa yığışdırıb aparır. Səhər Molla yuxudan oyanıb görür ki, necə deyərlər, evdə bir həsir qalıb, bir Məmmədnəsir. Gözləyir, gözləyir, elə ki axşam olub qaranlıq düşür, bir nərdivan götürüb düzəlir yola.

Qonşuluqlarında bir dövlətli tacir olurmuş. Nərdivanı onun pəncərəsinə dayayıb çıxır, düşür evə. Sonra, küçədən keçənlər görməsinlər deyə, nərdivanı da çəkir içəri. Bu taraqqa-taraqqa ev sahibi oyanıb baxır ki, Molla çiynində də bir nərdivan evin ortasında dayanıb. Soruşur:

– Molla burada nə qayırırsan?

Molla görür tutulub, özünü avamlığa qoyub deyir:

– Nərdivan satıram.

Tacir hirslənir ki:

– Bura sənin üçün bazar-zaddı bəyəm?

Molla deyir:

– Nərdivanı elə hər yerdə satmaq olar. Sən onu de ki, yaxşı müştəri olsun.

# EŞŞƏK KƏLLƏSİ

Molla bazarda gəzə-gəzə bir sərraf dükanının qabağına gəlir. Gördüyü şeylərdən çox xoşlandığı üçün dayanıb tamaşa eləməyə başlayır. Sərraf bunu görür, qoltuqlarının altı şişir. Mollanı ələ salmaq məqsədilə yaxınlaşıb soruşur:

– Nəyə baxırsan?

Molla deyir:

– Bu qızıllara, cavahirata baxıram. Deyəsən, sərraf dükanıdır.

Sərraf lovğa-lovğa deyir:

– Yox, sənin gözlərin yaxşı görmür. Bura sərraf dükanı deyil, kəlləpəz dükanıdır. Burada eşşək kəlləsi satılır.

Molla heç özünü itirməyib deyir:

– Deyəsən alış-verişiniz də çox yaxşı gedir.

Sərraf soruşur:

– Necə? Nədən bildin?

Molla sərrafın başına işarə eləyib deyir:

– Baxıram, elə bu boyda dükanda vur-tut bircə dənə eşşək kəlləsi qalıb.

# ÇƏKİ İLƏ DƏ YEYƏRLƏR

Molla bazardan şaftalı alıb gətirir, misqal-tərəzini qabağına qoyub şaftalıları bircə-bircə çəkib yeyir. Arvadı soruşur:

– A kişi, niyə bəs çəkib yeyirsən?

Molla deyir:

– Çünki alanda çəkib almışam. Çəki ilə alınan şeyi çəki ilə də yeyərlər.

# QOY MƏNİM MAYAMA ZƏRƏR ELƏSİN

Molla ömründə birinci dəfə şəhərə gəlir. Gəzə-gəzə gəlib çıxır bazara. Əvvəl-əvvəl qabağına bir baqqal dükanı çıxır. Hələ dükanın nə dükanı olduğunu bilməyən Molla baxır ki, bir nəfər adamdı, oturub, ətrafı da doludu tabaqlarnan. Tabaqların içində noxud, kişmiş, badam, püstə, alma, armud... qərəz, dünyada hər nə desən var. Amma kişi bu yeməlilərin heç birindən yemir. Molla əvvəl elə bilir ki, kişi kordu. Yanındakıları görmür. Bir az yaxına gəlib görür yox, kişi baxır. Bir az durur-durur, fikirləşir ki, yəqin bu kişinin gözləri anadangəlmə elə belədir, baxır, amma görmür. Fikrinin düz olub-olmadığını yoxlamaq üçün yaxınlaşır, iki barmağını dik tutub uzadır baqqalın gözlərinə. Baqqal qışqırır ki:

– Nə qayırırsan? Gözümü çıxartmışdın ki...

Molla təəccüblə soruşur:

– Sən görürsən?

Baqqal deyir:

– Niyə görmürəm?

Molla soruşur:

– Bəs görürsənsə niyə yemirsən?

Baqqal deyir:

– Mayama zərər elər.

Molla baqqaldan bu sözü eşitcək ilişir kişmiş-noxuda.Baqqal deyir:

– A kişi, nə qayırırsan? Kişmiş-noxudu niyə yeyirsən?

Molla deyir:

– Sənə nə var? Qoy mənim mayama zərər eləsin.

## SABAH

Molla yenə də bir tacirə borclu düşür. Nə qədər əlləşir-vuruşursa, borcu qaytara bilmir. Tacir hər dəfə pulun dalınca gələndə Molla deyir:

– Bu gün yoxumdu, sabah gəl!

Bir gün yenə də tacir pulun dalınca gələndə Molla özü evdə olmur. Tacir Mollanın oğlunu tapıb soruşur:

– Sənin bu atan mənim pulumu verəcək, ya yox?

Mollanın oğlu deyir:

– Niyə vermir? Bütün dünya-aləm bilir ki, mənim atam borc danan adam deyil. Ancaq indi iş belə düşüb ki, əli bir az aşağı olub.

Tacir hirslənir ki:

– Verəcək, verəcək!.. Bəs nə vaxt verəcək?

Mollanın oğlu deyir:

– Bax, o qapımızdakı qara daşı görürsən? O daş çiçək açanda zəhmət çək, gəl, pulunu apar!

Tacir Mollanı da, oğlunu da söyə-söyə çıxıb gedir. Bir azdan sonra Molla evə gəlir. Oğlu əhvalatı ona danışıb deyir:

– Daha arxayın ola bilərsən. Çünki nə daş çiçək açacaq, nə də tacir pulun dalınca gələcək.

Molla bir az fikirləşib deyir:

– Nahaq yerə belə aydın vaxt qoymusan. Daşdı, keyfi istədi, günün birində çiçək açdı, tacir də buyurub gəldi. Pulu haradan tapıb verəcəyik? Belə işlərdə ən yaxşısı budu ki, deyəsən"sabah gəl!", çünki nə qədər ki, bu dünya var, bir o qədər də sabah var.

## DƏVƏ BAŞI

Günün birində yenə də Mollanın çörək pulu olmur. Arvad, var-yox, əli-ovucu, sandıqdakı bir yumaq ipini çıxarıb verir ona ki, aparıb satsın, çörək alsın. Molla yumağı aparır bazara. Nə qədər dolandırırsa, heç iki girvənkə çörəyin də pulunu verən olmur. Molla hirslənib deyir:

– Bu alverçilərlə alverçi kimi rəftar eləmək lazımdır.

Axtarıb bir dəvə kəlləsi tapır. İpi açıb sarıyır haman kəlləyə, başlayır bazarda gəzdirməyə. Dükançılardan biri baxır ki, Molla bir böyük

yumaq ip satır. Çıxarıb çox ucuz bir qiymət verir, Molla razılaşır. Dükançı Mollanın bu boyda yumağı belə ucuz qiymətə verməyə razılaşmasından şübhələnib soruşur:

– Molla, bunun içində bir şey yoxdur ki?..

Molla deyir:

– Var. İçində bir dəvə başı var.

Dükançı bu cavabı kinayə hesab edib, arxayınlaşır. Yumağın pulunu verir. Molla pulu alıb gedəndən sonra dükançı yumağı açıb görür nə... Doğrudan da içində bir dəvə kəlləsi var. Sabahısı Mollanı çağırır yanına ki:

– Molla, heç utanmırsan?

Molla deyir:

– Əvvəla, mən satanda sənə dedim ki, içində dəvə başı var. Almayaydın. İkincisi də sən yumağı məndən elə ucuz alıbsan ki, içindən dəvənin başı yox ki, özü də çıxsa yenə qazanmısan.

## SÖVDƏGƏR QARDAŞ

Günün birində Molla uzaq bir səfərdən gəlirmiş. Yol uzun, özü də pay-piyada, yazıq lap əldən-dildən düşmüş imiş. Kəndlərinə çatmağa hələ bir neçə saat qalmış bir atlıya rast gəlir. Salam-kəlamdan sonra yol yoldaşı olurlar. Aydın olur ki, atlı sövdəgərdir. Özü də bir neçə aydır ki, yaşadığı şəhərdən çıxıb ticarətə getmiş imiş. İndi evinə qayıdır. Söhbət eləyə-eləyə sövdəgər hansı şəhərdən olduğunu, hansı məhəllədə yaşadığını da deyir.

Gəlib, gəlib, bir bulaq başına çatırlar. Sövdəgər atdan düşür, Mollanın köməyilə yükün içindən bir dəstərxan çörək və yavanlıq çıxardır, bulağın başında əyləşib yeməyə başlayır.

Molla da çox bərk ac imiş. Yeməyi görcək qarnı səslənməyə, ağzı sulanmağa başlayır. Sevinir ki, çox yaxşı oldu, indi yəqin ki, məni də süfrəyə çağıracaq, heç olmazsa, bir-iki tikə yeyərəm, evə çatana qədər ürəyimdə durum olar. Sövdəgər Mollaya heç bir quru təklif də eləmir. Ağzına yekə bir tikə qoyub yeyə-yeyə deyir:

– Səhər yediyimin üstündəyəm. At da elə silkələyib ki, lap acından ölürəm.

Molla deyir:

– Bəli... Mən də dünən axşam yatanda yediyimin üstündəyəm. Özü də ki, pay-piyada... Adam acar da...

Sövdəgər, elə bil ki, bu sözləri heç eşitmir. Ağzına bir yekə tikə də təpişdirib soruşur:

– Sən haradan gəlirsən ki?..

Molla fikrinə qoyur ki, sövdəgərə bir-iki şirin söz desin, bəlkə insafa gəlib onu da süfrəyə çağıra. Deyir:

– Mən də elə səninlə həmşəhərliyəm də...

Sövdəgər soruşur:

– Yox əşi?..

Molla lap cani-dildən deyir:

– Əziz canın üçün. Sizin qonşuyam ki...

Sövdəgər soruşur:

– Yaxşı, onda bir danış görək, şəhərdə nə var, nə yox?

Molla deyir:

– Sağ-salamatlıqdır.

Sövdəgər deyir:

– Bizim evdən-zaddan heç xəbərin olmaya?

Molla deyir:

– Mənim yolum elə sizin evin yanındandı da... Gündə oradan gedib gəlirəm. Hamısı sağ-salamatdı.

Sövdəgər yeyib doyur. Dəstərxanı bağlayır, başlayır bulaqda əlini, ağzını yumağa ki, atını minib getsin. Molla ürəyində deyir:

– Yaxşı, sövdəgər qardaş! Sən sövdəgər ol, mənə bir tikə çörək vermə! Mən də Molla Nəsrəddin olum, səndən əvəz çıxardım. Görək kim kimə borclu qalacaq?

Sonra əl-üzünü yuyan sövdəgərə deyir:

– Amma mən sənin yerinə olsam, buradan bir baş evə gedərəm.

Sövdəgər soruşur:

– Niyə?

Molla deyir:

– Vallah, deyə də bilmirəm... Mən şəhərdən çıxan gün sizin pişiyiniz ölmüşdü.

Sövdəgər soruşur:

– Niyə?

Molla deyir:

– Ehsanda çox yemişdi, naxoşladı, öldü.

Sövdəgər soruşur:

– Nə ehsan? Kimin ehsanında?

Molla deyir:

– Sizin arvad axır bir həftə bundan qabaq Allah rəhmətinə getdi. Onun yeddisində...

Sövdəgər dəli kimi soruşur:

– Arvad?! Niyə, bizim arvada nə oldu ki, öldü?

Molla deyir:

– Oğlunun ölümünə dözə bilmədi də...

Sövdəgər:

– Oğlunun ölümünə?

Molla:

– Hə də... Zəlzələdən ki, eviniz uçdu e... Oğlan qaldı evin altında...

Sövdəgər evin də uçmağını eşitcək dəli kimi yüyürür atın üstünə. Dəstərxan-zad yaddan çıxır. Ata minib çapmağa başlayır. Molla dəstərxanı açır. Bir yaxşı tikə götürüb ağzına qoyur, sonra sövdəgərin dalınca baxıb deyir:

– Günah özündədi, sövdəgər qardaş! Mən elə bütün sövdəgərləri, tacirləri belə gördüm. Yaxşı deyiblər ki:

Yeyər bir sürü,
Qıymaz bir quzu.
Yeyər toppuzu,
Çıxar doqquzu.

## APARMIRAM Kİ, VERƏM

Molla bir dükandan 15 manata bir şalvar alır. Hələ pulunu verməmiş fikirləşir ki: "şalvarım o qədər də köhnə deyil, cübbəm ondan köhnədir. Yaxşısı budur, şalvarın əvəzinə bir cübbə alım". Dükançıya deyir:

– Qardaş, şalvarı istəmirəm. Götür, qoy yerinə, elə o qiymətə bir cübbə ver.

Dükançı cübbəni verir. Molla geyib pul-zad vermədən düzəlir yola. Dükançı deyir:

– Molla, pul vermədin.
Molla deyir:
– Nə pul? Əvəzində şalvarı qoydum qaldı da...
Dükançı deyir:
– Yaxşı, şalvarın da pulunu verməmişdin axı...
Molla deyir:
– Qəribə adamsan ha... Şalvarı aparmıram ki, pulunu da verəm.

## İNŞALLAH

Molla bir gün bayramlıq almaq üçün bazara gedir. Yolda dostlarından biri qabağına çıxıb soruşur:
– Molla hara belə?
Molla deyir:
– Bazara gedirəm.
Dostu soruşur:
– Nə var? Xeyir ola...
Molla deyir:
– Gedirəm bayram üçün yer-yemiş alam.
Dostu deyir:
– Molla, inşallah de!
Molla deyir:
– Pulum cibimdə, ağlım başımda. Daha buna nə inşallah?..
Bazarda Mollanın cibini kəsirlər. Bir vaxt əlini uzadır cibinə pul versin, baxır ki, bir qəpik də yoxdur. Kor-peşman qayıdır kəndə. Haman dostu yenə qabağına çıxıb soruşur:
– Molla, aldın?
Molla deyir:
– Ala bilmədim, inşallah. Cibimi kəsdilər, inşallah. Səhər-səhər sənə rast gələn yerdə mənim qıçım sınaydı, inşallah. Sənin də dilin quruyaydı inşallah.

## MOLLA TACİR OLUB

Molla biri on qəpikdən yumurta alıb, biri doqquz qəpikdən satırmış. Dostlarından biri soruşur:

– Molla, bu nə alverdir? Sən ki, bunda zərər eləyirsən.

Molla cavab verir:

– Zərərin eybi yoxdur. Mən bunu gözə görünmək üçün eləyirəm. Qoy desinlər ki, Molla da tacir olub.

## GÜLÜRSƏN

Yenə də Molla baqqala borclu düşür. Elə bil ki, zəhrimara qalmış pul daşdan çıxır. Molla nə qədər çalışır, vuruşursa, baqqalın borcunu verə bilmir. Day, elə olur ki, baqqal hər gün qapıda söyüb savaşır, Mollanı biabır eləyir. Axırı bir gün Molla bir kələk düzəldir. Qapının qabağındakı açıqlıq yeri belləyib qaratikan əkir.

Axşam pəncərədən baxırmış, bir də görür ki, baqqal budu, bir əlində imanı, bir əlində tumanı küpəgirən qarılar kimi mırtdana-mırtdana gəlir. Molla tez arvadının dərsini verib, özü pəncərənin dalında gizlənir. Baqqal gəlib çatır, qapını döyür, arvad çıxır.

Baqqal soruşur:

– Hanı Molla?

Arvad deyir:

– Neyləyirsən? Evdə yoxdur.

Baqqal deyir.

– Oturacağam buradaca. Pulumu almamış buradan tərpənəsi deyiləm.

Arvad Mollanın öyrətdiyi kimi başlayır:

– Baqqal qardaş, başına dönüm, hirslənmə! Burada da oturma. Daha işimiz düzəlib. Molla pul yeri tapıb. İnşallah bir neçə vaxtda sənin pulunu düzəldib verəcəyik.

Baqqal sevincək tez soruşur:

– Nə pul yeri tapıb? Nə vaxt verəcəksiniz?

Arvad deyir:

– Bax, bu qaratikanları görürsən? Bunu Molla özü əkib bura.

Baqqal deyir:

– Hə, nə olsun? Qaratikandan mənə nə?..

Arvad deyir:

– Qulaq as da!.. Bizim bu qapıdan hər gün səhər-axşam qoyun sürüsü keçir. Biz də bu tikanları buraya əkmişik ki, qoyunlar buradan keçəndə yunları ilişsin bu tikanlara. Sonra biz hər gün o yunları yığacağıq. Mən darıyacağam, əyirəcəyəm, corab toxuyacağam, Molla da aparıb satacaq, sənin pulunu düzəldib verəcəyik. Daha burada bir şey yoxdur ki, hirslənirsən.

Arvadın bu sözlərinə baqqal özünü saxlaya bilməyib ucadan gülür. Baqqalın gülməyini eşidən Molla tez başını pəncərədən çıxardır ki:

– Hə!.. Lotu!.. Görürsən, işin düzəlib gülürsən...

## HEÇ UTANMIRSAN?

Mollanın bir baqqal müştərisi var imiş. Həmişə evə lazım olan şeyləri ondan nisyə alar, əlinə pul keçəndə aparıb borcunu verərmiş.

Bir dəfə yenə Molla baqqala 16 manat borclu düşür. Ancaq nə qədər əlləşirsə, düzəldib verə bilmir. Baqqal da gündə borcunu istəyib Mollanın lap zəhləsini tökür.

Günlərin birində Molla öz yaxın dostları ilə birlikdə oturub söhbət elədiyi zaman baqqal gəlib çıxır. İşarə ilə başa salır ki, "pulu verirsən ver, vermirsən dostlarının yanında səni biabır edəcəyəm". Molla ha üzünü o tərəfə, bu tərəfə çevirir ki, baqqal çıxıb getsin, əl çəkmir, qırsaqqız olub yapışır ki, yapışır. Axırda Molla cana doyub camaatın yanındaca ona deyir:

– Adə, sən nə yaman zəhlətökən adam imişsən. Balam, sənə mənim cəmisi vur-tut 16 manat borcum yoxdur? Bu cümə günü gəl, on manatını apar! Gələn cümə günü də gəl, beş manatını apar! Qaldımı bunun cəmi-cümlətanı bircə manatı?

Baqqal deyir:

– Bəli.

Molla deyir:

– Yaxşı, heç utanmırsan, bircə manat üçün düşmüsən mənim dalıma?

# MOLLANIN HİNDUŞKASI

Bir gün Molla bazarda bir tutuquşu satana rast gəlir. Soruşur:

– Bu nədir?

Deyirlər:

– Tutuquşu.

Soruşur:

– Qiyməti neçədir?

Kişi deyir:

– Əlli manat.

Molla heç bir söz demir, evə qayıdıb öz hinduşkasını tutur, bazara gətirir. Soruşurlar:

– Molla hinduşkanı neçəyə deyirsən?

Deyir:

– Beş yüz manat.

Deyirlər:

– Ay Molla, dəli olmamısan ki? Hinduşka da beş yüz manata olar?

Molla tutuquşunu göstərib deyir:

– O boyda quşu əlli manata satır, heç bir söz demirsiniz. Mən qoyun boyda hinduşkanı beş yüz manata deyirəm, hələ bir məni danlayırsınız da... Mənim hinduşkam lap azı bir otuz dəfə ondan böyük olar, ya yox?

Deyirlər:

– Ay Molla, axı o tutuquşudur.

Molla deyir:

– Nə olsun? O tutuquşudu, bu da hinduşkadı.

Deyirlər:

– Axır, o adam kimi danışır.

Molla baxır ki, səhv eləyib, deyir:

– Nə olsun? O danışır, bu da susur. Bəs siz bu boyda böyümüsünüz, bilmirsiniz ki, danışmaq gümüşdürsə, danışmamaq qızıldır.

## ATILMALI ŞEYİ DƏ SATARLAR?

Molla bazardan iydə alıb gətirir, arvadı ilə başlayırlar yeməyə. Arvad bir də baxır ki, Molla iydələrin dənəsini də yeyir. Soruşur ki:

– A kişi, iydənin dənəsini niyə yeyirsən?

Molla deyir:

– Bəs niyə yeməyim ki? Yeməli olmasa idi pul ilə satmazdılar ki... Atılmalı şeyi də satarlar?..

## QIZDIRMA DƏRMANI

Mollanın çox yaxşı tanıdığı xəsis tacirlərdən birinin arvadı bir gün əliyandımda gəlir Mollanın yanına ki:

– Aman günüdü, Molla! Kişini üç gündü qızdırma tutub, elədi, təndir kimi yanır. Tərləmir ki, tərləmir. Bəlkə sən bir dərman deyəsən.

Molla deyir:

– Mən sənin kişinin xasiyyətinə bələdəm. Get, onun pulunu tap, götür, gözünün qabağında xərclə. O saat tərləyib ayılar.

## BU ONUN, O BUNUN

Molla bir gün hamama gedir. Paltarı köhnə olduğuna görə heç kəs ona fikir vermir. Qabağına bir köhnə cırıq fitə atırlar. Molla heç bir söz deməyib yuyunur, çıxıb gedəndə hamam pulunu on-on beş qat artıq verir, hamamçını da, əmələləri də utandırır.

Bir neçə gündən sonra Molla yenə də bu hamama gəlir. Elə Mollanın içəri girdiyini görcək, hamamçıdan tutmuş ayağa su tökənə qədər hamsı dik qalxırlar ayağa. İpək fitə, ipək qətfə, qərəz bir hörmət eləyirlər ki, gəl görəsən. Molla yuyunur, çıxıb gedəndə hamam pulunun yarıdan da az qiymətini verib yönəlir qapıya tərəf. İşi belə görəndə hamı təəccüblə bir-birinin üzünə baxır, başlayırlar mırtıldanmağa. Molla heç əhvalını pozmayıb deyir:

– Niyə mırtıldanırsınız? Hörmət-hörmətə görə olar. Siz keçən dəfə mənə hörmət eləməmişdiniz, bu dəfə elədiniz. Mən də keçən dəfə çox vermişdim, bu dəfə az verdim. Burda bir şey yoxdur ki, siz narahat olursunuz. Keçən dəfə verdiyim bu günün hesabına olsun, indi verdiyim keçən dəfəkinin.

## BƏLKƏ ƏLİMƏ BİR ŞEY KEÇDİ

Bir gün necə olursa, Molla çox xəsis tanışlarından birinin evinə qonaq gedir. Ev sahibi qabaqca Mollaya doyunca çay içirdir. Çay ilə onun qarnının doyurduqdan sonra süfrə salıb, ortalığa düşbərə gətirir. Molla baxır ki, qab ağzına qədər su ilə doludu. İçində də iki-üç dənə xəmir parçası üzür. Özünü saxlaya bilməyib durur ayağa, başlayır soyunmağa.

Ev sahibi soruşur:

– Molla, nə qayırırsan?

Molla deyir:

– Gör, varınızdısa, mənə bir hamam fitəsi gətir.

Ev sahibi soruşur:

– Fitəni nə eləyirsən?

Molla deyir:

– Soyunub bağlayacağam belimə, girəm bu qabın içinə. Bəlkə Allahın köməkliyilə əlimə bir tikə xəmirdən-zaddan keçdi.

## QORXURAM MƏNİ BOĞA

Bir gün xəsis tanışlarından biri Mollaya qonaq gəlir. Bu adam xəsis olmaqla bərabər, həm də yaman zarafatçı imiş. Molla buna çox yekə stəkanda çay gətirir. Xəsis stəkanın yekəliyini görüb, Mollaya sataşmaq üçün deyir:

– Molla, mənə bir kəndir gətir.

Molla soruşur:

– Kəndiri nə eləyirsən?

Qonaq deyir:

– Bağlayacağam belimə. Qorxuram düşüb stəkanda boğulam.

Bu işdən bir neçə vaxt sonra təsadüfən Molla bu adamın evinə qonaq gedir. Ev sahibi balaca stəkanlarda çay gətirib Mollaya deyir:

– Molla, qonağa çayı, bax, belə balaca stəkanda verərlər.

Molla halını pozmadan deyir:

– Sən də dur ayağa, mənə bir kəndir gətir.

Ev sahibi deyir:

– Yox, Molla, tutmadı. Stəkan böyük deyil ki, boğulasan.

Molla deyir:

– Xeyir. Mən onun içinə düşüb boğulmaqdan qorxmuram. Mən kəndiri stəkanın belinə bağlayacağam, qorxuram gedib boğazımda qalıb, məni boğa.

## YEMƏSƏM DƏ OLAR

Bir gün Mollanı varlılardan biri qonaq çağırır. Ancaq bu varlı gündüzdən Mollanı yanına alıb o qədər gəzdirir, o qədər gəzdirir ki, tamam yorur. Elə olur ki, axşam evə gələndə Mollanın acından yeriməyə taqəti olmur. Süfrə açılır. Ortalığa əla şorba gətirilir. Molla baxır ki, pəncərənin içində yaxşı dolma, qutab, paxlava və başqa bu kimi yeməklər qoyulmuşdur. Ancaq özünü ədəbli göstərmək üçün süfrədə əyləşir. Şorba gəlcək qaşığı əlinə alıb elə istəyir ki, başlasın, ev sahibi üzünü aşpaza tutub deyir:

– Sənin boynun qırılsın! Min dəfə deməmişəm ki, şorbaya sarımsaq salma?! Götür, cəhənnəm ol!

Aşpaz şorbanı aparır. Molla da içini çəkə-çəkə şorbanın dalınca baxır.Ev sahibi deyir:

– Molla, görürsən də bu aşpazı. Həmişə mənim başıma belə fırıldaq açır.

Aşpaz bu dəfə də cücə qızartması gətirir. Molla baxır ki, cücənin içindəki kişmişlər el qızarıb ki, adama lap qaş-göz eləyir. Elə əlini uzadır ki, başlasın, ev yiyəsi aşpaza deyir:

– Sənə deməmişdim ki, cücənin içinə kişmiş qoyma! Götür, rədd ol burdan!

Molla baxır ki, cücə də getdi.

Aradan bir az keçir aşpaz ortalığa paxlava gətirir. Mollanın ağzının suyu başlayır axmağa. Ev sahibi altdan-altdan ona baxıb, paxlavanı itələyir aşpazın qabağına ki:

– Fikrin nədir? Ac qarına bizə şirin şey yedirtmək istəyirsən? Götür, itil burdan!

Molla paxlavanın da getdiyini görcək, durub kənarda olan xörəklərin üstünə düşür.

Ev sahibi deyir:

– Molla, gəl əyləş! Nə qayırırsan?

Molla deyir:

– Sən aşpazla haqq-hesabını kəs! Mən o xörəklərdən yeməsəm də olar.

## TAZIYA DÖNƏR

Bir məclisdə yaxşı bir ov tazısından söhbət düşür.Mollanın tanıdığı və zəhləsi getdiyi xəsislərdən biri deyir:

– Mənim də ov tazısına çox xoşum var. Ancaq yaxşı cinsini tapa bilmirəm.

Molla deyir:

– Mən söz verirəm ki, sabah sizə yaxşı bir ov tazısı gətirəm.

Xəsis Mollanın vədindən çox razı qalır. Sabahı gözləyir. Səhər tezdən Molla bir zorba qoyun iti tapır, aparır xəsisin evinə. Nökərlər ağaya xəbər verirlər ki, Molla tazı gətirib. Xəsis sevinə-sevinə çıxır bayıra, baxır ki, Molla yekə bir qoyun iti gətirib. İtə diqqət eləyib Molladan soruşur:

– Ay Molla, bu ki qoyun itidir. Bu, ova gedə bilməz ki...

Molla deyir:

– Yox, çox cins itdi.

Xəsis deyir:

– Cins it olmağına sözüm yoxdur, ola bilər. Axı bu, tazı deyil. Tazı arıq olar. Zərif olar, qıçları nazik olar. Qarnı çəkilmiş olar.

Molla deyir:

– Siz nahaq yerə narahat olursunuz. O itdi. İndi bu boydadı, bircə ay sizin evinizdə qalsa, arıqlayıb tazıya dönər.

## DEDİYİNİN ÜSTÜNDƏ DURANDI

Günlərin birində Mollanın başqa bir kəndə yolu düşür. Kənd adamlarından biri onu evinə dəvət eləyib deyir:

– Molla, gedək bizə, bir az duzdan, çörəkdən yeyək!

Molla razılaşıb gedir. Uzun-uzadı söhbətlərdən sonra süfrə açılır. Molla baxır ki, doğrudan da süfrədə duzdan, çörəkdən başqa bir şey yoxdur. Ac olduğundan çar-naçar yeməyə başlayır. Bu halda qapıya bir nəfər dilənçi gəlib pay istəyir. Ev sahibi pəncərədən başını uzadıb deyir:

– Rədd ol, açıl başımızdan! Yoxsa gəlib qol-qabırğanı qıraram. Dilənçi əl çəkmir. Bu dəfə Molla başını çölə çıxardıb dilənçiyə deyir:

– Get qardaş, bu başqa adamlara bənzəməz. Yaman dediyinin üstündə durandı.

## BİRCƏ DƏFƏ ÖLÜM

İsti yay günlərinin birində qonşusu Mollanı qonaq çağırır. Ortalığa böyük bir qabda buzlu iskəncəbi gətirirlər.

Ev sahibi Mollanın əlinə bir çay qaşığı verir, özü isə bir çömçə götürüb düşür iskəncəbinin canına. Molla nə qədər əlləşirsə, çay qaşığı ilə ağzına heç bir şey getmir. Ev sahibi isə hər çömçəni doldurub içdikcə deyir:

– Of, öldüm!..

Axırda Molla çay qaşığını atıb tutur qonşusunun əlindən ki:

– Qonşu, mən də yaşamaqdan yorulmuşam. Qoy çömçə ilə içib, mən də heç olmasa bircə dəfə ölüm.

## AĞDI, YA QAPQARA

Mollanın bir yaxşı quzusu var imiş.Saxlayırmış ki, payızda kəsib qovurma eləsin. Qonşuların gözü düşür quzuya. Nə qədər Mollanı dilə-sözə tuturlar ki, quzunu kəsib onları qonaq eləsin, bir şey çıxmır. Molla razı olmur ki, olmur.

Axırda bu qonşulardan biri quzunu oğurlayır. Molla əlaltı axtarıb, quzunu oğurlayanı tapır. Ancaq heç bir söz deməyib payızı gözləyir. Bu qonşunun da bir yaxşı keçisi var imiş. Payız gəlir. Molla gecənin birində keçini oğurlayır. Kəsib qovurur, yığır küpəyə. Qonşu nə qədər axtarırsa keçini oğurlayanı tapa bilmir. Özü də çox xəsis, simic adam olduğundan bir toyda, bir qonaqlıqda keçini tərifləyir. Bir gün məclisdə yenə də keçi haqqında söhbət salıb başlayır tərifləməyə:

– Bir keçi idi, bir keçi idi dəvə boyda. Gözlər qapqara ceyran gözü kimi. Buynuzlar elə bil maral buynuzu idi. Hələ tükü... Tük demə, ağappaq ipək...

Bir tərəfdə oturan Molla bu yalan basıb-bağlamalardan lap təngə gəlib durur ayağa ki:

– Dəli şeytan deyir, get, keçinin dərisini gətir; bu camaat görsün, dəvə boydadı, ya pişik boyda. Tükü ağdı, ya qapqara.

## ÖLƏNDƏN SONRA İMİŞ Kİ...

Mollanın çox xəsis bir qonşusu var imiş. Molla bir neçə gün fikir verib görür ki, aşpaz hər gün xörək vaxtı onun qabağına bir dənə qızardılmış toyuq gətirib qoyur. Ancaq xəsis yavan çörək yeyib, toyuğa əlini də vurmur. Toyuq necə gəlirsə, eləcə də qayıdır. Sabah yenə də haman toyuq gəlir ortalığa. Molla bir-iki həftə bu işə fikir verib axırda deyir:

– Bu xoşbəxt toyuğun əsl diriliyi öləndən sonra imiş ki...

## DAHA SATMASIN

Bir adamın əli çox aşağı düşür, bağını çox ucuz qiymətə satmalı olur. Bağa çox müştəri çıxır. Çox dövlətli, çox da xəsis bir tacir eşidir ki, bağ sahibi Mollanın ən yaxın tanışlarındandır. Mollanın yanına gəlib deyir:

– Molla, yəqin ki, eşidibsən, filankəs öz bağını satır. Səndən çox xahiş eləyirəm, gedib onunla danışıb, bağın qiymətini bir az da ucuzlaşdırıb alasan mənə.

Molla deyir:

– Balam, o qiymətə ki o bağı deyir, lap müftədir ki... Sənin insafın necə qəbul eləyir ki, elə bağı ondan da ucuz qiymətə almaq istəyirsən?

Tacir deyir:

– Molla, ona pul lazımdır. Hər neçəyə olsa, satacaq. İşin yoxdur. Sən get, danış.

Molla tacirin bu qansızlığına mat qalır, amma üzə vurmur. Tacirə söz verir ki, lap arxayın olsun. Özü gedir bağ sahibinin yanına. Tacir bir-iki saat gözləyəndən sonra axır ki, Molla gəlib çıxır. Tacir soruşur:

– Nə oldu, Molla? Qiyməti aşağı sala bildin, ya yox?

Molla deyir:

– Saldım. Hərçənd ki, çox əziyyət də çəkdim amma yaman ucuzlaşdırdım.

Tacir soruşur:

– Neçəyə elədin?

Molla danışmış olduğu qiyməti deyir.

Tacir bağın belə ucuz alınmasına o qədər sevinir ki, az qalır durub oynasın. Molla altdan-altdan ona baxıb deyir:

– Yaxşı, filankəs, axı mən bir iş də görmüşəm.

Tacir soruşur:

– Nə iş görmüsən?

Molla deyir:

– Heç. Yəni mətləbə o qədər də dəxli olan bir iş deyil. Bağın qiymətini-zadını danışıb qurtarandan sonra ona lazım olan qədər pul tapıb vermişəm ki, bağı daha satmasın.

## MOLLA VƏ XƏSİS

Xəsis adamlardan biri ilə Mollanın mübahisəsi düşür. Çox deyişmədən, söz güləşdirmədən sonra, axırı xəsis Mollaya deyir:

– Hər nə deyirsən, de! Amma hər halda bu pul zəhrimar elə şeydi ki, hamı onu sevir. Hətta lap sən özün də sevirsən.

Molla deyir:

– Düzdü, sevirəm. Ancaq bu sənin sevməyindən deyil. Mən pulu onun üçün sevirəm ki, məni sənin kimi adamlara möhtac olmaqdan xilas eləyir.

## BİR DƏ YEYƏM, SONRA

Dövlətlilərdən biri öz varını göstərmək məqsədilə Mollanı qonaq çağırır. Axşam süfrə açılır. Ortalığa o qədər müxtəlif xörəklər gəlir ki, Mollanın gözü dörd olur. Molla "fürsətdi" – deyib, doyunca yeyir. Ev sahibi özünü çəkə-çəkə deyir:

– Hə, Molla, xörəklər necədi? Bəyənirsənmi?

Molla deyir:

– Vallah, mən bir dəfə ilə fikrimi deyə bilmərəm. Gərək bir neçə dəfə də gəlib yeyəm, sonra.

## PLOVUN BAŞINDA İDİ

Mollanın qonşularından biri bir dəfə qonaqlıq verir. Çoxdan plov yeməmiş Molla ha gözləyir ki, indi gəlib onu da çağıracaqlar, ancaq gələn olmur. Molla gözləyir, xörək ortalığa gələndə arvadının dərsini verib, salır qabağa. Arvad həşir, qiyamət salır ki:

– Ay qoymayın, Molla məni öldürdü!

Molla da əlinə bir yekə zopa alıb onu qova-qova çığırır:

– Tutun onu! Gərək onun qol-qıçını sındıram.

Camaat tökülür bayıra. Arvadlar arvadı, kişilər də Mollanı tutub aparırlar evə. Molla dartınır ki:

– Yox, gərək onun qol-qıçını sındıram.

Qərəz, bunu birtəhər sakitləşdirirlər. Plov gəlir ortaya. Molla doyunca yedikdən sonra durub çıxır bayıra ki:

– Arvada deyin gəlsin gedək.

Ev sahibi deyir:

– Yox, Molla, arvadı verməri. Aparıb döyərsən.

Molla deyir:

– Ay sarsaq arvadı niyə döyürəm? Keçmişəm məgər arvaddan? Bu oyunların hamısı plovun başında idi.

# İNANMA

Deyirlər ki, Molla Nəsrəddin hələ lap cavan vaxtlarında, dediyindən dönməyən, söz altında qalmayan bir oğlan imiş. Cavan Nəsrəddin günlərin birində tamam pulsuzlayır. Özünə iş tapmaq üçün bazarda gəzdiyi zaman bir tacir onu çağırır. İçi şüşə ilə dolu bir səbət verib deyir:

– Bunu bizə apara bilərsənmi?

Nəsrəddin səbəti götürüb, tacirlə birlikdə yola düzəlir. Evə bir az qalmış tacir deyir:

– Bu hamballığa görə sənə pul verim, ya üç hikmətli söz öyrədim?

Nəsrəddin ağıllı, hikmətli sözləri çox sevərmiş. Hər nə bahasına olur-olsun öyrənməyə çalışarmış. Burada da hikmətli sözləri əldən buraxmamaq uçun ac, pulsuz qalmağa razı olur.

Gəlib tacirin evinə çatırlar. Həyətə girib qırxpilləkənlə yuxarı qalxırlar. Tacir başlayır:

– Hikmətli sözləri deyirəm. Qulaq as, yadında saxla! Birinci budu ki, kim sənə desə qatıq qaradı, inanma!

Nəsrəddin yükün altından bir tərs-tərs tacirə baxır. Ancaq heç bir söz deməyib pilləkənləri qalxmaqda davam edir.Tacir deyir:

– İkincisi budu ki, kim desə buz istidir, inanma!

Nəsrəddin başa düşür ki, tacir onun muzduna kələk qurur. Heç bir söz demir. Axırıncı pilləkənləri çıxanda tacir üçüncü hikmətli sözünü deyir:

– Kim sənə desə ki, od dondurar, inanma!

Nəsrəddin soruşur:

– Demək ki, mənə daha hambal pulu verməyəcəksən?

Tacir deyir:

– Şərtimiz elə idi də.

Nəsrəddin dalındakı şüşə dolu səbəti pilləkən aşağı tullayır ki:

– Sənə də kim desə ki, bu səbətin içində salamat şüşə qaldı, inanma!

## GÖRƏSƏN KİMİN ÜRƏYİ YANIR?

Molla bir gün tanışlarından birinin evinə qonaq gedir. Xörək olmadığına görə, ev sahibi Mollanın qabağına təzə yağ ilə bal qoyur. Yağı yeyib qurtarırlar. Molla yavaşca balı qabağına çəkib çörəksiz-filansız barmağı ilə yeməyə başlayır. Bunu görən ev sahibi deyir:

– Molla, balı elə yavan yemə! Ürəyini yandırar.

Molla deyir:

– Kimin ürəyini yandırdığını Allah bilir.

## MOLLANIN DƏRDİ

Günün birində Molla özünü çox pis hiss eləyir. Başı hərlənir, gözləri qaralır, elə halsızlaşır ki, tərpənə bilmir. Birtəhər özünü həkimin yanına salıb deyir:

– Həkim, özümü çox pis görürəm. Bir mənə bax, görək dərdim nədi?

Həkim Mollanı yoxlayıb deyir:

– Molla, sənin heç bir dərdin-zadın yoxdu. Acsan, ona görə belə olmusan. Əyləş, mənimlə bir yerdə nahar elə, hamısı düzəlsin.

Molla əyləşir, doyunca yeyir, içir. Baxır ki, doğrudan da düzəldi. Durub gedəndə deyir:

– Həkim, sən doğrudan da həkim imişsən. Dərdi də tapırsan, dərmanını da verib xəstəni elə o saat sağaldırsan. Bizim evdəkilərin hamsında bu xəstəlik var. Gedirəm bu saat bütün külfəti tökəm bura.

## BALACA BİR TƏFAVÜT

Günlərin birində qonşusu Molla Nəsrəddinə deyir:

– Heç soruşmursan başıma nə gəlib?

Molla soruşur:

– Nə gəlib?

Qonşu deyir:

– İllik taxıldan on batman ayırıb tövlədə gizlətmişdim ki, qənaətlə dolanaq, o on batmanı artırıb yaz ağzı satam. Bir də gedib baxıram ki, mən xəbər tutunca siçanlar hamısını yeyib.

Molla deyir:
– Darıxma! Mənim də başıma elə lap belə bir iş gəlib. Amma mənim başıma gələn işlə sənin başına gələn iş arasında balaca bir təfavüt var.
Qonşu soruşur:
– Necə?
Molla deyir:
– Çox asan. Siçanlar xəbər tutana qədər özümüz hamısını üyütdük, bişirdik, yedik.

## ARVAD KİMİ BİR ŞEYDİ

Bir məclisdə Molla Nəsrəddindən soruşdular ki:
– Molla, sən bilərsən, bu dünyada arvad çoxdu, yoxsa kişi?
Molla deyir:
– Arvad.
Soruşurlar:
– Niyə?
Molla deyir:
– Ona görə ki, arvadlar elə arvaddı, arvad kimi bəzənib-düzənən kişilər də arvad kimi bir şeydi.

## YAXŞI TANIMAQ OLUR

Bir gün Molladan soruşdular:
– Molla deyə bilərsənmi, bu saat, bu şəhərdə sənin neçə dostun var?
Molla deyir:
– Bu saat deyə bilmərəm. Çünki bu il taxılım yaxşı gəlib, keyfim sazdır. Dostları əli aşağı olanda yaxşı tanımaq olur.

# VƏRƏSƏNİZ DƏ MƏN OLAM

Molla Nəsrəddinin iki xalası oğlu var imiş. Bir gün bunların ikisi də Mollaya qonaq gəlir. Yeyib-içdikdən sonra söhbətə başlayırlar. Xalaoğlulardan biri deyir:

– Mənim bu dünyada bircə arzum var. O arzuma çatsam, daha bu dünyada gözüm qalmaz.

Soruşurlar:

– De görək, arzun nədir?

Xalaoğlu deyir:

– Mənim arzum budur ki, dünyada nə qədər zərrə varsa, bir o qədər pulum olsun.

İkinci xalaoğlu deyir:

– Mənim də arzum budur ki, dünyada nə qədər su varsa, hamısı dönüb olsun mürəkkəb, əlimə bir qələm alım, bir dənə kök doqquz yazım, sonra da mürəkkəb qurtarana qədər bu doqquzun yanına sıfırlar qoyum, axırı neçə olsa, bir o qədər pulum olsun.

Sonra xalaoğlular Molladan soruşurlar:

– Xalaoğlu, indi de görək, sən nə istəyirsən?

Molla deyir:

– Mən sizin kimi acgöz deyiləm.Amma acgözlərin düşməniyəm. İndi ki, siz belə arzu eləyirsiniz, mən də arzu eləyirəm ki, siz bu arzularınıza çatasınız, ancaq elə haman gün ikiniz də birdən öləsiniz, vərəsəniz də mən olam.

# BİR ƏDƏBSİZ DEDİ DƏ

Günün birində Mollanın qonşusu bağdan gəlirmiş. Molla baxır ki, qonşunun cibi şişib, deyir:

– Salam, qonşu! Yenə o nədi elə doldurmusan ciblərinə!

Qonşu deyir:

– Molla, əgər bilsən ki, cibimdəki nədi, seçib ən böyük şaftalını verərəm sənə.

Molla deyir:

– Cibindəki şaftalıdı.

Qonşu hirslənir ki:

– Onu sənə hansı ədəbsiz xəbər verdi?

Molla deyir:

– Nə işin var hansı ədəbsiz xəbər verdi? Sən şaftalını bura ver! Bir ədəbsiz dedi də...

## BORC İSTƏMƏ

Aldığını verməyən tanışlarından biri bir gün Mollanın yanına gəlir ki:

– Sənin yanına bir xahişə gəlmişəm.

Molla başa düşür ki, hərif pul istəyəcək. Tez deyir:

– Hər nə desən gözüm üstə! Ancaq mənim də sizdən bir xahişim var. Qabaqca sən mənim xahişimi yerinə yetir, sonra da mən sənin.

Kişi deyir:

– Buyur!

Molla deyir:

– Mən ölüm, məndən borc istəmə!

## ALDIĞINI VERƏN DEYİLSƏN

Aldığını verməyən qohumlarından biri Mollanın yanına gəlir ki:

– Qohum, bir həftəliyə mənə əlli manat ver, bir al-verim var, iyirmi manat qazanc eləyəcəyəm. Sonra sənin əlli manatını qaytararam, üstəlik qazancdan da on manat verərəm, on manat da mənə qalar.

Molla fikirləşir ki, pulu verməsə, gedib bütün qohum-qardaşa giley eləyəcək ki, Molla on manat qazancı mənim əlimdən çıxartdı. Verməyə də qorxur, çünki bilir ki, bu qohum aldığını qaytaran deyil. Odur ki, on manat verib deyir:

– Al, mən sənin qazancını indidən verim, on manat sən qazan, qırx manat da mən.

## YALANA YALAN

Uzun qış gecələrinin birində bir məclisdə yalançı bir adam camaatı salmış imiş çənəsinin altına, ağzına gələn yalanı danışıb, basıb bağlayırmış. Molla Nəsrəddin də bir tərəfdə kirimişcə oturub qulaq asırmış.

Kişi danışır, danışır, baxır ki, heç etiraz eləyən yoxdu, axırda lap ağ eləyir. Başlayır ki:

– Biz çox dövlətli idik. Atamın saysız-hesabsız ilxıları var idi. Elə böyük bir tövlə tikdirmişdik ki, bu başında madyan at ikicanlı olanda o başına çatana qədər vaxtı tamam olub doğardı.

Molla daha bu boyda yalana dözə bilməyib deyir:

– Doğru deyir. O tövləni mən də görmüşdüm. Mənim atam da bunun atasının ilxıçısı idi. Özünün də bir ağacı var idi, ilxının axırından uzadıb, lap qabaqda qaçan atı vurardı. İlxı çöldə otladığı zaman göyün üzünü bulud alsa idi, ağacını uzadıb buludları dağıdardı ki, yağış yağmasın.

Yalançı kişi baxır ki, Molla onu dolayıb. Onun yalan dediyini camaata başa salmaq məqsədilə deyir:

– Səninki daha lap ağ yalan oldu. Yaxşı, tutaq ki, elə doğrudan da sənin atanın elə bir ağacı var imiş. Yaxşı, bəs o uzunluqda ağacı atan harada saxlayırdı?

Molla deyir:

– Necə yəni harada saxlayırdı? Sənin atanın həmən tövləsində.

## QİBLƏNÜMA

Günün birində Molla Nəsrəddinə bir qiblənüma göstərirlər ki:

– Molla, qəribə bir şey tapmışıq, bilmirik nədi. Axırda fikirləşdik ki, gəlib səndən soruşaq, çünki sən bizim başbilənimizsən.

Molla bir qah-qah çəkib gülür, sonra qiblənümanı alıb o tərəfinə baxır, bu tərəfinə baxır, başlayır ağlamağa.

Soruşurlar ki:

– Molla, bu necə olan şeydi? Sənə nə oldu ki, qabaqca güldün, sonra da ağladın?

Molla deyir:

– Vallah, siz bunu mənə göstərib deyəndə ki, bir qəribə şey tapmışıq, bilmirik nədi, məni gülmək tutdu ki, gör bunlar necə axmaq, ağılsız adamlardılar. Bu balacalıqda şey nədi ki, bu boyda adamlar bunu başa düşə bilmirlər. Ona görə də qah-qah çəkib güldüm. Sonra alıb nə qədər o yan bu yanına baxdımsa, özüm də nə olduğunu başa düşə bilmədim. Odu ki, sizin başa düşmədiyinizə gülmüşdümsə, özümün başa düşməməyimə də ağladım.

## MOLLA VƏ ALİM

Başqa məmləkətlərin birindən Teymur Ləngin yanına bir alim gəlir; tərcüməçi vasitəsilə bir çox söhbət etdikdən sonra, bu məmləkətin alimləri ilə görüşmək istədiyini bildirir. Teymur bütün alimləri yığır. Ancaq bu alimlərdən heç biri bu əcnəbi alimlə mübahisəyə girişməyə cəsarət eləmir. Axırda bunların bu qədər qorxduqlarını görən Molla mübahisəni öz boynuna götürür. Məclis qurulur. Əcnəbi alim yerdə bir dairə çəkib üzünü Mollaya tutur. Molla bir az fikirləşib dairəni iki yerə bölür. Görür alim danışmır. Bir cızıq da çəkib bölür dörd yerə, üç hissəsini özünə tərəf çəkir, bir hissəsini isə əcnəbi alimə verir kimi hərəkət eləyir. Əcnəbi alim razılaşır. Bundan sonra alim əlini, arxası yerə doğru yumulu bir vəziyyətdə tutaraq Molladan cavab gözləyir. Molla da əlini tamamilə bunun əksinə, yəni barmaqlarını yerə doğru tutmaqla cavab verir. Alim buna da razı olur. Üçüncü dəfə alim özünü işarə edərək yeyir kimi hərəkət göstərir. Molla da tez cibindən bir yumurta çıxardır və qollarını quş qanadı kimi çırpır.

Alim gülərək Mollanın əlindən öpür. Molla gedir. Teymur tərcüməçi vasitəsilə alimə müraciət edərək soruşur:

– Bu işarələrdən biz heç bir şey anlamadıq.

Alim deyir:

– Dünya haqqında fikirlər müxtəlifdir. Mən yerdə o dairəni cızmaqla yer kürəsinin yumru olduğunu deyərək sizin alimin bu barədə fikrini bilmək istədim. Maşallah sizin alimə, tez kürənin ekvatorunu çəkdi, sonra dörd yerə bölərək üç hissəsinin su, bir hissəsinin quru olduğunu qeyd etdi. Sonra mən kürə üzərində olan bitkilərin həyatı haqqında onun fikrini bilmək istədim. Aliminiz buna da doğru cavab verdi.

Bütün bitkilərin hamısının yağış və günəş şüaları vasitəsilə yaşadığını dedi. Üçüncü sual olaraq mən insanlar və heyvanlar haqqında onun fikrini bilmək istədikdə o tez, bir yumurta ilə quşların dəxi bu cinsə aid olduqlarını mənim yadıma saldı.

Alim getdikdən sonra Teymur Mollanı çağırıb alimlə olan sual-cavabı haqqında soruşur.

Molla deyir:

– Eh, alim... Mən də elə bildim ki, doğrudan da bir dərin adamdır. O lap sarsaq, qarınqulunun birisiymiş ki... Əvvəl yerdə bir dairə çəkib mənə dedi ki, ay indi burada bir tava qayğanaq ola idi. Mən də tez yarı bölüb dedim ki, hamısını sənə verməzlər, biz də varıq. Gördüm aşnam razı olmur. Tez bir də ortadan bölüb üç payını özüm götürdüm ki, "görməmişlik elərsən belə olar". Kişi gördü ki, qayğanaq əldən gedəcək, razı oldu. İkinci dəfə əlini göyə tutdu ki, "bir qazan plovla necəsən". Mən də əlimi üzü aşağı tutub dedim: "üstündə qarası olsa yeyərəm". Üçüncü dəfə qarnını mənə göstərib dedi: "yoldan gəlmişəm, acam". Mən də tez cibimdən yumurtanı çıxartdım ki: "canın üçün, mən özüm səndən də acam, özü də cibimdə bircə dənə yumurta var, heç üz vurma, verə bilməyəcəyəm".

## NAR QURTARDI, CAVAB DA QURTARDI

Səyyahlardan biri Molla Nəsrəddinin çox bilikli alim olduğunu eşidib bir neçə məsələni öyrənmək üçün kəndə gəlir. Səyyah kəndə girdiyi zaman Molla da kəndin qırağında yer sürürmüş. Səyyah Mollanı cütçü zənn eləyib ona yaxınlaşır ki:

– Deyirlər, bu kənddə Molla Nəsrəddin adında bir adam var, onu tanıyırsanmı?

Molla deyir:

– Bəli, var. Özünü də lap yaxşı tanıyıram.

Səyyah soruşur:

– Onu harada görmək olar?

Molla deyir:

– O, hələm-hələm adamların gözünə görünməz. Onu görə bilmək üçün gərək, heç olmasa, bir-iki ay burada qalasan.

Səyyah fikrə gedir ki,:

– Bəs necə eləyim? O, mənə çox lazımdı axı.

Molla soruşur ki:

– Neyləyirsən onu?

Səyyah deyir:

– Mən səyyaham. Bir-iki məsələ var, ondan soruşacağam. Deyirlər çox alim adamdı.

Molla baxır ki, səyyahın xurcununda nar var. Deyir:

– Doğrudur, Molla Nəsrəddin çox alim adamdır. Ancaq bizim kəndli olduğuna görə biz hamımız onun tələbələriyik. Ondan çox şeylər öyrənmişik. Sən məsələlərini bir məndən soruş, bəlkə elə mən sənə cavab verdim, daha heç Mollaya zəhmət verməli olmadın.

Səyyah razılaşıb oturur. Suallara başlamaq istəyəndə Molla deyir:

– Ancaq bir şərtim var. Görürsən ki, hava istidi mənim də işim var. Həm ürəyim yanır,həm də sən məni işimdən qoyursan. Odu ki, gərək hər cavaba bir nar verəsən.

Səyyah razılaşıb başlayır. Mollanın hər bir cavabına bir nar verir. Nar qurtarır, Molla narın qurtardığını hiss eləyib ətəklərini silkələyib qalxır. Səyyah deyir:

– Bir sualım da var.

Molla deyir:

– Narın necə? Var,yoxdu?

Səyyah deyir:

– Yox. Nar qurtardı.

Molla deyir:

– Nar qurtardı, cavab da qurtardı.

## QARĞA

Molla Nəsrəddin bir gün evə bir qarğa gətirir. Arvadı soruşur:

– A kişi, bu qarğanı neyləyirsən?

Molla deyir:

– Alimlər deyirlər ki, qarğa üç yüz il yaşayır, yoxlayacağam görüm, doğru deyirlər, ya yalan.

Arvad deyir:

– Ay kişi, yaxşı, sən özün üç yüz il yaşayacaqsan ki, onu da yoxlayasan?

Molla bir fikrə gedib deyir:

– Bəs o alim ki, bunu deyib ha, o özü üç yüz il yaşayıb ki, deyib?

## QIRXINI DA BİRDƏN BİLMİRƏM

Bir gün kəndə bir alim gəlib Mollanın yerini soruşur. Kəndlilər axtarıb onu çöldə ot biçən yerdə tapırlar.

Alim onunla tanış olduqdan sonra deyir:

– Molla, deyirlər sən çox alim adamsan. Mən gəlmişəm sənə qırx dənə sual verəm.

Molla baxır ki, əgər bu qırx dənə suala cavab verməli olsa, gərək ot biçməyə. Onda da ki, eşşək bütün qışı ac qalacaq. Ona görə də deyir:

– Hamısını bir-bir de, görüm necə süallardı?

Alim qırx sualın hamısını birbəbir deyir. Qurtarandan sonra Molla orağını götürüb qalxır ki:

– Qırxını da birdən bilmirəm.

## ƏMƏLİYYƏSİ İLƏ DÜZ GƏLMİR

Mollanın yaşadığı şəhərə təzə bir hakim qoyurlar. Ancaq bu hakim yeməkdən başqa bir şey haqqında fikirləşməzmiş. Elə işə başladığı gün şəhərin mötəbər adamlarını çağırıb tapşırır ki, nə qədər xörək bilirlərsə yazıb ona versinlər. Molla da fikirləşir, fikirləşir axırda təzə bir xörək icad eləyir. İki gündən sonra hakim onu yanına çağırıb soruşur:

– Hə, nə oldu?

Molla deyir:

– Hakim sağ olsun! Mən sizin üçün lap təzə bir xörək icad eləmişəm.

Hakim soruşur:

– De görüm, necə xörəkdir?

Molla deyir:

– Sarımsağı bala batırıb yemək.

Hakim aşpazına xəbər verir ki, bu xörəkdən axşama hazırlasın. Axşam xörək gəlir, hakim bir-iki tikə yeyib "ləzzətini" görür, qəzəblənib səhər Mollanı yanına çağırtdırır ki:

– Gərək buradaca öz xörəyindən doyunca yeyəsən.

Molla naəlac qalıb ac qarına başlayır sarımsağı bala batırıb yeməyə.

Hakim soruşur:

– Hə, ləzzətlidir? Niyə o yan bu yana baxırsan? Ye! Özün icad eləmisən ki...

Molla deyir:

– Düzdür, özüm icad eləmişəm. Ancaq bu hələ nəzəriyyə halında idi. Hələ təcrübədən keçirməmişdim. İndi görürəm ki, ixtiramın nəzəriyyəsi əməliyyəsi ilə düz gəlmir.

## TİBB ELMİ

Molla bir gün vəz eliyəndə deyir:

– Camaat, tibb elmi ibarətdir dörd xətdən. Kim buna düzgün əməl eləsə azarlamaz:

Ayağını isti tut,
Başını sərin...
Yeməyə diqqət et,
Düşünmə dərin...

## MOLLANIN HƏKİMLİYİ

Günlərin birində özünü şair hesab eləyən, amma, necə deyərlər, yazmadığı yazdığından yaxşı olanlardan biri Molla ilə görüşüb deyir:

– Bir neçə gündü heç keyfim yoxdu, Molla! Elə bil ki, azarlamışam. Ürəyim elə bil ağırlaşıb, olub dağ boyda bir şey. Hansı həkimə də gedirəm baş aça bilmir. Deyirəm bəlkə sən bir çarə dedin.

Molla bir diqqətlə onun gözlərinə baxıb deyir:

– Bu günlərdə təzə şeir yazmamısan ki?..
Şair deyir:
– Yazmışam.
Molla deyir:
– Özü də hələ heç kəsə oxumamısan, eləmi?
Şair deyir:
– Elədi ki var. Hələ heç kəsə oxumamışam.
Molla əyləşib deyir:
– Oxu, qulaq asaq!
Şair deyir:
– Oxumağa lap həvəslə oxuyaram. Ancaq ki, mən deyirdim ürəyimə bir dərman deyəsən.
Molla deyir:
– Sən şeri oxu! Dərmanı sonra deyəcəyəm.
Şair başlayır. Çox uzun, özü də çox mənasız bir tartan-partan şeir oxuyur. Qurtardıqdan sonra Molla deyir:
– Sənin ürəyini ağırlaşdıran bu şeir idi. Çünki onu hələ heç kəsə oxumamışdın. İndi ki ürəyini boşaldıb onu yüklədin mənə, daha yüngülləşəcəksən. Ancaq yadında saxla, bir də bu uzunluqda, bu ağırlıqda şeir yazma! Yoxsa belə şerə hər ürək tab gətirə bilməz.

## UTANDIĞINDAN BELƏ ELƏYİRSƏN

Günlərin birində Molla bir həkimlə yol yoldaşı olur. Qəbiristanın yanından keçəndə həkim üzünü örtür. Molla soruşur:
– Yaxşı, həkim ağa, üzünü niyə örtürsən?
Həkim deyir:
– Torpaq altında yatan bu yazıqların halına o qədər yanıram ki... Üzümü də ona görə örtürəm ki, nə gözüm görsün, nə ürəyim bulansın.
Molla deyir:
– Yox, elə deyil, həkim ağa! Görünür ki, bunların hamısını verdiyin dərmanlarla sən öldürübsən, ona görə də indi utandığından belə eləyirsən.

## DİŞ AĞRISI

Deyirlər ki, Mollanın çox tez-tez dişi ağrıyarmış. Həftələrlə üzünü-gözünü sarıyıb ufuldaya-ufuldaya gəzərmiş, amma qorxudan gedib çəkdirməzmiş.

Bir gün yenə də üzünü böyük bir dəsmalla bağlayıb gedirmiş, dostlarından birisi görüb deyir:

– Ay Molla, bir diş çəkdirmək nədi ki, sən belə qorxursan? Əgər sənin o dişin mənim ağzımda olsaydı, mən elə bu saat gedib çəkdirərdim.

Molla deyir:

– Sənin ağzında olsaydı, elə mən də çəkdirərdim. Dərd orasındadı ki, mənim öz ağzımdadı.

## ANANIN DA UŞAĞI OLMAZDI?

Bir arvad öz qızını götürüb Mollanın yanına gəlir ki:

– Molla, başına dönüm, deyirlər ki, sən bir alim adamsan. Əl mənim, ətək sənin. Bu, mənim qızımdı. Düz dörd ildi ki, gedib ərə, uşağı olmur. İndi əri istəyir bunun üstünə ayrı arvad alsın. Davadan, dərmandan, duadan, cadudan,pitikdən, gərək bir şey eləyəsən ki, qızımın uşağı ola. Yoxsa əri onu boşasa, qüssədən bağrı çatlayar.

Arvad o qədər ağlayır ki, Mollanın lap ürəyi yanır. Üzünü qıza çevirib soruşur:

– Yaxşı, qızım, sənin ananın da uşağı olmazdı?

## QULAQ DƏRMANI

Bir gün Molla eşidir ki, şəhərin hakimi azarlayıb. Ağacdan bir neçə alma dərib hakimi yoluxmağa gedir. Hakim deyir:

– Molla birdən-birə dişim də başladı ağrımağa, qulağım da... Daha mənə bir əzab verdilər ki, gəl görəsən. Bu gün bir yaxşı dəllək tapıb

dişimi çəkdirdim. İndi onun ağrısı qurtarıb. Amma bu zəhrimar qulağım elə ağrıyır ki, ağrıyır. Bircə həkim də tapılsaydı ki...

Molla tez onun sözünü kəsib deyir:

– Hə... hə... Bircə halal süd əmmiş adam tapılıb, sənin o qulağını da çəksəydi... Sən də rahatlanardın, əhali də.

## GÖZ AĞRISI

Günlərin birində bir nəfər Molladan soruşur:

– Ay Molla, yaman gözüm ağrıyır. Sən bir dərman bilmirsən deyəsən?

Molla deyir:

– Vallah, ay filankəs, mənim dişim ağrıyırdı, gedib çıxartdırdım. Sən də bax öz işinin aşarına.

## MOLLANIN VƏSİYYƏTİ

Molla bir gün bərk azarlayır. Qohum-qardaşını yanına yığıb vəsiyyət edir ki:

– Mənə adam boyu dərinlikdə bir qəbir qazarsız... Özümü də başıaşağı basdırarsız.

Soruşurlar:

– Niyə?

Molla deyir:

– Mən kitablarda oxumuşam ki, qiyamət olanda dünya baş-ayaq olacaq. Kimdir o zaman zəhmət çəkib özünü düzəldən? İndidən başıaşağı basdırın ki, dünya baş-ayaq olanda mən ayaq üstə olum.

## QAR İLƏ ÇÖRƏK

Bir gün Molla camaatı yığıb deyir:

– Camaat, mən gördüm ki, hər kim bir təzə xörəkdən-zaddan ixtira eləyirsə, hakimin yaman xoşuna gəlir. Mən də fikirləşib, fikirləşib qar ilə çörək yeməyi ixtira elədim. Amma sonra özüm yeyib, gördüm, axmaq şeydi. Siz də yeməyin!

## BİRƏ DƏRMANI

İsti yay günlərinin birində qonşular gəlirlər Mollanın yanına ki:

– Ay Molla, bu birə bizi əldən-dildən saldı... Gecə səhərə qədər yatmağa qoymur. Bəlkə sən bir dərman biləsən... Nə eləyək?

Molla deyir:

– Onun üçün çox yaxşı, çox da asan bir dərman var. Gecə yatanda yanınıza duz qoyun! Elə ki birə gəldi, tutun, sonra duzdan bir çimdik səpin gözünə. O saat olacaq kor, daha bir də sizi tapa bilməyəcək ki, sancsın.

## DUANIN GÜCÜ

Molla bir gecə evdə yatdığı zaman damın üstündə bir oğrunun gəzdiyini hiss eləyir. Haman saat arvadı ilə söhbətə başlayıb ucadan deyir:

– Dünən gecə gəldim, qapını nə qədər döydümsə, oyanıb açmadın. Axırda çıxdım dama, bir dua oxuyub, yapışdım ayın işığından, bacadan düşdüm evə.

Oğru bu söhbəti eşidib, damda gizlənir. Molla da arvada pıçıldayır ki:

– Başla xoruldamağa!

Xorultu evi basır. Elə ki oğru içəridəkilərin yatdığına lap arxayın olur, ayağa durub bir dua oxuyur. Əlini aya tərəf uzadıb özünü bacadan buraxır evə. Molla qışqırır ki:

– Arvad, tez ol, işığı yandır! Oğrunu tutmuşam.

Əzilmiş oğru deyir:

– Nahaq yerə tələsmə, qardaş! Sən öyrətdiyin duanın, bir də məndə olan ağılın bərəkətindən elə yıxılmışam ki, heç ayağa qalxa bilmirəm.

## SÖZ VERMİSƏN, SÖZ ALMISAN DA!..

Bir gün bir dərviş yolda Mollanın qabağını kəsib bir qəsidə deyir. Molla qulaq asır. Qəsidə qurtarandan sonra Molla yönəlir ki, getsin, dərviş deyir:

– Molla, di bir şey ver də!

Molla deyir:
– Baş üstə, sabah gəl, verərəm.
Dərviş sabah Mollanı bazarda tutur ki:
– Ver pulu!
Molla soruşur:
– Nə pul?
Dərviş deyir:
– Dünən vəd etdiyin pulu.
Molla deyir:
– Yaxşı, mən dünən sənə niyə vəd etmişdim ki?.. Yadımda deyil.
Dərviş deyir:
– Mən sənə söz oxudum, sən də mənə vəd etdin.
Molla soruşur:
– Yaxşı, mənə bir-şey zad verib eləmədin ki?
Dərviş deyir:
– Yox, şey vermədim.
Molla bir də soruşur:
– Ancaq söz oxudun də?..
Dərviş deyir:
– Bəli, ancaq söz oxudum.
Molla deyir:
– Yaxşı, sən mənə söz oxudun, mən də sənə söz verdim. Daha nə pul? Bir şey vermiş olsaydın, o başqa məsələ. Yoxsa söz vermisən, əvəzində də söz almısan də!..

## MOLLANIN ŞERİ

Bir gecə Molla arvadı oyadır ki:
– Arvad, dur, işığı yandır, yadıma bir yaxşı şeir düşüb, onu yazım.
Arvad Mollanın istedadına yaxşı bələd olduğu üçün deyir:
– A kişi, sən allah sarsaqlama! Yat aşağı!
Molla deyir:
– Arvad, dur deyirəm sənə. İlhamım gəlib, məni cin atına mindirmə.
Arvad durub işığı yandırır, Molla eynəyini taxır, kağız-qələm götürüb nə isə yazandan sonra, işığı söndürmək istəyir ki, yatsın, arvad soruşur:

– A kişi, bir oxu görək, nə yazdın?

Molla həvəslənir, təzədən eynəyini burnuna keçirib deyir:

– Qulaq as, gör nə yazmışam:

Yaşıl yarpaqlar arasından baş qaldırıb.

Qızıl toyuğun balta dişi.

Arvad deyir:

– A kişi onun dalına yaz ki:

Səni görüm tünbətün gedəsən,

Ay məni bu sarsağa verən kişi!

## MOLLA ŞEİR YAZIR

Molla eşidir ki, şah şairlərə çoxlu mükafat verir. Gəlib evə arvadına deyir:

– Arvad, sən yerini sal, yat, ancaq işığı yana-yana qoy. Mən bu gecə bir şey yazıb aparacağam padşaha.

Arvad deyir:

– A kişi, sarsaqlama, səndən şeir yazan çıxmaz. Qoy başını, yat!

Arvad nə qədər deyirsə, Molla qulaq asmır ki:

– Yox, arvad, sən bilmirsən, yazacağam.

Arvad yıxılıb yatır. Molla səhərə qədər vurnuxur-vurnuxur, heç bir şey yaza bilmir. O qədər oturur ki, səhər açılır. Bir də başını qaldırıb görür ki, gün düşüb evin qabağındakı hamamın günbəzinə. Bu mənzərədən ilhama gəlib başlayır yazmağa:

Gün düşüb günbəzinə.

Ordan yayılıb bizim kəndə.

Arvad yuxudan durub görür ki, Mollanın keyfi sazdır. Soruşur:

– A kişi, nə oldu?

Molla deyir:

– Arvad, iki misra demişəm.

Arvad da həvəslənir ki:

– Bir de görüm, necə demisən?

Molla yazdığı iki misranı oxuyur:

Gün düşüb günbəzinə,

Ordan yayılıb bizim kəndə.

Arvad deyir:

– A kişi, qoy bir xətt də mən deyim, yaz, apar ver padşaha.
Molla sevincək qələmi götürür ki:
– De görüm!
Arvad deyir:
– Yaz ki:
Goruna od qalansın,
A bu sarsaq kişini əkən dədə!

## MOLLANIN ŞAİRLİYİ

Gecələrin birində Molla fikirləşir ki, bir şeir yazıb şaha aparsın, bəlkə mükafatdan-zaddan alsın. Fikrini arvadına deyir. Arvad nə qədər deyirsə ki: "Səndən şair çıxmaz", – olmur. Arvad başını atıb yatır. Molla səhərə qədər əlləşir, vuruşur, axırı ki, iki misra şeir yazır. Elə ki, qurtarır, daha səhərin açılmasını gözləməyib, ala-qaranlıqdan kəsir sarayın qapısını ki:

– Şaha deyin, şeir gətirmişəm.

Deyirlər:

– Ay balam, hələ şah yerindən durmayıb.

Molla deyir:

– Gedin oyadın yaxşı şeirdi. Sonra əldən çıxar, şah dərinizi soyar.

Şah da şeir maraqlısı imiş. Ona görə də saray adamları "sonra acığı tutar" – deyə gedib oyadırlar. Şah geyinir, taxta oturub Mollanı çağırtdırır:

– Hə, oxu görüm, nə yazıbsan?

Molla deyir:

– Şah sağ olsun, qiyamət yazmışam, heç inanmıram ki, bütün dünyanın şairləri belə şeir yaza bilələr.

Şah deyir:

– Oxu görək!

Molla yazdığı iki misranı oxuyur:

– Şah sağ olsun! Yazmışam ki:
Bir ilan gördüm bu gün ki, qaldırıb başını göyə,
Bir çubuq vurdum ki, başını əyə.

Şah baxır ki, şeir elə Mollanın özünə oxşayır. Onun ürəyini sındırmamaq üçün deyir:

– Ay Molla, axı bu zəhrimar şerin vəzni olar, ölçüsü olar. Sənin şerinin birinci misrası bir arşın, ikinci misrası bir qarış. Belə də şeir olar?..

Molla şerini ürəyində bir də deyib, baxır ki, doğrudan da ikinci misra çox qısa olub. Deyir:

– Şah sağ olsun! Mən ki varam, şairəm. Şair də ki var, şeir onun əlində mum kimi bir şeydi. İstər əyər, istər düzəldər, istər uzadar, istər qısaldar. Yəni bunu mən yazmamışam? İstəyirsən, ikinci misranı da o qədər uzadım ki, lap birincini də keçsin.

Şah deyir:

– Nə təhər uzada bilərsən?

Molla deyir:

– Çox asan. Qulaq as uzadım, gör necə uzadıram.

Bir ilan gördüm bu gün ki, qaldırıb başını göyə,
Bir çubuq vurdum ki, başını, şını, şını,
şını, şını, şını, şını, şını...

Şah, istəyirsən yenə də uzadım?

## DOVŞAN OVU

Bir gün Molla ovdan gəlirmiş.Qonşusu kəsir qabağını ki:

– Molla əmi, ovun qanlı olsun, nə vurubsan?

Molla deyir:

– Səkkiz dənə dovşan.

Qonşusu baxır ki, Mollanın əlində bircə dənə dovşan var. Soruşur:

– Sənin əlində bircə dənə dovşan var. Bəs yeddisi hanı?

Molla başlayır saymağa:

– Birini vurdum, başı bıçağa gəlmədi,
Birini vurdum, tale mənə gülmədi.
Yəni oxum dəymədi.
Birini vurdum, heç özü də bilmədi.
Bu oldu üç.
Birinə atdım, döndü mənə vaz atdı,
Birinə atdım, mənə dişin ağartdı.
Birinə atdım, tüklərini qabartdı,
Birinə atdım, mənə dirsək göstərdi.
Bu oldu yeddi...
Bu da biri əlimdə, səkkiz.

# FƏRZƏLİ BƏY

Günlərin birində Fərzəli bəy adlı bir nəfər Mollanın yanına gəlib deyir:

– Molla, mən özümə bir möhür qayırtdırmaq istəyirəm. Mənim üçün iki misradan ibarət elə bir şeir yaz ki, orada mənim həm adım olsun, həm şan-şərəfimdən olsun, həm də nişanələrimdən biri olsun. Yazdıracağam möhürün üstünə.

Molla baxıb görür ki, bu adamın gözləri göydür, saqqalı sarıdır, adı da ki, Fərzəli bəydir. Bir az fikirləşib yazır:

Gözü göy, saqqalı sarı, özü səy,
Eşşəyin dal ayağı Fərzəli bəy.

# MOLLANIN FARSCA ŞERİ

Günün birində Teymur Ləng acıqlanır Mollanın üstünə ki:

– O boyda əmmaməni qoymusan başına, amma bir fars dilini də bilmirsən.

Molla deyir:

– Niyə bilmirəm?

Teymur deyir:

– Bilirsənsə fars dilində bir dənə şeir de, görüm!

Molla deyir:

Rəftəm bə cayi dağ-dərə,
Gördüm doqquz qurd amədənd.
Birin tutdum, üçün vurdum,
Qalanı meşə mirəvənd.

# BÖYÜYÜB KEÇİ OLUB

Bir gün Molladan soruşurlar:

– Molla sənin taleyin hansı bürcdədir?

Molla cavab verir ki:

– Keçi bürcündə.

Deyirlər:

– Ay Molla, keçi adlı bürc yoxdur axır.
Molla deyir:
– Uşaqlıqda atam deyərdi ki, mənim taleyim oğlaq bürcündədi. İndi mən böyüyüb, yekə kişi olmuşam. Yəqin ki, o da böyüyüb keçi olub də...

## DAHA HARAYA GEDƏK?

Özündən çox müştəbeh olan bir lovğa adam Mollanın yanına gəlir ki:
– Deyirlər sən çox ağıllı, çoxbilmiş bir adamsan. Daha bu dünyada bir adam qalmayıb ki, sən onun başına bir iş gətirməmiş olasan. Mən də özümə görə ağıllıyam. Gəlmişəm görüm, sən üstün gələrsən, ya mən?
Molla deyir:
– Əvvəla, bu yalandır ki, mən dünyada hamıdan ağıllıyam. Ancaq indi ki, zəhmət çəkib gəlibsən, daha səni qaytarmaq istəmirəm. De görək, fikrin nədi?
Lovğa adam deyir:
– Məsələn, bilmək istəyirəm ki, görüm sən məni aldada bilərsənmi?
Molla deyir:
– Mən səni lap çaya susuz aparıb, susuz gətirərəm.
Kişi deyir:
– Buyur, bu meydan, bu şeytan!..
Molla deyir:
– Buyur, gedək çaya. Mən elə eləyəcəyəm ki, sən çaydan su içməmiş qayıdıb gələsən.
Kişi deyir:
– Gedək.
Durub gedirlər çayın kənarına. Kişi yetişən kimi əyilib ovcunu su ilə doldurur, elə ağzına yaxınlaşdıranda Molla deyir:
– Dayan! Mən indi elə bir şey eləyəcəyəm ki, sənin ağzın bağlansın, ovcun deşilsin, suyu içə bilməyəsən. Ancaq ki, biz səhv eləmişik. Özümüzlə şahid gətirməmişik. Gəl düş qabağıma, yenə də gedək meydançaya, oradakılardan birisini də özümüzlə gətirib gələk, şahidimiz olsun.

Kişi razılaşır. Suyu ovcundan çaya töküb, düşür Mollanın qabağına. Düz gəlirlər meydançaya. Camaat baxır ki, budu, qayıdıb gəldilər. Molla yetişən kimi əyləşir. Kişi ha gözləyir, Molla durmur. Axırda deyir:

– Di dur, gedək də...

Molla deyir:

– Daha haraya gedək?

Kişi baxır ki, Molla onu aldadıb, udub.

## XƏMRƏ MƏSƏLƏSİ

Bir gün öz yerini bilməyən, böyük-kiçik tanımayan, yetənə yetib, yetmədiyinə daş atan bir nəfəri Molla çox məzəmmət eləyir. Amma hər nə deyirsə, heç biri kar salmır:

– Nə eləyim? Mənim xəmrəm belə yoğrulub.

Molla deyir:

– Məsələ xəmrənin yoğrulmağında deyil, ayaqlanmağındadır. Səni yoğuranda yaxşı ayaqlamayıblar. Ona görə də belə çıxıbsan.

## HANSI QƏBİRİSTANDA İDİM

Günlərin birində Molla Nəsrəddin çox bərk xəstələnir. Arvadın hər yerdən əli üzülür, qonşularındakı həkimbaşının evinə gedib yalvarır ki:

– Aman günüdü, həkimbaşı! Kişi bərk azarlayıb. Kasıb adamıq, bir sürü də uşaq. Nə olar, gəlib ona davadan-dərmandan eləyəsən, bəlkə sağala.

Həkimbaşı "kasıb adamıq" sözünü eşidən kimi qaşqabağını salladıb deyir:

– Yazıq kişiyə niyə əzab-əziyyət verirsən? Elə bil mən gəlib baxdım, dava-dərmanı nə ilə alacaqsan?

Arvad kor-peşman evə qayıdıb əhvalatı Mollaya danışır. İş elə gətirir ki, Molla sağalır. Günün birində həkimbaşı küçədə çıxır Mollanın qabağına. Utanmaz-utanmaz deyir:

– Molla, gərək məni bağışlayasan. O günü çox vacib işim oldu, sənin yanına gələ bilmədim.

Molla deyir:

Bu nə sözdü həkimbaşı?! Mən elə səni axtarırdım ki, razıçılıq eləyəm. Sənin sayəndə mən sağalmışam.

Həkimbaşı təəccüblə soruşur:

– Balam, mənim sayəmdə niyə? Mən ki, səni müalicə eləməmişəm.

Molla deyir:

– Elə ona görə də mən sağalmışam da... Yoxsa, Allah göstərməsin, sənin o murdar nəfəsin bircə dəfə mənə dəysəydi, indi kim bilir, mən hansı qəbiristanda idim.

## AÇAR DEŞİYİ

Molla Nəsrəddin hələ mədrəsədə oxuduğu günlərin birində müəllim ondan soruşur:

– Dərsini bilirsənmi?

– Bəli, bilirəm.

– De görüm, cisim nədir?

– Dünyada olan bütün cisimlərə cisim deyərlər.

Müəllim görür ki, Molla Nəsrəddin dərsi bilmir. Ancaq müəllim ona yaxşıca bələd imiş, bilirmiş ki, bilmədiyini onun boynuna qoymaq çətin işdi. Odur ki, qəsdən soruşur:

– Yaxşı, cismin xasiyyəti necə olur?

Nəsrəddin deyir:

– Dünyada olan bütün cisimlər cisim xasiyyətində olur.

Müəllim soruşur:

– Yaxşı... Bəs rəngi necə olur?

Nəsrəddin cavab verir:

– Elə hamısı bir rəngdə olur.

Müəllim:

– Yəni?

Nəsrəddin:

– Yəni cisim rəngində.

Müəllim baxır ki, onu belə tutmaq olmayacaq. Bir sual da verir:

– Yaxşı, bəs şəffaf cisim necə olur?

– Şəffaf olur.

Müəllim dərsi bilmədiyini onun boynuna qoymaq üçün qəsdən kömək edərək deyir:

– Yəni bu tərəfindən baxanda o tərəfindən işıq görünür, eləmi?

Nəsrəddin tez deyir:

– Bəli... Lap düz deyirsiniz. Bu tərəfindən baxanda o tərəfindən işıq görünür, özü də lap aydın.

– Yaxşı, bir misal de görüm!

Nəsrəddin deyir:

– Açar deşiyi.

## MƏSDƏR

Yenə də mədrəsədə oxuduğu günlərin birində müəllim Nəsrəddindən soruşur:

– De görüm, nəsr kəlmənin hansı halıdır?

Molla deyir:

– Məsdər halı.

Müəllim hirslənir ki:

– Niyə dərsini bilmirsən?

Nəsrəddin başlayır kəkələməyə ki:

– Müəllim, vallah, axtarsan bilirəm, ancaq belə...

Müəllim soruşur:

– Nə ancaq belə?

Nəsrəddin deyir:

– Axı desəm ki, mazidi, iş olacaq uzun. Zəhrimar birdəfəlik qurtarmır ki... "Məlumu var, məchulu var, müsbəti var, mənfisi var, müzəkkəri var, müənnəsi var, təki var, cəmi var. Məsdərdə bunların heç birisi yoxdur. Ona görə də onu deyirəm ki, məsələni çox uzadıb, başını ağrıtmayam.

## AZ QALIR ÇƏNƏM ÇIXSIN

Bir məclisdə bir nəfər boşboğaz yalançı camaata fürsət verməyib elə özü danışır. O qədər deyir ki, hamı təngə gəlir. Mollanı da yuxu basdığı üçün bir tərəfə çəkilib başlayır əsnəməyə. Axırda məclisdəkilərdən biri bu danışan adamın səsini kəsmək məqsədilə Mollaya deyir:

– Molla, sənə nə olub? Bu gecə heç ağzını açmırsan...

Molla bir də əsnəyib deyir:

– Əksinə. Bu gecə heç mənim ağzım yumulmayıb. Elə əsnəyirəm ki, az qalır çənəm çıxsın.

## LAP DÜZƏLDƏRİK

Mollanın tənbəl bir eşşəyi varmış. Bu eşşək Mollanı o qədər təngə gətirir ki, axırda bazara aparıb bir dəllala verir ki, satıb başından eləsin.

Dəllal başlayır eşşəyi tərifləməyə:

– Eşşək nə eşşək!.. Tükü məxmər, üzü qəmər, yerişi at kimi, min üstündə yorğalaya-yorğalaya çay iç!

Molla dəllaldan bu tərifləri eşidib, öz-özünə deyir:

– Yaxşı, bu ki belə yaxşı eşşəkdi, dayı başqasına niyə satılsın? Hazır elə özüm alaram da...

Dəllala yaxınlaşıb, tapşırdığı qiymətdən də bir az yuxarıya özü alır, pulunu verib evə gətirir. Arvad baxır ki, Molla eşşəyi qaytarıb gətirib. Soruşur ki:

– A kişi, bəs niyə satmadın?

Molla:

– Arvad, eşşək yaman əlimizdən gedəcəkdi. Yaxşıdı ki, tez ayıldım, – deyib əhvalatı ona danışır. Arvad Mollaya bir "afərin!" deyəndən sonra özü başlayır ki:

– A kişi, mən də bu gün qaymaqsatanı aldatmışam axı...

Molla soruşur:

– Necə?

Arvad deyir:

– Gördüm qaymaqsatan gəlib qapıya. Yarım girvənkə qaymağın pulunu verdim. O da tərəzinin bir gözünə yarım girvənkə daş qoydu, bir gözünə də qaymaq. Başladı çəkməyə. Tez göz-gözə vurub, qolumdakı qızıl qolbağı açıb atdım tərəzinin daş olan gözünə. Qaymaqsatan da heç görməyib çəkib qabı lap doldurdu. Tez götürüb qaçdım evə.

Molla soruşur:

– Bəs qolbaq necə oldu?

Arvad deyir:

– Qolbağı görmədi ki... Görsəydi heç o qədər qaymağı verərdimi?.. Elə tərəzi qarışıq götürüb qoydu torbasına, çıxıb getdi.

Molla deyir:

– Afərin, arvad!.. Belə çalışsaq, sən içəridən, mən də çöldən bu evi lap düzəldərik.

## MOLLA ARVADINI DƏYİŞİR

Mollanın çox tənbəl, səliqəsiz bir arvadı var imiş. Ancaq qızı arvadın lap tərsinə imiş: gözəl, səliqəli bir qız imiş. Odur ki, Mollanın çayını-çörəyini həmişə o hazırlarmış.

Gün o gün olur ki, qonşu kəndlərin birindən Mollanın qızına elçi gəlir. Danışırlar, razılaşırlar, Molla qızını ərə verir.

Qız gedən gündən Mollanın da qara günləri başlanır. Nə çay verən olur, nə çörək hazırlayan olur, nə paltar yuyan tapılır. Molla bir ay dözür, iki ay dözür, axırda bir gün arvada deyir:

– Arvad, lap o təzə paltarını gey, hazırlaş, gedirik.

Arvad geyinib-kecinib düşür Mollanın yanına.

Molla birbaş arvadı gətirir kürəkəninin yanına ki:

– Qardaş, başına dönüm, mən o qızsız dolana bilmirəm. Gəl, üstündə də nə deyirsən verim, arvadlarımızı dəyişək.

## DEMƏ Kİ, DEMƏDİM

Molla yuxuda görür ki, qonşu arvadlar yığışıb ona cavan, gözəl bir qız alırlar. Tez yuxudan oyanıb yanında yatan arvadını dürtmələyir ki:

– Arvad, dur!

Arvad soruşur:

– Nə var, a kişi? Nə olub?

Molla deyir:

– Qonşu arvadlar məni evləndirirlər. Dur, qoyma!

Arvad deyir:

– A kişi, qoysana yataq!

Molla deyir:

– Bax, mən sənə dedim ha... İndi tutub evləndirsələr, day demə ki, demədim.

## HANSI OLSA, ONA

Molla bir gün arvaddan çörək istəyir. Arvad bir tikə yavan çörək gətirib qoyur ərinin qabağına.

Molla deyir:

– Arvad, bir az pendir gətir! Pendir çox yaxşı şeydir. Yaman iştaha gətirir. Özü də yaman qan artırandır. Gözə mənfəəti var.

Arvad deyir:

– Vallah, pendir qurtarıb, a kişi, heç bir tikə də yoxdur.

Molla deyir:

Elə yaxşıdı ki, qurtarıb. Adamın dişlərini çürüdür, qarnını sancıladır; qulaqlarını ağırlaşdırır.

Arvad onun sözünü kəsir ki:

– A kişi, onu da sən deyirsən, bunu da. İndi mən bu sözlərin hansına inanım?

Molla deyir:

– Olsaydı, əvvəlkinə, indi ki yoxdur, sonrakına.

## SƏMİMİ SÖHBƏT

Bir gün arvadı Mollanın sir-sifətinə uzun-uzadı baxıb deyir:

– Molla, bərəkallah sənin ürəyinin böyüklüyünə. Doğrudan də sənin çox böyük ürəyin var.

Molla soruşur:

– Necə?

Arvad deyir:

– Sən ki, bu qədər çirkinsən ürək lazımdır ki, buna dözə.

Molla deyir:

– Ona qalsa, sənin ürəyin dörd mənimki boydadı.

Arvad soruşur:

– Niyə?

Molla deyir:

– Çünki mən özüm sir-sifətimi görmürəm ki, dözəm, ya dözməyəm. Hər gün mənə baxan sənsən, dözən də sənin ürəyin.

# ƏRSİZ QALMIŞDIN

Gecələrin birində Molla həyətdə şıqqıltı eşidir. Tez ox-yayını götürüb çıxır bayıra. Baxır ki, bağçada, tut ağacının dibində bir qaraltı var. Oğru zənn eləyib dizini qoyur yerə, nişanlayıb düz ortasından vurur. Ancaq qorxudan gedib baxmağa cəsarət eləmir. Qaçıb girir yerinə, yorğanı da başına çəkib yatır. Səhər açılır, Molla görür ki, daha hava işıqlaşdı, durub çıxır bayıra. Baxır ki, oğru bilib vurduğu öz əbasıdır.

Demə, arvadı gündüzdən əbanı yuyub sərmişmiş tut ağacına. Molla baxıb görür ki, ox əbanın düz ortasından dəlib keçib. Tez diz çöküb əllərini qaldırır yuxarı, başlayır şükür eləməyə.

Arvadı soruşur:

– A kişi, əbanı vurub deşdiyin bəs deyil, hələ bir şükür də eləyirsən?!

Molla deyir:

– Arvad, sən də şükür elə! Allah eləməmişdən, Allah eləməmişdən, dilim-ağzım qurusun! Bəlkə oxu atanda mən özüm də əbanın içində olaydım. Şükür elə ki, olmamışam. Yoxsa indi ərsiz qalmışdın.

# APARMAZ Kİ...

Molla arvadı ilə gölə paltar-palaz yumağa gedir. Bunların başı qarışır, bir qarğa sabunu götürüb uçur. Arvad bunu görüb qışqırır:

– A kişi, qoyma! Qarğa sabını apardı.

Molla deyir:

– Görmürsən, yazığın üst-başı qapqaradır. Niyə qoymuyum? Lazım olmasa, aparmaz ki...

# SİFARİŞ

Deyirlər ki, Mollanın qonşuluğunda çox gözəl bir arvad olurmuş. Ancaq sir-sifətdən nə qədər gözəl imişsə, ağıldan da bir o qədər kasıb imiş. Bir sözlə, bir az gictəhər imiş.

Bu arvad günlərin birində Mollaya sifariş göndərir ki:

– Molla, sən gəl məni al! Sən ağıllı, mən gözəl... Gör bizdən olan uşaq necə olar?

Molla da arvada sifariş göndərir ki:

– Bizdən olan uşaq ağılda mənə, gözəllikdə sənə oxşasa, çox yaxşı olar. Ancaq bu baxt ki məndədir, qorxuram uşaq gözəllikdə mənə oxşaya, ağılda sənə.

## DƏRD YARIDI

Deyilənlərə görə, Molla sir-sifətdən bir az kifir imiş. Bunu özü də bilirmiş. Odur ki, güzgüyə baxmaqdan zəhləsi gedərmiş.

Bir gün hamilə arvadı Mollanın üz-gözünü bir diqqətlə nəzərdən keçirib deyir:

– Bir tərəfdən sevinirəm ki, uşağımız olacaq, bir tərəfdən də deyirəm vay mənim halıma, əgər uşaq sənə oxşaya...

Molla bir arvada baxıb deyir:

– Əgər uşaq mənə oxşasa dərd yarıdı... Çünki uzaq başı kifir olacaq. Amma vay sənin halına onda ki, uşaq mənə oxşamaya.

## HAMISINDAN BİŞİR

Molla bir gün evə ət alıb gətirir. Arvad soruşur:

– A kişi nə bişirim?

Molla deyir:

– Nə bilim? Bax gör, ətdən nə olar bişir də...

Arvad əti o yan bu-yana döndərib, ora-burasına baxıb deyir:

– Yaxşı ətdir. Hər nə desən olar.

Molla deyir:

– Onda elə hamısından bişir!

## RAHAT YATMAZDILAR

Mollanın var-yox bircə yorğanı var imiş. Gecələr üstlərinə örtərmişlər, gündüzlər də soyuq olanda özü bürünüb oturarmış. Soyuq günlərin birisində arvad dilə gəlib başlayır Mollanı danlamağa ki:

– Sən də kişisən də... Bircə yorğanımız da yoxdur ki, barı üstümüzə örtək. Qalmışıq bir dənə yırtıq mitilin umuduna. O da ki sənin çiynindən yerə düşmür.

Molla nə qədər arvada deyirsə ki:

– Arvad, az məni danla! Ürəyini geniş tut! Vaxt olar, alarıq! – arvad əl çəkmir. Axırda Molla hirslənib yerindən qalxır:

– Dayan, indi mən sənə o qədər pambıq gətirim ki, lap min dənə yorğan qayır!

Bunu deyib, əlinə bir kürək alır, bir də bir çuval götürüb çıxır həyətə. Arvad bir də pəncərədən baxır ki, Molla çuvala qar doldurur. Qışqırır ki:

– A kişi, nə edirsən? Qarı niyə çuvala doldurursan?

Molla deyir:

– Sənə pambıq gətirirəm yorğan qayırasan.

Arvad deyir:

– A kişi, qardan da yorğan olar? O, heç adamı isidər?

Molla deyir:

– Yaxşıca isidər. Əyər isitməsə idi, ata-babalarımız onun altında belə rahat-rahat yatmazdılar ki...

## BİR ŞEY QALMAYIB

Molla arvadı ilə bərabər dörd günlük yolda olan bir kəndə qonaq gedir. Evdən elə təzəcə çıxdıqları vaxt Molla arvaddan soruşur:

– Arvad, hələ çox gedəcəyik?

Arvad baxır ki, Molla onu dolayıb, deyir:

– Yox, bir şey qalmayıb. Bu gün ilə sabahı da getsək, vur-tut qalacaq ikicə günlük yolumuz.

Molla deyir:

– Tay denən yolu yarılamışıq da... Bir şey qalmayıb ki..

## GÖY MUNCUQ KİMDƏDİ, ONU

Deyirlər bir müddət Mollanın iki arvadı olub. Özləri də yaman davakar imişlər. Həmişə savaşarmışlar. O deyərmiş: "Molla məni çox istəyir", bu deyərmiş: "Yox, məni çox istəyir". Axırda da həmişə gəlib Molladan soruşarmışlar.

– Hansımızı çox istəyirsən?

Molla axırda təngə gəlir, gedib bazardan iki dənə göy muncuq alır. Hərəsini gizlincə bir arvada verib deyir:

– O biri arvada göstərmə. Bu mənim sənə olan məhəbbətimin nişanəsidir.

Bundan sonra arvadlar gələndə ki, hansımızı çox istəyirsən, Molla deyərmiş:

– Göy muncuq kimdədi, onu.

## AZ-MAZ BİLİRSƏN

Yenə də bir gün Mollanın arvadlarının arasında mübahisə düşür. Axırda ikisi də gəlir Mollanın yanına ki:

– Bu saat de görək, bizim hansımızı çox istəyirsən?

Molla nə qədər and-aman eləyib deyirsə ki, "ikinizi də” – arvadlar əl çəkmirlər. Axırda kiçik arvad deyir:

– Bura bax, uzun eləmə! Birdən biz ikimiz də düşək bir dərin gölə. Sən də olasan orada. Əvvəl-əvvəl hansımızı çıxardarsan?

Molla baxır ki, iş şuluqdur, arvad bunu yaman yerdə tutub. Odur ki, böyük arvaddan soruşur:

– Arvad, gərək ki, sən bir az-maz üzmək bilirsən axı...

## YAMAN YALANÇI İMİŞSƏN HA...

Deyirlər ki, Molla Nəsrəddinin yaman çoxbilmiş bir arvadı var imiş. Bir gün bu arvad uzaq kəndlərin birində olan atasıgilə qonaq getməli olur. Evdən çıxanda Mollaya deyir:

– Bax, Molla, bir aylığa səni tək qoyub gedirəm. Bilməzsən, bu bir ayda naməhrəm arvada-zada baxarsan ha... Əgər baxsan, ya ürəyindən

elə şey keçsə, mənim saçlarım ağaracaq, dişlərim töküləcək, barmaqlarımın da hamısı çürüyəcək, dönüb olacağam şikəst, qoca, kaftarın biri. Ölənəcən bir yük olub qalacağam boynunda. Ev işlərinin də hamısını sən görməli olacaqsan.

Arvad gedir. Elə ki bir ay başa çatır, arvad qayıdır. Molla tez görüşmək adı ilə arvadın əllərindən tutub barmaqlarını yoxlayır, görür ki, yox, barmaqlar lap sağlamdır; sonra bir bəhanə ilə yaylığını açıb başına baxır, görür ağarmayıb; danışdırıb dişlərinə fikir verir, görür dişlər də öz yerindədir. Bir dərin nəfəs alır. Kişinin elə bil ki, beli düzəlir. Arvadın burnuna bir çıtma vurub deyir:

– Amma yaman yalançı imişsən ha...

## QALARSAN ƏRSİZ

Günlərin birində Molla bazardan iki bardaq alır. Qulaqlarına ip bağlayıb çiyninə salır, yola düşür. Kəndlərinə bir az qalmış fikirləşir ki, bütün heyvanlar hürkür, bəs insan görəsən niyə hürkmür? Sonra öz-özünə deyir:

– Qoy bir hürküm, görüm necə olur? Bacarıram, ya yox?

Bunu deyib cüt ayaqlarını yerə vurub bir at kimi kişnəyib, götürülür. Bardaqlar bayaq ha sınır. Bu hal ilə gəlib girir həyətlərinə. Bir o tərəfə qaçır, bir bu tərəfə qaçır, səs-küyə arvad çıxır bayıra. Mollanı belə görüb soruşur:

– A kişi, nə qayırırsan?

Molla deyir:

– Arvad, küçə qapısını tez bağla, hürkmüşəm. Çıxıb qaçaram, qalarsan ərsiz.

## HEÇ EYBİ OLMASIN?

Molla Nəsrəddin günlərin birində evlənib, bir qıçı çolaq, bir gözü kor, dişləri tökülmüş, keçəl, qozbel bir arvad alır. Haman arvadı tanıyan dostlarından biri soruşur ki:

– Molla, bu çolaq arvadı niyə aldın?

Molla deyir:

– Çolaq yaxşıdır, qardaş! Çox gəzməz. Qaxılıb oturar evdə.

– Yaxşı, axı gözünün də biri kordur.

– Baxma, o da yaxşıdır. Tutduğum işlərin yarısını görər, yarısını yox.

– Bəs dişləri? O da yoxdur axı.

Molla deyir:

– Eh, onsuz da evdə yeməyə bir şey tapılmır.

– Keçəlliyinə nə deyirsən?

– Keçəl yaxşıdır, mənim o qədər pulum harda idi ki, həftədə bir girvənkə xına alam.

– Yaxşı, Molla, bəs bu qozbelliyinə nə sözün var?

Molla deyir:

– Sən də qəribə, insafsız adamsan ha... Deyirsən bu zalım qızının heç bir eybi olmasın?

## SƏN BİLMƏZSƏN

İllərin birində Mollanın inəyi qısır qalır. Molla baxır ki, bütün qışı inəyi müft-müsəlləm yedirib saxlamalı olacaq. Ona görə də aparır bazara satmağa. Ancaq nə qədər dolandırır, nə qədər çalışırsa, sata bilmir. Axırda kor-peşman qayıdır dala. Yolda dostlarından biri rast gəlib soruşur:

– Molla, inəyi haradan belə gətirirsən?

Molla deyir:

– Aparmışdım satmağa, sata bilmədim.

Dostu deyir:

– Qaytar aparaq mən satım.

Təzədən qayıdırlar bazara.

Mollanın dostu başlayır inəyi tərifləməyə. Nə bilim ay belə südlü inəkdir, özü də ikicanlıdır, qarnında altı aylıq balası var. Müştərilər yığışır. İnək Mollanın öz istədiyindən də bir az baha qiymətə satılır. Molla bu işi saxlayır yadında.

Bir neçə müddətdən sonra Mollanın qızına elçi gəlir. Qıza baxırlar, bəyənirlər, durub getmək istəyəndə Molla girir ortaya; üzünü elçilərə tutub deyir:

– Qızım çox yaxşı qızdır. Əldən çıxartmayın! Özü də ikicanlıdı. Qarnında altı aylıq balası da var.

Elçilər bu sözləri eşitcək çıxıb gedirlər. Arvad hirslənir ki:

– A kişi, dəli-zad deyilsən ki? Bu nə söz idi elçilərə dedin? Necə yəni ikicanlıdı. Qarnında altı aylıq balası var?!

Molla deyir:

– Arvad, sən kişi işinə qarışma! Sən ticarətin yolunu bilməzsən. Onda tez alarlar. Biz inəyi də belə satmışdıq.

## MƏNDƏN QABAĞA DÜŞÜB

Bir gün Mollaya xəbər gətirirlər ki:

– Molla, gəl, arvadın ölüb.

Molla əllərini bir-birinə vurub deyir:

– Pay atonnan, genə məndən qabağa düşdü ey...

Soruşurlar:

– Necə yanı səndən qabağa düşdü?

Molla deyir:

– Əşi, çoxdan idi ki, azarlı yatırdı. Daha lap zəhləmi tökmüşdü. Axırda bu gün fikirləşdim ki, gedəm mollanın yanına, boşayam canım qurtarsın. Gör necə bicdi ki, fikrimi bilib burda da məndən qabağa düşüb, öldü.

## YOXSA İŞLƏR ŞULUQ OLAR

Molla evlənib çəpgöz bir arvad alır. Elə evləndikləri günün sabahı bir qab qaymaq alıb gətirir evə. Arvad Mollanın əlindəki qabı iki görüb soruşur:

– Ay kişi, bəs niyə iki qab alıbsan? Biri bəs idi də...

Molla sevinib öz-özünə deyir:

– Aha... Sən öləsən, işim düzəlib. Arvad elə bu cür şeylərin birini iki görsə yaxşıdı.

Bundan sonra Molla evə nə gətirirsə, arvad onu iki görür. Molla da sevinir. Bir gün çörək yedikləri vaxt birdən arvad Mollaya baxır, tez üzünü əlləri ilə örtüb deyir:

– Ay kişi, bu nədi? Yanındakı molla kimdi?
Molla deyir:
– Arvad, bu olmadı. Bu evdə hər nəyi iki görürsən gör, ancaq ərini bir dənə gör! Yoxsa işlər şuluq olar.

## GÖYDƏ QAPAR

Molla gündə bir ciyər alıb göndərir evə ki, arvad bişirsin. Arvad da hər gün qonşuları yığır başına, ciyəri bişirib yeyirlər. Mollaya pendir-çörək verir. Bir gün belə, iki gün belə, axırda Molla bir gün dilə gəlib deyir:

– Arvad, belə şey olmaz axır... Mən dinib-danışmıram, səndə də bir insaf olsun. Mən gündə ciyər alıb göndərirəm evə ki, bişirəsən, gəlib görürəm pendir-çörəkdən başqa bir şey yoxdur. Bəs bu ciyərlər necə olur?

Arvad deyir:
– Molla, vallah elə yuyanda pişik əlimdən qapıb qaçır.
Molla durub baltanı götürüb qoyur sandığa, ağzını da qıfıllayır.
Arvad soruşur:
– A kişi, baltanı niyə gizlədirsən?
Molla deyir:
– Neyləyim arvad, bir manatlıq ciyəri qapıb qaçan pişik beş manatlıq baltanı göydə qapıb qaçar.

## MƏN DƏ VAR İDİM

Molla səhər evdən çıxır ki, bazara getsin, qapıda qonşusuna rast gəlir.

Qonşu soruşur:
– Ay Molla, səhər tezdən nə olmuşdu sizdə? Yaman səs-küy var idi. Sonra da birdən yaman tappıltı gəldi. O nə idi elə?
Molla başını heç qaldırmayıb deyir:
– Heç, elə arvadla balaca bir sözümüz oldu. Arvad hirslənib mənim cübbəmə bir təpik vurdu. Cübbə idi elə tappatapnan pilləkənlərdən yumbalanırdı.

Qonşu heyrətlə soruşur:

– Ay Molla, cübbə də pilləkəndən yumbalanarmı?

Molla da ondan soruşur:

– Niyə yumbalanmır ki?

Qonşu deyir:

– Yumbalanmaz da... Axı cübbə nədi ki, yumbalana? Özü də elə tappatapnan.

Molla görür yox, qonşu mübahisədən əl çəkməyəcək, hirslənib deyir:

– Canım, çənə döymək nəyə lazımdır? Mən özüm də cübbəmin içində idim, başa düşdün?

## İKİSİNDƏ DƏ ÇİMƏR

Mollanın baldızı ərə gedirmiş. Arvad ertədən Mollanı oyadır ki:

– Ay kişi, dur get hamama, oradan da tez çıxıb gəl bacımgilə.

Molla nə qədər deyirsə ki:

– Ay arvad, qoy hamama sabah gedim.

Arvad razı olmayıb deyir:

– Yox, toya gedirsən, gərək təmiz olasan.

Molla durub gedir. Bayıra çıxanda arvad bir də deyir:

– Ay kişi, daha yubanma ha!.. Tez gəl! Sənsiz heç bir şey olmaz. Bax, mən ora çatanda gərək sən də orada olasan.

Molla gedir hamama, tez-tələsik bədənini isladıb geyinir ki, yubanmasın. Bayıra çıxanda görür ki, yaman yağış yağır. Bilmir ki, nə eləsin. Əyər yağışın kəsməyini gözləsə yubanacaq, arvad eliyəcək gününü qara. Axırda paltarını soyunub vurur qoltuğuna, birbaş düzəlir yola.

Camaat bir də baxır ki, Molla, budu, anadangəlmə lüt-üryan girdi içəriyə. Soruşurlar:

– Ay Molla, bu nə haldı?

Molla deyir:

– Arvad sözü ilə hamamdan toya gedən həm isti suda çimər, həm də soyuq suda.

## SAQQALI ARVAD ƏLİNƏ VERMƏMİŞƏM

Deyirlər Mollanın çox bədxasiyyət bir arvadı var imiş. Necə deyərlər, kişinin gününü lap qara eləmiş imiş. Hələ acığı tutanda əlinə keçəni lap kişinin başına da vururmuş.

Günlərin birində başqa bir yerdən Mollaya qonaq gəlir. Arvad bir az deyinir, mırtdanır, sonra mətbəxə gedir ki, xörək hazırlasın. Molla ha gözləyir, arvad mətbəxdən çıxmır. Axırda durub mətbəxə girir ki:

– Ay arvad, axı qonağımız uzaq yerdən gəlib, acdı, bir az əl-ayaq eləsənə!

Molla elə bunu deməyini görür. Arvad bayaq ha əlindəki maşanı tolazlayır Mollaya. Maşa dəyir Mollanın başına, qan kişinin üz-gözünü bürüyür. Qonaq işi belə görüb, tez ayağa durur. Mollanın başını, gözünü təmizləyir. Gətirib oturdur, sonra ürək-dirək verib deyir:

– Çox da fikir eləmə, Molla! Bu arvad tayfasından yaxşısının da misli-bərabəri olmur, pisinin də. Hələ səninki yaxşıdır. Mənimki hirsləndə saqqalımdan tutub az qalır ki, başımı ocağa soxsun.

Molla belini düzəldir, başını dikəldir, lovğa-lovğa deyir:

– Yox! Əzizim! Sənin özünə fikrin getməsin. Mən saqqalı arvad əlinə verən kişilərdən deyiləm.

## KİŞİSƏN, ONA DA BİR SÖZ DE DƏ!..

Bir gün arvad uşağı verir Mollanın qucağına ki:

– A kişi, uşağı bir az oynat, işim var.

Molla başlayır uşağı oynatmağa. Uşaq qığıldanır, gülür, birdən dodaqlarını büzüb tüpürür. Tüpürcək Mollanın üzünə dəycək hirslənib uşağı arxası qatda uzadır yerə, bir lomba tüpürür üzünə. Arvad cumur ki:

– A kişi, dəli deyilsən, uşağın üzünə niyə tüpürürsən?

Molla deyir:

– Sən elə mənim üstümə düş! Bəs o niyə tüpürür? Kişisən, ona da bir söz de də!..

## EYNƏYİ VER!

Gecənin bir yarısı Molla tələsik arvadı yuxudan oyadır ki:

– Arvad, arvad, tez ol, eynəyimi mənə ver!..

Arvad soruşur:

– A kişi, gecə qaranlıqda, yorğan-döşəyin içində eynəyi neyləyirsən?

Molla deyir:

– Arvad, tez ol, bir yaxşı yuxu görürəm, ancaq bəzi yerləri qaranlıqdı deyə, seçə bilmirəm. Eynəyi ver yaxşı-yaxşı baxım.

## NƏ BİLİM SAĞ TƏRƏFİM HAYANDADIR?

Arvadı gecə Mollanı yuxudan oyadır ki:

– Molla, evdə pişik var, qabları sındıracaq, sağ tərəfindən o şamı ver yandırım, pişiyi qovum.

Molla hirslənir ki:

– Arvad, gic-zad deyilsən ki? Gecənin bu qaranlığında mən nə bilim sağ tərəfim hayandadır?

## PİŞİK HANI?

Molla bazardan on girvənkə ət alıb göndərir evə ki, arvad bir-iki gün xörək bişirsin. Arvad qonşu arvadları da başına yığır, əti bişirib yeyirlər.

Molla axşam keyfi kök, damağı çağ, böyük bir iştaha ilə özünü evə salır ki, indi ət yeyəcək. Çatan kimi səslənir:

– Arvad, acam, xörəyi çək, gətir!

Arvad gətirib bir az çörək, bir-iki baş da soğan qoyur Mollanın qabağına.

Molla soruşur ki:

– Arvad, bəs ətdən niyə bişirməmisən?

Arvad deyir:

– Başıma daş düşsün. Əti suya çəkib qoydum taxçaya ki, ocağı yandıram, bir də baxdım ki, azar dəymiş pişik hamısını tərtəmiz yeyib.

Molla heç bir söz deməyib durur ayağa. Pişiyi tutub qoyur tərəziyə. Çəkib baxır ki, düz on girvənkədir. Üzünü arvada tutub deyir:

– İndi özün insafla de! Əyər bu pişikdirsə, bəs ət hanı? Əyər ətdirsə, bəs pişik hanı?

## QARIŞA BİLMƏRƏM

Biri qaça-qaça gəlib Mollaya xəbər verir ki:

– Molla, tez ol gəl, evinizə od düşüb yanır. Qapınızı nə qədər döydümsə, heç kəs açmadı. Yəqin evdə adam yoxdu.

Molla oturduğu yerdən heç tərpənməyib çox sakit deyir:

– Balam, biz arvadla işi bölüşmüşük. Çöl işi mənimdi, ev işi onun. Zəhmət olmasa, get onu tap, de ki, gedib söndürsün. Mən onun işinə qarışa bilmərəm.

## SİRR

İsti yay gecələrinin birində Molla arvadı ilə damda yatmış imiş. Yorgan-döşəyin içində arvadla Mollanın sözü çəp gəlir. Molla deyir, arvad deyir, axırda arvad Mollanı itələyir, Molla yumbalanıb damdan yıxılır.

Sən demə, məhəllə uşaqları da gecə ay işığında Mollanın damının dalına yığışıb nağıl danışırmışlar. Bir də baxırlar ki, Molla guppultu ilə damdan yerə düşdü. Tez yüyürüb qaldırırlar, sudan-zaddan töküb onu ayıldırlar. Soruşurlar ki:

– Molla əmi, danış görək, necə oldu ki, damdan yıxıldın?

Molla deyir:

– Bu sirdir, balalarım!

Deyirlər:

– Nə olar sirr olanda? De, biz də bilək.

Molla deyir:

– Deməyinə deyərəm, amma siz hələ bu sirri başa düşə bilməzsiniz.

Deyirlər:

– Sən danış, biz başa düşərik.

Molla deyir:

– Yox, başa düşməzsiniz... Çünki siz hələ cavansınız, evlənməmisiniz. Gərək siz böyüyəsiniz, evlənəsiniz, sonra damda yorğan-döşək içində arvadla sözünüz çəp gələ, arvad itələyə, siz də yumbalanıb damdan yıxılasınız. Ancaq onda bu sirri başa düşə bilərsiniz.

## İNƏK GƏTİRDİ

Mollanın yaman dəymədüşər xasiyyəti var imiş. Çox tez-tez acıq eləyib, küsüb evdən gedərmiş. Sonra arvadı, qızı, oğlu gedib yalvar-yapış gətirərmişlər. Günlərin birində yenə də arvad nə deyirsə, Molla küsür, evdən çıxıb gedir, bağçanın bir tərəfində uzanıb yatır. Arvad da uşaqlara deyir ki:

– Bu kişi qocaldıqca xarab olur. Lap küsəyən uşağa dönüb. Heç biriniz dalınca getməyin!

Molla gözləyir, gözləyir, görür heç dalınca gələn olmadı. Axşam düşür, özü də ac, qalır məəttəl ki, nə eləsin... Qayıtmağa da utanır. Gün lap əyilir, şər qarışır. İnəklər naxırdan gəlir. Molla baxır ki, dalınca gələn olmayacaq, yavaşca yapışır inəyin quyruğundan gəlir evə. Arvad uşaqlara göz basıb deyir:

– Sən ki, küsmüşdün, niyə gəldin?

Molla deyir:

– Gəldinə bax ey!.. Ölsəydin də gəlməyəcəkdim. İnək tutdu əlimdən zorla gətirdi, sözünü yerə sala bilmədim.

## BİR AZ DA ÇƏKİLİM

İsti yay gecələrinin birində Molla arvadı ilə damda yatmış imiş. Gecənin bir yarısı arvad Mollaya deyir:

– Ay kişi, sən allah bir az o yana çəkil, yaman istidi. Lap bişdim.

Molla bir söz deməyib çəkilir. Səhər Molla yox olur. Arvad bir gün gözləyir, iki gün gözləyir, bir ay gözləyir, üç ay gözləyir, Molla gəlmir ki, gəlmir. Üç-dörd aydan sonra uzaq kəndlərin birindən gələn bir nəfər Molladan belə bir sifariş gətirir:

– Arvaddan soruş gör, hələ sərinləməyibsə, bir az da o yana çəkilim...

## TOYDAN GƏLƏNDƏ DƏ BELƏ GÖRMÜŞƏM

Deyirlər ki, Mollanın qaraqabaq bir arvadı var imiş. Elə bil ki, dünyanın bütün bac-xəracını bundan alırmışlar. Həmişə qaş-qabağı yerlə gedərmiş.

Bir gün yenə Molla axşam evə gəlib görür ki, arvadın alt dodağı yer süpürür, üst dodağı göy. Özünü saxlaya bilməyib deyir:

– Yenə nə var, a qaraqabaq xanım?!. Qaşqabağın yenə yerlə sürünür. Bu dünyada dərdimiz çox azdı, bir tərəfdən də sən bizə keyf ver!

Arvad deyir:

– Bilirsən ki, yasdan gəlirəm də... Qaşqabaqlı olmayanda çalıb-oynamayacağam ki?..

Molla deyir:

– Dərd buradadı ki, səni toydan gələndə də belə görmüşəm.

## KİMƏ İSTƏYİRSƏN, GÖRÜN!

Mollaya bir kifir arvad alırlar. Molla bir başına vurur, bir dizinə. Ancaq daha haray hara çatacaq?..

Səhər durub gedəndə arvad soruşur:

– A kişi, qohumlarından, qonşularından kimə görünüm, kimdən qaçım?

Molla deyir:

– Arvad, başına dönüm, mənə görünmə, kimə istəyirsən, görün!

## MƏNİM PAYIMI AĞLASIN

Gecə Mollanın uşağı ağlayır. Arvad Mollanı yuxudan oyadır ki:

– Molla, axır biz bu uşağa şərikik. Yarısı sənindi, yarısı mənim. Nə olar, dur bir dəfə də sən onu ovut!

Molla yorğanı başına çəkib deyir:

– Sən öz payını ovut, işin yoxdur, qoy mənim payımı ağlasın.

## PLOVU YEYƏN GİRSİN

Günlərin bir günündə Molla evlənir. Bunun üçün yaxşı bir toy eləyirlər. El adəti üzrə gəlin gələn gecə plov bişirirlər. Camaatın başı qarışıq olduğuna görə, plov ortalığa gəldiyi zaman Molla tamamilə yaddan çıxır. Plovdan əli çıxan Molla acıq eləyib evdən gedir. Gecə gəlini gətirirlər, ha gözləyirlər Molla gəlib çıxmır. Bütün otaqları, qonşu evləri, hər yeri axtarırlar, Mollanı tapmaq mümkün olmur. Düşürlər şəhərin canına, o ev sənin, bu ev mənim... Axırda gəlib şəhərin lap kənarında, bir xarabada Mollanı tapırlar. Baxırlar ki, üzünü xarabanın bucağına çevirib oturub. Nə qədər deyirlər ki, "dur gedək evə" Molla yerindən tərpənmir. Axırda ağsaqqallardan biri deyir:

– Ay canım, yekə adamsan, dur ayağa, gəlini gətirmişik, gedib yanına girmək lazımdır.

Molla çox qəti bir ahənglə deyir:

– Getmirəm. Heç plovu yeyəndə mən yada düşmürdüm... İndi ki belədi, plovu kim yeyib, gəlinin də yanına o girsin.

## YADİGAR QALSIN

Mollanın bir oğlu olur. Qonşular yığılırlar ki:

– Molla, gəl, oğlana ad qoyaq.

Molla ağzını uşağın qulağına tutub deyir:

– Bala, sənin adını qoydum Molla Nəsrəddin oğlu Fatma.

Qonşulardan biri deyir:

– Ay Molla, uşaq oğlandır. Sən ona arvad adı niyə qoyursan?

Molla deyir:

– Bilirəm. Ancaq arvadımı çox istəyirəm, bəlkə sabah, birigün yıxıldı öldü deyə, adını uşağa qoyuram ki, ondan yadigar qalsın.

## NƏ QƏDƏR BEKARAM, AĞLAYIRAM

Mollanın arvadı azarlayır. Yazıq hər gün işdən gələndən sonra arvadın yanında oturub bir-iki saat ağlayır. Xəstəni yoluxmağa gələn arvadlardan biri deyir:

– Molla, qorxulu bir şey yoxdur. Bu gün-sabaha sağalıb durar. Sən niyə belə ağlayırsan?

Molla deyir:

– Bacı, mən iş adamıyam. Evdə çox az oluram. Bəlkə sabah birdən yıxılıb öldü. Onda ağlamağa vaxtım olmayacaq. Odur ki, nə qədər indi bekaram, ağlayıram.

## SƏBR ELƏYƏN

Molla bir gün söhbət əsnasında arvadına deyir:

– Arvad, bu dünyamız heç, amma o dünyada kef eləyəcəyik.

Arvad soruşur:

– Niyə?

Molla deyir:

– Çünki ikimiz də cənnətə gedəcəyik.

Arvad soruşur:

– Nədən bilirsən?

Molla deyir:

– Nədən biləcəyəm? Bu sir-sifət ki, səninlə məndə var, sən hər gün mənə baxıb səbr eləyirsən, mən də hər gün sənə baxıb səbr eləyirəm. Səbr eləyənin də ki, yeri cənnətdir.

## KÖÇÜM BURAYA

Molla arvadı ilə heç yola getmirdi. Arvadı çox acıdil, bədxasiyyət idi. Hər gün evlərində olan deyişmələrdən təngə gəlib bir gün tanışlarının birinin evinə qonaq gedir ki, bir-iki gün qalsın, bəlkə qulağı dincələ. Dostu bunu yaxşı qəbul eləyir. Yeyib-içib yatırlar. Səhər Molla oyanıb pəncərəni açır. Bir də baxır ki, dostu – ev sahibi həyətdə pəncərənin qabağındakı əncir ağacını kəsir. Molla soruşur:

– Balam, o yaşıl ağacı niyə kəsirsən? Heyf deyilmi?

Dostu deyir:

– Molla, bu çox bədsuyum ağacdır. Mən hələ bu həyəti almamışdan qabaq buranın sahibinin arvadı haman bu ağacdan özünü asıb öldürüb. Bu gecə də bizim qonşunun arvadı yenə də haman bu ağacdan özünü asıb. Odur ki, mən də kəsirəm.

Molla bunu eşitcək qışqırır:

– Aman günüdür, bircə günlüyə kəsmə! Mən də sabahdan öz arvadımla köçüm buraya.

## XOŞBƏXT

Bir məclisdə bir nəfər haqqında söhbət düşür. Bu adam arvad sarıdan çox talesiz imiş. Gənc olduğuna baxmayaraq, iki-üç ilin içərisində beş-altı dəfə evlənmişdisə də, arvadlarının hamısı ölübmüş. Məclisdəkilər onun halına yanırlar. Biri deyir:

– Yazıq çox bədbəxtdir. Birinci arvadı ikicə ay yaşadı. İkincisi heç bir ay da çəkmədi. Üçüncüsü bir il idi ki, gəlmişdi, öldü. Dördüncüsü, beşincisi, bu da altıncısıdır ki, bu gün ölüb.

Bir tərəfdə oturmuş Molla öz kifir, bədxasiyyət arvadını yadına salıb deyir:

– Dünyada bircə nəfər xoşbəxt adam var ki, siz də onun adını qoyubsunuz bədbəxt.

## BİR DƏFƏ DƏ BİZƏ GƏLƏR

Mollaya deyirlər:

– Molla, arvadın çox gəzir. Onun bir az ipini yığ.

Molla deyir:

– Düzdür, mənim arvadımda pis xasiyyət çoxdur. Hər nə desəniz inanaram, amma gəzəyən olduğuna inanmıram. O, yalandır.

Soruşurlar:

– Nədən deyirsən yalandır?

Molla deyir:

– Ondan deyirəm ki, əyər gəzəyən olsa idi, ayda-ildə bir dəfə də azıb öz evimizə gəlib çıxardı.

## YÜZ ARŞIN UZANIR

Bir gün Molla bazarda gəzərkən görür ki, bir dəllal balaca, köhnə bir qılıncı üç yüz manata deyir. Molla alıb qılıncın ora-burasına baxır, o qiymətə dəyən bir şey olmadığını görüb dəllaldan soruşur:

– Balam, bunun qiyməti niyə belə bahadı? Bunda nə var ki?

Dəllal başlayır tərifləməyə ki:

– Molla, bu çox qəribə qılıncdır. Düşmənə vuranda beş arşın uzanır.

Molla dinməyib qaçır evə, ocağın başından maşanı götürüb qayıdır bazara, başlayır gəzdirməyə ki:

– Maşa min manat!.. Maşa min manat!..

Müştərilər yığılırlar ki, Molla bir sınıq maşanı min manata deyir. Soruşurlar:

– Ay Molla, bu necə qiymətdir? Niyə min manat?

Molla deyir:

– Bəs o qılınc niyə üç yüz manat?

Deyirlər:

– Çünki o, düşmənə vuranda beş arşın uzanır.

Molla deyir:

– Bu maşanı görməyibsiniz də... Beş arşın nədi ki, vallah bizim arvad məni döyəndə bu zəhrimara qalmış lap yüz arşın uzanır.

## TƏQVİM KİTABI

Deyilənlərə görə, Molla Nəsrəddin vaxtının çoxunu kitab oxumaqla keçirərmiş. Günlərin birində arvadı deyir:

– Bu gecə səhərəcən yatmayacağam. Allaha dua eləyəcəyəm ki, məni döndərib kitab eləsin.

Molla soruşur:

– Niyə?

Arvad deyir:

– Doğrusu, bax, o kitaba mənim paxıllığım tutur. Kitab olmaq istəyirəm ki, həmişə mənə baxasan.

Molla zarafatla deyir:

– Ancaq dua eləyəndə Allaha de ki, səni təqvim kitabı eləsin.

Arvad soruşur:

– O niyə?

Molla deyir:

– Çünki hər bir təqvim kitabı ancaq bir illiyə lazım olur. Sonra təzəsi ilə əvəz olunur.

## QÜRBƏT ELDƏ ÖLMƏK İSTƏYİRƏM

Molla iki gündən bir arvadı ilə savaşırmış. Yenə də bir gün arvadı ilə savaşıb evdən çıxır. Qızı ha gözləyir, görür yox, atası gəlmədi. Başlayır axtarmağa. Hər yeri əldən-ayaqdan salır atası tapılmır ki, tapılmır. Axırda əl üzüb evə dönür. Çörək gətirmək üçün mətbəxə girir, baxır ki, atası girib oturub küncdəki küpün dalında. Qız sevincək soruşur:

– Səhərdən səni axtarmamış yer qoymamışam. Burada nə eləyirsən?

Molla deyir:

– Nə eləyəcəyəm, bala? Ananın əlindən bu qürbət ellərdə bir yolluq ölüb qurtarmaq istəyirəm.

## SƏNİN QALDIĞINA AĞLAYIRAM

Bir gün arvad Mollaya sataşmaq məqsədilə şorbanı ocağın üstündə möhkəm qızdırıb gətirib qoyur ortalığa. Necə olursa, yadından çıxır, hələ Molla yeməmişdən özü bir qaşıq içir. Şorba ağzını yandıra-yandıra gedir, arvadın gözlərindən yaş tökülür. Molla soruşur:

– Arvad, niyə ağlayırsan?

Arvad deyir:

– Yazıq rəhmətlik anam şorbanı çox istərdi. O yadıma düşdü, ona görə ağlayıram.

Molla da bir qaşıq götürür. Şorba Mollanın ağzını-burnunu elə yandırır ki, onun da gözlərindən yaş gəlir. Bu dəfə arvad soruşur:

– Molla, nə olub? Sən niyə ağlayırsan?

Molla deyir:

– Rəhmətlik ananın ölüb, yerində sənin kimi yaramazın qaldığına ağlayıram.

## İKİ-İKİ YATAQ

Mollanın birinci arvadı ölәndәn sonra gedib bir dul arvad alır. Әvvәl-әvvәl bir neçә vaxt yaxşı dolanırlar. Yavaş-yavaş Molla başlayır ölmüş arvadını tәriflәmәyә. Mollanın bu hәrәkәti arvada xoş gәlmir. O da acıga düşüb başlayır öz keçmiş әrini tәriflәmәyә.

Bir gün yenә soyunub yerlәrinә girәndәn sonra Molla başlayır. Molla başlayan kimi arvad da başlayır. O deyir, bu deyir... Axırda Molla durub bir yorğana bürünüb qıraqda yatır.

Arvad soruşur:

– Molla nә oldu? Ora niyә getdin?

Molla deyir:

– İstidir, dörd adam bir yerdә çox darısqal olur.

Arvad soruşur:

– Molla dörd adam kimdir?

Molla, deyir:

– Sәn, sәnin keçmiş әrin, mәn, mәnim keçmiş arvadım. Yaxşısı budur iki-iki yataq.

## APARMAZDIN

Deyirlәr ki, Mollanın arvadı ölәndәn sonra almış olduğu dul arvad gündә öz keçmiş әrindәn danışıb Mollanı lap tәngә gәtirir. Bir gün yenә dә arvad başlayır әrindәn danışmağa ki:

– Çox yaxşı kişi idi, heyif, öldü.

Molla heç halını pozmadan deyir:

– Doğrudan da heyif ki, ölüb lap әlimizdәn gedib. Onun ölmәyi mәn yazığı lap bәdbәxt elәyib!

Arvad deyir:

– Yaxşı, bәs sәni niyә bәdbәxt elәyib?

Molla deyir:

– Ona görә ki, o ölmәsә idi, mәn sәni almazdım, sәn dә gündә bu cәfәngiyatla mәnim baş-beynimi aparmazdın.

## SİZ DEYİN!

Mollanın çox gəzəyən bir arvadı var imiş. Hər gecə Mollanı yuxuya verəndən sonra çıxıb qonşu arvadlarla söhbət eləməyə gedirmiş. Axırda Molla təngə gəlib "cəhənnəmə-gora!" deyib əl çəkir. Bir ay belə, iki ay belə, axırda qonşular başlayırlar Mollanı danlamağa ki:

– Balam, arvadının ipini bir az yığ! Daha lap ağ eləyib.

Molla görür olmayacaq. Bir gün arvadı döyür. Ancaq bu da kömək eləmir. Yenə də hər gecə Molla yatandan sonra arvad durub gedir. Günlərin birində Molla qəsdən özünü yuxuluğa vurub gözləyir. Elə ki, arvad Mollanı yatmış bilib evdən çıxır, yavaşcadan durub qapını bağlayır. Arvad səhərə yaxın gəlir. Baxır ki, qapı bağlıdır. Nə qədər döyür, nə qədər yalvarırsa, Molla qapını açmır. Arvad axırda deyir:

– Açmırsan ki?.. Açma! Mən də özümü quyuya atıb qanımı salacağam sənin boynuna.

Arvad bunu deyib, quyuya gumbultu ilə bir daş salır. Molla baxır ki, doğrudan da səs-səmir kəsildi. Öz-özünə deyir:

– Adə, bu zalım balası doğrudan da özün atar quyuya, di sonra gəl, eşşək gətir, mərəkə yüklə. Qoy görüm nə oldu.

Elə Molla qapını açıb bayıra çıxcaq, qapının dalında gizlənmiş arvad içəri girib qapının dalını vurur. Molla nə qədər axtarırsa, arvadı tapa bilmir. Axırda qayıdır ki, girsin evə, görür qapı bağlıdır. İtələyir açılmır. Axırda hirslənib başlayır döyməyə. Arvad pəncərədən başını çıxarıb deyir:

– Sən öləsən açmayacağam. Meyitini görüm açmayacağam. Sən məni yordun axı... Hər gecə, hər gecə, bu qədər də gəzmək olar? Get, indiyə kimi harada idinsə, yenə də orada qal!

Səs-küyə qonşular yığışır: Molla arvadın hiyləsinə heyran qalıb üzünü qonşulara tutub deyir:

– Mən demirəm, siz deyin!

## TEZ GƏLƏR

Günlərin bir günündə Mollanın arvadı ağrı çəkir. Mama baxır ki, xəstənin halı ağırdı, Mollanı çağırıb deyir:

– Molla, naxoşunuzun halı yaxşı deyil. Dua elə bədbəxtçilik olmasın.

Molla deyir:

– Duadan bir şey çıxmaz, mən ondan da yaxşı yol bilirəm.

Bunu deyib Molla birbaş qaçır bazara. Bir girvənkə kişmiş alıb gətirir. Mama soruşur:

– Molla, bu nədir?

Molla deyir:

– Sən belə şeyləri bilməzsən. O uşaq bilir ki, bizim evdə dişə dəyəsi bir şey yoxdu, odur ki, şıltaqlıq eləyir. Elə ki, bildi evdə kişmiş var, rahatca anadan olacaq, bununla da iş qurtaracaq.

## İŞIĞA GƏLİR

Bir gün yenə də Mollanın arvadı ağrı çəkir. Molla tez qaçıb mamaça gətirir, özü də çıxıb həyətdə, qaranlıqda gözləməyə başlayır. Yarım saat, bir saat bir də mamaça qışqıra-qışqıra gəlir ki:

– Molla, muştuluğumu ver, ata oldun!

Molla sevinir. Mamaça içəriyə girən kimi yenə də qayıdır ki:

– Molla, gözün aydın olsun, biri də oldu.

Molla gedir fikrə. Bu halda mamaça bir də içəridən qışqırır ki:

– Molla, dövlətin gəlhagəl idi, biri də oldu.

Molla daha özünü saxlaya bilməyib qapını aralayır, mamaçanı səsləyir ki:

– Başına dönüm, çırağın işığını al! Bu köpək uşağı işığa gəlir.

## NİYƏ QARIŞDIRIRSAN Kİ?..

Molla evlənib bir dul arvad alır. Arvad düz üç aydan sonra doğur. Molla arvadın bu işindən məəttəl qalıb soruşur:

– Balam, biz eşitmişik ki, bu arvad tayfası doqquz ayda doğar. Səninki bəs nə tez oldu?

Arvad Mollanı bir xeyli məzəmmət eliyəndən sonra deyir:

– Sən lap avam imişsən. Yaxşı üç aydı sən məni almısan, düzdü?

Mola hesablayıb deyir:

– Düzdü.

Arvad deyir:

– Üç aydı mən sənə gəlmişəm, bu da düzdü?

Molla bir də hesablayıb deyir:

– O da düzdü.

Arvad soruşur:

– Üç ay, o da üç ay, nə elədi? Altı ay?

Molla bir də yaxşı-yaxşı hesablayıb deyir:

– Bəli... Altı ay.

Arvad deyir:

– Yaxşı, balam, o altı. Rəcəb, şəban – səkkiz. Bu da ramazan ayı – doqquz. Daha hesabını niyə qarışdırırsan ki?..

## BALQABAQ

Günlərin birində arvad güclə Mollanı hamama göndərir. Molla getmək istəmir ki:

– Getmirəm. Hamamda hamı çılpaq olur. Sonra keyfim istədi, qarışdım adamlara, itdim. Özümü necə tapım?

Arvad deyir, Molla deyir, axırda arvad onun belinə bir balqabaq bağlayır ki:

– Aha, qoy bu balqabaq olsun sənin nişanın.

Molla gəlir hamama. Lotular məsələni başa düşürlər. Mollanı yuxuya verib balqabağı açırlar. Birisi balqabağı öz belinə bağlayıb elə Mollanın yanındaca uzanır. Bir azdan Molla yuxudan oyanır. Baxır ki, balqabaq belində yoxdu. Başlayır fikir eləməyə ki, görəsən mən mənəm, ya yox? Əgər mən mənəmsə, bəs balqabaq hanı? Yox, əgər mən mən deyiləmsə, bəs mən kiməm?

Elə bu fikirlə ayağa qalxmaq istəyəndə baxır ki, bir nəfər uzanıb, belində də arvadın ona vermiş olduğu balqabaq. Məsələ lap çətinləşir. Mollanı fikir götürür ki, əgər mən mənəm, bəs o kimdi? Əgər o mənəm, bəs mən kiməm? Çox fikir-xəyaldan sonra həmən adama deyir:

– Baxıram sənə, özümə, baxıram sənin belindəki balqabağa, qalmışam lap məəttəl. Deyəsən, ya sən mənsən, ya da ki, mən sənəm. Yaxşısı budur ki, dur gedək bizə! Bizim arvad məni yaxşı tanıyır. Qoy o baxıb seçsin. Mən olanı götürsün, mən olmayan qayıdıb getsin.

## BİR GÜN SƏN SÜPÜR, BİR GÜN DƏ O

Mollanın çox tənbəl bir qızı var imiş. Əlini ağdan-qaraya vurmaz imiş. Günün birində Molla arvadına deyir:

– Arvad, mən süpürgəni götürüb başlayacağam evi süpürməyə. Sən gəl mənim əlimdən süpürgəni al ki, ayıb deyil, biz dura-dura sən niyə ev süpürürsən? Mən də verməyəcəyəm ki, yox, sənin işin çoxdu, yorulursan. Bəlkə bu yol ilə bu qızı utandıraq, heç olmazsa, evi-zadı süpürsün.

Belə də eləyirlər. Arvad süpürgəni Mollanın əlindən almaq istəyir. Molla vermir. O dartır o tərəfə, bu dartır bu tərəfə, axırda qız durub onlara yaxınlaşır. Hirsli-hirsli deyir:

– Burada çətin bir şey yoxdu ki, belə hay-küy qaldırıbsınız. Qoyun növbəyə! Bir gün sən süpür, bir gün də o.

## QABAQCADAN VURMAQ LAZIMDI

Molla qızını su gətirməyə göndərir. Dəstini əlinə verəndə qıza bir şillə vurur ki:

– Gözlə, sındırma ha!..

Qız başlayır ağlamağa. Görənlər soruşurlar ki:

– Molla, o yazıq qızın günahı nə idi ki, elə vurdun?

Molla deyir:

– Vurdum ki, dəstini sındırmasın.

Deyirlər:

– Nə bilirsən ki, sındıracaq. Bir gözlə, əyər sındırsa, onda vurarsan.

Molla deyir:

– O, köhnəlmiş tərbiyədi. Sındırandan sonra vurmağın nə mənası var ki?.. Qabaqcadan vurub gözünün odunu almaq lazımdı ki, qorxudan sındırmasın.

## SÖZ ALTINDA QALMAZ

Molla qızını ərə verir. Oğlan evinin adamları gəlini aparmağa gəlirlər. Elə ki hər iş qurtarır, qızı qapıdan çıxarmaq istəyəndə başlayır ağlamağa. Molla arvadından soruşur:

– Ay arvad, qız niyə ağlayır?

Arvad deyir:

– A kişi, atası deyilsən? Səndən ayrılmağa dözə bilmir, ona görə ağlayır da...

Molla tez qıza deyir:

– Qızım ağlama! İndi ki, ərə getmək sənin üçün belə ağırdır, otur evimizdə. Mən bu saat oğlan adamlarını yola salaram, çıxıb gedərlər.

Qız tez gözlərinin yaşını silib deyir:

– Yox, ata! Onda sənin sözün yerə düşmüş olar. Ölüm də olsa, eybi yoxdu, sənin yolunda gedərəm.

Molla arvadına deyir:

– Sənin qızındı, söz altında qalmaz.

## İYNƏ QALAR ƏLİNDƏ

Molla qızını ərə verir. Gəlin aparılanda Mollanı çağırırlar ki:

– Molla, gəl, qıza xeyir-dua ver! Bir də ki, bəlkə tapşırığın-zadın var.

Molla qızın yanına gəlib qulağına pıçıldayır:

– Qızım, yadında qalsın, təzə getdiyin evdə nə qədər tikiş tiksən sapın ucunu düyünlə! Yoxsa sap çıxar, iynə qalar əlində.

## BƏLKƏ ELƏ BİR ŞEY VAR...

Deyirlər ki, Molla Nəsrəddin bir müddət özünü çox pis hiss eləyir. Ona elə gəlir ki, xəstədir. Daha həkim qalmır, təbib qalmır... Ancaq heç kəs onun xəstəliyini tapa bilmir.

O zaman şəhərdə çox ağıllı, bacarıqlı bir həkim var imiş. Molla Nəsrəddin onun da çox alim bir həkim olduğuna inanırmış. Ancaq çox hörmətli adam olduğuna görə Molla ona zəhmət vermək istəmirmiş. Elə ki bu biri həkimlərdən heç biri Mollanın dərdini tapa bilmir, axırda əlacsız qalıb haman həkimin yanına gedir.

Həkim Mollanı çox yaxşı qəbul eləyir. Saatlarla yoxlayır, sonra uzun-uzadı söhbət eləyir. Axırda deyir:

– Əzizim, səndə heç bir naxoşluq-zad yoxdu. Görünür ki, sən çox vasvasısan. Vasvasılıqdan qurtarmaq üçün də bircə yol var ki, gərək

heç bir şeyə əhəmiyyət verməyəsən. Mənim məsləhətimə baxsan, yayda dağa gedərsən. Bir-iki ay gəzib dolanarsan, hər şey yadından çıxar.

Molla baxır ki, bu həkim də onun dərdini tapa bilmədi. Kor-peşman evlərinə gəlir. Arvadı soruşur:

– Nə oldu ay kişi?! Bu həkim dərdini tapdımı?

Molla deyir:

– Yox, arvad! Bunun da elə adı var imiş. Nə qədər əlləşdisə, heç nə tapa bilmədi.

Arvad deyir:

– Ay kişi, bəlkə elə bu yazıq həkimlər doğru deyirlər. Vallah, elə deyəsən, doğrudan da səndə heç bir naxoşluq-zad yoxdu. Elə beyninə girib.

Molla hirslənir ki:

– Elə hamı mənə bu sözü deyir. Elə bil ki, hamı tüpürüb bir-birinin ağzına. Beynimə niyə girir? Beynimə girir gəzmək girsin, yemək girsin, evlənmək girsin ki, sənin kimi kişisinin hayına qalmayan arvaddan canım qurtarsın, day naxoşluq niyə girir?!

Sonra bir az fikirləşib deyir:

– Bu həkimlər ona görə belə deyirlər ki, hamısı elə sənin kimi savadsızdırlar. İndi ki, belə oldu, mən özüm öz dərdimi tapacağam.

Arvad soruşur:

– Necə?

Molla deyir:

– Bir dənə məşhur tibb kitabı var. Yerin üstü də, altı da o kitabda yazılıb. Bütün dərdlərin əlamətləri də o kitabda var, dərmanı da. Mən o kitabı sabah taparam, özüm öz dərdimi bilərəm.

Sabahısı Molla haman kitabı tapıb gətirir, başlayır oxumağa. O tərəfini, bu tərəfini oxuyur, axırı ki, bir yerində öz dərdinin əlamətlərini tapır. Elə sevinir ki, day axıra qədər oxumayıb arvadı çağırır:

– Gəl, arvad, gəl! Başı daşlı kişinin dərdini tapmışam.

Arvad sevincək gəlir ki:

– Nədir ay kişi, bir oxu görək!

Molla başlayır oxumağa:

– Ürək bulanması... Zəiflik... Baş gicəllənməsi... Hərdən-bir göz də qaralır... Ağız həmişə dadsız olur.

Görürsənmi, arvad? Bax, tamam mənim dərdimdi. Bu əlamətlərin hamısı məndə var.Arvad deyir:

– Ay kişi, bir dalını oxu görək... Mən deyəsən bu naxoşluqdan şübhələnirəm axı...

Molla hirslənir ki:

– Nə şübhələnirsən? Mən yaşda kişi yalan danışacağam ki? Ağzımda deyirəm ki, bütün bu əlamətlər məndə var da!..

Arvad gülüb deyir:

– Ona görə şübhələnirəm ay kişi! Sən bir dalını oxu! Bu naxoşluqdan məndə də çox olub. Əgər dərdin budusa, çox qəribədi.

Molla oxuyur:

– Elə ki, bu əlamətlər göründü, gərək xəstə bütün könlü istəyəni yeyə... Bu xəstəlik ancaq arvadlarda olur. Adına da "yerikləmək" deyirlər.

Mollanın gözləri çıxır kəlləsinə. Bir dikəlib oturur... Bir əlini qarnına sürtür. Arvad gülə-gülə deyir:

– Gördün ki, qəribədi...

Molla hirslənir ki:

– Qəribə niyə olur? Mən adam-zad deyiləm bəyəm? Nə bilirsən, bəlkə elə bir şey var...

## QOY İNDİDƏN HAZIR OLSUN

Belə də danışırlar ki, Molla evlənib cavan bir gəlin alır. Arvad evə gələndən beş-altı gün sonra bir oğlan uşağı doğur. Molla işi belə görcək, gedib bazardan dəftər, kitab, kağız, qələm, bir az da mürəkkəb alır, hamısını bir çantanın içinə yığıb bağlayır uşağın qundağına. Evə yığışmış qonşu arvadları soruşurlar:

– Ay Molla, bu nədir?

Molla deyir:

– Balam, doqquz aylıq yolu beş-altı günə gələn uşaq, bir neçə günə də məktəbə gedəcək. Qoy indidən məktəb şeyləri hazır olsun.

## GÖRƏSƏN NƏ İMİŞ

Mollaya xəbər verirlər ki:

– Arvadın yıxılıb, ağlı başından çıxıb.

Molla heç əhvalını pozmadan deyir:

– Bir şey gərək əvvəldən ola ki, sonra çıxa. Arvad mənimdirsə, onun heç əvvəldən də ağlı yox idi. Görəsən çıxan nə imiş.

## İNDİ BARIŞMIŞ OLARLAR

Bir qonşu qaça-qaça gəlir ki:

– Ay Molla, sən allah bir tez dur gedək bizə.

Molla xəbər alır:

– Nə var? Nə olub?

Qonşu deyir:

– Arvadımla bacım bir-birini qırdılar.

Molla soruşur:

– Bir de görüm, davaları yaş üstündə deyildi ki?

Qonşu deyir:

– Yox, ayrı məsələ var.

Molla təzədən qayıdıb oturur ki:

– Onda arxayın ol, indi barışmış olarlar.

## OTUZDAN KEÇİB

Molla cavan vaxtlarında bir gün evlənmək istədiyini bacısına deyir. Bacısı axtarır, axtarır, axırda bir qız tapır. Molla bacısından soruşur:

– Yaxşı, bir de görək, tapdığın qızın neçə yaşı olar?

Bacısı deyir:

– Vallah, özündən soruşdum, dedi bilmirəm. Amma cavandır.

Molla deyir:

– Yox, onda mənə lazım deyil.

Bacısı soruşur:

– Niyə?

Molla deyir:

– Çünki qocadır.
Bacısı soruşur:
– Nədən bildin?
Molla deyir:
– Arvadlar otuz yaşını keçəndən sonra həmişə deyərlər ki: bilmirəm neçə yaşındayam.
O ki deyir bilmirəm, demək onun da yaşı otuzdan keçib.

## ALT-ÜST OLACAQ

Molla ev tikdirir. Evi tikən ustaya tapşırır ki, tavanın taxtalarını döşəməyə, döşəmənin taxtalarını isə tavana vursun. Mollanın bu əmrindən heyrətə düşən usta səbəbini soruşur. Molla deyir:
– Ev qurtarandan sonra evlənəcəyəm. Arvad da ki, girdi evə, sabahısı ev alt-üst olacaq. Ona görə də indi baş-ayaq vur ki, onda düzəlsin.

## HEÇ NƏ

Günlərin birində küçə ilə bir meyit aparırmışlar. Mollanın oğlu meyiti görüb atasından soruşur:
– Ata, o nədi elə bəzəyib aparırlar?
Molla deyir:
– Bala, o dünən adam idi. Amma bu gün dönüb olub heç nə.
Uşaq gedir fikrə. Soruşur ki:
– İndi o heç nəyi hara aparırlar?
Molla deyir:
– İndi o heç nəyi aparırlar elə bir yerə ki, orada da heç nə yoxdur.
Uşaq soruşur:
– Necə yəni heç nə yoxdu?
Molla deyir:
– Heç nə yoxdu da... Nə yemək var, nə içmək var, nə paltar var, nə geyim var, nə çörək var, nə su var, nə pul var, nə də dövlət.
Uşaq deyir:
– Bəs elə birdəfəlik de ki, bu heç nə bizə qonaq gəlir də...

## ARVAD YAXŞI OLUB

Günlərin birində Mollanın arvadı bərk sancılanır. Qışqırır Mollanın üstünə ki:

– Görmürsən ölürəm?! Dur, tez bir həkim çağır gəlsin.

Molla durub qaçır həkimə. Elə küçəyə təzəcə çıxmışmış ki, arvad daldan çağırır:

– Ay kişi, daha getmə! Lazım deyil, sancım keçdi.

Molla dayanmayıb yüyürür həkimin evinə. Qapını döyür, həkim çıxır ki:

– Nə var, Molla? Xeyir ola!

Molla deyir:

– Xeyirdir, inşallah. Ayıb olmasın, bizim arvad sancılanmışdı. Dedi dur get həkim gətir. Durdum gələm, elə təzəcə küçəyə çıxmışdım ki, arvad daldan çağırıb dedi: daha lazım deyil. Mən də tez gəldim xəbər verəm ki, daha zəhmət çəkib gəlməyəsən, arvad yaxşı olub.

## BÖYÜK QİYAMƏT, KİÇİK QİYAMƏT

Bir gün biri Mollanın yanına gəlib soruşur ki:

– Molla sən bilərsən, qiyamət nə vaxt olacaq?

Molla soruşur:

– Hansı qiyamət?

Kişi soruşur:

– Niyə, neçə qiyamət var ki?

Molla deyir:

– İki. Kişinin özü öləndə olur kiçik qiyamət, arvadı öləndə olur böyük qiyamət.

## AY CAN, AY CANI..

Molla eşşəyi həmişə özü yemləyərmiş. Eşşək də çox bəd imiş deyinə, yem verəndə Mollanı çox incidərmiş. Axırda bir gün Molla hirslənib arvadına deyir:

– Nə xanım kimi oturmusan evdə əlini ağdan-qaraya vurmursan? Padşah qızı-zad deyilsən ki? Bu adam sənin üçün hambaldı bəyəm? Bundan sonra eşşəyi sən yemləyəcəksən.

Arvad razılaşmır. O deyir, bu deyir. Axırda söz böyüyür. Çox deyişmə-didişmədən sonra belə bir şərt kəsirlər ki, qaradinməz oynasınlar. Kim qabaqca danışdı, eşşəyi o yemləsin. Hərəsi evin bir küncündə oturur. Arvad gözləyir, gözləyir, görür yox, Molla danışmayacaq. Axırda durur ayağa, Mollanı evdə tək qoyub çıxır, gedir qonşuya. Lap axşamüstü əhvalatı qonşuya danışıb deyir:

– Molla birtəhər adamdı. Mən də ki, acığa düşmüşəm getmirəm. Yazıq çörək-zad yeməyib ac qalacaq. Gəl ona bir kasa şorba göndərək.

Uşağın əlinə bir kasa şorba verib göndərirlər Mollaya. Uşaq gəlməkdə olsun, bu tərəfdən də bir oğru gəlir Mollanın həyətinə. Baxır ki, qapılar açıq, səs-səmir də yox. Girir içəri baxır ki, Molla evin küncündə oturub, amma nə danışır, nə də tərpənir. Oğru bir qədər dayanıb başlayır evi yığışdırmağa. Molla danışmır. Axırda gəlib Mollanın əmməməsini də başından götürüb çıxıb gedir. Oğru gedəndən sonra uşaq şorbanı gətirir. Molla işarə ilə evin oğurlandığını, hətta əmmaməsinin də getdiyini uşağa qandırmaq istəyir. Uşaq heç bir şey başa düşmür. Axırda Molla əlini üç dəfə başının ətrafına çevirir ki, yəni əmmaməni də aparıblar. Uşaq elə zənn eləyir ki, Molla deyir: şorbanı tök başıma. Uşaq şorbanı Mollanın başına töküb çıxır gedir. Mollanın üz-gözü yanırsa da, yenə dinmir. Arvad uşaqdan soruşur:

– Ay bala, Molla nə eləyir?

Uşaq evin qarmaqarışıq olduğunu deyib əhvalatı danışır. Arvad durub yüyürür, baxır ki, ev gedib. Qışqırır ki:

– A kişi, bu nədir?

Molla tez yerindən qalxıb çırtmaq tutur, başlayır oynamağa ki:

– Ay can, ay can?.. Birinci sən danışdın. Eşşəyi sən yemləyəcəksən.

## YOXSA İNDİ ONU DA DEŞMİŞDİ

Bir gün Molla çöldə yer sürərkən ayağına böyük bir tikan batır, dabanını qana boyuyur. Molla çox əziyyətdən sonra birtəhər tikanı çıxardır. Oturub ayağını qucaqlayır, bir tərəfdən ağlayır, bir tərəfdən də şükür eləyir. Onu bu halda görənlərdən biri soruşur:

– Ay Molla, nə olub sənə? Niyə ağlayırsan?
Molla deyir:
– Ayağıma tikan batıb.
– Bəs bu şükür nədir, eləyirsən?
Molla deyir:
– Şükür eləyirəm ki, yaxşı ki, ayaqqablarım ayağımda deyildi. Yoxsa indi tikan onu deşmişdi.

## QUZUDAN DA SAKİT OLAR

Bir arvadın 18-19 yaşlarında çox ərköyün böyümüş bir qızı var imiş. Qız gündə cürbəcür tələblərlə yoxsul, dul anasını təngə gətirirmiş. Axırda arvad Mollanın yanına gəlir ki:
– Ay Molla, qızım məni lap təngə gətirdi. Deyirlər sənin çox kəsərli nəfəsin var. Buna bir nəfəs sal, bəlkə bir az sakitləşsin.
Molla deyir:
– Bacı, mən qoca kişiyəm. Nəfəsim ona kar salmaz. Əgər sakitləşməyini istəyirsənsə, ver onu ərə. Elə ki ev dərdi, çörək dərdi, uşaq dərdi onu çulğadı, onda elə sakitləşər ki ha... Lap quzudan da sakit olar.

## ONU DA GÖRÜRSƏN, MƏNİ DƏ

Mollanın tanışlarından biri kəndlərində olan bir dul arvadı almaq üçün Mollanı elçiliyə göndərir. Molla gəlir arvadın evinə. Baxır ki, arvad çox gözəldir. Mollanın gözü düşür arvada, istəyir özü üçün ala. Fikirləşir ki, yox, bu yoldaşa xəyanət olar. Ona görə də başlayır:
– Filankəs səni almaq istəyir. Məni sənin yanına elçi göndərib. Doğrusu, sən elə mənim özümün də xoşuma gəlirsən. Əvvəldən mən səni belə bilsəydim gəlib özüm üçün alardım. Ancaq nə eləyim ki, iş işdən keçib. İndi əyər səni özümə elçiləsəm bu, yoldaşa xəyanət olar. Mən səni ona elçiləyirəm. Ancaq özün bax, yaxşı fikirləş, onu da görürsən, məni də.

## İNTİQAM ALMIŞAM

Molla Nəsrəddinin bir çirkin qızı var imiş. Bir gün toy eləyib qızını öz düşmənlərindən birinə ərə verir. O, bu yığılıb Mollanı danlayırlar ki:

– Molla, niyə qızını ona verdin? O ki, sənin düşmənin idi. Adam da düşməninə qız verərmi?

Molla gülüb deyir:

– Qızımın üzünü görmüş olsaydınız bu sözü deməzdiniz. Mən ona yaxşılıq eləməmişəm, ondan intiqam almışam.

## DİŞ ÇIXARMAMIŞ MİŞAR

Bir gün Mollanın oğlu küçədən bir cib bıçağı tapır. Gətirib atasına göstərib soruşur ki:

– Ata, bu nədir belə?

Molla bıçağı alıb qoyur öz cibinə ki:

– Bala, bu hələ təzəcə anadan olmuş mişar balasıdır. Sən yaxşı saxlaya bilməzsən, ölər. Qoy qalsın mənim cibimdə, böyüsün, elə ki dişləri çıxdı, oldu mişar, onda verərəm sənə.

## YANDIRIB ALMIŞAM

Molla bir gün oğlunu bazara göndərir ki, spiçka alıb gətirsin. Oğlu spiçkaları alıb gətirir. Molla soruşur:

– Hanı? Aldınmı?

Oğlu deyir:

– Bəli, almışam.

Molla soruşur:

– Yaxşı, yaş deyillər ki?

Oğlu deyir:

– Xeyr. Lap yaxşı yanırlar.

Molla:

– Nədən bilirsən ki, yaxşı yanırlar?

Oğlu:

– Çünki alanda hamısını qabaqca yandırıb, baxıb, sonra almışam.

## ÖZÜ TAPIB

Bir gün Mollanın oğlundan soruşurlar ki:
– Badımcan nədir?
Mollanın oğlu bir az fikirləşəndən sonra deyir:
– Hələ gözü açılmamış sığırçın balası.
Molla tez özünü söhbətə qatıb deyir:
– Sizin canınız üçün bunu mən ona öyrətməmişəm. Özü tapıb.

## DİŞLƏRİ TÖKÜLMƏYİB

Bir gün Molla oğlunu bişmiş kəllə almaq üçün bazara göndərir. Oğlu kəlləni alıb gətirəndə nəfsini saxlaya bilməyib ətini, dərisini soyub yeyir. Molla kəlləni bu halda görüb soruşur:
– Ay bala, bəs niyə bu belə qupquru sümükdü?
Oğlu deyir:
Hə, ata, görürsənmi? Yəqin yazıq çox arıq olub.
Molla deyir:
– Yaxşı, bəs bunun qulaqları hanı?
Oğlu deyir:
– Ata, görünür ki, yazıq kar imiş.
Molla deyir:
– Ay bala, bunun gözləri də yoxdu ki...
Oğlu deyir:
– Görürsənmi? Yazıq kor imiş ha...
Molla kəllənin ağzını aralayır, baxır ki dili də yoxdur. Deyir:
– Bəs bunun dili hanı?
Oğlu deyir:
– Lal imiş də...
Molla:
– Bəs başının dərisi nə olub?
Oğlu:
– Görünür keçəl imiş də...
Molla baxır ki, oğlu hər suala bir cavab tapdı, daha dinmir. Uşaq bir az fikirləşir, fikirləşir, sonra deyir:
– Amma dişlərinə baxırsanmı, ata!.. Gör necə möhkəmdi. Hamısı da yerində cabəca.

## ÇOX AT-EŞŞƏK YIXILIB

Bir gün Molla Nəsrəddin oğlu ilə bərabər üyütmək üçün dəyirmana buğda aparır. Buğdanı oğlunun dalına yükləyir, özü də onun dalınca yavaş-yavaş gedirlər. Yolları bir çala-çuxur yerdən düşür. Molla oğlunun nə dərəcədə hazırcavab olub-olmadığını yoxlamaq üçün deyir:

– Bala, gözlə, yükü aşırarsan. Bir dəfə bizim çər dəymiş eşşək burada yükünü aşırdı.

Oğlan heç bir söz demir.Taxılı üyüdürlər, qayıdanbaş Molla nə qədər eləyirsə, oğlu unu dalına götürmür ki, "mən yorulmuşam, həm də qaranlıqdır". Molla əlacsız qalıb, unu öz dalına götürüb düşür yola. Elə haman çala-çuxur yerə çatanda oğlu daldan qışqırır ki:

– Ata, gözlə yıxılarsan ha... Dəyirmançı da deyirdi ki, burada çox at-eşşək yıxılıb.

## HƏLİM AŞI

Bir gün Molla oğluna pul verir ki:

– Bala, anan heç nə bişirməyib. Mən də acam. Götür qabı, get aşpazdan bir az həlim aşı al gətir, çörəyimizi isladıb yeyək!

Oğlan gedib aşpazdan bir az həlim aşı alıb gətirir. Tez süfrəni açıb əyləşirlər. Molla böyük bir iştaha ilə qaşığı uzadır qaba. Bir də baxırlar ki, həlimin içində çirkli, hisli bir əski parçası var. Molla diqqətlə baxıb görür ki, aşpazın qab dəsmalıdı, düşüb həlimin içinə. Oğlunun üstünə hirslənir ki:

– Bu nədir almısan? Adam şey alanda bir baxmaz? Həlimin içindən qab dəsmalı çıxır.

Oğlu deyir:

– Day bəs sən nə istəyirdin ki?.. Yoxsa istəyirdin sənin üçün bir mahud çuxa çıxsın... Həlim aşının içindən elə ancaq qab dəsmalı çıxar da...

# ƏRİYİB QURTARAR

İsti yay günlərinin birində Molla oğlu ilə bərabər bazara gedir. Özü yorulduğundan bir yerdə oturur, oğluna on manat pul verib bazarlıq eləməyə göndərir. Ancaq tapşırır ki, hər şeydən qabaq bir az bal alıb gətirsin.Oğlan balı alıb gətirir, Mollanın yanına qoyur, özü isə başqa şeylər almaq üçün bazara qayıdır. Molla bir bala baxır, bir oğlunun dalınca baxır, baldan bir barmaq vurur. Bir az keçir bir barmaq da vurur. Bir barmaq da, bir barmaq da, balı təmiz yeyib qurtarır. Bir az keçir oğlu gəlir. Molla baxır ki, oğlanın əli boşdur. Heç bir şey almayıb. Oğlan bal küpəsinə tərəf gedir. Molla görür ki, iş açılacaq, tez deyir:

– Şoğərib hava elə istidi ki, gün az qalır dəmiri əridə.

Oğlu baxır ki, bal küpəsi bom-boşdur. Soruşur ki:

– Ata, bəs bu bal necə oldu?

Molla deyir:

– Bala, görmürsən nə istidi? Yəqin əriyib daşıb tökülüb də.

Oğlu məsələni başa düşüb deyir:

– Doğrudan da yaman istidi. Elə sən doğru deyirsən ki, gün lap dəmiri də əridir. Şey-mey almaq üçün sənin mənə verdiyin onluq da, mən dükanların qabağını gəzəndə bir də baxdım ki, əriyib qurtarıb, Odu ki, tapşırdığın şeylərin heç birisini ala bilmədim.

Molla diqqətlə oğluna baxıb deyir:

– Səndə taxsır yoxdur bala, mənə oxşamısan. Əgər anan da bizə oxşasa, bir-iki günə, inşallah, evimizin divarları da günün altında əriyib qurtarar.

# VERGİDİR

Bir gün dostlarından biri Mollaya bir qab paxlava gətirir. Molla da paxlavanı hər şeydən çox sevərmiş. Elə qabağına qoyub yeməyə hazırlaşanda qonşularından biri küçədə onu çağırır. Molla durur ayağa, paxlavanı taxçaya qoyub getmək istəyir. Amma özü də qorxur ki, gedəndən sonra oğlu paxlavanı götürüb yeyə. Ona görə də üzünü oğluna tutub deyir.

– Oğlum, birdən bilməyib paxlavadan yeyərsən ha... Bunu mənə göndərən adamın mənimlə düşmənçılıyi var. Qəsdən içinə zəhər qatıb ki, mən yeyib öləm. Yeyərsən, zəhərlənərsən.

Molla çıxıb gedəndən sonra oğlu kamali-qayda ilə paxlavanı qabağına qoyub hamısını yeyir. Yenə də qabı taxçaya qoyub üstünü də əvvəlki kimi örtür. Sonra Mollanın çox sevdiyi qamış qələmi götürüb sındırır, qoyur qabağına, başlayır ağlamağa. Molla içəriyə girib görür ki, oğlu ağlayır. Tez taxçaya baxıb görür ki, qab əvvəlki yerindədir, arxayın olub soruşur:

– Nə var, bala, niyə ağlayırsan?

Oğlu bir ah çəkib gözlərini silə-silə cavab verir ki:

– Öz bədbaxtlığıma ağlayıram.

Molla soruşur:

– Axı nə olub?

Oğlu deyir:

– Sənin qələminlə yazı yazmaq istəyirdim. Birdən bilmirəm necə oldusa sındı. Qaldım məəttəl ki, sənin üzünə necə baxacağam? Çünki bilirəm ki, sən o qələmi çox istəyirsən. Axırda fikirləşdim ki, yanında üzüqara olmaqdansa özümü öldürüm, canım qurtarsın. Əvvəl fikirləşdim ki, özümü atam quyuya, sonra dedim quyu murdar olar. Axırda götürüb o zəhərli paxlavanın hamısını yedim ki, öləm, canım qurtarsın. İndi oturmuşam, ha gözləyirəm ki, öləm, heç ölmürəm.

Molla paxlava sözünü eşitcək yüyürür qabın üstünə. Baxır ki, qabda bir dənə də paxlava qalmayıb. Bir yanakı-yanakı oğluna baxıb deyir:

– Bala, səndə taxsır yoxdur. Bu, bizim nəslimizə verilmiş bir vergidir.

## DÜZÜNÜ ELƏYƏCƏYƏM

Mollanın oğlu özündən qalan deyilmiş. Üstəlik bir xasiyyəti də var imiş ki, Molla ona hər nə desə, qəsdən tərsinə edərmiş. Molla da bunun bu xasiyyətini bildiyi üçün hər sözü ona tərsinə deyərmiş. Bir gün ata-oğul eşşəyə un yükləyib dəyirmandan evə gəlirlərmiş. Yolda bir çaydan keçməli olurlar. Körpü çox ensiz olduğuna görə eşşəyin keçməyi mümkün olmur. Molla oğluna deyir:

– Oğul, körpü çox enlidir, eşşək yıxılmaz. Sən bunu çaydan sür! Amma dayaz yerdən sürmə ha...

Oğlu eşşəyi çayın dayaz yerindən sürür. Çayın ortasında Molla bir də baxır ki, eşşəyin yükü əyilib az qalır ki, düşsün. Tez çığırıb deyir:

– Bala, eşşəyin yükü mənə tərəf əyilməyib, düzəltmə, itələ o tərəfə, çaya tərəf.

Oğlan bir altdan-yuxarı körpü ilə keçən atasına baxaraq:

– Ata, mən sənin yanında çox günahkaram. İndiyə kimi dediyini həmişə tərsinə eləmişəm. Amma bu dəfə dediyin kimi eləyəcəyəm- deyib eşşəyin yükünü itələyib çaya salır.

## HƏKİMDƏN ÇOX BİLMİRSƏN Kİ?..

Molla əlli-altmış yaşlarında ikən bir gün özünü çox pis hiss edir. Oğlu qaçıb tez bir həkim gətirir.

Həkim uzun-uzadı baxandan sonra Mollanın oğluna deyir:

– Oğlum, atanın heç bir xəstəliyi yoxdur. Ancaq özünü pis hiss eləyir. Bunun da bircə çarəsi var. O da budur ki, gərək atanı evləndirəsən.

Mollanın oğlu deyir:

– Canım bu qocalıqda kişini də evləndirərlər.

Molla tez yerindən qalxır ki:

– Kəs səsini, sən həkimdən çox bilmirsən ki?..

## MOLLANIN OĞLU OXUYUR

Deyirlər ki, Mollanın oğlunun o qədər də gözəl səsi yox imiş, amma oxumağa yaman həvəsli imiş. Səhərdən axşamacan, çox zaman da gecələr, gecə yarıya qədər səsini başına atıb oxuyarmış. Axırda qonşular təngə gəlib Mollaya şikayət edirlər ki:

– Ay Molla, axı bizim baş–qulağımız getdi. Bu qədər də oxumaq olar ki, sənin oğlun oxuyur... Belə getsə, axırda yığılıb padşaha şikayət yazacağıq.

Molla deyir:

– Balam, sizin hərənizin bir-iki itiniz var, səhərdən axşamadək hürüb, axşamdan səhərədək ulayırlar, mən heç bir söz demirəm. Mənim bir oğlum var, səsini çox görürsünüz... Yəni bu köpək oğlunun səsi sizin itlərinizin də səsindən pis oldu?..

# BƏDNƏFİS

Günün birində Mollanın oğlu çayın kənarında dayanıb suya baxa-baxa çörək yeyirmiş. Birdən əlindəki çörəyin bir tikəsi düşür çaya. Uşaq cəld əyilir ki, çörəyi tutsun, baxır ki, suda da elə özü kimi bir uşaq var, ağzında da nə isə çeynəyir. Tez gəlib Mollanı çağırır ki:

– Ata, suyun içində bir adam var, çörəyimi əlimdən qapıb basdı ağzına, yedi.

Molla yüyürür çayın qırağına, uşağın göstərdiyi yerdən əyilib suya baxır. O da öz əksini suda görüb başqa adam hesab eləyir.

Söyüb deyir:

– Axmaq oğlu axmağın saqqalının uzunluğuna bax, bədnəfisliyinə bax!

# QURTARA BİLMƏYƏCƏYƏM

Günlərin birində Molla oğlu ilə birlikdə başqa bir kəndə getməli olur. Oğlunu mindirir eşşəyə, özü də piyada, düşürlər yola. Bir az gedəndən sonra qabaqlarına bir dəstə adam çıxır. Bunlardan biri Mollagilə baxıb deyir:

– Bura baxın ey... Yüngülayaq uşaq minib eşşəyə, qoca kişi piyada gedir.

Molla oğlunu eşşəkdən düşürüb özü minir. Bir az gedəndən sonra bir dəstə də adam çıxır bunların qabağına. Bir Mollaya baxırlar, bir oğluna, yenə də biri deyir:

– Bura baxın ey... Yekə kişi minib eşşəyə, balaca uşaq qalıb piyada.

Molla özü də eşşəkdən düşür. İndi də eşşəyi boş qatırlar qabaqlarına. Bir az getməmiş qabaqlarına bir dəstə də adam çıxır. Onlardan biri deyir:

– Bunlara baxın, bunlara baxın. Eşşək bom-boş atıla-atıla gedir, özləri də payi-piyada toz-torpağın içində ayaq döyürlər.

Molla özü minir eşşəyə, oğlunu da alır tərkinə. Bir azdan rastlarına bir dəstə də adam çıxır. Bunlar da Molla ilə oğluna baxaraq gülüşürlər ki:

– Bura bax ey... İki-iki adam minib eşşəyə, yazıq heyvan nəfəs ala bilmir.

Molla yavaşca özü eşşəkdən düşür, oğlunu da düşürdür. Sonra eşşəyi öz dalına alıb deyir:

– Deyəsən, mən belə eləməsəm, bu camaatın sözündən qurtara bilməyəcəyəm.

## SU QUYUSU

Mollanın birinci dəfə ailəsini şəhərə köçürməyi barədə belə bir rəvayət də var:

Molla şəhərdə ev tutur, arvadı ilə oğlunu da kənddən şəhərə köçürdür. Oğlu şəhərdəki minarələri görüb deyir:

– Gör, bunları tikən adamların boyu nə uzun imiş...

Anası soruşur:

– Nə bildin?

Uşaq deyir:

– Gərək əli çataydı, ya yox?

Anası deyir:

– O boyda adam olmaz. Yəqin qabaqca yerdə böyrü üstə tikib sonra dikəldiblər.

Ana-bala mübahisə eləyirlər. Hərə öz dediyini deyir. Molla görür mübahisə çox uzanacaq, söhbətə qarışıb deyir:

– Nə sənin fikrin düzdü, nə də onun. Bunlar su quyusudu. Tərsinə çeviriblər ki, gün vurub qurutsun, kif atmasınlar.

## OYNAMIRAM, BAXDIN

Günlərin birində Mollanın arvadı haraya isə getmiş imiş, uşaq ağlamasın deyə Molla onu məşğul eləməyə çalışır. Əlini yumub uşağın qabağına tutur ki:

– Kişisən, de görüm, ovcumda nə var?

Uşaq bir az fikirləşib deyir:

– İnək.

Molla hirslənir ki:

– Oynamıram, baxdın.

Uşaq deyir: "Baxmamışdım, elə-belə tapdım", Molla deyir: "Yox, baxmışdın, əgər baxmamışdın, nə bildin?" Axırda dədə-bala savaşırlar. Deyirlər ki, bu əhvalatdan sonra Molla bir-iki il oğlu ilə küsülü qalır.

## KİMİN YANINA GƏLƏYDİM?

Günün birində Molla oğluna deyir:

– Bu gün tələbkarlar gələcəklər pul istəməyə, mənim də pulum yoxdur. Otur həyətdə, kim gəlsə, de ki, atam evdə yoxdur. Başa düşdün?

Oğlan deyir:

– Heyvan-zad deyiləm ki, başa düşməyəm? Deyirsən ki, oturum həyətdə, gələnlərə deyim ki, atam evdə yoxdur.

Molla "ay sağ ol, oğlum!" – deyib içəriyə girmək istəyəndə oğlu soruşur:

– Ata, birdən məni uşaq görüb sözümə inanmadılar. Onda doğru dediyimi sübut eləmək üçün sənin yanına gətirim?

Molla baxır ki, yox, uşaq işi korlayacaq. Ona görə də deyir:

– Oğlum, mən evdə olmayacağam ki... Elə deyərsən evdə yoxdu, vəssalam. Başa düşdün? Mən evdə yoxam.

Oğlan deyir:

– Başa düşdüm.

Molla keçir otağa. Bir-iki saat keçəndən sonra oğlunu çağırır. Bir dəfə, iki dəfə, üç dəfə, uşaqdan cavab çıxmır. Molla şübhələnir ki, bəlkə uşağın başına bir iş gəldi. Durub çıxır həyətə, görür ki, uşaq elə əvvəlki yerində oturub, gözlərini də dikib qapıya. Soruşur:

– Adə, bəs bu qədər çağırıram, eşitmirsən?

Oğlu deyir:

– Niyə eşitmirəm? Kar-zad deyiləm ki?

Molla deyir:

– Eşidirsən, bəs niyə gəlmirsən?

Oğlu deyir:

– Bilmirəm məni ələ salmısan, ya özünü... Özün demədin ki, sən evdə yoxsan? Kimin yanına gələydim?

## HEÇ NƏ

Molla küləkli bir gündə dəvəyə minib şəhərə gedirmiş. Arvad evdə Mollanın balaca cib torbasını qovud ilə doldurmuş imiş ki, şəhərdə yesin. Molla nə qədər eləyirsə nəfsini saxlaya bilməyib qovudu yeməyə başlayır. Dəvənin üstü, külək də bərk əsir. Nə qədər ağzına qovud atırsa, hamısını külək aparır.

Bunu görən dəvəçi Molladan soruşur:

– Molla əmi, belə iştahla nə yeyirsən?

Molla deyir:

– Külək belə əssə, heç nə.

## MÜXTƏSƏR DEYİRƏM

Bir gün Molla kişmiş yeyirmiş. Bir dostu ona yaxınlaşıb soruşur:

– Molla nə yeyirsən?

Molla deyir:

– Elə.

Dostu soruşur:

– Molla, necə yəni elə? Bu nə cavabdı?

Molla deyir:

– Müxtəsər deyirəm də...

Dostu soruşur:

– Nəyi müxtəsər deyirsən?

Molla deyir:

– Sən deyirsən: "Nə yeyirsən?". Mən deyəcəyəm: "kişmiş". Sən deyəcəksən ki: "mənə də ver!" Mən deyəcəyəm: "vermirəm!" Sən deyəcəksən: "niyə?" Mən deyəcəyəm "elə!" Odu ki, indidən müxtəsər deyirəm: elə.

## EŞİDƏ BİLSİN

Bir gün bir məclisdə Molladan soruşurlar ki:

– Molla, adamlığın nişanəsi nədi?

Molla deyir:

– Adamlığın əsas iki nişanəsi var: birincisi odu ki, bilənlər danışanda yaxşı-yaxşı qulaq assın. İkincisi də odu ki, özü danışanda öz sözlərini eşidə bilsin.

# UZUNUNU DA ENİNƏ DÜZƏLDƏCƏKDİM

Günlərin birində Mollanın yaşadığı kəndə başqa yerdən bir qonaq gəlir. Söhbət əsnasında qonaq başlayır öz şəhərlərini tərifləməyə ki:

– Bizim şəhərimizdə padşahın elə böyük bir sarayı var ki, uzunluğu neçə yüz arşın, eni neçə yüz arşın.

Molla baxır ki, bu hesabla bunların kəndi qonağın heç xoşuna gəlməyəcək. Ona görə də başlayır:

– Eh, o nədi ki? Bizim kənddə elə saraylardan o qədər var ki, itinə tök. Hələ dünən birini tikdirmişik, eni iki min arşın, uzunu...

Bu halda haman qonağın, çoxdan bəri Mollanın kəndində yaşayan ikinci bir yerlisi içəriyə girir. Molla işin üstünün açılacağından qorxub deyir:

– ... uzunu, uzunu beş arşın.

Qonaq eni iki min, uzunu beş arşın olan bu qəribə saraya məəttəl qalıb soruşur:

– Balam, o necə saraydı elə eni iki min arşın, uzunu beş arşın?

Molla içəriyə girənə işarə eləyib deyir:

– Taxsır ondadı. Çağrılmamış qonaq kimi çox pis vaxtda gəldi. Yoxsa uzununu da eninə düzəldəcəkdim.

# ÖLÜYƏM

Gecələrin birində Mollanın yolu qəbiristandan düşür. Yazığın onsuz da qorxa-qorxa getdiyi bəs deyil, bu tərəfdən də qabağına bir dəstə atlı-quldur çıxır. Molla tez qaçıb girir bir köhnə qəbrə ki, onu soymasınlar. Quldurlar bir adamın qaçıb qəbrə girdiyini görüb, alırlar başının üstünü, çəkib qəbirdən çıxardırlar. Quldurbaşı soruşur:

– A kişi, kimsən?

Molla deyir:

– Ölüyəm, başına dönüm!

Quldurbaşı soruşur:

– Necə yəni ölüsən? Nə danışırsan?

Molla deyir:

– Nə danışacağam?.. Ölüyəm də... Bu qəbiristanın ölülərindənəm. Qəbrim də, bax, elə budur.

Quldurbaşı deyir:
– A kişi bizi dolamısan, ya özünü? Ölü də danışar?
Molla baxır ki, işi korlayıb. Deyir:
– Səhv eləmişəm, qardaş! Gərək danışmayaydım.
Quldurbaşı əmr eləyir ki:
– Buna bir-iki yaxşı kötək vurun, bir də belə səhvlər eləməsin.
Quldurlar Mollanı aralığa alıb döymək istəyəndə Molla deyir:
– Ay canım, siz dirilər gündə min səhv eləyirsiniz, heç sizi döyən olmur, indi mən ölü ömrümdə bir dəfə səhv eləyib sizin əlinizə düşmüşəm. Məni öldürməyəcəksiniz ki?..

## İÇİNDƏ OLMAYIN

Molladan bir gün soruşurlar ki:
– Molla, ölü aparanda tabutun qabağında olmaq yaxşıdı, ya dalında?
Molla deyir:
– Özünüz bilərsiniz. Harasında olursunuz olun, içində olmayın.

## BURA İŞIQDIR

Necə olursa, Molla üzüyünü evdə itirir, çıxıb küçə qapısında axtarmağa başlayır. Bunu görən qonşulardan biri soruşur:
– Molla, nə axtarırsan?
Molla deyir:
– Üzüyüm düşdü, onu axtarıram.
Qonşu soruşur:
– Hanı, hara düşdü?
Molla deyir:
– Evdə düşüb...
Qonşu soruşur:
– Bəs evdə düşüb, burada niyə axtarırsan?
Molla deyir:
– Evin içi qaranlıqdı, bura işıqdı. Onunçun burada axtarıram.

## YUXUM QAÇIB

Molla gecə yarısı çıxıb küçələri axtarmağa başlayır. Qarovulçu gəlib onu tutur ki:

– Gecənin bu vaxtı buralarda nə axtarırsan?

Molla deyir:

– Yuxum qaçıb, onu axtarıram.

## SU BELƏ OLAR

Molla dəniz kənarı ilə gedirmiş. Bir də baxır ki, möhkəm susuyub. Nə qədər axtarırsa, şirin su tapa bilmir.Əlacsız qalıb dənizin suyundan bir qurtum içir. Su həm boğazını yandırır, həm də ürəyini bulandırır. Düzəlir yola, bir az gedəndən sonra bir bulaq tapır, suyundan doyunca içir, bir qab da doldurub gətirib dənizə töküb deyir:

– Mən həmişə çığır-bağır salıb "mənəm-mənəm" deyənləri sənin kimi gördüm. Ala, bax, su belə olar.

## ƏSARƏTDƏN QURTARDIM

Aydınlıq bir gecədə Molla quyudan su çəkir. Bir də baxır ki, ay quyudadı. Bir başına vurur, bir dizinə ki, görəsən nə olub, yazıq ay yerindən qopub düşüb quyuya. Tez evə qaçıb qarmağı gətirir, sallayır quyuya. Gah o yana, gah bu yana... Axırda qarmaq quyuda bir daşa ilişir. Molla qarmağın aya ilişdiyini zənn edib sevinir. Başlayır çəkməyə. Bir... iki... qarmaq daşdan qopur, Molla dalı üstə yıxılır yerə, gözü göyə sataşıb görür ki, ay göydədi. Öz-özünə deyir:

– Düzdü, çox zəhmət çəkdim, ancaq yazıq ayı əsarətdən qurtardım.

## HAMISI ORADA YAZILIB

Molla bir aylığa öz kəndlərindən çıxıb başqa bir yerə gedir. Ay tamam olanda yenə də kəndlərinə qayıdır. Mollanın gəldiyini eşidənlər gündə dəstə-dəstə gəlib ona harada olduğu, niyə getdiyi, nə üçün belə

gecikdiyi barədə bir çox suallar verib kişini lap təngə gətirirlər. Molla baxır ki, gəlib-gedənlər onu lap boğaza yığacaqlar. Əgər bazara çıxsa, hamı töküləcək üstünə, sorğu-sual dolu kimi yağacaq; di gəl bunların hamısına cavab ver. Bir az fikirləşib götürüb haraya getdiyinin və verilməsi ehtimal olunan bütün başqa sualların cavabını gözəl xətlə bir kağızda yazıb tikir cübbəsinin altına, çıxır bazara. Camaat Mollanı görcək, cürbəcür suallarla tökülüb onu alır aralığa. Molla heç kəsə cavab vermir, o qədər gözləyir ki, hamı yığılır, sonra cübbəsinin ətəyini qaldırıb deyir:

– Camaat, bir dəfə oxuyun, əl çəkin mənim yaxamdan! Hamısı orada yazılıb.

## DEDİM BƏS MƏNSƏN

Molla bazarda bir nəfərə rast gəlir. Tez salam verir, görüşür, qucaqlayıb öpür. Sonra bir də diqqətlə kişini gözdən keçirib soruşur:

– Qardaş, sən kimsən?

Kişi deyir:

– İndi ki, mənim kim olduğumu bilmirsən, bəs niyə belə cani-dildən qucaqlayıb öpürdün?

Molla deyir:

– Ballah, baxdım ki, paltarın paltarıma oxşayır, saqqalın, saqqalıma, dedim ki, bəs mənsən.

## MOLLA VƏ OĞRU

Gecələrin birində arvad Molla Nəsrəddini yavaşca oyadıb qulağına pıçıldayır ki:

– Kişi, evdə oğru var. Dur qoyma, var-yoxumuzu aparacaq.

Molla baxır ki, doğrudan da evdə oğru var, sandıq olan tərəfdə əlləşir. Yavaşca arvadının qulağına pıçıldayır.

– Səs eləmə, qaçar. Qoy yaxşı-yaxşı axtarsın. Heç bir şey tapa bilməyib, axırda gələcək paltarımızı oğurlamağa. Onda tutarıq.

# ALMAQ ASANDIR

Gecələrin birində Mollanın evinə oğru girir. Arvad şıqqıltıya oyanıb yavaşca Mollanı dürtmələyir ki:

– A kişi, dur, evdə oğru var.

Molla o biri böyrü üstə dönür ki:

– Sən dua elə o, bir şey tapsın. Əlindən almaq asandır.

# OĞRUDA HEÇ GÜNAH YOXDUR?

Gecələrin birində oğrular Mollanın eşşəyini tövlədən oğurlayıb aparırlar. Eşidən-bilən Mollanın başına yığılıb, onu məzəmmət eləməyə başlayır. Biri deyir:

– Yaxşı olub. Taxsır özündədi. Niyə tövlənin qapısını yaxşı-yaxşı bağlamırdın ki?..

Bir başqası deyir:

– Canım, bu alçaqlıqda da divar olar? Bunu bir az uca tikdirəydin də... Belə olanda oğru da gələr, hələ nə bilim nə də olar. Taxsır özündədi.

Üçüncüsü deyir:

– Balam, niyə, həyətə bir it gətirib bağlaya bilməzdin?... Taxsır özündədi də... İtsiz də həyət olar?

Dördüncüsü deyir:

– Yaxşı, bəs sən necə yatıbsan ki, bu yekəlikdə eşşəyi aparıblar sən bilməmisən? Taxsır özündədi. Bir az ayıq yat də!..

Molla bütün bu deyilənlərə qulaq asıb, axırda deyir:

– Yaxşı. Hamınız doğru deyirsiniz. Axı bir insafınız da olsun. Bəs elə bütün taxsırlar məndədi, oğruda heç günah yoxdur?..

# XƏCALƏTİMDƏN GİRMİŞƏM

Gecələrin birində yenə də Mollanın evinə oğru gəlir. Molla tez girir şkafa. Oğru hər yeri axtarır, əlinə bir şey keçmir.Axırda şkafı açır ki, bəlkə oradan bir şey tapsın. Baxır ki, Molla şkafın içindədir. Oğru özünü itirib qışqırır:

– Burada nə qayırırsan, kişi?
Molla deyir:
– Hirslənmə! Gördüm evdən heç bir şey tapa bilmirsən, xəcalətimdən girdim bura.

## DANA DA ÇIXIB

Deyirlər ki, nə təhər olursa, bir dəfə Mollanın əlinə bir qədər pul düşür. Oğruların qorxusundan yazıq bilmir harada gizlətsin. Axırı ki, bir gün evi təkləyib, həyətdə yer qazır, pulu basdırır. Sonra gedib küçə qapısından baxır ki, görsün bilinir ya yox... Qazılan yer uzaqdan bəlli olduğu üçün Molla öz-özünə fikirləşir ki, əgər mən oğru olsam elə həyətə girən kimi bu pulu taparam. Gedib təzədən pulu çıxardır. Elə həyətdə gəzib yer axtarırmış ki, birdən gözü sataşır, görür evin qabağındakı ağacın başında bir qarğa yuvası var. Tez dırmaşır ağaca, pulu bir dəsmala bağlayıb qoyur qarğa yuvasına, üstünə də bir az torpaq töküb düşür aşağı. Öz ürəyində deyir:
– Yox, daha buraya arxayın olmaq olar. Bu oğru quş-zad deyil ki ağaca çıxa.
Sən demə, Molla pulu yuvaya qoyanda oğrulardan biri gizlənib baxırmış. Molla çıxıb getcək, oğru çıxır ağaca, pulu götürür, yerinə də bir parça mal təzəyi qoyur. Bir neçə gündən sonra Mollaya pul lazım olur; çıxır ağaca baxır ki, pulun yerində dəsmala bağlı bir parça təzək var. Mollanın əl-ayağı əsib ağacdan yıxılır yerə. Handan-gecdən özünə gəlib bir ağaca baxır, bir də əlindəki təzəyə baxıb deyir:
– Mən deyirdim ki, bura adam çıxa bilməz. İşə bax ki, bu boyda ağacın başına dana da çıxıb.

## SƏN MƏNİ, YA MƏN SƏNİ?

Gecələrin birində Mollanın həyətinə oğru gəlir, hər yeri axtarır, əlinə bir şey keçmir. Getmək istədikdə baxır ki, dəhlizdə küncə bir az buğda töküblər. "Heçə lənət" deyib çuxasını çıxarıb sərir yerə, buğdanı doldurur içinə. Gedir ki, qabaqca həyət qapısını açsın, sonra gəlib şələsini rahat götürüb aparsın.

Sən demə, Molla da qaranlıqda gizlənib göz qoyurmuş. Elə ki, oğru küçə qapısını açmağa gedir, Molla yavaşca gəlib çuxanı buğdanın altından çəkib götürür. Oğru qayıdıb işi belə görəndə qaçmağa başlayır. Molla düşür dalına ki:

– Qoymayın! Tutun! Oğru gəlib. Evimizi soyub...

Oğru qaça-qaça deyir:

– Heç olmasa insafla danış axı. Bu saat sən məni soymusan, ya mən səni?

## OĞRU

Deyirlər ki, gecələrin birində yenə də Mollanın evinə oğru gəlir. Nə qədər axtarırsa, əlinə heç bir şey keçmir.Molla da oyaq imiş, oğruya fikir verirmiş. Çox gözləyir baxır ki, oğru əl çəkmək istəmir, fikri odur ki, elə hökmən bir şey çırpışdırsın.Təngə gəlib deyir:

– Ay qardaş, sən allah, qoy yataq! Vallah-billah o şeyi ki, sən gecə qaranlıqda axtarırsan, mən günün günorta çağı axtarıram, tapmıram.

## SAHİBİ YANINDA İMİŞ Kİ...

Günlərin birində Molla küçədə üzü üstə yerə düşmüş bir güzgü tapır. Nə olduğunu bilmir. Amma elə xoşuna gəldiyi üçün sevincək tez götürür.Güzgünü çevirib baxır ki, o biri üzü şüşə kimidi. Qaldıranda orada öz əksini görür. Qalır məəttəl ki, görəsən bu adam kimdi? Gözlərini qıyıb birdə diqqətlə baxır ki, bəlkə tanıya. Güzgüdəki əks də gözlərini qıyır. Molla güzgüdəki əksdə də eyni hərəkəti görüb gözlərini bərəldir. Çüzgüdəki əks də gözlərini bərəldir. Molla tez güzgünü götürdüyü yerə qoyub deyir:

– Bunun sahibi yanında imiş ki...

## TÖKƏCƏYƏM BAŞINA

Günlərin birində dəlixanadan bir dəli qaçıb şəhərin ortasındakı minarənin başına çıxır, qapısını da bağlayır ki, heç kəs yanına çıxa bilməsin. Camaat yığılır minarənin dibinə, nə qədər edirlərsə, dəli nə qapını açır, nə də aşağı düşür, elə deyir:

– Elə ki, gün batdı, mən quş olub buradan uçacağam.

Hamı qorxur ki, indi yazıq özünü atacaq, düşüb öləcək. Axırda gedib əhvalatı Molla Nəsrəddinə xəbər verirlər. Molla deyir:

– Hərənin özünə görə dili var. O yazıq dəlidi. Beyninə düşüb ki, quş olub uçacaq. Siz də onunla ağıllı adam kimi danışırsınız. Əlbəttə ki, ağıllı söz ona kar eləməz. Onunla gərək dəli dilində danışasan.

Deyirlər:

– Ay Molla, gəl, nə dil ilə danışırsan danış ancaq ki, bir təhər elə düşsün aşağı. Günorta azanının vaxtı çatıb.

Molla durub minarənin dibinə gəlir, dəlini səsləyib deyir:

– Adə, ey!.. Bu saat aç qapını, pilləkənlərlə düş aşağı!

Dəli deyir:

– Düşmürəm.

Molla bir qab götürüb su ilə doldurur ki:

– Ya budu düş, ya da bu saat əlimi uzadıb bu suyu tökəcəyəm başına.

Dəli Mollanın əlində içi su ilə dolu qabı görcək başlayır yalvarmağa ki:

– Tökmə, bu saat düşürəm.

## ÖZÜN YE DƏ!..

Günlərin birində Molla Nəsrəddin yaxşı tanıdığı bir nəfərlə yola çıxır. Günortaüstü bunlar çörək yemək üçün bir bulağın başında düşürlər. Hərə öz dəstərxanını açır. Yoldaşı tutur Mollanın yaxasından ki:

– Gəl, nəyimiz varsa qarışdıraq.

Molla bir altdan-altdan ona baxıb deyir:

– Əgər sənin bir fırıldağın yoxdursa, elə öz çörəyini özün ye də!..

## BİLDİRÇİN QOVURMASI

Deyilənlərə görə, Molla hərdənbir ovçuluqla da məşğul olarmış. Günlərin birində bir neçə bildirçin vurub evə gətirir, qazana töküb yaxşı bildirçin qovurması hazırlayır. Ancaq çox əliaçıq, qonaqcıl adam olduğuna görə tək yeyə bilmir. Çıxıb məhəllə adamlarından bir neçəsinə deyir ki:

– Günortaya yaxşı bir bildirçin qovurması hazırlayıram, buyurun, gəlin bizə.

Günortaüstü çağrılmış qonaqlar bir-bir gəlirlər. Ancaq Mollaya sataşmaq üçün özləri ilə gizlicə bir neçə diri bildirçin də gətirirlər. O qədər gözləyirlər ki, xörək hazır olur. Molla səliqə ilə qazanı götürüb qoyur yerə, çəkib qonaqlara vermək istəyəndə bir nəfər deyir:

– Molla, indi ki, bizi qonaq eləyirsən, gəl, öz istədiyimiz kimi elə ki, canasinər yeyək.

Molla soruşur:

– Necə eləyim?

Deyirlər:

– Get evdən hərəmiz üçün bir dənə nimçə gətir, hərənin payını çəkib özünə ver!

Molla deyir:

– O da mənim gözüm üstə! Təki, siz razı qalın!

Elə ki Molla nimçə gətirmək üçün evə girir, qonaqlar tez xörəyi qazanı ilə götürüb gizlədirlər. Gətirmiş olduqları diri bildirçinləri ona oxşayan başqa bir qazana salıb qoyurlar onun yerinə.

Molla nimçələri gətirir. İştaha ilə qazanın qapağını açanda bildirçinlər uçub gedir, qazan qalır boş.Molla baxır ki, qazan tərtəmizdi... Bir uçan bildirçinlərin dalınca göyə baxır, bir də təmiz qazana baxıb deyir:

– Mən Allahdan çox razıyam ki, bildirçinləri diriltdi, qanad da verib uçurtdu... Yəni yazıqların, canını, həyatını özlərinə qaytardı. Bu, çox yaxşı oldu... Ancaq məəttələm ki, bəs mənim işlətdiyim yağ, soğan, duz, su nə oldu? Görəsən, insafa gəlib heç olmazsa onları da mənim özümə qaytaracaq, ya yox?

## QIŞ HAZIRLIĞI

Qışqabağı Molladan soruşurlar:

– Molla qışa nə hazırlayıbsan?

Molla deyir:

– Yaxşıca üşümək, bir də titrəmək.

## MOLLANIN MƏKTUBU

Günlərin birində Molla bir aylığa səfərə gedir. Vaxt gəlib çatır, amma Mollanın işi hələ qurtarmır. Bir ay da qalmalı olur. Nə qədər axtarırsa, heç bir adam tapa bilmir ki, evə ya sifariş göndərsin, ya da bir məktub yazıb gecikəcəyini xəbər versin. Axırda əyləşib bir məktub yazır, özü də götürüb yola düşür. Necə deyərlər, günə bir mənzil, teyyi-mənazil, gəlib evlərinə çatır. Qapını döyür. Arvad açıb baxır ki, Molladı. Tez uşaqları da səsləyib, atılır Mollanın üstünə ki:

– Xoş gəlibsən, ay kişi!

Molla arvadı döşündən itələyib, özü geri çəkilir. Uşaqlar tökülüb gəlir ki:

– Ata, xoş gəlibsən...

Molla məktubu arvada uzadıb deyir:

– Vallah, baxıram ki, mənimlə görüşmək, öpüşmək istəyirsiniz, lap ağzımın suyu axır. Bir Allah bilir ki, bu saat sizinlə elə şirin-şirin görüşüb-öpüşərdim ki... Amma nə edim ki, hələ işim qurtarmayıb deyə gələ bilmirəm, qalmışam uzaqdan sizə baxa-baxa.

Oğlu məktubu açır... Oxuyub görür ki Molla yazır: "Mən hələ bir ay da qalmalı oluram". Deyir:

– Yaxşı, heç olmazsa gəl bir görüşək, de görək nə var, nə yox?

Molla deyir:

– Yox, dədə-baba qanun-qaydasını pozmaq olmaz. Mən bu saat Molla Nəsrəddin deyiləm. Mən ancaq məktub gətirənəm... İnşallah, bir aydan sonra qayıdıb gələrəm, onda görüşərik.

## ÇUĞUNDUR BORANISI

Bir gün Molla bazara gedirmiş. Yolda birisilə yoldaş olur. Salamkalamdan sonra yoldaşı soruşur:

– Nə var, nə yox, Molla? Təzə xəbərdən-zaddan...

Molla deyir:

– Elə bir xəbər yoxdur. Bircə elə bu var ki, bu gecə yuxumda çuğundur boranısı görmüşəm.

Yoldaşı deyir:

– Çıxart bir az pul ver, yuxunu yozum. Mən çox yaxşı yuxu yozanam.

Molla deyir:

– Rəhmətliyin oğlu, pulum olsaydı, badımcan alıb boranı bişirtdirib yeyərdim, yuxuda çuğundur boranısı görməzdim də...

## YOXSA ÇILPAQ QALAR

Bir gün bir nəfər Mollanın yanına gəlib soruşur:

– Molla əmi, sən bir ağıllı adamsan, bilərsən, adam qüsl eləyəndə üzünü hansı tərəfə tutsa yaxşıdı?

Molla cavab verir:

– Bala, hər dövrün özünə görə qanunu var. Bizim dövrümüzdə qüsl eləyən gərək üzünü paltarını qoyduğu tərəfə tuta. Yoxsa oğurlarlar, çılpaq qalar.

## MOLLA GƏMİDƏ

Günlərin birində Molla Nəsrəddin yelkənli gəmiyə minib səyahətə çıxır. Yolda şiddətli bir külək əsib gəmini oynatmağa başlayır. Gəmidəkilər yelkəni bağlamaq üçün dirəyə dırmaşırlar. Molla bunu görüb deyir:

– A kişilər, bu gəmi dibindən oynayır, əyər oynamamağını istəyirsinizsə, dibindən bağlayın, daha təpəsinə niyə dırmaşırsınız?

## BAŞ-GÖZ QOYMAZDIN

Bir gün Molla uzaq kəndlərdən birinə gedirmiş. Yolda yorulub böyük bir qoz ağacının altında əyləşir. Dəstərxanını açıb bir az çörəkdən-zaddan yeyir, başının altına da bir daş qoyub uzanır. Ağacın kölgəsi Mollaya ləzzət verir. O tərəfinə, bu tərəfinə baxıb görür ki, beş-altı addım o yanda bir bostan var. Qarpızlar, qovunlar adama qaş-göz edir. Molla bir qarpız-qovuna baxır, bir altında oturduğu qoz ağacına baxıb öz-özünə deyir:

– İşə bax, sən allah!.. Bu naziklikdə tağlarda bu boyda qovun-qarpız, bu boyda ağacda bu balacalıqda qoz. Bu dünyanın işi lap tərsinədi.

Elə bu yerdə ağacdan başına bir qoz düşür. Molla diksinib dik atılır. Sonra üzünü ağaca tutub deyir:

– Elə belə nanəcibsən ki, meyvələrin də belə xırdadı də... Əyər səndə qovun-qarpız bitsə idi, camaatda baş-göz qoymazdın ki...

## MİNNƏT QOYMA!

Molla yoldaşları ilə bərabər çayda balıq tutmağa gedir. Balıqları tutub qaba qoyduqca, yoldaşları qəsdən oğurlayıb öz qablarına yığırlar. Axırda yığışıb getmək istəyəndə Molla baxır ki, qabda bir dənə də balıq yoxdu. Üzünü çaya tutub deyir:

– Üzümə niyə baxırsan? Boş gəldim, boş da gedirəm. Daha boynuma minnət-zad qoyma!

## TURPU DƏRİB, İÇİNƏ ZƏFƏRAN TÖKÜBLƏR

Birisi əlində bir yumurta gizlədərək Molladan soruşur:

– Molla, əyər bilsən əlimdəki nədi, bu saat sındırıb, salıb yağa, qayğanaq eləyib verərəm sənə.

Molla bir az fikirləşəndən sonra soruşur:

– De görüm rəngi necədi?

– İçi sarıdı, bayırı ağ.

Molla bir az da fikirləşəndən sonra deyir:

– Aha, tapdım! Turpu dəlib içinə zəfəran töküblər.

## MƏN DƏ ONU FİKİRLƏŞİRDİM

Molla bir bostana girib qovun-qarpızdan tez-tez dərib çuvala doldurur ki, aparsın. Bostançı bostanda oğru olduğunu görüb yavaş-yavaş dal tərəfdən gəlib onu tutur ki:

– Kişi, burada nə qayırırsan?

Molla deyir:

A başına dönüm, dünən gecə əsən o bərk külək məni damda yatdığım yerdən götürüb atıb bura.
Bostançı deyir:
– Kişi, yalan niyə deyirsən?
Molla deyir:
– Canım üçün yalan demirəm. Niyə, burada nə var ki, mən yalan deyim? Heç mən boyda kişiyə yalan demək yaraşar?
Bostançı deyir:
– Yaxşı, tutaq ki, səni buraya külək atıb. Bəs bu qovun-qarpızları kim dərib?
Molla deyir:
– Gördüm külək məni götürüb aparır, onlardan yapışdım ki, bəlkə dayanıb özümü bir təhər saxlaya biləm. Bədbəxtçilikdən hansına əlimi atdımsa, qırıldı, qaldı əlimdə.
Bostançı deyir:
– Yaxşı, bəs bunları bu çuvala kim doldurub?
Molla özünü itirməyib cavab verir ki:
– Vallah, elə mən də onu fikirləşirdim ki, sən gəlib çıxdın.

## O QAPIDAN ÇIXIB GETMİŞƏM

Molla bir gün evinə gedəndə dostları onun qabağını kəsib deyirlər:
– Bizi gərək evə aparıb qonaq eləyəsən.
Molla hər nə qədər deyirsə ki:
– Vallah, evdə heç-zad yoxdur.
Əl çəkmirlər. Axırda Molla əlacsız qalıb razı olur. Hamısı bir yerdə gəlirlər. Qapıya çatanda Molla deyir:
– Siz burada dayanın, mən arvada deyim başına bir şey örtsün.
Molla girir içəriyə. Əhvalatı arvada danışıb göndərir qapıya ki:
– Get onları sal yola, getsinlər.
Arvad çıxır qapıya, özünü bilməməzliyə qoyub soruşur:
– Burada niyə dayanıbsınız?
Deyirlər:
– Mollanı gözləyirik.
Arvad deyir:
– Molla evdə yoxdu. Səhərdən gedəndi, hələ gəlməyib:

Deyirlər:

– Canım, necə gəlməyib? Kişi elə bu saat bu qapıdan girdi evə ki...

Arvad deyir, qonaqlar deyir, axırda Molla səbr eləyə bilməyib başını pəncərədən çıxarıb deyir:

– Canım, siz nə qəribə adamsınız? Niyə boş yerə mübahisə eləyirsiniz? Bəlkə qapımız ikidir, bu qapıdan girib, o qapıdan çıxıb getmişəm.

## YARISI ÖZÜ QIRXILANDI

Mollanın başının ortası daz imiş. Bir gün dəlləyə başını qırxdırıb dəllək pulunun yarısını verir. Dəllək soruşur:

– Molla, belə niyə? Bəs yarısını niyə vermirsən?

Molla başının daz yerini göstərib deyir:

– Çünki sən yarısını qırxıbsan, yarısı özü qırxılandı.

## İÇİNƏ SU DOLDURUB

Molla qonşu kəndlərin birinə gedir. Baxır ki, kəndin kənarında böyük bir göl var. Əlini dizinə vurub heyfsilənə-heyfsilənə deyir:

– Mal-qara üçün nə yaxşı otaqdı?.. Görəsən hansı mərdümazar bunun içinə su doldurub?

## BAXARSAN QARĞIŞIMIN GÜCÜNƏ

Birisi Mollaya çox sataşır. Bir gün yenə də Mollanın çox sevdiyi və hər zaman əlində gəzdirdiyi əl ağacını sındırır. Molla ağacının sınmağından kədərlənib deyir:

– O ağac mənim əlim idi. Sən ki onu sındırdın, Allah sənin qıçını sındırsın!

Kişi gülə-gülə deyir:

– Ay sındı ha...

Molla deyir:

– Dayan-dayan! Gülmə! Sınar. Mənim qarğışım tez yerinə yetər. Qırx gün, qırx ay, qırx il... Axır bir gün özünü göstərəcək.

Elə haman gün bu söhbətdən sonra o adam Molladan ayrılıb evlərinə gedəndə təsadüfən sürüşüb yıxılır, qıçı sınır. Mollanın başına gətirdiyi işdən çox peşman olub ondan üzr istəməyə gəlir:

– Molla, məni bağışla! Sənin qarğışın doğrudan çox tez yerinə yetirmiş. Sən qırx gün, qırx il demişdin, bu heç qırx dəqiqə də çəkmədi. Yıxıldım, qıçım sındı.

Molla deyir:

– Hələ bu qırx gün bundan qabaq elədiyin haramzadalığın cəzasıdı. Bugünkü işinin əvəzini qırx gündən sonra görəcəksən. Onda baxarsan mənim qarğışımın gücünə.

## ÇAPAR

Mollanın qonşuluğunda yaşayan bir oğlan evlənir. Gəlin gələndən düz üç ay sonra doğur. Gəlirlər Mollanın yanına ki:

– Molla bu uşağa nə ad qoyaq?

Molla deyir:

– Doqquz aylıq yolu üç aya gələn uşağa bircə ad qoymaq olar: Çapar.

## ƏMANƏT

Günlərin birində Mollagilə bir neçə qonaq gəlir. Molla arvada deyir:

– Arvad nə eləyək?

Arvad deyir:

– Nə eləyəcəyik? Yumurtamız var, yağımız var. Qayğanaq bişirib qoyarıq qabaqlarına.

Bəli, arvad qayğanağı bişirib gətirir. Qonaqlardan biri deyir:

– Bir az da qatıq olsaydı nə yaxşı olardı?

Molla durub gedir mətbəxə ki:

– Arvad, qonaqlar qatıq da istəyirlər, nə eləyək?

Arvad deyir:

– Nə eləyəcəyik? Baqqalın yanına bir əmanət göndərək, qatıq alaq, sonra pulumuz olanda verib əmanəti geri alarıq da... Daha qonağı narazı sala bilmərik ki...

Molla baqqalın yanına əmanət göndərib borca qatıq alır, qonaqlara verir. Elə ki yeyib doyurlar, qonaqlardan biri deyir:

– Dünyada ən yaxşı qonaq odur ki, evdə olanla kifayətlənsin. Ev sahibini borca-xərcə salmasın. Belə qonağın ruzisi də həmişə başının altında olar. Biz də evdə olanla kifayətləndiyimiz üçün Allah ruzimizi yetirdi.

Molla deyir:

– Siz də çox yaxşı qonaqsınız, Allahınız da çox yaxşı Allahdır. Pis elə bizim əmanət idi ki, qismət oldu baqqala.

## YERİ GET!

Gecələrin birində Molla arvadına tapşırır ki:

– Səhər məni tezdən oyat. İşim var, şəhərə gedəcəyəm.

Səhər arvad Mollanı oyadır. Ev hələ qaranlıq olduğuna görə Molla bilməyib öz papağının əvəzinə oğlunun papağını qoyub çıxır. Bir xeyli gedəndən sonra əlini atıb başına papağı götürür, baxır ki, oğlununkudu.

Oradan düz evə qayıdır. Başlayır arvadı danlamağa ki:

– Sənə demədim məni oyat?

Arvad deyir:

– Dedin.

Molla papağı göstərib deyir:

– Bəs niyə mənim əvəzimə uşağı oyadıbsan?

Arvad məsələni başa düşür. Tez onun öz papağını tapıb qoyur başına ki:

– Aha, səni oyatdım. Di yeri get!

## HEÇ KƏSİM YOXDU

Bir gün Molla başqa kəndlərin birində işlədiyi zaman bərk azarlayır. Soruşurlar ki:

– Molla, şər deməsən xeyir gəlməz.İşdi, başına bir iş-zad gəlsə, kimin-kimsən varmı ki, haqqını ona göndərək?

Molla deyir:

– Yox, heç kəsim yoxdu. Atam ölüb, anamı da hələ ölməmişdən qabaq boşayıb.

## QUYRUQSUZ SUPA DOĞDU

Molla bir gün yağ, düyü alıb arvada tapşırır ki:

– Arvad, gəl biz də bir şeytanın qıçını sındıraq. Bu axşam bir yaxşı plov bişir, yeyək.

Arvad plov bişirir. Axşam Molla gəlir, əl-ayağını yuyub, çökür süfrənin başına. Arvad plovu çəkib gətirir. Molla keyfi saz, damağı çağ, elə əlini plova uzadanda qonşunun uşağı qaça-qaça gəlir ki:

– Molla əmi, tez bir bizə gəl, anam səni çağırır. Deyir ki, day ondan başqa bizim heç kəsimiz yoxdu.

Molla əlini xörəkdən çəkib durub gedir. Plov qalıb soyuyur. Haçandan-haçana Molla qaşqabaqlı qayıdıb gəlir. Arvad soruşur:

– A kişi, nə var, nə olub?

Molla deyir:

– Nə olacaq? Ayda-ildə bir namaz, onu da şeytan qoymaz. Ömrümüzdə bir dəfə ər-arvad deyə-gülə bir plov yeyəcəkdik, onda da qonşunun eşşəyi quyruqsuz supa doğdu.

## ZEYTUN YAĞI TÖKÜRƏM

Molla bir nəfərlə yol yoldaşı olur. Şəhərdən ikisi şərikli bir qab qatıq alıbmışlar. Yolun yarısında əyləşib nahar eləməyə başlayırlar. Yoldaşı cibindən bir az qənd ovuğu çıxarıb deyir:

– Mən öz tərəfimə qənd tökəcəyəm.

Molla deyir:

– Olmaz ki, onu hər tərəfə tökəsən?

Yoldaşı deyir:

– Yox, öz tərəfimə tökəcəyəm.

Molla deyir:

– Adamsan, çıxart hər tərəfə tök!

Yoldaşı inad eləyir ki:

– Olmaz! Öz tərəfimə tökəcəyəm.

Molla acıqlanıb cibindən bir şüşə zeytun yağı çıxardıb deyir:

– Mən də öz tərəfimə zeytun yağı tökəcəyəm.

Yoldaşı deyir:

– Molla dayan! Nə qayırırsan? Heç qatığa da zeytun yağı tökərlər?

Molla deyir:
– Sənə nə var? Öz tərəfimə tökürəm də...
Yoldaşı deyir:
– Molla, axı o yağ duru bir şeydi, axıb bu tərəfə də gələcək.
Molla deyir:
– Bilmirəm. Mənə dəxli yoxdu. Ya qəndi qabın hər tərəfinə tök, ya da mən öz tərəfimə zeytun yağı tökürəm.

## İÇİ DOLU İDİ YUN İLƏ

Mollanın köhnə, yırtıq bir kilimi var imiş. Bir gün çörək pulu olmadığından əlacsız qalıb kilimi aparır bazara satmağa. Müştərilər baxıb deyirlər:
– Bu ki dəlik-deşikdi. Bunu alıb nə eliyəcəyik?
Molla deyir:
– Dəlik-deşik olmağına baxmayın, əntiqə maldı. Bax, bu saat bunun içi dolu idi yun ilə, heç bir dənəsi də yerə düşməmişdi.

## ÖZÜM BİLDİM

Bir nəfər Mollanın yanına gəlir. Salam verib, salam aldıqdan sonra başlayır söhbətə. Molla bir-iki saat bu adamla çox şirin-şirin söhbət eləyəndən sonra soruşur:
– Ancaq sizi heç tanımadım. Siz kimsiniz?
Kişi soruşur:
– Bəs tanımadınsa, niyə elə şirin-şirin danışırdın?
Molla deyir:
– Baxdım ki, papağın papağımdandı, paltarın paltarımdan. Odu ki, səni özüm bilib danışdım.

## ONLAR YAXŞI BİLƏRLƏR

Günlərin birində Molla bir iş üçün bir başqa şəhərə gedir. Bazarda gəzdiyi vaxt bir nəfər ona yaxınlaşıb soruşur:
– Ay qardaş, bu gün nə günüdü?

Molla deyir:

– Bala, mən bu şəhərə bu gün gəlmişəm, hələ günlərini öyrənməmişəm. Yaxşı olar ki, buradakılardan soruşasan, onlar yaxşı bilərlər.

## AZARLI OLACAQ

Molla dağ kəndlərindən birinə qonaq gedir. Gecə ev sahibi ortalığa təzə yağ, təzə bal qoyur. Ac Molla yağı, balı bir-birinə qarışdırıb doyunca yeyir. Otaq bir olduğuna görə Mollanın yerini yuxarı başda salıb, bir az da ondan o yana balaca uşağın yerini düzəldirlər. Gecənin bir vaxtı Molla oyanır, baxır ki, qarnı yaman ağrıyır. Durur bayıra çıxsın. Elə qapını açanda həyətdə olan yekə qoyun iti cumur üstünə. İtdən qorxan Molla, tez qapını örtüb girir içəriyə. Nə qədər öskürür, səs eləyirsə, ev sahibi oyanmır. Özü də oyatmağa utanır. Bir az gözləyir, durub yenə qapını açır. İt yenə cumur onun üstünə. Molla görür yox, olmayacaq; birdən gözü sataşır balaca uşağa. Yavaşca girir onun yanına. Özünü rahatlayandan sonra çəkilib öz yerində yatır. Səhər hamı durur, uşağın yerini yığanda baxırlar ki, iş xarabdı. Arvad düşür əl-ayağa ki, görəsən bu uşağa nə olub. Heç indiyə kimi ondan belə iş görünməyib...

Kişi deyir:

– Arvad, görünür ki, uşaq yaman azarlayıb. Nə eləyək ki, sağalsın?

Molla söhbətə qarışıb deyir:

– Mən sizə deyim. Onun bircə dərmanı var. Şəhərdən gəlmiş ac qonağa doyunca yağ-bal yedirirsiniz, gecə də iti qoyursunuz qapıda qarovulçu. Nə qədər ki, o it oradadı, uşağınız elə belə azarlı olacaq.

## MOLLA VƏ HAMBAL

Molla bir gün bazardan bir qədər şey alıb verir hambala ki, evə aparsın. Hambal yolda göz-gözə vurub qarışır adamlara, şeyləri götürüb qaçır. Molla nə qədər axtarırsa, hambalı tapa bilməyib, kor-peşman gəlir evinə.

Bu əhvalatdan on-on beş gün keçir. Bir gün Molla bazarda imiş, bir də görür ki, şeyləri götürüb qaçan hambal, budu, gəlir. Molla hambalı görcək başlayır qaçmağa. Soruşurlar:

– Molla, sən niyə qaçırsan?

Molla deyir:

– Sonra birdən hambal tutar yaxamdan ki, on-on beş gündü şeylərini gəzdirirəm, zəhmət haqqımı ver! Yaxşısı budur ki, əkilim.

## NECƏ SEÇİRLƏR?

Bir məclisdə Ərəbistandan söhbət düşür. Ərəbistanı görmüş bir adam deyir:

– Zalım oğlunun yeri elə isti olur ki, camaat çılpaq gəzir.

Bir tərəfdə oturub söhbətə qulaq asan Molla təəccüblə soruşur:

– Bəs oradakı camaat paltarsız gəzir, görəsən kişi ilə arvadı bir-birindən necə seçirlər?

## GETDİ OYNAMAĞA

Bir gün Molla evinə getdiyi vaxt yolda uşaqlardan biri onun əmmaməsini başından götürüb qaçır. Molla eşşəkdən düşüb başlayır uşağı qovalamağa. Uşaq görür ki, Molla bunu tutacaq, əmmaməni atır yoldaşlarından birinə. O buna, bu ona, uşaqlar yığışırlar. Əmmamə başlayır göydə oynamağa. Molla baxır ki, əmmaməni almaq mümkün olmayacaq, eşşəyi minib düşür yola. Yolda qonşulardan biri ona rast gəlib soruşur:

– Molla, bu nədi? Əmmamən hanı?

Molla deyir:

– Uşaqlığı yadına düşmüşdü. Getdi uşaqlarla oynamağa.

## ƏMANƏT BAL

Mollanın qonşu kənddən olan dostlarından biri gətirib ona bir küpə bal tapşırır ki:

– Molla, bu əmanəti saxla, sabah gəlib aparacağam.

Molla gecə nə qədər əlləşirsə, nəfsini saxlaya bilmir. Arvadı yuxuya verəndən sonra durub balın hamısını yeyir. Səhər dostu gəlib

görür ki, dünən dostu sağ-salamat idi, bu gün azarlayıb yatır, özü də başdan-ayağa səpib. Oturur onun yanında, bir az dil-ağız eləyəndən sonra qalxır ki:

– Molla daha gecdir, mən gedim. Yorğan-döşəyin yüngül olsun.

Molla deyir:

– Xoş gəldin, qardaş!

Dostu bal küpəsini soruşur. Molla deyir:

– Elə özün haraya qoymuşdunsa, oradadır. Küpəyə heç əlim də dəyməyib.

Kişi gəlib küpəni, doğrudan da, dünən qoyduğu yerdə tapır, amma götürəndə baxır ki, küpə çox yüngüldür. Ağzını açır ki, bom-boş. Deyir:

– Molla, bəs deyirdin heç küpəyə əlin də dəyməyib?

Molla deyir:

– Elə genə də deyirəm də... Canım üçün küpəyə heç əlim də dəyməyib.

Kişi deyir:

– Necə əlin də dəyməyib? Bəs bunun içindəki bal hanı?

Molla deyir:

– Hə, belə de... Axı sən küpəni soruşurdun, balı soruşmurdun ki... Əgər bal küpənin içində qalsaydı, daha mən niyə yorğan-döşəyə düşürdüm ki?..

## GÖTÜRSƏM YAXŞIDI

Bir gün qonşu uşaqları sözü bir yerə qoyurlar ki, Mollanı aldadıb başmaqlarını oğurlasınlar. Yığışıb Mollagilin qapısının qabağında olan bir ağacın dibində onu gözləyirlər. Bir də baxırlar ki, budu, Molla gəlir. Tez başlayırlar ucadan danışmağa ki, bu ağaca heç kəs çıxa bilməz. Molla mübahisəni eşidib yaxınlaşır ki:

– Burada nə çətin iş var ki?.. Mən bu saat çıxaram.

Uşaqlardan biri deyir:

– Çıxa bilməzsən.

İkincisi deyir:

– Sənə belə görünür. Çox ucadı, çıxmaq olmaz.

Bir başqası deyir:

– Uzaqdan baxana döyüş asan gələr.

Belə-belə sözlərlə onu qızışdırırlar. Molla cübbəsinin ətəklərini taxır belinə, başmaqlarını çıxardıb, yaxınlaşır ağaca ki:

– Bu saat görərsiniz, çıxmaq olar, ya yox.

Molla yapışır ağacdan ki, çıxsın, birdən dayanır. Bir az fikirləşir, gözaltı bir uşaqlara baxır, sonra başmaqlarını götürüb sancır belinə, başlayır çıxmağa.

Uşaqlardan biri soruşur:

– Molla əmi, başmaqlarını niyə götürürsən?

Molla deyir:

– Lazım olar.

Uşaqlar soruşurlar:

– Ağacda başmaq sənin nəyinə lazım olacaq?

Molla deyir:

– İşdi, bəlkə yolum o yana düşdü, geri qayıtmadım. Götürsəm yaxşıdı.

## DÖNÜB ADAM OLASAN

Molla bir gün bazardan bir eşşək alır, noxtasından tutub dalınca çəkə-çəkə evə aparır. Lotular sözü bir eləyib düşürlər bunun dalına. Xəlvət küçələrin birində yavaşca noxtanı eşşəyin başından çıxardır və qaytarıb bir baş aparırlar bazara satmağa. Molla işi başa düşməsin deyə, lotulardan biri noxtanı öz başına keçirdib səssiz-səmirsiz, yavaş-yavaş Mollanın dalınca gedir. Molla çatır evin qapısına. Dala dönəndə nə görür... Eşşəyin yerində bir adam. Donub qalır. Lotu tez deyir:

– Molla əmi, Allah sənin atana rəhmət eləsin. Məni eşşəklikdən qurtardın.

Molla soruşur:

– Sən kimsən?

Lotu deyir:

– Molla əmi, mən bir nadinc uşaq idim. Keçən gün anamı çox incitdim. O da hirslənib mənə qarğış eləyib dedi ki: səni görüm, səni görüm ağız-burunlu eşşək olasan! Bir də baxdım ki, dönüb olmuşam eşşək. İndi bilmirəm sən necə əməlisaleh adamsan ki, yenə də məni adam elədin. Çox sağ ol! Ömrüm olduqca sənə dua eliyəcəyəm.

Molla da sevinir. Sonra lotuya nəsihət verərək deyir:

– Yaxşı, yeri çıx get! Bir də bundan sonra ananı incitmə!

İki gündən sonra Molla yenə çıxır bazara ki, bir eşşək alsın, bir də baxır ki, dünənki eşşək bazardadı. Yaxınlaşıb qulağına deyir:

Adə, sən nə ədəbsiz uşaqsanmış. Sənə demədim bir də ananı incitmə?! Nahaq yerə baxma üzümə! Daha ölsən də səni almayacağam ki, dönüb adam olasan.

## ALTI ŞAHI DA ÜSTÜNDƏ

Bir gün Molla meydanda dayanıb bir neçə dostu ilə söhbət eləyirmiş. Dostlarının yanında onu utandırmaq istəyən bir nəfər cibindən bir qızıl çıxardıb deyir:

– Molla, səndə pul olar, bunu bir xırdala, lazımdı.

Molla dostlarının yanında"pulum yoxdu" deməyə utanaraq deyir:

– Heç indi yeridi? Görürsən söhbətimiz var də...

Kişi əl çəkmir ki:

– Yox, Molla əl çəkəsi, deyiləm. Gərək xırdalayasan.

Molla qızılı alır, o yana bu yana çevirib, baxıb deyir:

– Yox, qardaş oğlu, bu qızıl əskikdi. Mən buna on manat verə bilmərəm.

Kişi deyir:

– Eybi yoxdu, neçə verirsən ver, ancaq xırdala! Çox lazımdı.

Molla görür ki, bu əl çəkməyəcək, deyir:

– Bilirsən?.. Bu belə çox əskikdir ey... Sən gərək bu qızılı mənə verəndən sonra bir altı şahı da üstündə verəsən ki, hesablaşaq.

## ASANDA DA Kİ, BELƏ...

Molla Nəsrəddin uşaqlığında çox dəcəl imiş. Heç sözə baxmazmış. Bir gün anası vacib bir iş üçün tanışlarından birinin evinə getməli olur. Gedəndə Nəsrəddini çağırıb bir çox yalvar-yaxardan sonra deyir:

– Bala, başına dönüm, bax, mən gəlincə qapıdan ayrılma ha...

Anası gedəndən bir az sonra Nəsrəddinin dayısı gəlir ki:

– Ədə, anan evdədimi?

Nəsrəddin deyir:

– Yox, gedib özgə yerə.

Dayısı deyir:

– Anana deyərsən ki, gecə gələcəyəm sizə.

Nəsrəddin deyir:

– Yaxşı.

Dayısı da bilirmiş ki, Molla sözə qulaq asan deyil. Ona görə də deyir:

– Ədə, bax, hökmən deyərsən ha... Gəlib görsəm ki, deməmisən, özün bil...

Dayısı gedən kimi Molla tüpürür dabanına, ya Allah, anasının dalınca. Yolda yadına düşür ki, "anam mənə tapşırmışdı qapıdan ayrılmayım". Bir az durub fikirləşir, tez geri dönür. Gəlib evin qapısını söküb alır çiyninə, durma gəldim, bir baş anasının yanına. Anası bir də baxır ki, budu, oğlu qapını söküb, alıb dalına, təngənəfəs gəlir. Soruşur:

– Ədə, bu nə oyundu? Bu qapı nədi?

Nəsrəddin deyir:

– Evimizin qapısıdı də...

Anası soruşur:

– Bəs belə niyə?

Nəsrəddin deyir:

– Özün tapşırdın ki, qapıdan yaxşı muğayat ol, ondan ayrılma. Dayım da gəldi dedi ki, get anana de, gecə gələcəyəm sizə. Mən də gəldim sənə xəbər verməyə. Daha qapıdan ayrılmayıb onu da söküb aldım çiynimə.

Anası hirslənir ki:

– Ədə, sən gicsən, sarsaqsan, ağlın qaçıb...

Nəsrəddin onun sözünü kəsərək qəzəblə qapını yerə çırpıb deyir:

– Bu da sənə yaxşılıq... Sözlərinə qulaq asmırsan, deyirlər dəcəldi, asırsan, deyirlər gicdi.

## MOLLANIN NİŞANƏSİ

Mollanın yaşadığı evdən xeyli aralı əkilməyən, xali bir yer var imiş. Bir gün qonşusu baxır ki, Molla Nəsrəddin bu xali yerdə çox diqqətlə nə isə axtarır. Yaxın gəlib soruşur:

– Molla nə axtarırsan?

Molla deyir:

– Ay filankəs, vallah bu il mənim işim heç düz gətirmir. Necə deyərlər, avand işim tərsinə dönür. Dəryaya su üçün gedirəm, suyu quruyur; heç bilmirəm bəxtimdən kimə şikayət eləyim.

Qonşu deyir:

– Axı nə olub? Bir danış görək! Bəlkə mənim köməyim dəydi.

Molla deyir:

– Vallah, Allahdan gizli deyil, səndən nə gizli? Bir az pul artırıb burda basdırmışdım, indi nə qədər axtarıram, tapa bilmirəm.

Qonşu soruşur:

– Bəs nişanə-zad qoymamışdın?

Molla deyir:

– Nişanəsi elə özündən var idi deyə, daha mən əlavə nişanə qoymadım.

Qonşu soruşur:

– Nə idi nişanəsi?

Molla deyir:

– Mən pulu basdıranda göydə bir parça bulud var idi, haman yerə kölgə salmışdı. Mən də elə pulu o kölgədə basdırdım. İndi mənim bu dönmüş bəxtimdən zəhrimar bulud hara isə çıxıb gedib, kölgəsini də özü ilə aparıb.

## DAHA QARDAŞ NECƏ OLAR?

Mollanı bir başqa şəhərə qonaq aparırlar. Bir neçə gün hörmət elədikdən sonra axırıncı gün soruşurlar:

– Molla şəhərimizi necə gördün? Xoşuna gəldimi?

Molla, deyir:

– Çox xoşuma gəldi. Özü də lap bizim şəhərin doğmaca qardaşıdı.

Soruşurlar:

– Necə yəni doğma qardaşıdı?

Molla deyir:

– Balam, şəhəriniz gecələr bizim şəhər kimi qaranlıq olur. Gündüzlər bizim şəhər kimi işıqlı olur. Ayınız bizimki kimi, ulduzlarınız bizimki kimi, günəşiniz də bizimki kimi. Daha qardaş necə olar?

## DƏDƏ-BALA ÇIXDILAR

Günlərin birində Molla bir dostu ilə bazardan keçirmiş. Bir də baxırlar ki, iki kişi bir-birilə savaşır. Dostu Mollaya deyir:

– Gəl gedək aralayaq!

Molla da razılaşır. Lap yaxına çatanda savaşanlar ayrılırlar. Biri o birinə deyir:

– Mən səni indiyə kimi yaxşı tanımamışam. Sən lap eşşək imişsən ki...

O biri də dönüb cavabında deyir:

– Mən eşşəyəmsə, sən də qoduxsan.

Molla Nəsrəddin işi belə görəndə dostunun qolundan çəkir ki:

– Gəl gedək! Bunlar dədə-bala çıxdılar. Daha savaşmazlar.

## GÖR NƏ BAŞIN AŞAĞI SALIB...

Günlərin birində Mollanın həyətinə bir öküz girib gülləri ayaqlayır.Molla əlinə bir ağac alıb, düşür öküzün dalına. Ancaq öküz qaçıb əldən çıxır. Bir neçə gündən sonra Molla bir də baxır ki, həmin öküzü, budu, yiyəsi qoşub arabaya sürür. Molla dəyənəyi qapıb düşür öküzün üstünə, vur ki, vurasan. Öküz sahibi qışqırır:

– Ay Molla, nə qayırırsan, öküzü niyə döyürsən?

Molla deyir:

– Sən qıfılla! O özü bilir niyə döyürəm. Bax gör nə başını aşağı salıb...

## MOLLA O DÜNYADA

Bir dəfə söhbət əsnasında Molla arvadından soruşur ki:

– Arvad, sən bilərsən, adamın ölüb-ölməməyini nədən bilmək olar?

Arvad deyir:

– Əl-ayağının soyumağından.

Bu söhbətdən bir neçə gün sonra Molla meşədə odun qırırmış, bir də baxır ki, əlləri, ayaqları yaman üşüyür. Arvadın sözü yadına düşür, öz-özünə deyir:

– Bəli, əl-ayağım soyudu, deməк ki, mən öldüm.

Bunu deyib, əl-ayağını uzadıb yatır. Bir də baxır ki, yoldan bir qatır karvanı gəlir, öz-özünə fikirləşir:

– Yaxşı, öləndə nə olar ki?.. Yenə də qoy bir baxım görüm, bu nə karvandı belə?

Yavaşca başını qaldırır. Qatırlar birdən-birə onun qalxmağından qorxub hürkürlər. Qatırçı Mollanı tutur ki:

– A kişi, burada nə qayırırsan?

Molla deyir:

– Mən o dünya adamlarındanam. Ölüyəm.

Qatırçı:

– Bu saat sənə göstərərik ölü necə olar-deyib Mollanı ölüncə döyüb çıxıb gedir. Bir azdan sonra Molla ayılır, durub yavaş-yavaş gəlir evinə.

Arvadı görür ki, Molla, budu, başı-gözü qanlı gəlir. Bəli, bu dəfə doğrudan da Mollanın baş-gözünü sarıyıb uzadırlar yorğan-döşəyə. Mollanın azarladığını eşidən yoluxmağa gəlir. Baxırlar ki, bu azarlamaq deyil, deyəsən işin içində iş var. Bunun salamat yeri bircə qulağıdı ki, onun hərəsi dörd parçaya bölünüb. Soruşurlar:

– Molla, nə olub sənə? Harada idin?

Molla deyir:

– O dünyaya getmişdim.

Soruşurlar:

– Necədi o dünya? Xoşuna gəldimi?

Molla deyir:

– Gözəl yerdi. Amma sizə vəsiyyət eləyirəm, işdi, o dünyaya yolunuz düşsə, məbada-məbada özgənin qatırını ürküdəsiniz.

## SUYUNUN SUYUNUN SUYUDU

Bir gün bir kəndli Mollaya bir dovşan gətirir. Molla kəndliyə əlindən gələn qədər hörmət eləyir. Bir neçə gündən sonra kəndli yenə də gəlir. Molla onu tanımayıb soruşur:

– Bala, sən kimsən?

Kəndli deyir:

– Bıy, ayıb deyilmi, a Molla?! Niyə tanımırsan? Keçən dəfə sənə dovşan gətirən adamam da...

Molla kəndlinin qabağına bir qab şorba qoyub, deyir:

– Buyur, gətirdiyin dovşanın suyundan ye!..

Bir neçə gündən sonra evə bir neçə adam gəlir. Molla bunların kim olduqlarını soruşur.

Deyirlər:

– Biz sənə dovşan gətirən adamın əmisi, dayısıyıq.

Molla gedib o biri evdə şorbanın üzünün yağını yığır, suyunu gətirib ortalığa qoyur. Qonaqlar bir-iki tikə yeyib görürlər ki, dadsız bir şeydir. Biri soruşur:

– Ay Molla, bu necə şorbadı?

Molla deyir:

– Vallah, elə haman o dovşanın suyunun suyudu.

Üç-dörd gündən sonra bir beş-altı nəfər də gəlir.

Molla onlardan kim olduqlarını soruşanda, deyirlər ki:

– Biz dovşan gətirən kəndlinin əmisi, dayısı oğlanlarıyıq.

Molla gedib arxdan bir qaba su doldurur, gətirir xörək əvəzinə qoyur bunların qabağına. Qonaqlar bir suya, bir Mollaya baxıb soruşurlar:

– Molla, bu nədi?

Molla deyir:

– Bu həmin dovşanın suyunun suyunun suyudu.

## MOLLANIN DƏVƏSİ

Günün birində Molla bir dəvəyə minib gəzməyə çıxır ki, ətrafı yaxşı görə bilsin. Arvadı deyir:

– Ay Molla, bu dəvə çox ucadı. Səni yıxar elər, şil-küt olarsan. Gəlsənə, elə eşşəyimizəcə minəsən.

Molla deyir:

– Yox, arvad! Daha bəsdi mən eşşəyə mindim. İndi daha ucalmaq istəyirəm.

Qərəz, arvad çox deyir, Molla az eşidir, dəvəni döyəcləyib yola düzəlir. Az gedir, çox gedir, qabağına bir dərə çıxır. Dərəyə düşən yol çox əyri-üyrü, özü də çox ensiz imiş. Molla nə qədər çalışırsa, dəvə

bu yol ilə dərəyə düşmək istəmir. Molla hirslənib dəvəni döyür. Dəvə də hirslənib Mollanı yerə vurur. Molla bayaq ha yıxılıb özündən gedir. Yol ilə keçən adamlar dəvəni tuturlar. Mollanı da huşa gətirirlər. Molla deyir:

– Azı min dəfə eşşəkdən yıxılmışam, heç belə olmamışam. Dəvədən yıxılmaq nə pis olurmuş.

Deyirlər:

– Axı sən hara, dəvə hara! Niyə öz eşşəyini minmirdin ki?

Molla deyir:

– Heç zad. Ucalmaq istəyirdim.

Deyirlər:

– Bəs bilmirdin ki, hər ucalmağın bir yıxılmağı da var?

Molla deyir:

– Eşitmişdim, görməmişdim.

Deyirlər:

– Daha bundan sonra dəvəyə minməyəcəksən ki?..

Molla deyir:

– Mənə Molla Nəsrəddin deyirlər. Bir dəvə nədir ki, mən onun öhdəsindən gələ bilməyəm. Minəcəyəm, lap canını da alacağam.

Deyirlər:

– Axı yenə yıxar.

Molla deyir:

– Yox, daha yıxa bilməz. Bu dəfə ona görə məni yıxdı ki, gözləri görürdü, dərəyə düşməkdən qorxdu, məni yerə vurdu. İndi onun gözlərini çıxardacağam.Elə ki oldu kor, nə görəcək, nə də qorxacaq. Ondan sonra haraya istəyirəm sürüb, keyfimi çəkəcəyəm.

## UÇAR

Bir gün Molladan soruşurlar:

– Molla, səhər açılar-açılmaz niyə bu camaat evindən çıxıb hərə bir tərəfə gedir?

Molla çox fikirləşəndən sonra deyir:

– Çünki hamısı eyni tərəfə getsə, dünyanın bir tərəfi ağırlıq eləyib uçar.

## DƏVƏ DEYİL Kİ...

Bir gün Molla bazardan evə gəlirmiş. Görür ki, qonşu uşaqlarından biri burnunu tutub ağlayır. Molla uşağın yanına gəlib soruşur:

– Nə olub, bala, niyə ağlayırsan?

Uşaq kənarda duran bir az özündən böyük uşağı göstərib deyir:

– O uşaq mənim burnumu dişlədi.

Molla uşağa tərəf dönür. Uşaq tez qayıdır ki:

– Yalan deyir, özü dişlədi.

Molla hirslənir ki:

– Kəs, ədəbsiz! Niyə, o dəvə deyil ki, özü öz burnunu dişləyə?

## QIRX İLLİK SİRKƏ

Bir gün qonşulardan biri gəlir Mollanın yanına ki:

– Molla, sizdə qırx illik sirkə olmaya?

Molla deyir:

– Var, necə?

Qonşu deyir:

– Bir az ondan ver mənə!

Molla deyir:

– Verə bilmərəm.

Mollanın belə qıpqırmızı "vermərəm" deməyinə qonşu heyrətlə soruşur:

– Niyə vermirsən?

Molla deyir:

– Elə hər belə istəyənə versəydim, qırx ildən indiyə kimi sirkə qalmazdı ki...

## BUNDAN SONRA NƏ QORXMAQ?

Günlərin birində Molla möhkəm azarlayır Bütün qonum-qonşu, tanış-biliş yığışır başına. Baxırlar ki, kişinin halı çox xarabdı. Mollanın özü də hiss eləyir ki, bu azardan qalxası deyil. İçəri girən işi belə

görüb, bir tərəfdə oturur. Amma Molla özü heç qorxmayıb, əvvəlkindən də bir az artıq şitlik eləyir. Axırda yaxın dostlarından biri soruşur:

– Ay Molla, sən həmişə ölüm adı gələndə qorxudan ağappaq ağarardın. İndi nə olub, heç vecinə də gəlmir?

Molla deyir:

– Mənim qorxum bu hala düşməkdən idi. Daha bundan sonra nə qorxmaq?

## MOLLA VƏ QULDURLAR

Günlərin birində quldurlar Mollanı yolda tutub soyurlar. Eşşəyini, cibindəki pullarını alandan sonra başlayırlar özünü də döyməyə. Molla axırda dilə gəlib deyir:

– Yaxşı, var-yoxumu əlimdən aldınız, öz yerində, bəs özümü niyə döyürsünüz? Gec gəlmişəm, ya az gətirmişəm?

## EVDƏ QOYMAYIB Kİ?..

Qışın soyuq, qarlı günlərinin birində Molla bir yoldaşı ilə qonşu kəndə gedirmiş. Yolda qabaqlarına bir canavar çıxır. Bunlar elə bir hay-küy salırlar ki, canavar qorxudan qaçıb girir yuvasına. Mollanın yoldaşı başlayır ki, mən gərək bu canavarı öldürəm. Molla nə qədər yalvarır ki:

– Canım, əcəl səni girləməsin. Gəl, çıxıb gedək! Canavarla zarafat eləmək olmaz. "Mən ölüm" bilmir, "sən öləsən" bilmir.

Yoldaşı əl çəkmir, yavaş-yavaş yaxınlaşıb başını soxur yuvaya. Molla gözləyir, gözləyir, baxır ki, yox... Yoldaşı heç hərəkət eləmir. Axırda canını dişinə tutub gəlir yaxına, yoldaşının qıçlarından yapışıb çəkir bayıra. Baxır ki, bunun başı yoxdu. Bir qədər fikirləşəndən sonra dönüb qayıdır öz kəndlərinə. Yoldaşının qapısını döyüb arvadından soruşur ki:

– Bacı, ərin səhər evdən gedəndə başını özü ilə götürmüşdü, ya yox? Yadından çıxardıb evdə-zadda qoymayıb ki?..

## SƏSİM HARACAN GEDİR?

Molla bir gün gəlib çıxır minarəyə. Nə qədər gücü var bir dəfə ucadan qışqırır, sonra tələsik minarədən düşüb başlayır çölə tərəf qaçmağa. Yoldan keçənlər onun belə təngnəfəs qaçdığını görüb soruşurlar:

– Molla, nə olub, hara belə qaçırsan?

Molla deyir:

– Qaçıram görüm səsim haracan gedir?

## HAMISI GƏLSİN

Mollaləmədən nə isə götürmək istərkən içi soğanla dolu xəlbir düşür başına. Molla hirslənib xəlbiri götürür, var gücü ilə vurur yerə. Xəlbir qalxıb Mollanın üzünə dəyir. Ağrıdan Mollanın gözləri qaralır. Xəlbiri götürüb bayıra tullamaq istəyir. İşin tərsliyindən xəlbir yan gedir, divara dəyib təzədən qayıdır dəyir Mollanın başına. Molla acığa dolub üst paltarını çıxardır, köynəyinin qollarını çırmalayır, taxçadakı yekə bıçağı götürüb qışqırır:

– Di, gəlin!.. Nə qədər xəlbir var deyin hamısı gəlsin!

## KÖÇÜRT BOSTANA

Mollanın tanışlarından biri pəncərəsiz evdə yaşayırmış. Yazıq həmişə evin günəşsizliyindən şikayət edərmiş. Bir gün Mollaya rast gəlib söhbət əsnasında deyir:

– Ay Molla, sən bir ağıllı adamsan. Mənim evim günəş üzünə həsrət qalıb axı... Bir balaca da olsun evə gün düşmür. Mən necə eləyim?

Molla fikirləşir, fikirləşir, axırda deyir:

– Yaxşı, bostanına günəş düşürmü?

Kişi deyir:

– Düşür.

Molla deyir:

– Onda evini köçürt bostana.

## GÖR QAYIŞ NƏ ÇƏKİR

Molla cüt sürdüyü zaman qayış qırılır. Molla tez əmmaməsini açıb dördqat eləyir, qayış yerinə bağlayır. Elə öküz bir dəfə güc vercək qırılır. Molla dörd parça olmuş əmmaməsini götürüb, baxıb deyir:

– Şənin, şöhrətin dünyanı götürüb. Həmişə mollaların, axundların başında gəzirsən. Söz-sözə gələndə qayışı bəyənməzsən. Amma bax, onun aylarınan, illərinən dözdüyünə bircə saat da dözə bilmədin.

## İNDİ DƏ GÖTÜRƏ BİLMİRƏM

Qış gecələrinin birində camaat bir evə yığışıb vaxt keçirirmişlər. Oradan-buradan söz düşür, hərə öz gücündən, qüvvətindən danışır. Növbət Mollaya çatanda deyir:

– Düzdü, mən qocalmışam, ancaq ona baxmayın, gücüm elə əvvəlki kimidi. Heç azalmayıb.

Soruşurlar:

– Nədən bilirsən?

Molla deyir:

– Ondan bilirəm ki, bizim həyətdə bir yekə daş var. Mən uşaqlıqda da onu götürə bilmirdim, cavanlıqda da götürə bilmirdim, indi də götürə bilmirəm.

## SƏN ÇALDIN

Günlərin birində Molla şəhərə getməyə hazırlaşır. Bunu eşidən kənd camaatı Mollanın başına yığlıb hərə bir şey tapşırır. Molla baxır ki, şey tapşıran çoxdu, amma almaq üçün heç pul verən yoxdu. Elə hamısı deyir: "Molla, mənə filan şey al gətir, pulunu neçə olsa verərəm".

Heç kəsin ürəyini sındırmaq istəməyən Molla da hamıya "Yaxşı, baş üstə, göz üstə" – deyə cavab verir. Bu halda camaatın içindən bir uşaq çıxıb Mollanın yanına gəlir, bir abbası pul uzadıb deyir:

– Molla əmi, al bu pulu, mənə də şəhərdən bir düdük al gətir.

Molla pulu alıb uca səslə uşağa deyir:

– Bala, sən çaldın.

## AXIRDA BURA GƏLƏCƏK

Molla küçə ilə gedərkən bir nəfər onun börkünü başından götürüb qaçır. Molla baxır ki, ona çata bilməyəcək. Qayıdır birbaş yüyürür qəbiristanlığa. Bir daşın üstündə oturub başlayır gözləməyə. Bir nəfər soruşur:

– Molla, sənin börkünü götürən bazara tərəf qaçdı, bəs sən buraya niyə gəlibsən?

Molla deyir:

– Sən işində ol! Bazara getməsin ki, lap göyə çıxsın, hara getsə, axırda bura gələcək.

## BİR ZİBİL DEYİLDİM

Molla bir gün yol ilə gedirmiş, qabağına bir xəndək çıxır. Ətəklərini yığışdırıb tullanır, ancaq o tərəfinə düşə bilməyib ortasına düşür. Öz-özünə deyir:

– Ax, cavanlıq, cavanlıq!.. Olaydı cavanlıq...

Sonra bir o tərəfə, bir bu tərəfə baxıb görür ki, heç kəs yoxdu, deyir:

– Amma öz aramızdı, heç cavanlıqda da bir zibil deyildim.

## ÖZÜN YE

Bir gün Molla qızarmış toyuq yeyirmiş. Bir nəfər bunu görüb Mollaya yanaşır ki:

– Molla, ondan bir az da mənə ver!

Molla deyir:

– Mənim deyil, arvadımındı.

– İndi ki, sən yeyirsən?

– Mən yeyəndə nə olar? Verəndə tapşırıb ki, heç kəsə vermə, özün ye!

## ALDADIB DƏ...

Birisi özünü çox tərifləyib həmişə deyərmiş ki, məni heç kəs aldada bilməz. Axırı bir gün yenə belə deyəndə Molla hirslənir ki:

– Dayan burada, bir evə gedim, gəlim, gör səni necə aldadacağam!

Molla bu sözləri deyib gedir. Kişi ha gözləyir ki, Molla gələcək, Molla gəlib çıxmır. Axırda adamları çağırıb əhvalatı danışır ki:

– İndi özünüz də görün! Molla gördü ki, məni aldada bilməyəcək, əkildi.

Hamı başlayır gülməyə. Axırda kişi hirslənir ki:

– Niyə gülürsünüz?

Adamlardan biri deyir:

– Balam, daha aldatmaq necə olar ki? O elə səni aldadıb burda saxlayıb də...

## XURCUN TİKƏCƏKDİM

Bir gün bazarda Mollanın xurcununu oğurlayırlar. Molla xurcunun oğurlandığını görüb,meydanın ortasında dik bir yerə çıxır, ucadan qışqırır.

– Kim mənim xurcunumu oğurlayıb, dinməz-söyləməz gətirib versin. Yoxsa mən bilirəm ki, nə eləyəcəyəm.

Yaxında gizlənmiş oğru Mollanın bu hədəsindən qorxuya düşüb xurcunu gətirib verir. Özü də maraqlanıb soruşur ki:

– Molla, işdi, xurcunu gətirib verməsə idim nə edəcəkdin?

Molla deyir:

– Evdə köhnə bir cecim var. Gedib onu kəsib xurcun tikəcəkdim.

## ARZUMA ÇATDIM

Mollanın uzunbuynuz bir öküzü var imiş; gecə-gündüz fikirləşirmiş ki, nə tövr eləyim, heç olmazsa bircə dəfə bu öküzün buynuzlarının arasında oturum. Ancaq arzusuna çatmaq üçün heç bir fürsət tapa bilmirmiş.

Bir gecə Molla çıxır bayıra. Baxır ki, öküz uzanıb həyətdə kövşəyir. Molla öz-özünə: "Sən öləsən, lap fürsətdi" – deyib ətəklərini

yığışdırır, tullanır öküzün başına, əyləşir iki buynuzunun arasında. Öküz hürküb, qalxır ayağa, başını silkələyib Mollanın çırpır yerə. Molla bayaq ha özündən gedir. Tappıltıya arvadı çıxır bayıra, görür ki, Molla tir-tap uzanıb yerə, nə özünü bilir, nə sözünü; baş-gözü də qan içində. Arvad haray-həşir salır, camaat yığılıb Mollanı ayıldır, baxırlar ki, bir qıçı da sınıb. Qərəz, kişini gətirib uzadırlar yorğan-döşəyə. Molla göz gəzdirib görür ki, arvadı bir tərəfdə durub, xısın-xısın ağlayır. Başını qaldırıb deyir:

– Arvad, ağlama, hərçənd ki, yıxılıb baş-gözümü dağıtdım, amma arzuma da çatdım.

## SARIDIQCA QURTARMIR

Mollanın çox yekə bir əmmaməsi var imiş. Bir gün arvadı Mollanın əmmaməsini açıb yuyur, qurudur, verir Mollaya ki, yenə sarıyıb düzəltsin. Molla ha sarıyır, ancaq əmmamə uzun olduğundan qurtarmır. Axırda təngə gəlib əmmaməni birbaş gətirir bazara, verir bir dəllala ki,satsın. Dəllal bazarda əmmaməni bir az o yan, bu yana gəzdirib axırda bir müştəri tapır. Molla baxır ki, müştəri, deyəsən, əmmaməni dəllaldan almaq istəyir. Müştəriyə yazığı gəlir, ağzını onun qulağına yapışdırıb xəlvəti deyir:

– Qardaş, aldanıb alma! Çox zəhlə tökən əmmamədi, sarıdıqca qurtarmır.

## ATANIN DUASI

Mollanın ərdə iki qızı var imiş. Bir gün bu fikrə gəlir ki, gedib hər ikisinin keyfini soruşsun. Durub qabaqca gəlir böyük qızının yanına. Bir az ordan-burdan söhbət eləyəndən sonra qız deyir:

– Kürəkənin bu il buğda əkib. Mənə də söz verib ki, əgər yaxşı yağış yağıb, bol məhsul olsa, mənə bir dəst ipək paltar alsın.

Molla yağışın yağması üçün bir az dua eləyir. Sonra durub kiçik qızının yanına gedir. Burada da bir qədər söhbətdən sonra kiçik qız deyir:

– Kürəkənin çoxlu pambıq əkib. Bu saat hamısı güldü. Deyir əyər yağış yağıb pambığı xarab eləməsə, mənə bir dəst paltar alacaq.

Molla burada da yağışın yağmaması üçün dua eləyir, sonra durub gedəndə deyir:

– Bala, dünyanın işi belədi. Bacının birinə yağış lazım olur, birinə quraqlıq. Atanın da əlindən o gəlir ki, hər ikisi üçün dua eləsin.

## MOLLA İLƏ OĞLU

Bir gün Molla oğluna bir abbası gümüş pul verir. Uşaq pulu oynadanda nə təhər olursa salır çaya. Tez əlinə bir ağac alıb ha çalışır ki, pulu ağacın ucuna yapışdırıb çəkib çıxartsın, olmur ki, olmur. Molla oğlunun əlləşdiyini görüb soruşur:

– A gədə, nə eləyirsən?

Oğlu deyir:

– Pulum düşdü suya, nə qədər eləyirəm ağaca yapışdırıb çıxardam, olmur.

Molla deyir:

– Mən heç gözləmirdim ki, bizim nəsildən belə axmaq uşaq çıxsın. Ay heyvan, bilmirsən ki, iki quru şeyi bir-birinə yapışdırmaq olmaz?

Uşaq deyir:

– Bəs nə eləyim?

Molla deyir:

– Ya ağacın ucuna tüpür, ya da pulun üstünə, sonra yapışdır.

## ASTA YEMƏYƏ NƏ VAR?

Yenə də bir gün Mollanı bir evə qonaq çağırırlar. O, ac olduğuna görə xörəyi çox tez-tez yeyib, hamıdan qabaq qurtarır. Elə ki, süfrə yığışdırılır, Molla ev sahibinə deyir:

– Səndən çox razı qaldım, ay filankəs! İnşallah, bu günlərdə bir də belə bir iş görsən, lap razı qalaram.

Ev sahibi zarafatla deyir:

– Yox, Molla mən səni daha qonaq çağırmayacağam. Sən məclisin gözəlliyini pozursan. Elə tələm-tələsik yeyirsən ki, dalınca çatmaq olmur.

Molla deyir:

– Rəhmətliyin oğlu, söz danış, söz olsun! Sən qonaqlıq ver, məni çağır! Asta yeməyə nə var? Söz verirəm ki, bu dəfə hər tikədən sonra gedib hamamda çimib gələm, ikinci tikəni götürəm.

## BADIMCAN ƏHVALATI

Mollanın çoxbilmiş arvadının tənbəl bir əmisi oğlu var imiş, işə-gücə getməyib səhərdən axşamacan veyl-veyl gəzərmiş, elə ki, acdı, gəlib Mollagildə qarnını doyurarmış.Bir neçə vaxt belə keçir. Axırda bir gün Molla təngə gəlib deyir:

– Arvad, sən bu əmioğlunu çox pis öyrədirsən. Bizə arxayındı deyə işə-gücə getmir. Bunun sonrası yaxşı olmayacaq. Bax, budu sənə deyirəm, bir də onu bizim evdə görməyim.

Arvad əhvalatı əmisi oğluna deyir. Əmisi oğlu da işini elə tutur ki, Molla evdə olanda heç bu həndəvərə dolanmır. Elə ki Molla evdən çıxdı, gəlib yeyir-içir, çıxıb gedir.

Günün birində, necə olursa, Molla bazardan çox tez qayıdır. Bu vaxt əmioğlu da evdə imiş. Arvad onu qaçırmağa imkan tapmayıb mətbəxdə gizlədir. Molla əlində də beş badımcan evə girir ki:

– Arvad, bazara təzə badımcan gəlib. Al, qoy ora, bişirərsən axşam yeyərik.

Arvad badımcanları alıb qoyur mətbəxə. Fikirləşir ki, indi Molla mətbəxə girsə, işin üstü açılacaq. Bir az fikirləşib, tez gətirir əmisi oğlunun başına bir çadra örtür, badımcanın da birini gizlədir. Sonra gəlib Mollaya deyir:

– A kişi, dur görək başımıza nə iş gəlib. Badımcanın biri dönüb olub adam.

Molla deyir:

– Ay arvad, dəli olma! Badımcan niyə dönüb adam olur?

Arvad deyir:

– İnanmırsan, dur bax da!.. Odu, mətbəxdə dörd dənə badımcan var, bir dənə də arvad. Özü də nə dinir, nə danışır.

Molla durub mətbəxə girir. Baxır ki, doğrudan da mətbəxdə bir çadralı arvad var, badımcan da dörd dənədi. Deyir:

– Bacı, zəhmət çək, dur düş qabağıma gedək!

Çadralı əmioğlu dinməz-söyləməz durub düşür Mollanın yanına. Molla birbaş gəlir badımcan aldığı baqqalın dükanına ki:

– Qardaş, badımcanın biri dönüb olub adam, özü də arvad xeylağı. Xahiş eləyirəm götürüb əvəzində badımcan verəsən.

Baqqal məsələni başa düşür. Bir badımcan verib, əmioğlunun canını qurtarır.

## CIZIQ MƏSƏLƏSİ

Arvad min bir hiylə ilə ayda, on beşdə bir nə qədər əmioğlusuna görüm-baxım eləyirsə, Molla da gündən-günə bənd-bərəni bərkidir və kişini evdən qaçaq salır. Əmioğlunun müftə yeməkdən əli çıxır. Tənbəllikdən işə də getmir. Belə ac qalmağının günahını isə öz tənbəlliyində yox, Mollada görür, ondan əvəz çıxarmaq üçün fürsət axtarır.

Bir gün öyrənir ki, Molla yaxın kəndlərin birində ərdə olan qızına qonaq getmək istəyir. Özü də çoxlu pul aparmaq istəyir ki, qış üçün yağ-pendir alıb gətirsin.

Gözləyir, gözləyir, Molla gedən gün paltarını dəyişir, üz-gözünü sarıyır, əlinə bir qılınc alıb kəsir yolun üstünü.

Molla da götürdüyü pulu arvada verib, mindirir eşşəyə, özü də yaraqlanıb-yasaqlanıb düşür arvadın qabağına, düzəlirlər yola.

Əmioğlu bir də baxır ki, budu, Molla gəlir. Gəlir, amma nə gəlir. Belində iki xəncər, bir əlində bir qılınc, bir əlində də bir nizə... Əmioğlu keçir yolun kənarına, Molla gəlib çatanda bir nərə çəkib pusqudan çıxır, kəsir başının üstünü. Molla özünü itirir. Əmioğlu Mollanın silahlarını alır. Ətrafına bir dövrələmə cızıq çəkib deyir:

– Ayağını bu cızıqdan qırağa qoysan, özün bil!

Sonra gəlir arvadın yanına. Arvad istəyir hay-küy salsın, əmioğlu özünü tanış verir. Arvad işi başa düşüb, sakit dayanır. Əmioğlu Mollanın arvada vermiş olduğu bütün pulları alır, sonra da bir nərə çəkib təpənin dalına keçir, aradan çıxır.

Əmioğlu aradan çıxandan sonra arvad gəlir Mollanın yanına ki:

– A kişi, bu nə iş idi, başımıza gəldi?
Molla deyir:
– Min eşşəyə gedək, arvad! Kişinin başı qalda gərək.
Arvad deyir:
– Yaxşı, bu quldur mənə tapşırdığın pulu da əlimizdən aldı, indi biz pendiri, yağı nə ilə alacayıq?
Molla bir fikrə gedib deyir:
– Verərlər, nisyə alıb pulunu sonra verərik, verməzlər, almarıq.
Arvad deyir:
– Yaxşı, bəs sən niyə bu quldura bir əl açmadın axı?..
Molla hirslənir ki:
– Əlim boş idi ki, açaydım! Görmürsən hər iki əlim bənd idi...
Arvad danışmır. Molla deyir:
– Baxma, hərçənd ki, köpəkoğlu pulumuzu apardı, amma mən də onun dədəsini yandırdım.
Arvad soruşur:
– Necə? Nə elədin ki?..
Molla qürurla deyir:
– Məni cızığa qatıb demədi ki, ayağımı bayıra qoymayım, sonra ki, gəldi sənin yanına ha... Göz-gözə vurub düz üç dəfə ayağımı bayıra çıxartdım.

## ƏLİM HEÇ YANA ÇATMAZ

Deyirlər ki, günün birində yenə də əmioğlu evdə ikən Molla gəlir. Arvad bu dəfə də əmioğlusunu sandıqda gizlədir. Ancaq gecikir. Molla pəncərənin qabağından keçəndə onları görür. Tez evin qapısına tərəf gedir. Arvad da başa düşür ki, Molla onları gördü, tələsik əmioğlunu sandıqdan çıxarıb yenə də mətbəxə qaçırdır, inəyin elə o gün Molla bazara gedəndən sonra anadan olmuş buzovunu tutub sandığa salır. Molla içəriyə girir, heç bir söz deməyib birbaş sandığın üstünə cumur. Qapağı qaldırıb baxır ki, pəncərədən öz gözləri ilə gördüyü kişi dönüb olub buzov. Öz-özünə deyir:
– Mən bu arvaddan hər şey gözləyirdim, amma bağlı sandığın içində adamı buzova döndərə biləcəyini gözləmirdim. Yaxşısı budur ki, heç səsimi çıxarmayım. Yoxsa məni də inəkdən, öküzdən bir şeyə döndərər, sonra əlim heç yana çatmaz.

## TƏRSİNƏ DAYANIBMIŞ

Molla bir neçə nəfərlə at minib səfərə çıxır.Gecə bir yerdə yatmalı olurlar. Səhər Molla hamıdan tez qalxır. İstəyir ki, atını minib yola düşsün. Ancaq nə qədər diqqət eləyirsə, öz atını tanıya bilmir. Yoldaşlarından soruşmağa da utanır. Fikirləşib axırda bərkdən qışqırır ki:

– Quldurlar gəlir, tez olun, qaçaq!

Hərə tələsik qalxıb öz atını minir. Bu yol ilə Molla da öz atını tapır. Ancaq yoldaşların tələsik atlanmalarından Molla özü vahiməyə düşür ki, bəlkə elə doğrudan quldurlar gəlir. Odur ki, özü də tələsik bir təhər atı minir. Yoldaşları baxırlar ki, Molla atı tərsinə minib. Gülüşürlər ki:

– Ay Molla, quldur-zad yoxdu. Qorxudan atı tərsinə minibsən...

Molla özünü sındırmayıb tez deyir:

– Xeyir, mən qorxub eləməmişəm. Özü də mən lap düzünə minmişəm. Görünür ki, at özü quldurlardan qorxub, mən minəndə tərsinə dayanıbmış.

## TORTA

Mollanın yaşadığı məhəllədə bir dərviş varmış. Molla bu dərvişin gününü eləmiş imiş qara. Qorxudan ağzını da aça bilmirmiş. Amma özü də fürsət axtarırmış ki, Molladan bir yaxşı əvəz çıxarsın.

Bir gün Mollanın arvadına zeytun yağı lazım olur. Tutur Mollanın yaxasından ki, gərək bu saat gedib bazardan zeytun yağı alıb gətirəsən. Molla da bir az keyfsiz imiş. Çar-naçar durub küçəyə çıxır ki, bazara getsin. Bir də baxır ki, haman dərviş gedir. Çağırıb soruşur ki:

– Ağa dərviş, yenə camaatın başını tovlamaq üçün hara belə gedirsən?

Dərviş deyir:

– Sənin o mürdəşir yumuş üzündən yaman da baş tovlamaq mümkündü. Bazara gedirəm.

Molla deyir:

– Gəlsənə, zəhmət qəbul eləyib bizə də bir az zeytun yağı alıb gətirəsən. Yaman azarlamışam, gedə bilmirəm.

Dərviş deyir:
– Niyə almıram? Alaram.
Molla dərvişə bir qab verir, bir az da pul.
Dərviş Molladan əvəz çıxarmaq üçün fürsət tapır. Ancaq bunu özünə layiq bir şəkildə eləyir. Qabı zeytun yağı əvəzinə gənəgərçəklə doldurur, gətirib Molla Nəsrəddinə verir. Molla elə şüşənin ağzını açan kimi məsələni başa düşür. Ürəyində deyir: "Yaxşı, ağa dərviş, baxarıq kim-kimə borclu qalacaq".
Bu işin üstündən bir müddət keçir. Bir gün Molla çayçı dükanının qabağından keçirmiş, görür dərviş burdadı. Özünü göstərməyib evə gəlir. Bir az qara istiot götürüb burunotu ilə qarışdırır, bir burunotu qabının içinə doldurur, cibinə qoyur. Öz burunotu qabını da yaxşı burunotu ilə doldurub çayçı dükanına gəlir.
Dərviş Mollanı görən kimi öz söhbətini qurtarıb tamamlayır, sataşmasın deyə canının dərdindən gəlib onun yanında əyləşir. Molla yağ əhvalatını heç yada salmayıb, dərvişlə şirin-şirin söhbət eləyir. Hərdən bir də öz burunotu qabını çıxarıb burunotu çəkir. Elə ki, dərviş də Molladan burunotu istəyir, Molla göz-gözə vurub qutuları dəyişir. İstiotlu burunotunu dərvişə verir. Dərviş kamali-iştaha ilə istiotlu burunotunu çəkir burnuna. Kişinin gözləri çıxır kəlləsinə. İstiotun acılığından az qalır boğulsun. Dönür Mollaya ki:
– Ay Molla, bu nə idi sən mənə çəkdirdin?!
Molla çox sakit cavab verir:
– O günü mənim üçün alıb gətirdiyin zeytun yağının tortasıdı.

## ARPA DA SƏRƏRLƏR

Aldığı şeyi geri qaytarmayan qonşularından biri bir gün gəlib Molladan bir örkən istəyir. Molla deyir:
– Bu saat. Dayan qapıda, gedim gətirim.
Qonşu gözləyir, gözləyir, handan-hana Molla gəlir ki:
– Ay filankəs, vallah, örkənin üstünə arvad buğda sərib.
Qonşu təəccüblənib soruşur ki:
– Ay Molla, bu nə sözdü. Heç örkənin də üstünə buğda sərərlər?
Molla deyir:
– Niyə sərmirlər ki... Vermək istəməyəndə lap arpa da sərərlər.

## KAĞIZ MƏNDƏDİ

Bir gün yoldaşlarından biri Mollanı bazarda ciyər qovurmasına qonaq eləyir. Molla yeyib görür ki, çox ləzzətli xörəkdi. Ürəyində fikirləşir: "heç insaf deyil ki, bu gözəllikdə xörəkdən bizim arvad yeməsin".

Ciyərçidən soruşur ki:

– Qardaş, bu ciyəri necə bişirirsən ki, belə dadlı olur?

Ciyərçi başalyır ciyəri necə bişirdiyini danışmağa. Molla görür, yox, bu çox uzun oldu., yadında saxlaya bilməyəcək, ciyərçidən xahiş eləyir ki, yazıb versin. Ciyərçi qaydanı bir parça kağıza yazıb verir Mollaya.Molla kağızı qoyur cibinə, bir dənə də ciyər alıb, düşür yola.

Yolda, necə olursa, bir quş ciyəri Mollanın əlindən qapıb aparır.

Molla quşun dalınca baxıb deyir:

– Nahaq yerə zəhmət çəkmə, onu ləzzətlə yeyə bilməyəcəksən. Ciyərçinin verdiyi kağız məndədi.

## İÇİ DƏ YAZILMAYIB

Molla eşidir ki, qonşuda toydu, özü də yaxşı plov var. Çox fikirləşəndən sonra gedib bir zərf alır, içinə bir vərəq ağ kağız qoyub, ağzını bağlayır, birbaş özünü verir toy olan evə. İçəri girib soruşur:

– Ev sahibi hanı? Ona məktub gətirmişəm.

Ev sahibi də qonaqlar olan otaqda imiş. Bu vasitə ilə Molla girir otağa, zərfi birtəhər ev sahibinin ovcuna basıb, tez çökür süfrənin başına, başlayır yeməyə. Ev sahibi baxır ki, zərfin üstündə məktubun kimə çatmalı olduğu yazılmayıb.

Soruşur:

– Molla, bu nədi? Zərfin üstündə heç bir şey yazılmayıb ki... Molla ağzındakı tikəni birtəhər udub deyir:

– Bağışla, vallah, çox tələsik olduğu üçün heç içi də yazılmayıb.

## İNDİ DÜŞDÜN QUŞ HƏDDİNƏ

Molla bir gün bir hacıleylək tutub ayaqlarını və dimdiyini kəsir, sonra götürüb divarın üstünə qoyur, çəkilib kənardan baxıb deyir:

– Hə... bax, indi düşdün quş həddinə.

## XORUZU OLMASIN

Cavanlar fikirləşirlər ki, Mollaya bir kələk gəlsinlər. Sözü bir eləyib tuturlar Mollanın yaxasından ki, gedək hamama. Molla razılaşır. Sən demə, cavanlar hərəsi evdən bir dənə yumurta götürmüş imişlər. Elə ki soyunub girirlər içəriyə, cavanlardan birisi deyir:

– Yaxşı, çıxanda hamam pulunu kim verəcək?

O deyir sən ver, bu deyir sən ver, axırda biri deyir:

– Gəlin bir şərt kəsək! Hərə bir dənə yumurta yumurtlasın. Kim yumurtlaya bilməsə, hamam pulunu o versin.

Hamı razılaşır. Hərə bir bucağa çəkilir, evdən gətirdiyi yumurtanı altına qoyub başlayır toyuq kimi qaqqıldamağa. Molla görür işi uduzub, buna kələk gəliblər. Heç özünü itirməyib çıxır çarhovuzun qırağına, əllərini dizinə vurub bir-iki ağız bərkdən banlayır. Cavanlar soruşurlar:

– Molla, nə qayırırsan?

Molla deyir:

– Olmaz ki, bu qədər yumurtlayan toyuğun bir xoruzu olmasın.

## AY FAYDALIDI

Bir gün bir məclisdə günəşin nə qədər faydalı olmağı barədə söhbət düşür. Hərə bir cür günəşin faydasından danışır. Bir kənarda oturan Molla söhbətə qulaq asıb, axırda deyir:

– Mən bilmirəm siz niyə tutubsunuz bu günəşin quyruğundan. Mənə qalsa ay ondan faydalıdı.

Soruşurlar:

– Niyə?

Molla deyir:

– Çünki günəş ancaq gündüz çıxır. Onun üçün də qaranlığa heç bir faydası olmur. Amma ay gecələr çıxıb bütün dünyanı işıqlandırır. İndi görün, günəş faydalıdı, ay.

## BAĞRIM ÇATLAMIŞDI

Molla bir gün çöldən gəlirmiş. Kəndə girhagirdə qüvvətli bir zəlzələ olur. Molla tez eşşəkdən düşüb dua eləməyə başlayır. Görənlər soruşurlar:

– Molla, nə olub? Bu nə şükür-duadı?

Molla deyir:

– Siz bilmirsiniz. Bu zəlzələni ki mən gördüm, bizim evimizdə o qeyrət yoxdu buna tab gətirsin. İndi yəqin ki, yerlə yeksan oldu. Ona dua eləyirəm ki, yaxşıdı, mən evdə deyildim. Əgər evdə olsaydım, ölməsəydim də indi qorxudan bağrım çatlamışdı.

## GEDƏ BİLMƏRƏM

Bir gün bir cavan oğlan Mollanın yanına gəlib deyir:

– Molla əmi, mənim üçün bir məktub yaz.

Molla soruşur:

– Nə məktub?

Cavan deyir:

– Atama göndərəcəyəm.

Molla soruşur:

– Atan haradadı?

Cavan deyir:

– Bağdadda.

Molla deyir:

– Bağışla, bala, vallah işim çoxdu, gedə bilməyəcəyəm.

Cavan deyir:

– Hara, Molla?

Molla deyir:

– Bağdada.

Cavan deyir:

– Sən niyə gedirsən ki?.. Sənin getməyin lazım deyil.

Molla deyir:

– Yox, sən bilmirsən, lazımdı. Mənim yazdığım məktubu özümdən başqa heç kəs oxuya bilməz. Məktubu yazdım, gərək oxumaq üçün də özüm gedəm. Odu ki, indi vaxtım yoxdu, gedə bilmərəm.

## SƏNƏ NƏ?

Bir gün bir dostu Mollanı aldatmaq məqsədilə deyir:
– Molla, Molla ora bax, plov aparırlar.
Molla deyir:
– Mənə nə?
Dostu deyir:
– Sizə aparırlar.
Molla deyir:
– Onda sənə nə?

## NƏ QƏDƏR DİRİYƏM, TUTURAM

Günlərin birində Molla başdan-ayağa qara geyinib çıxır bazara. Adamlar soruşurlar:

– Molla, nə olub? Kimə yas tutubsan belə?

Molla deyir:

– Özümə. Öləndən sonra tuta bilməyəcəyəm. Dedim elə nə qədər diriyəm, tutum.

## DÜZ YOL GEDƏ BİLMƏZSƏN

Molla bir gün arvadından on toyuq, bir də bir xoruz alır ki:

– Arvad, aparım bazarda satım, sənə tumanlıq alım.

Arvad toyuqları və xoruzu tutub verir. Molla bunların hamısını bir böyük qəfəsə qatıb, alır çiyninə, düzəlir yola. İsti yay günü, bir az gedəndən sonra düşür günortanın lap istisinə. Baxır ki, toyuqlar qəfəsdə istidən elə ləhləyirlər ki, az qalır bağırları çatlasın. Qəfəsin ağzını açıb deyir:

– Yazıqdılar, istidən bağırları çatladı. Qoy bir az da özləri yeriyib sərinləsinlər.

Toyuqları elə qəfəsdən buraxcaq, hərəsi bir tərəfə qaçır. Molla onun dalınca, bunun dalınca yüyürürsə də, bir az da ürküdüb hamısını qaçırdır. Axırda əlinə bir yekə ağac alıb xoruzu salır qabağına ki:

– Gecə yarısı səhərin açıldığını bilərsən. Amma günün günorta çağı düz yol gedə bilməzsən.

## ULDUZ-MULDUZ QAYIRIRLAR

Bir gün Molladan soruşurlar ki:
– Molla təzə ay çıxandan sonra köhnə ayı neyləyirlər?
Molla deyir:
– Doğrayıb, ulduz-mulduz qayırırlar.

## KİŞİNİN SÖZÜ BİR OLAR

Dostlarından biri bir gün söhbət əsnasında Molladan soruşur:
– Molla, sənin neçə yaşın olar?
Molla deyir:
– Qırx tamamdı.

Bu işdən on-on beş il keçir. Bir gün bir məclisdə yenə də yaş üstündə söhbət düşür. Hərə öz yaşını deyir. Molla da tez aralığa atılıb deyir:

– Mənim bu il qırx yaşım tamam olur.
Mollanın haman dostu da burada imiş. Bu sözü eşidib deyir:
– Ay Molla, mən on il bundan qabaq eşitdim ki, sənin qırx yaşın var. İndi də deyirsən qırx yaşındasan, bu, necə olur?
Molla deyir:
Hə də... Bunun necəsi yoxdu ki, qırxdı də...
Dostu soruşur ki:
– Yaxşı, sən elə həmişə qırx yaşında olacaqsan?
Molla deyir:
– Əlbəttə. Kişinin sözü bir olar. Bir dəfə dedim qırx, qurtardı getdi.

## QANADLANMAMIŞ QUŞ BALASI

Bir gün Molla bir cib saatı tapır. İndiyə kimi heç saat görməmiş olduğu üçün qalır məəttəl ki, görəsən bu nədir? Diqqətlə baxıb görür ki, bu balaca bir şeydi, özü də yaman çıqqıldayır. Tez qaytanından ağacın budağına asır ki:

– Yəqin, hələ qanadlanmamış quş balasıdı. Qoy qanadlanıb, uçub getsin.

## ÇAXMAQ DAŞI

Gecələrin birində Molla Nəsrəddin baxır ki, qonşusu evlərinin dalındakı təpədə əlində çıraq gəzir. Molla həyətə çıxıb səsləyir ki:

– Ay filankəs, gecənin bu vaxtında əlində çıraq orada nə gəzirsən?

Qonşusu deyir:

– Arvad çaxmaq daşımı itirib, qalmışam papirossuz. Çaxmaq daşı axtarıram ki, çalam, papirosumu yandıram.

Molla Nəsrəddin deyir:

– Bəs əlindəki çıraqdan papirosunu yandıra bilmirsən?

Qonşu elə bil yuxudan ayılır. Deyir:

– Molla, bu mənim heç ağlıma gəlmirdi.

Molla deyir:

– Elə ağlımız o qədərdi ki, əlimizdə çıraq təpələrdən çaxmaq daşı axtarırıq da.

## NƏ YAMAN OLUBLAR

Bazar günlərinin birində, axşamüstü Molla şəhərdən kəndə gəlmək istəyir. Kəndlilərindən səkkiz nəfəri öz eşşəklərini ona tapşırırlar ki:

– Molla, bizim eşşəkləri də apar kəndə. Biz bu gecə şəhərdə qalmalı oluruq.

Molla sayıb görür ki, öz eşşəyi ilə bərabər doqquz eşşəkdir. Öz eşşəyinə minir, o biri eşşəkləri də qabağına salıb düzəlir yola. Yolun bir yarısında eşşəkləri sayıb gözdən keçirmək istəyir. Bir dəfə sayır, iki dəfə sayır. Baxır ki, eşşək səkkizdir. Qalır məəttəl ki, bəs bunun biri nə oldu? Çar-naçar, eşşəkdən düşüb başlayır itən eşşəyi axtarmağa. Nə qədər axtarırsa, tapa bilmir. Axırda yorulub otlayan eşşəklərin yanına qayıdır. Sayır, görür eşşək olub doqquz. Arxayınlayır, yenə də öz eşşəyinə minib düzəlir yola. Bir az gedəndən sonra bir də sayır. Görür yenə eşşək oldu səkkiz. Yenə düşür yerə, bir az o yana-bu yana baxandan sonra bir də sayır görür, yox, doqquzdur. Lap kəndə çata-çatda bir də sayır, görür səkkizdir. Acıqdan kişini ağlamaq tutur. Bu halda bir uşaq çıxır onun qabağına ki:

– Molla əmi, niyə ağlayırsan?

Molla deyir:

– Ay bala, doqquz eşşəyim var idi, indi biri itib, qalıb səkkiz.
Uşaq eşşəkləri sayıb deyir:
– Ay Molla əmi, doqquzdu ki...
Molla bir də sayıb deyir:
– Hanı, səkkizdir də...
Uşaq işi başa düşüb deyir:
– Molla əmi, bəs öz mindiyini saymırsan?..
Molla ancaq indi məsələni başa düşüb deyir:
– Ədə, bu zəmanə uşaqları nə yaman olublar ey...

## BU YOL İLƏ GEDƏRDİM

Yenə də bir gün Molla meşədə odun qırarkən əl-ayağının soyuduğunu görüb uzanır yerə. Bir neçə saatdan sonra çobanlar onu orada görüb, kəndə xəbər aparırlar. Camaat tabut-zad götürüb gəlir ki, Mollanın ölüsünü aparsın. Bəli, ədəb-ərkanla kişini tabuta qoyub götürürlər. Yolun bir yerində getdikləri yol iki yerə ayrılır. Adamların arasında mübahisə düşür. Bir neçəsi deyir: "O yol ilə gedək". Mübahisənin çox uzun sürdüyünü eşidən Molla Nəsrəddin tabutdan başını qaldırıb deyir:
– Mən diri vaxtımda həmişə bu yol ilə gedərdim.

## SONRA GƏTİRSİN

Bir gün Molla oğluna deyir:
– Oğul, yadında saxla. Həmişə anan xörəyi gətirəndən sonra qapını bağla.
Oğul deyir:
– Ata, yaxşı olmazmı ki, mən qapını bağlayandan sonra anam xörəyi gətirsin?

## BİLSƏ YAXŞIDIR

Mollanın oğlu bir gün atasına deyir:
– Ata, sən bir dəfə bir uşaq doğmuşdun ha... O mənim yadımdadı.

Arvad oğlunun sözünü eşidib, başlayır onu danlamağa. Molla arvada deyir:

Arvad niyə uşağı danlayırsan? Qoy bilsin də... Böyük uşaqdı. Hər şeyi bilsə yaxşıdı.

## SABAH GEDİRƏM KƏNDƏ

Günlərin birində Mollanın evinə tanımadığı bir qonaq gəlir. Bir az o yandan-bu yandan söhbət eliyəndən sonra Molla başa düşür ki, qonaq acdır. Ortalığa süfrə salır, çörək qoyur, gedir xörək gətirməyə. Molla xörəyi gətirincə qonaq çörəyi ötürür bala xəndəyə.

Molla gəlib görür ki, süfrədə bir həsir qalıb, bir Məmmədnəsir. Çörəkdən-zaddan əsər yoxdu. Bir söz deməyib, xörəyi qoyur süfrəyə, gedir çörək gətirməyə. Qayıdıb görür ki, indi də qonaq xörəyin dalından dəyib. Yenə Molla bir söz deməyib, əlindəki çörəyi süfrəyə qoyur, gedir xörək gətirməyə. Gəlib görür ki, çörək qurtarıb. Gedir çörək üçün, gəlib görür xörək yoxdur. Qərəz, bu gecə yazıq Molla mətbəxlə qonağın arasında bir cüt başmaq dağıdır, xörəklə çörəyi bir yerdə görə bilmir. Axırda bir təhərlə süfrəni yığışdırır. Gecə yatanda qonaqdan soruşur:

– Qonaq qardaş, səfərin haradır?

Qonaq deyir:

– Molla, mən əvvəlləri çox yaxşı yeyərdim. İndi bir-iki aydır ki, iştaham kəsilib. Eşitmişəm şəhərdə həkim var, gedirəm onun yanına. Sizin kənd çox xoşuma gəldi. Fikrim var qayıdanbaş bir-iki ay sənə qonaq olam.

Molla qonağın sözünü eşitcək tez deyir:

– Elə mənim də səndən yaman xoşum gəlir. Çox istərdim ki, qayıdanbaş bir-iki ay nədi ki, lap on-on beş ay bizdə qonaq qalasan. Ancaq heyf ki, sabah gedirəm sizin kəndə. Bir-iki ildən sonra gələcəyəm.

## TÜLKÜ OLMUŞAM

Bir qış gecəsində tülkü Mollanın toyuğunu aparır. Molla tülkünün dalınca nə qədər qaçırsa, toyuğu saldıra bilmir. Dönüb yavaş-yavaş iməkləyə-iməkləyə qonşunun hininə girib, toyuqlardan birini dişinə

alır, başlayır dörd ayaqlı qaçmağa. Toyuq çırpınıb qışqırır. Molla hinə girəndə, sən demə, qonşu da həyətdə imiş. Tez Mollanı tutur ki:

– Ay Molla, nə qayırırsan?

Molla heç halını pozmayıb deyir:

– Narahat olma, qonşu! Elə bir şey yoxdu. Tülkü olmuşam, toyuğumun əvəzini aparıram.

## AĞLAMAYIM, NƏ ELƏYİM?

Deyirlər ki, Mollanın bir yaxşı, südlü inəyi var imiş. Günlərin birində, necə olursa, inək azarlayıb ölür. Molla o qədər ağlayır ki, olur lap dəli-divanə. Qonşular baxırlar ki, bir ay bundan qabaq arvadı öləndə heç Molla bu qədər qəm-qüssə eləməmişdi. Amma indi inəyi ölüb deyə nə özünü bilir, nə sözünü. Axırda biri Molladan soruşur:

– Ay Molla, heç arvadının ölməyi sənə belə əsər eləmədi. Bu necə işdi?

Molla deyir:

– Arvadım öləndə kəndin hamısı yasa gəlib mənə dil-ağız eləyib, hərə bir cür təsəlli verirdi ki, "qorxma, sənə ondan da yaxşı arvad alarıq", mənim də dərdim azalırdı. Amma budu, iki gündü inəyim ölüb, bir nəfər gəlib demir ki: "qorxma, sənə ondan da yaxşı inək alarıq". Ağlamayım nə eləyim?

## YOXSA YUBANARIQ

Bir gün qonşuda ehsan var imiş. Molla ehsanda doyunca yeyir, qaranlıq düşəndən sonra da kəndlərinə gedən bir öküz arabasına minir ki, evlərinə getsin. Yaxşı yaz havası, Mollanın qarnı tox, arabanın içində arxası qatda uzanıb göyə baxırmış. Bir az ulduzlara baxıb arabaçıdan soruşur:

– Görəsən, bu gecə göydə nə var ki, ulduzların hamısı belə çıxıb.

Arabaçı zarafatla deyir:

– Deyəsən, ehsan verirlər.

Molla dik qalxıb oturur ki:

– Tez ol, öküzlərin başın döndər göyə, yoxsa yubanarıq.

## GÜZGÜ

Günlərin birində Molla toxluq eləyib azarlayır. Həkim baxıb deyir ki:

– Gərək birtəhər eləyəsən ki, yediyini qaytarasan, mədən yüngülləşə.

Molla deyir:

– Həkim, mənim üçün dünyada ən çətin şey odu.

Həkim cibindən balaca bir güzgü çıxarıb Mollaya verir ki:

– Burada heç bir çətinlik yoxdur. Görünür ki, sən heç ömründə bir dəfə də olsun güzgüyə baxmamısan. Al, bircə dəfə bax, elə bu sir-sifətini görən kimi ürəyin qalxacaq.

## NEYLƏYİRSİZ PALTARI?

Mollanın bir yaxşı qoçu var imiş. Lotular sözü bir yerə qoyub, bir-bir gəlirlər Mollanın yanına ki:

– Molla, sabah bu dünyanın axırıdı, hamımız ölüb gedəcəyik o dünyaya. Daha bu qoçu niyə saxlayırsan? Gəl bu axır günümüzdə qoçunu kəs, bizə bir kabab ver, yeyək. Molla əvvəlcə inanmır. Ancaq ikincisi gəlir, o da elə deyir, üçüncüsü gəlir, o da elə. Axırda Molla razı olub qoçu kəsir.

Bəli, Molla kabab bişirir, lotular da bir az kənarda, bir ağacın altında oturub gözləyirlər. Molla fikir verir, görür ki, lotular öz aralarında Mollanı aldatdıqlarını danışıb-gülürlər. Elə ki Molla işi başa düşür, arvadı çağırıb manqalın başında qoyur, özü gəlib qonaqların çuxalarını, başmaqlarını, qurşaqlarını, papaqlarını yığışdırır ki:

– Deyəsən, hava qarışır. Sonra yağış-zad yağar, qarışığa düşüb paltarlar qalar çöldə, islanar. Yaxşısı budur, aparım evə.

Qonaqlar heç bir şeydən şübhələnməyib, bir söz də demirlər. Molla yığışdırdığı şeylərin hamısını tez o biri qapıdan çıxardıb bazarda satdırır, puluna bir qoç aldırıb gətirir, bağlayır tövlədə əvvəlki qoçun yerinə.Qonaqlar kababı yeyəndən sonra Mollaya razılıq edib paltarlarını istəyirlər ki, geyinib getsinlər.Molla deyir:

– Balam, paltarlarınızın hamısı getdi o dünyaya. Nə qədər dedim ki, dayanın, sabah bir yerdə gedərik, dedilər: "Qoç ki bu gün getdi, gərək biz də bu gün gedək".

Qonaqlardan biri soruşur:
– Molla, bəs indi biz nə eləyək?
Molla deyir:
– Heç zad. Onsuz da sabah dünyanın axırıdır, daha neyləyirsiz paltarı?

## PLOV VERƏCƏKDİM

Bir gün Molla keyfinin kök çağında bir-iki dostunu tutur ki:
– Gedək bizə, sizə bir yaxşı plov verəcəyəm.
Hamısı bir yerdə gəlirlər Mollanın evinə. Molla qonaqları rahat edəndən sonra o biri evə girib arvada deyir:
– Arvad, qonağım var, bir yaxşı plov bişir.
Arvad deyir:
– Ay kişi, xəriflәmisən nədi? Hanı bizim yağımız, düyümüz ki, plov da bişirəm.
Molla evdə heç bir şey olmamağına pərt olub, arvada deyir:
– Arvad, ürəyini sıxma. Olanda bişirərsən. Mollanın belə pərt olmağına arvadın da ürəyi sıxılır. Ağlamsınaraq deyir:
– Yaxşı, bəs indi nə deyəcəksən?
Molla heç halını da pozmur. Əlini atıb plov qazanını yerdən götürür, qonaqların yanına gəlir ki:
– Dostlarım, kefinizi kök saxlayın. Əgər evimizdə yağ ilə düyü olsa idi, sizə, bax, bu qazan ilə bir plov verəcəkdim.

## MƏN OLANDA DA ONLAR OLMUR

Bir gün bir məclisdə xörəkdən söhbət düşür. Hərə öz sevdiyi xörək haqqında danışır. Bir tərəfdə əyləşən Molla da söhbətə qarışıb deyir:
– Dünyada ən yeməli xörək halvadı. Ancaq, zəmanənin üzü qara olsun, neçə vaxtdı elə ha əlləşirəm, bişitdirib yeyə bilmirəm.
Məclisdə olanlardan biri Mollanın sözünü eşidib deyir:
– Ay Molla, halva da bir çətin şey deyil ki... Bir az yağdı, bir az bal, bir az da un, çaldır ye də!.
Molla deyir:

– Dildə demək asandı. Ancaq unun, yağın, balın üçünü də bir yerdə görmək çox çətin şeydi. Yağ olanda un olmur, un olanda bal olmur...

Soruşurlar ki:

– Canım, niyə bu qədər vaxtda heç elə bir gün olmayıb ki, bu un, yağ, bal üçü də bir yığılsın?

Molla bir ah çəkib deyir:

– Mənim bəxtimə nə deyim? İş burasındadı ki, un, yağ, bal olanda da mən olmuram.

## GÜNDƏ GƏLİM

Yenə bir gün Molla bazarda möhkəm acır. Cibində də pulu olmur. Bir az fikirləşəndən sonra dümdüz gedib girir çilovçu dükanına ki:

– Bir çilov ver.

Aşpaz çilovu verir. Molla yeyib görür ki, doymadı. Çilov da çox dadlıdı. Aşpazı çağırıb deyir:

– Bir çilov da ver.

Aşpaz bir çilov da verir. Molla bunu da yeyib durur ayağa, yönəlir qapıya tərəf ki, getsin, aşpaz tutur yaxasından ki:

– Molla, pulunu vermədin?

Molla deyir:

– Pulum olsaydı verərdim də... Vermirəm, demək ki, yoxumdu. Daha bu qədər adamın yanında məni qızartmağın nə mənası var.

Aşpaz deyir, Molla deyir, axırda aşpaz görür ki, Molladan pul ala bilməyəcək, ona şax bir sillə vurur ki:

– Barı, qoy heç olmasa bir dəfə vurum, ürəyim soyusun.

Molla heç bir söz deməyib, dükandan çıxır. Bir-iki addım gedəndən sonra qayıdıb girir dükana, aşpaza yaxınlaşıb soruşur:

– Qardaş, olar ki, elə bu qiymətə mən gündə gəlim bura çilov yeyim?

## DÖYƏ-DÖYƏ YEDİRİRLƏR

Yenə də günlərin birində Molla şəhərdə bərk acır. Cibində də pulu olmur ki, bir şey alıb yesin. Elə bu fikirlə gəzirmiş ki, "nə eləyim, necə eləyim", yolu bir halvaçı dükanının qabağından düşür. Baxır ki, halvaçı

təzəcə halvanı tiyandan çıxarıb, salıb tabaqlara. Vallah, bir halvadı, bir halvadı ki, uzaqdan adama göz vurub "gəl-gəl" deyir.

Molla hərçi badə-bad deyib, girir dükana, bir tərəfdən döşənir halvanın üstünə. Dükançı nə qədər qışqırırsa, Molla fikir verməyib yeyir. Axırda dükançı başlayır Mollanı döyməyə. Bu da Mollaya əsər eləmir. Dükançı vurduqca Molla yeyir. Axır ki, əməlli-başlı doyandan sonra dükandan çıxır, üzünü dükançıya tutub deyir:

– Bu şəhərin dükançıları nə yaxşı adam imişlər. Halvanı adama döyə-döyə yedirirlər.

## FİKİRDƏN DƏ İY ÇƏKİRLƏR

Molla bir gün axşamüstü evdə arvadından soruşur:

– Arvad, yeməyə nəyin var?

Arvad: "Heç nə. Yavan çörəkdir" – deyib, Mollanın qabağına bir az yavan çörək qoyur. Molla bir ah çəkib deyir:

– Ax, indi bir qazan şorba olaydı, nə içərdim... Bu halda qapı açılır, qonşunun uşağı əlində bir qab girir içəri ki:

– Atam azarlıdır, deyir şorbalarından bir qab da mənə versinlər.

Molla əlini dizinə vurub deyir:

– Pah atonnan... Adamlar nə yaman həssas olurlar ey... Zalım uşaqları fikirdən də iy çəkirlər.

## KAŞ HƏR GÜN BAYRAM OLAYDI!..

Bir gün Mollanın qonşu kəndlərdən birinə yolu düşür. Baxır ki, hamı kənddə yeyir, içir, çalır, oynayır, bir kefdi ki, gəl görəsən. Molla özünü verir camaatın arasına. Baxır ki, yemək, içmək dizdəndir. Bir tərəfdən də Molla darışır plovun canına. Qarnını doyurandan sonra üzünü adamlardan birinə tutub deyir:

– Sizin kəndiniz nə yaxşı kənddir.

Bir nəfər onu başa salır ki:

– Bu gün bayramdır, Molla, yoxsa hər gün belə olmur.

Molla bir ah çəkib deyir:

– Kaş hər gün bayram olaydı!..

## ÖRDƏK ŞORBASI

Molla bir gün yol ilə gedirmiş. Baxır ki, yolun kənarındakı gölün içi doludu ördəklə. "Bəlkə bir-ikisini tutdum" – deyə cumur gölə. Ördəklər hamısı uçub gedirlər. Molla tez cibindən bir az çörək çıxardıb başlayır gölün suyuna batırıb yeməyə. Bunu görənlərdən biri soruşur:

– Molla, nuş olsun! Nə yeyirsən belə?

Molla deyir:

Ördək şorbası yeyirəm. Ancaq heyif ki, bir az soyuqdu.

## YUN ƏKƏCƏYƏM

Molla bir gün bir naşı dəlləyin əlinə düşür. Dəllək ülgüclə onun başını bir neçə yerdən kəsib yerinə pambıq yapışdırır. Mollanın gözü birdən aynaya sataşır, elə ki, başındakı pambıqları görür, dik qalxıb əmmaməsini qoyur başına, düzəlir yola. Dəllək deyir:

– Molla, hara belə? Hələ başının yarısı qalıb.

Molla deyir:

– Elə hamısına pambıq əkmək olmaz ki?.. Yarısına da özüm yun əkəcəyəm.

## HAQQ VAR Kİ?..

Bir gün bir məclisdə Molladan soruşurlar:

– Molla, haqq hardadır?

Molla deyir:

– Haqq var ki, yerini də deyim?..

## ÜÇ ƏLİM YOXDU Kİ...

Molla yaman ac olduğundan bir qonaqlıqda ikiəlli-ikiəlli, tez-tez yeyir. Süfrədə əyləşənlərdən biri Molladan soruşur:

– Molla, nə olub belə? Dalınca atlı qovalamır ki?.. İkiəlli niyə yeyirsən?

Molla əlini xörəkdən çəkməyib yeyə-yeyə deyir:

– Nə eləyim? Üç əlim yoxdu ki... İkicə əlim var, ikisi ilə də yeyirəm də...

## GÖZÜNÜN QABAĞINDA OLMALIDIR

Molla bir məclisdə ağzına bir parça saqqız alıb çeynəyirmiş. Ortalığa çörək gələndə saqqızı çıxardıb yapışdırır burnunun ucuna.Soruşurlar:

– Molla bu nədi? Saqqızı niyə burnuna yapışdırırsan?

Molla cavab verir ki:

– Kişinin malı gözünün qabağında olmalıdır.

## BAŞI ALTINDA OLMALIDIR

Günün birində Molla bazardan bir neçə gül ağacı alıb gətirir. Ancaq hər gün gülləri səhər tezdən əkib, qaranlıq düşəndə çıxardıb aparır evinə. Bir gün bunu görən dostlarından biri soruşur:

– Molla, bu necə işdi? Gülləri niyə belə eləyirsən?

Molla deyir:

– Atalar deyiblər ki, gecə kişinin malı başı altında olmalıdır.

## MOLLA BULAQDA

İsti yay günlərindən birində Molla uzaq bir yerdən gəlirmiş. Yolda bərk susayır. Axtarıb bir bulaq tapır. Baxır ki, bulağın gözünə bir daş tıxayıblar. Daşı çəkir ki, əyilib su içsin, su fışqırıb Mollanın üst-başını isladır. Molla daşı təzədən bulağın gözünə soxub deyir:

– Elə belə dəlisən ki, ağzını tıxayıblar da...

## APAR MƏNİ BASDIR

Molla bir gün çox vacib bir iş üçün başqa bir kəndə getməli olur. Gecədən hər şeyi hazırlayır ki, səhər tezdən çıxıb yolçulara çata bilsin. Bu işi bilən məhəllə cavanları zarafata salıb, hər necə olsa, onu bu səfərdən saxlamaq istəyirlər. Səhər obaşdan hamısı durub kəsirlər Mollanın yolunun üstünü. Molla evdən çıxıb bir balaca aralancaq, tuturlar yaxasından ki:

– Molla, hara belə?

Molla deyir:
– Vacib işim var, qonşu kəndə gedirəm.
Deyirlər:
– Heç bir yerə gedə bilməyəcəksən. Nahaq yerə zəhmət çəkmə!
Molla soruşur ki:
– Necə yəni gedə bilməyəcəyəm? Niyə gedə bilməyəcəyəm?
Deyirlər:
– Bəs sən bilmirsən ki, ölübsən?
Molla təşvişlə soruşur:
– Necə yəni ölmüşəm?
Deyirlər:
– Ölübsən də... Daha bunun necəsi yoxdu ki...
Molla nə qədər yalvarır ki:
– Əşi, zarafat eləməyin, vacib işim var, qoyun çıxım gedim, sora gecikərəm, yolçulardan ayrı düşərəm, yolda qurd-quş yeyər...
Cavanlar qulaq asmayıb, kişinin yaxasından əl çəkmirlər ki:
– Yox, Molla! Biz səni ölmüş halda buraxa bilmərik ki, yol gedəsən. Sən bizim həm mollamızsan, həm dostumuz. Biz gərək öz borcumuzu yerinə yetirib, səni bu saat yaxşıca-yaxşıca yuyaq, kəfənləyək, aparıb basdıraq.
Molla çox yalvarır, bunlar az eşidirlər. Çəkə-çəkə Mollanı gətirirlər məscidin həyətinə. Molla görür ki, daha ayrı əlac yoxdu. Fikirləşir ki, "bu qədər adam ki, deyir mən ölmüşəm, bunların elə hamısı dəli deyil ki... Yəqin kişilər bir şey bilirlər ki, deyirlər də... Yoxsa onlara nə düşüb ki, mənə yalan desinlər. Elə görünür ki, mən ölmüşəm, özümün xəbərim yoxdur". Səssiz, sakit dayanır. Cavanlar Mollanı qayda ilə soyundurub uzadırlar ölü taxtasının üstünə, başlayırlar yumağa. Bu halda Mollanın dostlarından biri məscidin qabağından keçirmiş, cavanlar onu tuturlar ki:
– Hara gedirsən? Molla ölüb. Aparıb basdırmaq lazımdır.
Mollanın dostu cavanların kələyini başa düşüb deyir:
– Buraxın, canım, çox vacib işim var, dayana bilməyəcəyəm.
Cavanlar buraxmırlar. Onlar deyir, bu deyir, mübahisənin çox uzun çəkdiyini görən Molla ölü taxtasının üstündən başını qaldırıb dostuna deyir:
– Balam, mənim işim səninkindən də vacib idi. Ancaq nə eləyim ki, qara əcəl gəlib kəsdi başımın üstünü, işim qaldı. Ayrı çarə yoxdu. Dayan apar məni basdır, işinin dalınca sonra gedərsən.

## BİR NƏRƏ DƏ MƏNİM ADIMA ÇƏK

Mollanın qonşuluğunda bir qoca sərkərdə yaşayırmış. Molla fikir verir ki, bu sərkərdə hər gün evə gələndə həyətdə bir dəfə nərə çəkir. Girir evə, bir də nərə çəkir. Molla bu işdən maraqlanır. Bir gün sərkərdənin qabağını kəsib bu nərələrin səbəbini ondan soruşur. Qoca sərkərdə qabaqca Mollanı aparır həyətdəki tövləsinə. Molla baxır ki, burada bir yaxşı at bağlanıb. Sərkərdə deyir:

– Filan davada düşmən bizim lap əhədimizi kəsmişdi. Az qalmışdı ki, bizi dörd tərəfdən ortalığa alsınlar. Gördüm iş yaxşı deyil. Mindim bu atın üstünə, hücum elədim düşmənə. Qoşun da mənim dalımca. Düşməni qovaladıq.

Sərkərdə bunu deyib, bərkdən bir nərə çəkir.

Molla deyir:

– Haqlı imişsən, qardaş! Elə nərə çəkməlidi.

Sərkərdə Mollanı aparır evə. Girirlər birinci otağa. Molla baxır ki, divardan bir əyri qılınc asılıb. Sərkərdə başlayır:

– Filan davada bu qılınc ilə bir düşmən əsgərinin başını bədənindən elə ayırdım ki, yerə bir damcı da qan düşmədi.

Bunu deyib sərkərdə bir nərə də çəkir. Molla deyir:

– Haqlı imişsən, qardaş! Çək nərəni!

Girirlər içəri otağa. Sərkərdə səslənir, gözəl bir arvad girir içəriyə. Sərkərdə üzünü Mollaya tutub deyir:

– Bu qız mənə bənd olub, atasını, anasını, hər şeyini atıb mənə gəlib.

Bunu deyib sərkərdə ucadan elə bir nərə çəkir ki, Molla dik atılır. Üzünü sərkərdəyə tutub deyir:

– Nərələrin üçündə də haqlısan. Ancaq çox xahiş eləyirəm ki, bundan sonra gündə bir nərə də mənim üçün çəkəsən. Çünki sənin bu nərələrindən mənim çox xoşum gəlir. Ancaq gündə üççə nərə az olur. Heç olmazsa dörd olsun ki, biz də bir az keyf çəkək.

## KÜSƏR Kİ, KÜSƏR

Molla iki nəfər yoldaşı ilə çöldə işləyirmiş. Arvadı bir az süd gətirir. Başlayırlar südə çörək doğrayıb yeməyə. Molla, bir də yoldaşlarından biri nə qədər doğrayırlarsa, üçüncü yoldaş gözləmədən yeyir.

Bir-iki dəfə deyirlər, kar salmır. Axırda Molla əlindəki çömçə ilə onun başına bir çəkir, kişi yıxılır. Molla baxır ki, kişi ölüb, çömçəni yerə tullayıb deyir:

– Nə doğrar, nə basar, nə də əlini süddən kəsər. Bircə çömçə də vurcaq bir dəfəlik küsər ki, küsər.

## ÜSTÜMƏ ÇƏKİM

Molla başqa bir kənddə olan tanışlarından birinin evinə qonaq gedir. Bir az gec olduğu üçün qonaq gələcəyindən xəbəri olmayan ev sahibi, axşam xörəyini yeyib, çay içirmiş. Mollanın belə gec gəlməyindən tox olduğunu zənn eləyib, ona bollu çay verir. Tünd, acı çay Mollanın ürəyini bir az da oyur.

Bəli, gecə yatmaq vaxtı gəlir. Mollaya yaxşı bir ipək yorğan-döşək salırlar. Molla baxır ki, balam, ev sahibi heç yemək haqqında danışmır. O da utanıb bir söz demir.

Yorğan-döşək salınıb qurtarandan sonra, Molla yavaşca soyunub girir yerinə. Ev sahibi Mollanı rahatlayandan sonra özü də yatmaq üçün o biri otağa getmək istəyir. Mollaya bir də baxıb deyir:

– Molla, yerin narahat olmadı ki?.. Döşəyin, yastığın yumşaqdımı?

– Yumşaq olmağına yumşaqdı, ancaq rahat deyil. Deyəsən, heç mən burada yuxulaya bilməyəcəyəm.

Ev sahibi təşvişə düşüb soruşur:

– Niyə?

Molla gülə-gülə deyir:

– Çünki mən yoxsul adamam. Belə ipək yorğan-döşəkdə yatmağa adət etməmişəm. Sizdə də ki, deyəsən heç bizim yorğan-döşəklərdən yoxdu. Elə xahiş eləyirəm mümkündüsə, mənə bir az çörək verəsən, kəsib bir parçasını yastıq əvəzinə başımın altına qoyum, bir parçasını da yorğan əvəzinə üstümə çəkim ki, bəlkə yuxuya gedə biləm.

## QARNIM CIRILSIN

Bir gün Mollanın kəndlilərindən ikisi bazardan gəlirmiş. Yolda bunlardan biri deyir:

– Ay Allah, əyər varsansa, mənə min dənə qoyun yetir.

İkinci də deyir:

– Ay Allah, varsansa, mənə də min dənə canavar ver, buraxım bunun qoyunlarını yesin.

Kəndlilərin sözləri çəp gəlir, savaşırlar. Bu halda Molla gəlib çatır. Mübahisənin səbəbini bildikdən sonra, bıçağını çıxardıb, eşşəyin üstündə evə apardığı doşab tuluğunu yırtıb doşabı yerə tökür ki:

– Əyər sizdə bircə zərrə ağıl varsa, qoy bu tuluq kimi mənim qarnım cırılsın.

## QİYMƏTƏ MİNSİN

Molladan hər kim nə istəsəymiş, bu cavabı alarmış ki:

– Sabah gəl apar!

Axırı bir gün qonşularından biri soruşur:

– Ay Molla, bu nə xasiyyətdi səndə?.. Bir şey istəyəndə niyə o günü verməyib sabaha qoyursan?

Molla deyir:

– Bala, o saat versəm, onun qiyməti, dəyəri düşər. Mən elə eləyirəm ki, şey qiymətə minsin.

## DADI BİRDİ

Molla bir dəfə eşşəyini üzüm ilə yükləyib aparırmış. Məhəllə uşaqları düşürlər dalına ki:

– Bizə də ver!

Molla baxır ki, əgər hər uşağa bir salxım versə evə bir şey getməyəcək. Əlinə bir salxım üzüm alıb gilələyir, hər uşağın ağzına bir gilə qoyur.

Uşaqlar deyirlər:

– Molla əmi, bəs niyə bircə gilə?.. Biz istəmirik. Çox ver!

Molla deyir:

– Ay bala, bu zəhrimarın hamısının dadı birdi. Bir gilə yedin, ya bir salxım yedin, ləzzəti elə odu ki var. Çox yesəniz qarnınız ağrıyar.

## MƏN DƏ MİNƏ BİLMƏDİM

Günlərin birində bir məclisdə at minməkdən söhbət düşür. Hər kəs öz məharətindən danışır. Axırda Molla da qarışır söhbətə ki:

– Bildir yazda mən filan kənddə idim. Filankəs bir at gətirdi kəndin meydanına. At bütün qışı tövlədə xama bağlanıb, yeyib harınlamışdı. Elə idi, elə idi ki, yernən-göynən əlləşirdi. Kəndin lap məşhur miniciləri yığışdılar, heç biri minə bilmədi. Elə kim yaxınlaşdısa, birini təpiklədi, birini şıllaqladı, birini burunladı, qərəz, bir adamı yaxına qoymadı. Baxdım, ədə, bunlar bacarmırlar. Yeridim irəli, qollarımı çırmadım, ətəyimi yığışdırdım, özümü toxudum ata. Cüt təpiyimi vurub yerə, atıldım belinə.

Bu halda haman gün orada olanlardan biri girir içəriyə. Molla onu görən kimi bir dayanır, sonra özünü itirməyib sözünü belə tamamlayır:

– Ancaq mən də minə bilmədim.

## LAP ƏLA OLAR!

Bir gün Mollanın könlünə yamanca halva düşür. Birbaş gəlir evə. Bir az yağdan, undan, doşabdan tapıb başlayır halva çalmağa. Lotular işi bilib, bir-birinin dalınca doluşurlar Mollanın evinə. Halva hazır olhaolda lotuların biri bir çömçə vurub deyir:

– Buna bir azca da duz qatsan, çox yaxşı olar.

İkinci lotu bir çöməçə vurub deyir:

– Bir azca soğanı da olsa lap qiyamət olar.

Üçüncü də bir çömçə vurub deyir:

– Bir balaca da sarımsağı olsa heç üstü olmaz.

Molla baxır ki, halva qurtarır, tez tavanı çəkir qabağına ki:

– Bu duzsuz, soğansız, sarımsaqsız, pis halvadan bir balaca da tavada bizim üçün qalsa, lap əla olar!

## HEÇ KƏSİN SÖZÜ OLA BİLMƏZ

Bir gün bərk qar yağır. Kənd adamları çayxanaya yığışıb soyuqdan şikayət edirlər. Qocalardan biri söhbətə qarışıb deyir:

– İş nə soyuqda deyil, nə qarda. Əslində insan çox nankor şeydi. Yayda istidən şikayət eləyib sərin arzular, qışda da soyuqdan şikayət eləyib isti arzular.

Bir kənarda oturan Molla deyir:

– Sən səhv eləyirsən. Yaxşı bahar havasına heç kəsin sözü ola bilməz.

## MOLLA VƏ AYI

Molla bir gün meşədə odun doğrayırmış; bir də görür ki, bir ayı başını salıb düz gəlir ona tərəf. Molla qorxudan özünü itirir. Əlləri başlayır əsməyə, nə qədər istəyir qaçsın, ayaqları hərəkət eləmir. Baxır ki, yox, ayı lap çatıb. Özünü bir təhər cəmləşdirib dırmaşır ağaca. Ayı da səssiz-səmirsiz gəlib dırmaşır həmin ağaca. Molla qalxdıqca ayı dı qalxır. Molla dırmaşır ağacın lap təpəsinə. Ayı da ağacın aralıq budaqlarından birində dayanıb başlayır armud yeməyə. Molla gözləyir ki, ayı doyub düşsün, sonra bu da düşsün. Ayı armudlardan birini Molla olan tərəfə tutub başlayır baxmağa. Qorxu içərisində olan Molla, elə zənn eləyir ki, ayı armudu ona təklif eləyir. Özünü itirib qışqırır:

– Sağ ol! Nuş canın olsun! Mən elə yemişcən varam!

Ayı bu gözləmədiyi səsdən diksinib ağacdan yıxılıb ölür. Molla düşüb onun dərisini soyur, çiyninə atıb gətirir kəndə. Deyirlər, sonralar ayının dərisini hamıya görsədib deyərmiş ki:

– Elə bircə həmlədə ayını boğub, diri-diri dərisini boğazından çıxartdım.

## YƏQİN BİR ŞEY VAR

Bir gün axşamüstü Molla məhəllədəki çayçı dükanına tərəf çıxır. Baxır ki, dükanın qabağı doludu adamla. Çay içən kim, qəlyan çəkən kim. Molla zarafat eləmək qəsdilə camaata yaxınlaşıb deyir:

– Yaxşı, bəs siz niyə getməyibsiniz?

Adamlardan biri soruşur:

– Haraya?

Molla deyir:

– Filankəsin evində ehsan var. Mən bu saat oradan gəlirəm, yaxşı plov verirlər.

Ehsan sözünü eşidənlər başlayırlar Mollanın nişan verdiyi tərəfə yüyürməyə. Ayağa qalxan yüyürür, ayağa qalxan yüyürür. Molla baxır ki, hamı qaçır, öz-özünə deyir:

– Ədə, birdən doğru olar ha... Bu camaat ki, belə yüyürür, yəqin bir şey var.

Bir az fikirləşib, özü də başlayır camaatın dalınca qaçmağa.

## BELƏ TAPARAM HA...

Yay günlərinin birində bir dəstə uşaq ayaqlarını sallayıb oturmuş imişlər. Birdən uşaqların biri çılpaq ayaqlara baxıb deyir:

– Dedim sizə ayaqlarımızı çaya sallamayaq. İndi hamısı qarışdı bir-birinə. Haradan tapacayıq ki, hansı hansımızındı?..

Bunu eşitcək uşaqların arasına vəlvələ düşür. Biri deyir: hanı mənim ayağım, o biri deyir: hanı mənim ayağım?..

Bu halda Molla da buradan keçirmiş. Uşaqların hay-küy saldığını görüb yaxınlaşır, işin nə yerdə olduğunu başa düşüb soruşur:

– Ayaqlarınızı tapa bilmirsiniz?

Deyirlər:

– Yox, qarışıq düşüb.

Molla deyir:

– Dayanın, mən bu saat taparam.

Bunu deyib, Molla əlinə bir çubuq alır, çılpaq ayaqların hərəsinə bir çubuq çəkir. Uşaqlar çubuğun ağrısından qışqırıb ayaqlarını sudan çəkir və durub qaçırlar. Molla gülə-gülə deyir:

– Bax, belə taparam ha... ayaqlarınızı.

## EŞŞƏYİ DƏ VAR İMİŞ

Günün birində Molla qonşu kəndlərdən birinə gedirmiş. Yol üstündə olan bostandan bir qarpız alır, kəsib yarısını yeyir, yarısını da yerə atıb öz-özünə deyir:

– Qoy görənlər desinlər ki, bu yoldan bəy keçib.

Bir az gedəndən sonra təzədən geri qayıdır, qarpızı götürüb deyir:

– Qoy desinlər bəyin yanında nökəri də var imiş, yarısını da o yeyib.

Bir qədər də gedəndən sonra təzədən peşmanlayıb geri qayıdır, qarpızın qabıqlarını da götürüb yeyir ki:

– Qoy desinlər bəyin eşşəyi də var imiş, qabıqları da eşşək yeyib.

## BAHARIN ORTA AYINDA

Birisi yenə də sataşmaq məqsədilə Molladan saatın neçə olduğunu soruşur. İşi başa düşən Molla ona cavab vermir. Həmin adam bir də təkrar soruşur:

– Molla, saatına bir bax, görək neçədi?

Molla deyir:

– Baxmışam, bir dənədi.

– Yox ey, belə onu demirəm. Ümumiyyətlə, saat neçədi?

Molla deyir:

– Nə bilim, ümumiyyətlə, saat neçədi? Dünya doludu saatla.

– A kişi, onu soruşmuram ey. Səndəki saat neçədi?

Molla deyir:

– Hə belə de, anlayaq da... Üç il bundan qabaq beş manata almışam. İndi neçəyə olar bilmirəm.

– Canım, axşama nə var?

Molla deyir:

– Yeməyə bizə gələcəksən?.. Yaxşı sarımsaq-qatığımız var.

– Əşi, sən nə qəribə adamsan? Söz-zad başa düşmürsən ki... İndi nə zamandayıq?

Molla deyir:

– Baharın orta ayında.

Kişi Mollanın ondan da hazırcavab olub, onun özünü doladığını görür, çıxıb gedir.

## MOLLANIN YORĞANI

Gecələrin birində Mollanın evinin qabağında dava düşür. Molla səsə yuxudan oyanır, yorğanı çiyninə salıb çıxır ki, görsün nə olub. Kimsə elə o saat yorğanı onun çiynindən götürür. Qaranlıq olduğu

üçün Molla yorğanı götürəni görmür. Ora yorğan, bura yorğan, bir də baxır ki, səs-səmir də kəsildi. Savaşanlar elə bil ki, Mollanı gözləyirmişlər. Küçədə heç kəs qalmadı. Molla soyuqdan titrəyə-titrəyə evə qayıdır. Arvadı soruşur:

– A kişi, dava nə üstündə idi?

Molla deyir:

– Başa düşmədim. Deyəsən, bizim yorğanın üstündə imiş. Yorğanı apardılar, dava da qurtardı.

## MƏN SAĞALDIM

Günlərin birində Molla bərk azarlayır. Qonum-qonşu, qohum-qardaş, eşidən-bilən, tanış-biliş, oğul-uşaq yığışıb gəlirlər Mollanı yoluxmağa. Ev dolur adamla. Bəli, hərə bir tərəfdə əyləşir. Di o yandan bu yandan söhbət başlanır. Çənələr o qədər qızışır ki, Molla tamam yaddan çıxır. Axırda Molla yorğan-döşəkdən qalxıb əyləşir, hıqqıldaya-hıqqıldaya deyir:

– Başınıza dönüm, daha mən sağaldım. Durun gedin evinizə, inşallah, ikinci dəfə azarlayanda gəlib söhbətinizin dalını davam elətdirərsiniz.

## GÖRÜN EV NECƏ OLAR

Günlərin birində Molla gücünü biləyinə yığıb bir ev tikdirmək istəyir. Tanışlar hərəsi gəlib öz məsləhətini deyir. Molla da heç kəsin ürəyini sındırmayıb hamının göstərişini qəbul eləyir. Ev tikilib qurtarır. Ortalığa elə qəribə bir şey çıxır ki, evdən başqa hər şeyə oxşayır. Ev hazır olandan sonra Molla təzə evdə bir qonaqlıq verib, həman adamların hamısını çağırır. Elə ki, hamı yığılır, Molla soruşur:

– Hə, necədi. Ev xoşunuza gəlirmi?

Hərə burnunu bir tərəfə çevirib, dodağını sallayır. Heç kəsin xoşuna gəlmədiyini görən Molla deyir:

– Bu, sizin istədiyiniz evdi ki, heç birinizin xoşuna gəlmədi. İndi bu dəfə siz qıfıllanın, mən öz ağlımla tikdirim, görün ev necə olar.

# O ÖLÇÜB GEDİR

Günlərin birində Molla küçəyə çıxıb görür ki, evlərinin qabağındakı meydanda bir dəstə adam yığışıb, yaman mübahisə eləyirlər. Adamlardan biri Mollanı görcək deyir:

– Dayanın. Nahaq yerə özünüzü yormayın. Heç biriniz bilməzsiniz. Gəlin Molladan soruşaq, o bilər.

Molladan soruşur:

– Molla, sən bir alim adamsan. De görək, bu dünyanın eni nə qədərdi, uzunu nə qədər?

Bu zaman təsadüfən küçə ilə bir cənazə aparırdılar. Molla cənazəni göstərib deyir:

– Bu sualı ondan soruşun. O, dünyanın enini də, uzununu da ölçüb gedir.

# QAZAN

Molla bir gün qonşusundan bir qazan alır. Bir neçə gündən sonra içinə bir balaca qazan da qoyub sahibinə qaytarır. Qonşu balaca qazanı görüb soruşur:

– Molla, bu nədi? Mən ki sənə bircə qazan vermişdim.

Molla gülə-gülə deyir:

– Balam, sən çox xoşbəxt adammışsan. Qazanın bu gecə doğub.

Kişi heç bir söz deməyib, sevinə-sevinə qazanları götürüb aparır. Bu işin üstündən bir müddət keçəndən sonra Molla həmən qonşusundan bir böyük putluq qazan istəyir. Birinci qazandan dişi şirəyə batmış qonşu çox böyük razılıqla qazanı gətirib verir. Bir gün, beş gün, bir ay... Molla qazanı qaytarmır. Axırda kişi gəlir Mollanın qapısına. Molla çıxır, bunu qapıda görcək, başlayır dil-ağız eləməyə:

– Bağışla, vallah, a qonşu. Sənin də yanında lap xəcalət oldum. Daha nə etmək olar? Çox da ürəyini sıxma. Dünyanınkı belədi. Ürəyini geniş tut. Allah əvəz versin.

Mollanın danışığından heç bir şey başa düşməyən qonşu soruşur:

– Molla, sən nə barədə danışırsan? Bu nə başsağlığıdı mənə verirsən? Mən qazan üçün gəlmişəm.

Molla dəsmalını çıxarıb gözlərini silir ki:

– Elə mən də rəhmətlik qazan barəsində danışıram də... Qonşu soruşur:

– Necə yəni rəhmətlik? Niyə, nə olub ki?

Molla deyir:

– Vallah, heç deməyə də dilim gəlmir. Qazanın bu gecə öldü.

Qonşu soruşur:

– Molla, bu nə sözdü? Heç qazan da ölərmi?

Molla deyir:

– Qonşu, heç keçən dəfə qazanın doğanda bu sualı vermirdin? Bəs niyə qazan doğanda inanırsan, öləndə inanmırsan? Doğan ölər də...

## BALTA QINI

Uşaqlar bir uzunboğaz çəkmə tapıb gətirirlər Mollanın yanına ki:

– Molla əmi bir qəribə şey tapmışıq, amma tanıya bilmirik ki, nə olan şeydi.

Sən bax gör bu nədi?

Molla çəkmənin bir o tərəfinə, bir bu tərəfinə diqqətlə baxıb deyir:

– Balalarım, bu, olsa-olsa, balta qını olacaq.

## BU SAAT TAPACAĞAM

Mollaya xəbər verirlər ki, qaynanasını su aparıb. Molla gəlib girir çaya, başlayır su yuxarı axtara-axtara getməyə. Görənlər soruşurlar ki:

– Ay Molla, bu necə axtarmaqdı? Cənazə su axan tərəfə gedər, ya yuxarı dırmaşar?

Molla deyir:

– Siz onu tanımırsınız. O elə bir tərs adam idi ki, hökmən yuxarı gedib. Sizin işiniz olmasın, mən bu saat onu tapacağam.

## ÇIXIB GETSİN

Mollanın bir körüyü var imiş. Həmişə ocaq yandıranda onunla yandırıb, sonra ağzını möhkəm-möhkəm bağlayıb divardakı mıxdan asarmış. Soruşanda ki, "Niyə ağzını bağlayırsan?" – deyərmiş:

– İçində bir aləm hava var, açıq qoyum çıxıb getsin?

## MƏN NƏ BİLİM?

Mollanın hər gün gedib-gəldiyi yolun üstündə böyük bir bina varmış. Binanın qabağından küçə keçirmiş. Küçənin o biri tərəfi isə böyük bir göl imiş. Binanın pəncərələri haman gölə baxırmış. Günlərin birində Molla həmin binanın qabağından keçirmiş. Yoldaşı birdən qışqırır ki:

– Molla, balıqlara bax ha!.. Gör nə tullanırlar?..

Molla tez dönüb binaya baxır. Heç bir şey görə bilməyib soruşur:

– Hanı? Mən görmürəm.

Yoldaşı deyir:

– Hara baxırsan? Binada da balıq olar?

Molla soruşur:

– Bəs hara baxım?

Yoldaşı deyir:

– Gölə

Molla deyir:

– Adam söz deyəndə göstərər də. Mən nə bilim ki, gölə baxmaq lazımdı?

Mən dedim bəs balıqlar pəncərədən tullanırlar.

## DAHA NƏ AXTARIM?

Bir məclisdə Mollanın əlinə güclə bir tar verirlər ki, gərək çalasan. Molla heç halını pozmadan tarı sinəsinə basıb, başlayır dınqıldatmağa. Ancaq bir əlilə tarı dınqıldadır, o biri əlinin barmaqlarını isə tarın pərdəsinin üstünə qoyub tərpətmir. Ona görə də heç bir şey çıxmır. Axırda adamlardan biri deyir:

– Ay Molla, tarı belə çalmazlar. Gərək o biri əlinin barmaqları ilə pərdələrin üstündə gəzəsən ki, hava çıxsın.

Molla deyir:

– Onu tar çalmağı bacarmayanlar elə pərdəni tapmaq üçün barmaqları ilə axtarırlar. Mən tarı əlimə alcaq istədiyim pərdəni tapmışam. Daha nə axtarım?

## ON MANATA ALMIŞAM

Molla bir gün özünə bir təzə əba alır. Çiyninə salıb çıxır bazara. Bir nəfər tanış rast gəlib soruşur:

– Molla əmi, əbanı neçiyə alıbsan?

Molla deyir:

– On manata.

– İki-üç addım getməmiş ikinci bir adam qabağına çıxıb, əbanı görcək soruşur:

– Molla əmi, əbanı neçiyə alıbsan?

Molla buna da deyir:

– On manata.

Di üçüncü, dördüncü, beşinci... Mollanı lap boğaza yığırlar. Axırı kişi təngə gəlib qayıdır evə, soyunur, tir-tab uzanıb özünü vurur ölüyə. Arvad haray-dad salır ki, Molla ölüb. Eşidən, bilən yığışır Mollanın evinin qabağına. Elə ki bütün camaat yığışır, Molla yerindən qalxıb dırmaşır dama, bütün gücünü yığıb, uca səslə qışqırır:

– Ay camaat, eşidin, bilin, əbanı on manata almışam ey... On manata!

## QORXURAM AZAM

Bir gün biri Molladan soruşur:

– Molla, sən bilərsən, görəsən göydə nə qədər ulduz var?

Molla bir az fikirləşib deyir:

– Vallah, ay filankəs, elə mən özüm də çoxdan bu fikirdəyəm ki, bu şoğəribləri sayam, görəm nə qədərdilər? Ancaq dərd budu ki, yerdən saymaq olmur, gərək çıxam göydən sayam, onun üçün də gündüzləri vaxtım olmur gedəm, gecələr də qorxuram göydə işıq tapılmaya, düşəm qaranlığa, azam.

## GÜNDÜZ YEYƏRLƏR

Günlərin birində Mollanın evinə bir qonaq gəlir. Gecə yeyib-içəndən sonra yatmaq üçün yerləri salanda, qonaq evin tavanından asılan üzümlərə baxıb deyir:

– Bizim ellər, bizim ellər.
Yatanda üzüm yeyərlər.

Molla qonağın fikrindən keçəni duyub yorğanı düzəldə-düzəldə şikəstə ilə oxuyur:

– Bizdə elə adət yoxdur,
Saxlayıb gündüz yeyərlər.

## QOZ DA ÖLÜMDƏN QAÇIR

Molla bir gün qoz sındırırmış. Qozun biri daşın altından qaçıb itir. Molla nə qədər axtarırsa tapa bilmir. Axırda deyir:

– Dünyanın işinə bax ha!.. Demək ki, təkcə insan deyil, qoz da ölümdən qaçırmış.

## ÖYRƏNƏRƏM

Hələ uşaq vaxtlarından anası Mollanı qaytan toxumaq sənətinə qoyur. Molla iki il tamam gedib-gəlir, amma heç bir şey öyrənə bilmir. Bir gün anası iş üstünə gedir ki, görsün oğlu bir şey öyrənib ya yox. Oğlundan soruşur:

– Oğul, öyrənibsənmi?

Nəsrəddin deyir:

– Öyrənmişəm.

Anası sevincək soruşur:

– Nə öyrənmisən?

Nəsrəddin deyir:

– Öyrənmişəm ki, qaytanı ipək sapdan toxuyarlar.

Anası deyir:

– Elə bu?..

Nəsrəddin deyir:

– Daha nə qalıb ki?.. Fikir eləmə! Qalan-qulanını da bir-iki günə öyrənərəm.

## MÖHLƏT VERƏRƏM

Bir gün qonşusu Mollanın yanına gəlib deyir:
– Molla, səndən iki xahişim var.
Molla deyir:
– Buyur görək nədi?
Qonşu deyir:
– Birincisi odu ki, mənə yüz manat borc ver! İkincisi də odu ki, bu borcu qaytarmaq üçün mənə beş ay möhlət ver!
Molla deyir:
– Birinci xahişini yerinə yetirə bilməyəcəyəm, ondan gözünü çək! İkinci xahişin isə gözüm üstə! İstəyirsən lap beş ay yox, beş il sənə möhlət verim.

## XAM BÜLBÜL

Molla bir gün bağların birinə girib bir ağaca çıxır. Meyvədən yeməyə başlayır. Bir də baxır ki, bağ yiyəsi gəlir. Molla düşüb qaçmaq istəyir. Görür yox, bağ yiyəsi yaxınlaşıb. Əgər düşsə, tutulacaq, ondan sonra gəl kötəyə dayan, görüm necə dayanacaqsan? Hərçi badə-bad deyib oturur budağın üstə, başlayır gözləməyə. Sən demə, bağ sahibi onu uzaqdan görübmüş. Düz gəlir ağacın dibinə ki:
– Ağacda nə qayırırsan a Molla?
Molla deyir:
– Qəribə adamsan ha... Görmürsən ki, bülbüləm, oxuyuram.
Bağ sahibi deyir:
– Bir oxu görüm, necə oxuyursan?
Molla əlacsız qalıb başlayır oxumağa. Bağ yiyəsi bir az qulaq asandan sonra deyir:
– Bəli. Bağ yiyəsinin qorxusundan ürəyi tıppıldayan xam bülbül belə oxuyar.

## İSTİ OLAR

Varlılardan biri yaylaqda bir otaq tikdirir. Otağa bir neçə qapı, beş-altı da pəncərə qoydurur. Hazır olduqdan sonra böyük bir qonaqlıq verir. Mollanı da dəvət edir. Söhbət əsnasında Molladan soruşurlar ki:

– Necədi Molla? Otaq xoşuna gəlirmi?
Molla deyir:
– Gəlir. Yaxşı qış otağıdı.
Soruşurlar ki:
– Molla, bəs niyə qış otağı?
Molla deyir:
– Görmürsünüz nə qədər qapı-pəncərə qoydurub?.. Bu, nahaq yerə deyil ki... Qəsdən belə eləyib ki, isti olsun da...
Soruşurlar ki:
– Niyə, qapı-pəncərəsi çox olan otaq isti olar?
Molla deyir:
– Əlbəttə, isti olar. Bizim otağın bircə qapısı, bircə dənə də pəncərəsi var. Qışda ki ikisini də möhkəm-möhkəm örtürük, ev olur hamam kimi. İndi siz bir fikirləşin, görün, bunun bütün qapı-pəncərələrinin hamısı birdən örtülsə, necə isti olar?

## DOQQUZ OLSUN, VER!

Molla bir gecə yuxuda görür ki, bir nəfər gəlib ona deyir:
– Molla, mənim rəhmətlik atam sənin rəhmətlik atana on manat borclu idi. Kişi öləndə vəsiyyət eləmişdi ki, gətirib pulu sənə verəm. Ancaq çox yoxsul olduğuma görə indiyə kimi gətirə bilməmişəm. Əvvəla, məni bağışla, ikinci də, vallah, nə qədər əlləşdim on manat düzəldə bilmədim. Vur-tut doqquz manat düzəldə bilmişəm. Gərək qəbul eləyib, atama halallıq verəsən.
Molla hirslənir ki:
– Əşi, yekə kişisən... Sən heç düz adama oxşamırsan. Hələ pulu indiyə kimi yubatmısan, bəs deyil, bir manat da əskik gətirmisən? Heç elə də şey olar?..
Kişi başlayır yalvarmağa ki:
– Molla, sən gəl doqquz manatı qəbul elə, halallığını ver!
Molla deyir:
– Sən ölməsən, heç on manatdan bir qəpik də əskik olmaz. Halal eləmərəm.
Kişi nə qədər yalvarırsa, Molla qəbul eləməyib deyir:
– Yox, gərək düz on manat ola.
Bu halda Molla yuxudan oyanır. Baxır ki, əlində bir qəpik də yoxdur. Tez gözünü yumub deyir:
– A kişi, eybi yoxdu, doqquz manat olsun, ver!..

## BİR ŞAHI ƏSKİK VERƏRSİNİZ DƏ...

Molla qonşu kəndlərdən birinə gedirmiş. Yolda bir çaydan keçməli olur. Çayın qırağında soyunmaq istəyəndə bir də baxır ki, budu, on nəfər kor gəlir. Korlar Molladan xahiş eləyirlər ki, onları da çayın o tərəfinə keçirsin. Molla hər kordan bir şahı almaq şərtilə razılıq verir. Korlardan doqquzunu keçirir, onuncusunu keçirəndə çayın ortasında su koru bunun əlindən alıb aparır. İşi başa düşən korlar çığır-bağır salırlar. Molla işi belə görüb deyir:

– Niyə çığır-bağır eləyirsiniz? Bir şahı əskik verərsiniz də...

## BARDAQ ÇIXSIN, TUTUM

Günün birində Molla su doldurduğu yerdə bardaq əlindən düşüb suya batır. Molla bir daşın üstündə əyləşib başlayır gözləməyə. Keçənlərdən biri soruşur:

– Molla, nə gözləyirsən?

Molla deyir:

– Gözləyirəm bardaq sudan çıxsın, tutum.

## BİR YAŞDAYIQ

Bir gün Molladan soruşurlar ki:

– Molla, sən böyüksən, yoxsa qardaşın?

Molla deyir:

– Vallah, keçən il atam deyirdi ki, o məndən bir yaş böyükdü. O hesabla gərək indi bir yaşda olaq.

## ONDAN DA BƏRK QAÇARDI

Mollanın iki buzovu var imiş. Buzovların ikisinin də burunlarının yellənmiş vaxtı olduğu üçün, qaçmasınlar deyə, Molla onların hər ikisini möhkəm-möhkəm bir ağaca bağlamış imiş. Bir dəfə, necə olursa, buzovlardan biri ipini qırıb qaçır. Molla tez bir ağac götürüb düşür ikinci buzovun üstünə, vur ki vurasan. Qonşulardan biri soruşur:

– Ay Molla, o yazıq nə günahın sahibidi? Qaçana əlin çatmır, qalanı niyə döyürsən?

Molla deyir:

– Siz bunu tanımırsınız. Bilmirsiniz bu nə haramzadadı. Bu heç ondan geri qalan deyil. Yəqin bilin, əgər bu qırılsa idi, ondan da bərk qaçardı.

## NƏ BİLDİN NƏ YAZMIŞAM?

Molla bir gün dostlarından birinə məktub yazırmış. Bir nəfər də onun yanında durub, o yazdıqca altdan-altdan yazdıqlarını oxuyurmuş. Molla axırda təngə gəlib məktubda yazır ki:

– Əziz dostum! Sənə çox şeylər yazacaqdım. Ancaq bu saat yanımda bir ədəbsizin biri dayanıb, hər nə yazıramsa, oxuyur.

Kişi bunu da oxuyub hirslənir ki:

– Bu nədi? Sənin nə haqqın var məni ədəbsiz adlandırırsan?

Molla deyir:

– Çünki başqasının məktubunu oxuyursan.

Kişi deyir:

– Mən nə zaman sənin məktubunu oxudum?

Molla deyir:

– İndi ki oxumursan, nə bildin mən sənin haqqında ora nə yazmışam?

## QAZANCINIZ ARTIQ OLSUN

Günlərin birində Molla balıqçıların tor çəkmələrinə tamaşa eləyirmiş. Birdən ayağı sürüşüb suya yıxılır. Balıqçılar toru buraxıb tez onun harayına gəlirlər. Balıqçılardan biri zarafatla soruşur:

– Molla, suyun içində nə qayırırsan?

Molla deyir:

– Suda nə qayırırlar? Gördüm tutduğunuz balıqların içində naqqa balıq yoxdu, dedim qoy mən də olum naqqa balıq, düşüm tora, bəlkə qazancınız artıq olsun.

## Nə də cümə günü olsun

Molla bir boyaxana dükanı açıb boyaqçılıq eləməyə başlayır. Günlərin birində bunun dükanına bir adam gəlib bir paltarlıq gətirir ki:

– Molla, bunu bir yaxşı boyarsan.

Molla deyir:

– Baş üstə! Hansı rənglə boyuyum?

Müştəri deyir:

– Elə rənglə boya ki, dünyada olan rənglərdən olmasın.

Molla soruşur:

– Necə yəni dünyada olan rənglərdən olmasın

Müştəri deyir:

– Yəni nə qırmızı olsun, nə qara olsun, nə göy olsun, nə sarı olsun, nə yaşıl olsun, nə də ki ağ olsun.

Molla baxır ki, müştəri bunu ələ salıb. Deyir:

– Çox gözəl. Boyayaram, özü də lap sənin kefin istəyən kimi.

Müştəri görür ki, deyəsən kələk baş tutub, sevincək soruşur:

– Yaxşı, nə vaxt gəlib aparım?

Molla deyir:

– Elə gün gəl ki, nə şənbə olsun, nə bazar olsun, nə bazar ertəsi olsun. Nə tək olsun, nə çərşənbə olsun, nə cümə axşamı olsun, nə də cümə günü olsun.

## Demədim ki, sarsağam

Molla bir gün dəyirmana dən aparır. Baxır ki, dən çoxdur, növbədə durub gözləyir. Hərdən bir də göz-gözə vurub o biri çuvallardan taxıl götürüb öz çuvalının başına tökür. Dəyirmançı Mollanın işini başa düşüb soruşur:

– Molla, nə eləyirsən?

Molla görür ki, işin üstü açılıb, özünü avamlığa vurub deyir:

– Sən mənə çox da fikir vermə. Mən elə, bir az dəli təhərəm.

Dəyirmançı deyir:

– Yaxşı, əgər dəlisənsə, öz taxılından özgənin çuvalına niyə tökmürsən?

Molla deyir:

– Mən sənə dedim dəliyəm, demədim ki sarsağam.

## QOHUMLUĞUN VAR İMİŞ

Günlərin birində Molla qəbiristana gedir. Baxır ki, qəbirlərdən birinin üstündə bir it oturub. Molla iti qovmaq istəyir. İt cumur Mollanın üstünə. Molla tez əlindəki daşı yerə atıb deyir:

– Yaxşı, yaxşı bilmədik ki, bu qəbr sahibi ilə yaxın qohumluğun var imiş.

## YAXŞI, YAXŞI... BİLMƏDİK

Molla bir gün qəbiristanda bir qoca it görür. Arxayın olur ki, qapa bilməyəcək, ona görə də əlinə bir ağac parçası alıb, yüyürür itin üstünə. İt Mollanı əliağaclı görcək yerindən qalxır, dişlərini qıcadaraq mırıldamağa başlayır. Molla işi belə görəndə tez əlindəki ağac parçasını atıb deyir:

– Yaxşı, yaxşı... Daha dişlərini qıcama! Bilmədik ki, səninlə zarafat eləmək olmazmış.

## KEÇ GÜNAHIMDAN

Molla bazarda bir dəstə adama rast gəlir. Baxır ki, ortalığa yağ-bal qoyub, çox iştaha ilə yeyirlər. Yaxınlaşıb deyir:

– Salam əleyküm, ay paxıl görməmişlər!..

Adamlardan biri deyir:

– Molla, bu nə sözdü? Biz paxıl deyilik. Çox səxavətli, çox da gözü-könlü tox adamlarıq.

Molla tez yağ-balı öz qabağına çəkib, başlayır yeməyə ki:

– Görürsən, ay Allah, mən nə böyük səhv eyləmişəm? Bunlar, doğrudan da, səxavətli adamlar imişlər. Keç mənim günahımdan.

## HƏLƏ HEÇ KƏSƏ DEMƏMİŞƏM

Bir gün Molla küçədə dostlarından birinə rast gəlib deyir:

– Muştuluğumu ver, bir uşağım oldu.

Dostu çox sevinib deyir:

– Gözün aydın olsun! Gözümüz aydın olsun! Yaxşı oğlandımı?
Molla deyir:
– Yox, oğlan deyil.
Dostu deyir:
– Onda demək qızdı.
Molla təəccüblə soruşur:
– Haradan bildin qızdı? Mən ki, hələ heç kəsə deməmişəm.

## MƏNİM BOYNUMA

Bir gün yaz vaxtı Molla bir neçə yoldaşı ilə birlikdə kəndlərin birinə gəzməyə gedir Baxır ki, sərin bulaqlar, yaşıl təpələr, axar sular, bir sözlə, gül-gülü çağırır, bülbül-bülbülü. Bir baxan deyir bir də baxım. Yoldaşlar bu qərara gəlirlər ki, bir həftə burada qalıb keyfə baxsınlar. Hərə boynuna bir şey götürür. Biri deyir:
– Bu bir həftənin çörəyi mənim boynuma.
Bir başqası deyir:
– Əti də mənim boynuma.
Üçüncüsü deyir:
– Şirniyyatı da mənim boynuma.
Qərəz, bu növ ilə bölüşürlər. Növbə çatır Mollaya. Hamı baxır onun üzünə ki, görək bu, öz boynuna nə götürəcək. Molla bir ah çəkib deyir:
– Sizin bu qonaqlığınız bir həftə deyil, lap bir il də çəksə, sizdən ayrılsam, dünyada nə qədər pis ad var, hamısı mənim boynuma.

## DOYUNCA YATMIŞAM

İsti yay günlərinin birində Molla bir kəndə gedib tanışlarından birinin evinə düşür. Ev sahibi Molladan soruşur:
– Molla, yolda yəqin istiyə düşübsən. Nə deyirsən? Su verim içəsən, ya yatırsan?
Molla baxır ki, ev sahibi çörək haqqında heç danışmır. Oturub deyir:
– Gələndə yolda bulaq başında doyunca yatmışam.

## APARA BİLMƏYƏCƏK

Mollanın yaxın dostlarından biri kənddən ona qonaq gəlir. Həyətə gircək, başlayır eşşəyi döyməyə ki:

– Çor dəysin sənə! Hər nə yüklədimsə gətirmədin. Məni əziz dostumun yanında xəcalət elədin.

Molla deyir:

– Döymə! Onsuz da kənddən bizə heç bir şey gətirmədiyi kimi, bizdən də kəndə heç bir şey apara bilməyəcək.

## NƏ O YAN, NƏ DƏ BU YAN!

Günlərin birində Molla meşədə bir dovşan tutur. Çox fikirləşir ki, görəsən bu nə heyvandır, tapa bilmir. Axırda dovşanı torbaya salıb ağzını möhkəm-möhkəm bağlayır, götürüb gəlir evə. Arvad soruşur:

– A kişi, bu nədir?

Molla deyir:

– Arvad, bu bir heyvandır. Qulaqları var, bax, belə... gözləri, bax, belə-belə... Özü də ki... demə görməmişəm, bu boyda... Heç bizim vilayətin heyvanlarına oxşamır. Deyəsən, o tərəflərdən gəlib. Sən dayan burda, mən gedim adam çağırım, bəlkə tanıyan oldu. Amma torbanın ağzını açma ha...

Molla gedəndən sonra arvad nə qədər çalışırsa, özünü saxlaya bilmir. Axırda torbanın ağzını açır ki, görsün bu, necə heyvandı? Dovşan sıçrayıb qaçır. Arvad qalır məəttəl ki, nə eləsin. Elə bu vaxt baxır ki, Mollanın səsi gəlir. Daha bir şey tapa bilmir, götürüb həmişə içində eşşəyə arpa verdikləri qutunu salır torbaya, ağzını da bərk-bərk bağlayır. Molla adamlarla girir içəriyə. Sən demə, Molla elə küçəyə çıxanda şəhərin mötəbər adamları da qonaqlıqdan gəlirmişlər. Molla bu əcaib heyvan haqqında onlara danışır, onlar da çox maraqlanıb, baxmaq üçün qoşulub Mollaya gəlirlər. Qərəz, Molla adamları torbanın ətrafına düzüb deyir:

– Sıx durun! Yoxsa qaçar.

Sonra torbanı götürür, ağzını açıb başı aşağı silkələyir. Hamısı dörd gözlə gözləyirlər ki, görsünlər torbadan necə heyvan çıxacaq. Birdən tappıltı ilə arpa qutusu düşür yerə.

Molla başa düşür ki, arvad dovşanı qaçırdıb. Daha üzə vurmayıb deyir:

– Sizin əziz canınız üçün, bunu on dəfə arpa ilə dolduranda düz bir pud eləyir. Nə o yan, nə də bu yan!

## RAHAT-RAHAT ÇIXSINLAR

Bir gün Molla meşədə odun qırırmış. Canavarlar onun eşşəyini aralığa salıb yeyirlər. Molla bir də baxır ki, eşşəkdən bircə sür-sümük qalıb. Bu halda yol ilə gedən bir nəfər canavarların dağ yuxarı çıxdığını görüb qışqırır:

– Molla, qoyma canavarlar qaçır. Odu ey... dağa çıxırlar.

Molla deyir:

– Qışqırma, canım, tox canavara başyuxarı niyə əziyyət verirsən! Qoymazsan heyvanlar rahat-rahat çıxsın...

## GÖR NƏ GEDİR...

Günlərin birində Molla yük gəmiləri təmir olunan yerə gedir. Fəhlələrdən birinə yan alıb soruşur ki:

– Siz bu odu yandırıb gəmiyə nə edirsiniz ki, gəmi belə yeyin gedir?

Fəhlə deyir:

– Altında çör-çöp yandırıb sumala sürtürük, ona görə gedir.

Molla evə gəlib eşşəyin ayaqlarını bağlayır, altına bir az çör-çöp yığıb od vurur. Yazıq eşşək odun gücündən ipi qırıb götürülür. Molla daldan baxıb deyir.

– Ay gözünə dönüm! Sumalasız, neftsiz gör nə gedir...

## QAÇ GÖLƏ TƏRƏF

Molla bir gün eşşəyi küləşlə yükləyib evə gətirirmiş. Yolda öz-özünə fikirləşir ki, görəsən küləş eşşəyin dalında yanarmı?.. Bir az fikirləşəndən sonra spiçkanı çəkib vurur küləşə. Küləş od tutur. Eşşək soncuqluyub götürülür. Molla görür iş xarabdır, düşür eşşəyin dalınca. Bir tərəfdən Molla qovalayır, bir tərəfdən də ki, palan od tutub yanır,

yazıq eşşək anqıra-anqıra götürülüb qaçır. Molla qışqıra-qışqıra onun dalınca yüyürür. Axırda Mollanın nəfəsi tutulur, görür ki, daha iş-işdən keçib, eşşəyə çata bilməyəcək, çatsa da bir şey eləmək mümkün deyil, qışqırıb deyir:

– Mənim ağlım olmadı səni saldım bəlaya, sənin ağlın olsun, barı birbaş qaç gir gölə!

## UŞAQLARIM YETİM QALMIŞDI

Günlərin birində Mollanın eşşəyi itir. Molla şəhərə düşüb "ay eşşək görən, ağbatı xeyir olan" deyib car çəkir. Amma car çəkib axtara-axtara bir tərəfdən də şükür eləyir. Görənlər soruşurlar:

– Ay Molla, eşşəyin itib, daha şükür niyə eləyirsən?

Molla deyir:

– Şükür eləyirəm ki, nə yaxşı eşşək itəndə mən onun üstündə deyilmişəm. Yoxsa indi mən də itmişdim, uşaqlarım yetim qalmışdı.

## BAYATIYA, AĞIYA BAX!

Yenə də bir Molla eşşəyini itirir. Həm axtarır, həm də şikəstə deyib oxuyur. Görənlər soruşurlar:

– Ay Molla, eşşəyi itən də oxuyarmı?

Molla deyir:

– Hələ tapmağa ümidim var, odur ki, şikəstə deyirəm. Elə ki axtarıb qurtardım, tapmaqdan əlim üzüldü, onda sən gəl məndəki bayatıya, ağıya bax!

## TAPMAĞIN LƏZZƏTİNİ AZ BİLİRSİNİZ?

Mollanın eşşəyi itir, o, car çəkərək deyir:

– Ay mənim gözü xallı eşşəyimi görən, ağbatı xeyir olan!.. Kim tapsa, üstünə də bir zəhmət haqqı qoyub bağışlayacağam ona.

Eşidənlər Molladan soruşurlar:

– İndi ki bağışlayacaqsan tapana, daha niyə zəhmət çəkib axtarırsan?

Molla deyir:

– Siz tapmağın ləzzətini az bilirsiniz?

## GƏRƏK BİR ADAM ALA

Mollanın eşşəyi itir. And içir ki, eşşəyi tapsam bircə manata satacağam, ürəyim soyusun. Bir-iki gündən sonra eşşək tapılır. Mollanın and içdiyini bilən lotular kəsirlər onun yolunun üstünü ki:

